YOL – İQTİSADİYYAT, MƏDƏNİYYƏT, BİR SÖZLƏ, HƏYAT DEMƏKDİR.
Heydər ƏLİYEV

# Nəqliyyat hüququ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:

**Zaur ƏLİYEV** – *Redaksiya Şurasının sədri, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin Sədrinin birinci müavini;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq elmləri doktoru;*

**Vasiliy FELİK** – *Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin rektoru, professor, hüquq elmləri doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq elmləri doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq elmləri doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq elmləri doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq elmləri doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Hüquq" kafedrasının müdiri, professor, hüquq elmləri doktoru;*

**Arif QULİYEV** – *Kiyev Əqli Mülkiyyət və Hüquq Institutu, akademik, hüquq elmləri doktoru;*

**Yaroslav LAZUR** – *Ujqorod Milli Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq elmləri doktoru;*

**Yelena BAQREYEVA** – *Rusiya Federasiyası Hökumətinin yanında Maliyyə Universiteti, professor, hüquq elmləri doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi jurnalın baş redaktoru, professor, hüquq elmləri doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq elmləri doktoru.*

№1(52)

2004-cü ilin dekabr ayından çıxır.

## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

**Elmi redaktor** – ***MƏMMƏDOV R.F.*** – Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

**Elmi məsləhətçi** – ***MƏMMƏDOV Ə.Q.*** – BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Məsul redaktor** — ***HÜSEYNOVA F.E.*** – BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı redaktor** — ***HƏSƏNZADƏ S.B.*** – Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, dosent, hüquq üzrə elmlər doktoru.

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***HÜSEYNOV M.H.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq elmləri doktoru, professor.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)

***Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

***Redaksiyanın ünvanı:***

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az
http://www.hmj.az/index.php/hmj

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində 16 sentyabr 2004-cü il tarixdə dövlət qeydiyyatına alınmışdır *(01 iyun 2006-cı il tarixli dəyişikliklərlə).*

**ŞƏHADƏTNAMƏ: 0104-P72-40981**

19 mart 2024-cü il tarixdə 200 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

2024

I RÜB

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

## Q Ə R A R I

## 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair

13 fevral 2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyev və Vüqar Zeynalovun,

maraqlı subyektin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, sədr müavini Rövzət Qasımovun, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimovun, üzvləri Fuad Cavadov, Şaitdin Əliyev, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Ramiz İbrahimov, Validə Kazımova, İlham Məmmədov, Nizami Nadirxanlı, Qabil Orucov, Hüseyn Paşayev, Almas Qəhramanlı, Etibar Quliyev və İlkin Şahbazovun,

ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Sevda Süleymanova və Fərid Əhmədovun, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov və İnsan hüquqları və informasiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru Etibar Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş protokol və ona əlavə edilmiş sənədlər üzrə 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və K.Şəfiyevin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər S.Süleymanova və N.Şükürovun rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Seçki Məcəllə-

sinin müvafiq maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli Sərəncamına uyğun olaraq 2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirərək, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermənin nəticələrinə dair 2024-cü il 11 fevral tarixli protokolu tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli 10/36 saylı qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrini təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq ekspertləri cəlb etmiş, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinə əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı məlumatları tələb etmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərdən göründüyü kimi, seçki qutularında 4 967 795 (dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş) seçki bülleteni müəyyən edilmiş, bunlardan 9 828 (doqquz min səkkiz yüz iyirmi səkkiz) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 4 957 967 (dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

**Əliyev Fuad Ağasi oğlu** – lehinə 26 517 (iyirmi altı min beş yüz on yeddi) səs və ya 0.54 faiz;

**Əliyev İlham Heydər oğlu** – lehinə 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz;

**Həsənquliyev Qüdrət Müzəffər oğlu** – lehinə 85 411 (səksən beş min dörd yüz on bir) səs və ya 1.72 faiz;

**Musayev Elşad Nəbi oğlu** – lehinə 32 885 (otuz iki min səkkiz yüz səksən beş) səs və ya 0.66 faiz;

**Mustafa Fazil Qəzənfər oğlu** – lehinə 98 421 (doxsan səkkiz min dörd yüz iyirmi bir) səs və ya 1.99 faiz;

**Nurullayev Razi Qulaməli oğlu** – lehinə 39 643 (otuz doqquz min altı yüz qırx üç) səs və ya 0.80 faiz;

**Oruc Zahid Məhərrəm oğlu**– lehinə 107 632 (yüz yeddi min altı yüz otuz iki) səs və ya 2.17 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə görə, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 17-si və ya 18-i iştirak edərsə – azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 18-i tərəfindən imzalanmışdır.

Ekspert S.Süleymanova bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələri baxımından düzgün tərtib edilmişdir və qanunvericiliyin tələblərinə uyğundur.

Ekspert N.Şükürovun rəyinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinin tələblərinə tam cavab verir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə daxil olmuş məlumatlardan göründüyü kimi, seçki hüquqlarının müdafiəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsində səkkiz, Sumqayıt Apellyasiya Məhkəməsində isə bir ərizəyə baxılmış və həmin ərizələr əsassız olduğundan təmin edilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin məlumatına görə, məhkəmə aktlarından verilmiş üç kassasiya şikayəti təmin olunmadan saxlanılmışdır.

Gəncə, Şirvan, Şəki Apellyasiya Məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi seçki hüquqlarının müdafiəsi ilə bağlı hər hansı ərizənin daxil olmadığını bildirmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, seçki hüquqlarının pozulması ilə əlaqədar bir şikayət üzrə aparılmış araşdırma zamanı həmin şikayətdə irəli sürülmüş dəlillərin öz təsdiqini tapmadığı müəyyən edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli

protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun hesab edir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidentliyinə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Qeyd olunduğu kimi, etibarlı hesab edilmiş seçici səslərindən 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

**3.** Qərar elan olunduğu andan qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

**Ədalətli, demokratik seçki**

# ÜMUMMİLLİ İNAMIN MÖHTƏŞƏM TƏNTƏNƏSİ

*Həmkarlar İttifaqları Konfederasiyasının 1,5 milyon üzvü İlham Əliyevin xilaskarlıq missiyasına böyük etimad göstərdi*

***Tarixinin ən qüdrətli Azərbaycanının müdrik və qədirbilən xalqı yenə də tarixi bir seçim etdi...***

***Müstəqillik dövrünün 9-cu prezident seçkisində xalq öz liderini müəyyənləşdirdi...***

***İlk dəfə bütöv Azərbaycanda keçirilən Zəfər seçkilərində xalq məhz Xilaskar Lideri cənab İlham Əliyevə etimad mandatı verdi – 92 faiz...***

***Xalq cənab İlham Əliyevin cəmi 20 ildə yaratdığı sabitliyə, yüksəlişə, inamlı və dayanıqlı inkişafa, sosial-iqtisadi, mədəni-mənəvi tərəqqiyə, demokratik dəyərlərə inamını, sədaqətini, sevgisini ifadə etdi!***

**Ədalətli, demokratik seçki və Zəfər əsrinə verilən səs**

İndiyədək ölkəmizdə keçirilən prezident seçkiləri Azərbaycandakı demokratiyanın aynası rolunu oynayıb. Ölkəmizin seçki təcrübəsi də çox unikaldır. Azərbaycan xalqı növbəti dəfə də inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verərək kamil, müdrik bir xalq olduğunu bir daha göstərdi. Seçki günü vətəndaşlarımızın fəallığı mənə 2020-ci ilin 27 sentyabr tarixini xatırlatdı. Həmin vaxt insanlarımız yaşından asılı olmayaraq, dəstə-dəstə hərbi komissarlıqlara necə üz tuturdularsa, seçki məntəqələrinə də o cür istəklə, həvəslə gedirdilər. Budur Azərbaycan xalqının uğurlarının, qələbələrinin, misilsiz nailiyyətlərinin sirri – birlik və həmrəylik!

Seçkilərin nəticələri göstərir ki, vətəndaşlarımız öz xoşbəxt gələcəyini, firavan həyatını, dövlətimizin daha da inkişafını, eləcə də dövlətçiliyimizin qorunmasını, müstəqilliyimizin möhkəmlənməsini cənab İlham Heydər oğlu Əliyevin ölkəyə rəhbərliyinin davamında görürlər. Xalqımız bu qənaətə, təbii ki, ölkəmizin son 20 ildə qazandığı uğurları, Ulu Öndər Heydər Əliyev siyasi kursunun effektiv nəticələrini görərək gəlib.

Vətən müharibəsindən sonra keçirilən ilk seçkidə iştirak hər bir vətənsevər azərbaycanlının müqəddəs amalı, son 200 illik tariximizin dönüş anı, mühüm dövlətçilik imtahanı və beynəlxalq siyasi hadisə oldu. Prezident seçkiləri bir sıra məqamları və əhəmiyyəti ilə şanlı tariximizə yazıldı. Xalqımız 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirdi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkün bacı və qardaşlarımız öz yurdlarında seçici kimi səsverməyə qatıldılar. İllərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə – yəni Qarabağ və Şərqi Zəngəzurda Zəfər seçkilərinin qüruru yaşandı. Bununla da biz ərazi bütövlüyümüzü və suverenliyimizi bir daha təsdiq edərək bütün dünyaya nümayiş etdirdik. Həm də qalib, müzəffər xalq olaraq, alnıaçıq, üzüağ. Odur ki, bu seçkilər Zəfər seçkisi olaraq tariximizdə əbədi qalacaq.

Bu seçkinin möhtəşəm nəticəsi həm də antiazərbaycançı şəbəkəyə xalqın sərt şilləsi oldu. Bu, Azərbaycanın fövqəlgüclər qarşısında mətin mübarizəsinin, müstəqil siyasətinin yeni zəfəridir.

7 fevral Azərbaycanın yeni tarixinin ən məsuliyyətli seçim anı, xalqın isə müdriklik sınağı idi. Azərbaycan bu seçimdən də, bu sınaqdan da məsuliyyətlə, müdrikliklə, şərəflə çıxdı və dünyanı öz nailiyyətləri ilə heyran qoyan məmləkətin bəşəriyyəti öz bacarığı, qabiliyyəti ilə həmişə heyrətləndirəcək bir milləti olduğunu nümayiş etdirdi. Xalq düzgün yolla irəliləyən liderinə, istiqlalımızın bayraqdarına, tarixin ən möhtəşəm Azərbaycanını yaradan İlham Əliyevə qarşıdakı 7 il üçün xeyir-duasını, dəstəyini verdi...

Ataların məsəli var: elin gözü tərəzidir. 4 milyon 651 min 473 seçici, 90 min 372 müşahidəçi, 190 xarici media qurumunun 200-dən artıq nümayəndəsi, 72 beynəlxalq təşkilatı təmsi edən şəxslərin iştirakı ilə keçən tam demokratik, şəffaf və ədalətli seçkilər nəticəsində əzmli qələbəni cənab İlham Əliyevin qazanması tarixi və təbii qanunauyğunluqdur desək, yanılmarıq.

Seçkiləri müşahidə edən beynəlxalq təşkilatların nümayəndələrinin qarşılaşdıqları mənzərələrlə bağlı etirafları da deyilənləri sübut etdi. Mərkəzi Seçki Komissiyasının seçkinin nəticəsi ilə bağlı açıqladığı ilkin rəqəmlər 3 təşkilatın – Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə, "Rəy" Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzinin keçirdiyi "exit-poll"ların nəticəsi ilə demək olar ki, üst-üstə düşdü.

Seçki prosesini işıqlandıran beynəlxalq KİV də seçkilərin tam demokratik, şəffaf, Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə keçirildiyini yayımladılar və dünya birliyi Azərbaycandakı demokratik seçki mühitindən bir daha xəbərdar oldu. Xaricdə yaşayan soydaşlarımız və ya əcnəbilər 1000 seçki məntəqəsində quraşdırılan veb-kameralar vasitəsi ilə səsvermə prosesini canlı izləyə bildilər.

Azərbaycanda yaşayan çoxmillətli əhalinin iradəsini ifadə edən bu seçkilər bir daha dünyaya cənab İlham Əliyevin ölkəmizdə yüksək hörmətə və nüfuza malik olmasını, xalqın ona böyük inamını və sarsılmaz dəstəyini sübut etdi.

**Niyə məhz İlham Əliyev?!**

Bu suala cavab tapmaq heç də çətin deyil. Çox yox, cəmi 20 il öncəyə boylanıb bu günümüzlə müqayisə aparsaq, hər şey aydın görünər.

Xalq çox yaxşı bilir ki, cənab İlham Əliyev Azərbaycan tarixində böyük iz qoyan şəxsiyyət, eyni zamanda son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı azad edən Müzəffər Sərkərdədir. Artıq Azərbaycanda bütün qələbələrin fövqündə bir Qələbə var. Bu Qələbəni də təmin edən ölkəmizin rəhbəri cənab İlham Əliyevdir. Azərbaycanın gələcək inkişafı ilə bağlı da cənab İlham Əliyev tərəfindən uğurlu strategiya müəyyənləşib.

Məhz Prezident İlham Əliyevin yüksəliş konsepsiyası fonunda 2003-2023-cü illər ölkəmizin çoxəsrlik dövlətçilik tarixinə möhtəşəm 20 il kimi daxil olub. Hətta son 20 il tariximizdə o qədər əlamətdar olub ki, bu dövrdə ölkəmiz, əgər belə demək mümkünsə, əsrlərə bərabər yol qət edib.

Azərbaycan misilsiz inkişafı ilə Avrasiyanın enerji xəritəsini yeniləyib. Nəticədə əldə edilmiş tarixi uğurlar ölkəmizi yeni inkişaf mərhələsinə çıxarıb və xalqımıza sevinc bəxş edib.

Bu gün Azərbaycan özünün ən parlaq günlərini yaşayır. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan çoxəsrlik tarixində heç vaxt bu qədər güclü olmayıb. Bütün bu hədsiz sevinci xalqımıza Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bəxş etməyibmi? Onun gördüyü işləri sayıb qurtarmaq, kitablara sığışdırmaq mümkün deyil. Bu faktı dünyanın tanınmış siyasətçiləri də etiraf edirlər.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün və bütün ərazilərində suverenliyinin tam bərpasına nail olub. Hazırda Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda bayrağımız əzəmətlə dalğalanır. Başqa sözlə desək, Qarabağın separatçı xunta cilovundan azad olunması kimi mürəkkəb, hətta bəziləri tərəfindən həlli mümkünsüz görünən problemi həll edib və üstəlik Cənubi Qafqazda dünyanı heyrətə salan yeni reallıqlar yaradıb.

Fevralın 7-də cənab İlham Əliyevin Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verməsinin isə simvolik mənası vardı. Bu, dünyaya və dünya erməniliyinə, onların havadarlarına verilən mesaj idi. Bu, Xankəndinin timsalında Qarabağın, Şərqi Zəngəzurun Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu göstərdi.

Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən qurtarıb işıqlı sabaha çıxardısa, cənab İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirməklə yanaşı, Xilaskar Lider statusuna sahibləndi.

Məhz cənab İlham Əliyevin əsl sərkərdə məharəti ilə düşməndən təmizlənən Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri aparılır və neçə illərdən sonra soydaşlarımızın bu torpaqlara böyük köçü başlayıb. Əlbəttə, misli-bərabəri olmayan bu möhtəşəm nailiyyətlər Müzəffər Ali Baş Komandanımız, Prezidentimiz cənab İlham Əliyevin adı ilə bağlıdır.

Əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin ölkəmizə növbəti yeddi ildə rəhbərliyi ilə bizi ötən 20 ildə əldə edilmiş nailiyyətlərin davamı ilə yanaşı, fəth ediləcək daha uca zirvələr, böyük hədəflər gözləyir. Bu, indikindən də qüdrətli, bütün sahələr üzrə hərtərəfli inkişaf etmiş, güclü iqtisadiyyata sahib müstəqil Azərbaycan olacaq. Cənab İlham Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, xalqına verdiyi bütün vədləri tam şəkildə və vaxtında yerinə yetirib. O, dövlətimizi ağır sınaqlardan, mürəkkəb proseslərdən üzüağ çıxarıb, dünyanı bürüyən və ağır fəsadlar törədən dərin böhranları ölkəmizə yaxın buraxmayıb. Vaxtilə haqqı tapdanan, səsi eşidilməyən, hərbi təcavüzə məruz qalan, torpaqları işğal edilən Azərbaycan bu gün regionun lideri, dünyanın strateji əhəmiyyətli ölkəsidir. Odur ki, xalqımızın daha xoşbəxt, səadət dolu günləri, dövlətimizin ən əzəmətli, güclü illəri hələ qarşıdadır.

## 1 milyon 500 min AHİK üzvünün doğru seçimi

Xalqın səsi göstərdi ki, Azərbaycanın bu günü də, gələcəyi də cənab İlham Əliyevlə

bağlıdır. Seçkilərdəki qələbə növbəti yeddi ildə Azərbaycanın inkişafı, 20 ildə başlanılmış işlərin davam etdirilməsi, nailiyyətlərin daha da artırılması deməkdir. Hesab edirəm ki, bu qələbənin əsasında Azərbaycan xalqının İlham Əliyevə olan dərin etimadı, inamı dayanır. Xalq öz rəhbərinə inandı və ona səs verdi. Bu qələbənin qazanılmasında Yeni Azərbaycan Partiyasının böyük zəhməti var.

Bu böyük tarixi qələbəyə bütün xalqımız sevinir. Azərbaycan ziyalıları, respublikamızın intellektual elitası bu gün xüsusi qürur və sevinc hissləri yaşamaqdadır. Çünki bu qələbə siyasi liderin fərdi uğuru, şəxsi nailiyyəti olmaqdan daha çox xalqın öz tarixi taleyi qarşısında milli məsuliyyətinin və vətəndaş cavabdehliyinin göstəricisidir.

Hələ ötən il dekabrın 20-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) növbədənkənar VI Qurultayı keçirilərkən üç minə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə mühüm qərar qəbul edilmişdi. 26 sahə həmkarlar ittifaqı birliklərinin könüllü ittifaqı olan AHİK-in 1 milyon 500 min üzvü İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası prezidentliyinə namizədliyinin dəstəklənməsi barədə qərar qəbul etmişdi. Bununla bağlı qəbul olunan bəyanatda əminliklə qeyd edilirdi ki, bu gün müstəqil Azərbaycan tam əmin əllərdədir, ölkəmiz tarixboyu heç vaxt bu qədər güclü olmayıb. Fərəhlə söyləyə bilərik ki, bu, məhz Ulu Öndər Heydər Əliyevin arzuladığı Azərbaycandır!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının əvvəlki prezident seçkilərində olduğu kimi, bu dəfə də mövqeyi birmənalı, yekdil və dəyişməz oldu. Biz - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının növbədənkənar VI Qurultayının nümayəndələri 1,5 milyon həmkarlar ittifaqı üzvləri adından 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində xalqımızla həmrəyliyi davam etdirərək, Azərbaycanı inkişaf etmiş ölkəyə çevirən böyük şəxsiyyət İlham Əliyevi dəstəklədiyimizi bəyan etdik.

Konfederasiyada birləşən 1,5 milyon həmkarlar ittifaqı üzvü prezident seçkilərində vətənimizin bütövlüyünü təmin edən, ölkəmizi qabaqcıl dövlətlər sırasına çıxaran dövlət başçısı İlham Əliyevin namizədliyini yekdilliklə dəstəklədi.

### Beynəlxalq təşkilatlardan seçkiyə müsbət rəy

Ölkəmizdə keçirilən prezident seçkilərini minlərlə xarici müşahidəçi izlədi. Açıqlanan hesabatlara əsasən deyə bilərik ki, Azərbaycan bir daha dünyaya seçki nümunəsi göstərib. Onların bir neçəsinin bəyanatına və müşahidəçilərin fikirlərinə diqqət etsək, buna şahidlik edərik.

Seçkiləri müşahidə edən Parlamentlərarası Assambleyanın, Asiya Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının Gənclər Təşkilatının, TÜRKPA-nın Beynəlxalq Münasibətlər və hüquq komissiyasının, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Xəzər Strateji Araşdırmalar İnstitutunun, həmçinin Türkiyə, Pakistan, Meksika, Belarus, Bosniya və Herseqovina, Mərakeş, Kamboca, İordaniya, Özbəkistan, İraq və Ərəb parlamentinin nümayəndə heyətlərinin yaydıqları bəyanatlarda, açıqladıqları hesabatlarda qeyd edilir ki, seçkilər rahat və dinc şəraitdə keçib.

Beynəlxalq təşkilatlar seçki prosesinin şəffaf, azad və mütəşəkkil şəraitdə, seçicilərin siyasi və vətəndaş hüquqlarından istifadə etmək üçün yüksək fəallığı ilə keçirildiyini qeyd ediblər. MDB-nin Baş katibi və təşkilatın müşahidə missiyasının rəhbəri Sergey Lebedev isə prezident seçkilərinin Azərbaycan Konstitusiyasına tam uyğun keçirildiyini bəyan edib.

Bu seçkilər həm də antiazərbaycançı şəbəkəyə ağır zərbə oldu. Seçkilərə qədər ölkəmizə qarşı edilən təzyiqlər, hücumların hamısı iflasa uğradı. Xüsusən də Azərbaycan nümayəndə heyətinin imtina etdiyi

AŞPA-nın uğursuz cəhdləri bu təşkilatın özünə ləkə vurdu. Dünya gördü ki, Azərbaycanın çox yüksəksəviyyəli seçki təcrübəsi var. Ölkənin vətəndaşları isə mütəşəkkil şəkildə bu seçkilərdə iştirak edərək Avropaya nümunə göstərdilər.

Prezident seçkiləri beynəlxalq mətbuatın da diqqət mərkəzində oldu. Dünyanın aparıcı mətbu orqanları məqalə, reportaj yayımlayaraq və məntəqələrdən canlı yayımlar edərək oxucularını şəffaf və demokratik şəraitdə keçən səsvermə prosesi barədə məlumatlandırdılar. Materiallarda ölkədəki seçkiöncəsi siyasi-iqtisadi vəziyyət və seçkiləri şərtləndirən amillər, səsvermə prosesinin gedişi, nəticələri, seçkinin ölkəmizin və regionun gələcəyinə təsir imkanlarına dair fikirlər yer aldılar. Məsələn: "Associated Press" agentliyinin seçicilərin fəallıqla səs verdiyi seçki məntəqələrindən birində canlı yayımında seçki prosesinin maneəsiz və sərbəst şəkildə davam etdiyi qeyd olunub. Agentliyin digər məqaləsində bildirilib ki, ötən ilin sentyabrında Azərbaycanın Qarabağ regionunda ildırımsürətli proseslərdən sonra Azərbaycan Prezidentinin ölkədə nüfuzu ən yüksək səviyyədədir. Seçkilər isə ölkənin bütün ərazisi üzərində artıq tam nəzarətə malik Azərbaycanda yeni eranın başlanğıcıdır.

## Xalqımızın və dövlətimizin həyatında yeni parlaq dövr başlayır

Prezident seçkiləri bir dövrün yekunu, yeni bir dövrün başlanğıcı sayılır. Ötən ilin sentyabrında suverenliyimiz tam bərpa olundu, Qarabağda separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu. Bununla da Azərbaycan tarixinin çox mühüm dövrünə yekun vuruldu.

Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli sərkərdəliyi, öz müdrik siyasəti ilə xəyal kimi görünən arzularımızı həqiqətə çevirdi. İndi isə yeni bir dövr başlayır, bu dövrün başlanğıcı məhz prezident seçkilərindən sonra qoyulur. Yəni artıq xalqımızın və dövlətimizin həyatında yeni parlaq dövr başlayır. Azərbaycan xalqının xoşbəxt gələcəyinin ən layiqli təminatçısı olan Prezident İlham Əliyevə xalqımızın inamı, etibarı böyükdür. Çünki o, gördüyü möhtəşəm işlərlə xalqın qəlbində özünə taxt-tac qurub.

Prezident İlham Əliyevin müəllifi olduğu islahatlar təkmilləşmə, modernləşmə, demokratikləşmə və davamlı inkişaf prosesinin etibarlı təminatı, həmçinin daha geniş miqyasda tətbiqinin zəmininə çevrilib. Cənab İlham Əliyev çevik idarəçilik metoduna yiyələnmiş rəhbərdir. Yeni situasiya ondan islahatları daha geniş miqyasda aparmağı və vacib qərarların operativ qəbulunu şərtləndirir. Nəzərə alaq ki, bu gün üzərində işlənən layihələr, proqramlar böyük strateji dövr üçün nəzərdə tutulur və onların əksəriyyəti 2030-cu ilədək olan mərhələni əhatə edir.

Bütün bu proseslərdə Prezident İlham Əliyevin ən böyük dəstəkçisi, ən yaxın silahdaşı isə ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva olub. Mehriban xanım Əliyeva həm Heydər Əliyev Fondunun rəhbəri, həm də birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək ölkə üçün taleyüklü məsələlərin həlli yolunda cənab İlham Əliyevlə birgə addımlayıb. Cənab İlham Əliyevin yürütdüyü siyasətin ən böyük dəstəkçisi olan Mehriban xanımın əvəzsiz xidmətlərinin, əlbəttə ki, bundan sonrakı illərdə də şahidi olacağıq.

Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafında çox böyük çəkiyə malikdir. Prezident İlham Əliyevin bütün layihələrinin uğurla reallaşmasında böyük dəstəyi olan Mehriban xanım Əliyeva bu gün Müzəffər Ali Baş Komandanla birgə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında əvəzsiz xidmətlər göstərir. Azərbaycan Prezidentinin ən yaxın silahdaşı kimi Mehriban xanım Əliyeva dövlət başçısı ilə birlikdə üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir. Elə buna görə də xalqın sevimlisinə çevrilən Mehriban xanım Əliyevanın Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətinin uğurla davam etdirilməsindəki müstəsna rolu və mövqeyi təqdir edilir. Mehriban xanımın Azərbaycan naminə yürütdüyü şərəfli missiya xalqın cənab İlham Əliyevin ətrafında daha sıx birləşməsini təmin edir, dövlətçilik kursumuza çevrilən Əliyevçilik siyasi xəttini daha da möhkəmləndirir.

**Zəfər seçkisi – Naxçıvanın 100 illik yubileyinə mühüm töhfə**

Ölkəmizdə reallaşan bütün prezident seçkilərində aktiv rol oynayan Naxçıvan Muxtar Respublikası da bütöv Azərbaycanda keçirilən Zəfər seçkilərində bir daha öz nümunəsini ortaya qoydu.

Bütün bunları həm seçkilərə hazırlıq prosesində, həm də səsvermə günü Naxçıvanda şahidlik etdiyim reallıqlara əsasən söyləyirəm. Hələ seçkilərdən öncə seçicilərimlə görüşərkən onlar birmənalı şəkildə seçkilərdə iştirak edəcəklərini və ən layiqli namizədə səs verəcəklərini bəyan edirdilər. Fevralın 7-də bu, bir daha təsdiqini tapdı.

Milli Məclisdə təmsilçisi olduğum Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 6 seçki dairəsi üzrə ümumilikdə 278 mindən çox seçici qeydə alınmışdı. Səsverməyə start verildiyi andan muxtar respublika sakinləri seçkilərdə fəal iştirak etməyə başladılar. Seçki məntəqələrində seçicilərin rahat və şəffaf şəkildə səsverməsi üçün lazımi tədbirlər görülmüşdü. 35 məntəqədə quraşdırılan veb-kameralar vasitəsilə seçki prosesini canlı izləmək mümkün oldu.

4 saylı Naxçıvan şəhər seçki dairəsinin 21 saylı seçki məntəqəsində səsvermə hüququmdan istifadə edərkən şahidi olduğum mənzərə isə qürur hissi yaşatdı. Həm məntəqədə təşkil olunmuş qeydiyyat prosesi, həm seçici fəallığı mükəmməl idi.

Saat 19:00-a olan məlumata görə, muxtar respublika üzrə seçici fəallığı 82.09 faiz göstərilirdi. Səslər hesablandıqdan və "exit-

poll" nəticələri elan edildikdən dərhal sonra Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın şəhər və kəndlərində sakinlər küçələrə axışıb, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin yenidən prezident seçilməsini musiqi sədaları altında üçrəngli dövlət bayrağımızı dalğalandırmaqla və səsləndirdikləri şüarlarla böyük sevgi, coşqu ilə qeyd etməyə başladılar. Bu, Naxçıvan əhalisinin cənab İlham Əliyevə olan sevgisinin, inamının, böyük etimadının real mənzərəsi idi.

Ümumiyyətlə, Naxçıvan sakinləri hər zaman seçkilərdə yüksək fəallıqları ilə fərqləniblər və fevralın 7-də bu, bir daha təsdiqini tapdı. Naxçıvanlılar hər zamankı kimi, bu seçkilərdə də aktiv iştirak edərək Azərbaycanın işıqlı sabahına səs verdilər.

Bu seçkilərin həm də Naxçıvan üçün xüsusi özəlliyi oldu. Çünki bütöv Azərbaycanda keçirilən 2024-cü il 7 fevral tarixli ilk prezident seçkiləri muxtar respublikanın 100 illik yubileyinə təsadüf etdi.

Məhz bu gün – fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam oldu. Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutan, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayan Naxçıvan diyarı Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi ilə bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarıb, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirib. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar.

Bu gün Naxçıvan Muxtar Respublikası dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir.

Cənab İlham Əliyevin ötən il iyulun 5-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı isə Naxçıvanın yeni tərəqqisinin yol xəritəsi hesab olunur. Dövlət başçısının sərəncamı ilə Naxçıvanda Prezidentin Səlahiyyətli Nümayəndəsi İnstitutunun fəaliyyətə başlaması və məqsədyönlü islahatların uğurla həyata keçirilməsi ilə qədim diyarımızın modern tərəqqisi geniş vüsət almağa başlayıb. Səlahiyyətli nümayəndənin icrasını reallaşdırdığı tapşırıqların mənzərəsi Naxçıvanın yeni hədəflərə doğru düzgün yolda olduğunu təsdiqləyir.

Bir sözlə, Naxçıvan əhalisi Zəfər seçkisində cənab İlham Əliyevə etimad mandatı verməklə həm də daha möhtəşəm gələcəyə səs vermiş oldu. Xalqdan etimad mandatı alan Prezident İlham Əliyev isə yeni milli ideya ilə yeni dövrə başlayacaq. Bu ideya Azərbaycanın daha çox inkişafına, müdafiə gücünün artırılmasına, xalqımızın milli birliyinin daha da möhkəmlənməsinə və xarici düşmənlərimizə qarşı daha mətinləşməsinə səbəb olacaq.

**Səttar MÖHBALIYEV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan Həmkarlar İttifaqları**
**Konfederasiyasının sədri**

# HƏDƏF DAHA GÜCLÜ AZƏRBAYCAN YARATMAQDIR

**Dövrünün bütün qüdrətli liderlərinin uğurunu şərtləndirən əsas cəhətlərdən biri məhz strateji düşüncə, zamanın axarını duymaq bacarığı və gələcəyə hazır olmaq əzmidir. Müasir dünyamızın ən parlaq dövlət adamlarından olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin, verdiyi qərarların məzmununa nəzər yetirdikdə dövlət rəhbərimizin bütün qüdrətli liderlərə xas olan yüksək cəhətləri necə uğurla öz şəxsiyyətində birləşdirdiyini görə bilirik.**

Xalqımızın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyevin Milli Məclisdəki andiçmə mərasimi milli dövlətçilik ənənələrimizin əlamətdar anlarından biri kimi tarixə yazıldı. Azərbaycan bununla yeni bir dövrə daxil oldu. Dövlət rəhbərimizin andiçmə mərasimindəki çıxışı həm cənab İlham Əliyevin 2003-cü ildən bəri ölkəmizə rəhbərlik etdiyi tarixi dövrə ümumi baxış, həm mövcud reallıqların dəyərləndirilməsi, həm də gələcəyin proqnozlaşdırılması etibarilə böyük maraq kəsb edirdi. Bu, əslində, 20 illik yüksəliş və inkişaf mərhələsinin əsl mahiyyətini, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın şərəf salnaməsini gözlərimiz önündə bir daha canlandırdı.

Cənab İlham Əliyev prezident seçkisində ona yenidən böyük etimad və dəstək göstərən xalqımıza öz dərin təşəkkürünü yetirərək bəyan etdi ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlindən gələni əsirgəməyəcək.

**Bütün vədlər yerinə yetirilib**

"İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi".

Əgər Azərbaycan Prezidentinin 2003-cü ilin oktyabrında keçirilmiş inaqurasiya mərasimindəki çıxışını təhlil edib həmin çıxışla iki onillik ərzində yaradılmış tarixi reallıqlar arasında müqayisələr aparsaq, görərik ki, cənab İlham Əliyevin 20 il əvvəl xalqımız qarşısında verdiyi bütün vədlər yerinə yetirilib. Azərbaycan vətəndaşlarının istəyinə uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin davam etdirilməsi, o cümlədən bu siyasətin əsas prioriteti olan ölkəmizin ərazi bütövlüyü məsələsinin təmin olunması – Ata vəsiyyətinin yerinə yetirilməsi həmin vədlər sırasında birinci gəlir. Azərbaycan Prezidenti 2003-cü ildə də, ondan sonrakı andiçmə mərasimlərində də bəyan etmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü

çərçivəsində öz həllini tapmalıdır. Azərbaycan xalqı heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Nəyin bahasına olursa-olsun, doğma torpaqlarımız azad ediləcək. Cənab İlham Əliyev illər ərzində böyük səbirlə, təmkinlə iştirak etdiyi sülh danışıqlarının artıq heç bir mənasının olmadığına, ərazi bütövlüyümüzün bərpasından ötrü hərbdən başqa bir yolun qalmadığına tam əminlikdən sonra ordumuzun gücü ilə problemi həll etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız yumruq kimi birləşərək torpaqlarımızın azadlığına, ərazi bütövlüyümüzə, dövlət suverenliyimizə nail oldu.

"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik", – deyə cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında vurğuladı.

Bizim ən böyük istəyimiz regionumuzda daimi sülhün, davamlı inkişafın, bütün maraqlı tərəflərin faydalana biləcəyi qarşılıqlı əməkdaşlıq mühitinin olmasıdır. Bu gün Azərbaycan dövləti təkcə yurdlarımızı yenidən qurmur, illərlə doğma torpaqların həsrətini çəkən həmvətənlərimizi əzəli məskənlərimizə yetirmir, eyni zamanda bölgəmizin ekologiyasına sahib çıxır, qırılan meşələrimizi həyata qaytarır, zəhərlənən çaylarımızı təmizlədir. Rəsmi İrəvan bir neçə onillik ərzində Qarabağda, Şərqi Zəngəzurda ağır cinayət əməlləri törətmişdi. Azərbaycan vətəndaşlarının min bir əziyyətlə qurduqları evlərin dağıdılması, dövlətimizin illər boyu yaratdığı sosial-iqtisadi infrastrukturun məhvi, tarixi binalarımızın, mədəniyyət müəssisələrimizin, məscidlərimizin və digər müqəddəs məkanlarımızın tar-mar olunaraq Yer üzündən silinməsi, ətraf mühitə qarşı ekoloji cinayətlər bunun ayrı-ayrı təzahürləridir. Haqq, ədalət bizimlədir. Bu dəyərlərin bizim tərəfimizdə olduğunu bilirik. Bu bizə böyük güc verir, mövqeyimizi möhkəmləndirir, haqqımız olanı almaq üçün mücadiləmizi davam etdirməyə, doğru olanları etməyə yönəldir.

**Erməni separatçılarının tabutuna vurulan son mismar**

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı ilə cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya ordusunu tam iflic vəziyyətinə salan, onları ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur qoyan qüdrətli ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə daha bir tarix yazdı. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. 7 fevral növbədənkənar prezident seçkisinin müstəqillik tariximizdə ilk dəfə olaraq ölkənin bütün ərazisində keçirilməsi, Azərbaycan Prezidentinin özünün bir zamanlar erməni separatizminin əsas mərkəzi olmuş tarixi şəhərimiz Xankəndidə səs verməsi xalqımızın bu nailiyyətinin bütün dünyaya nümayişi oldu.

Cənab İlham Əliyevin Xankəndidə səs verdiyi bina vaxtilə erməni separatizminin

əsas yuvası idi. Ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycan xalqına qarşı qanlı cinayətlər məhz burada başlanmışdı. Burada xalqımıza qarşı soyqırımı əməlləri planlaşdırılır və idarə olunurdu. Həmin binanın önündə erməni millətçiləri, daha sonra isə Ermənistan dövləti Azərbaycana qarşı soyqırımı iddiaları irəli sürürdü. Vaxtilə Qarabağı Azərbaycandan ayırmaq istəyənlər bu binada xüsusi komitə də yerləşdirmişdilər. Ona görə də bu bina tarixən erməni separatizminin simvollarından birinə çevrilmişdir. Bu baxımdan Azərbaycan Prezidentinin məhz həmin binada təşkil olunmuş məntəqədə səsverməsi böyük rəmzi məna daşıyırdı. "Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi" – həmin anın tarixi mahiyyətini Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışında səsləndirdiyi belə bir unudulmaz cümlədən gözəl ifadə etmək mümkün deyil.

Cənab İlham Əliyev çıxışı zamanı Azərbaycanın artıq daxil olduğu yeni strateji dövrün ümumi mənzərəsini də canlandırdı, əsas hədəflərini diqqətə çatdırdı. Reallıq bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir zamanlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, eyni zamanda əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş halda, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə - alnıaçıq, üzüağ daxil olur. Davamlı inkişaf, ardıcıl nailiyyətlər, önümüzdəki böyük hədəflərə çatmaq üçün qarşımızda keçilməsi qeyri-mümkün maneələr yoxdur.

"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub" deyən Azərbaycan Prezidenti buna böyük əminliyini ifadə etdi: "Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq… Bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq. Bu gün xalqımız yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayır. …Biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun".

**"Biz elə ordu yaratmışıq ki…"**

Azərbaycan Prezidenti yeni strateji dövrdə ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsini əsas vəzifələrdən biri kimi diqqətə çatdırdı. Ordu quruculuğu ölkəmizdə davamlı bir prosesdir. Hazırda dövlət büdcəmizdə də ən böyük xərclər, məhz hərbi xərclər Qarabağ və Şərqi Zəngəzurun bərpasına yönəlmişdir. Ordu quruculuğu prosesi 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra da uğurla davam etdirilib. 2023-cü ilin sentyabrındakı antiterror əməliyyatı Azərbaycan Ordusunun hətta 2020-ci ildəkindən də nə qədər qüdrətli olduğunu göstərir. Cənab İlham Əliyev bəyan etdi: "Biz elə ordu yaratmışıq ki, –

bundan sonra da bu işlər davam edəcək, – heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz".

Güclü hərbi sənaye kompleksinin yaradılması da yeni dövrün əsas prioritetlərindən olacaq. Cənab İlham Əliyev artıq bunun birinci mərhələsinin başa çatdığını, ikinci mərhələsinin isə daha da genişmiqyaslı olacağını bildirdi. Bununla Azərbaycan özünü daha böyük həcmdə silah-sursat, texnika ilə təmin edəcək və bu sahədə də xarici asılılıq aradan qalxacaq. Siyasi, iqtisadi cəhətdən özünün tam müstəqilliyini bərpa etməyə müvəffəq olmuş dövlətimiz üçün bu, çox ciddi faktordur. Dünyanın müxtəlif bölgələrinin müharibə ocaqlarına çevrildiyi bir dövrdə ordu quruculuğu, müdafiə sənayesi potensialının gücləndirilməsi, ərazi bütövlüyü bərpa olunmuş ölkəmizin bütün sərhədlərində müasir mühafizə infrastrukturunun yaradılması və sərhədlərimizin ən etibarlı şəkildə qorunması çox mühüm amildir. Azərbaycan dövləti yeni strateji dövrdə bütün bu məsələlərə xüsusi diqqət yetirir, eyni zamanda xarici təhdidlərdən, sərhədlərin o biri üzündən gələn ideoloji risklərdən qorunmaq üçün tədbirlər görür.

Azərbaycan Prezidenti sərhəd tanımayan ideoloji risklərin dəf edilməsi üçün gənc nəslin vətənpərvərlik və milli ənənələr ruhunda tərbiyə olunmasını əsas vəzifələrdən biri kimi aktuallaşdırdı. Bildirdi ki, gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir. Burada isə sağlam ailə dəyərləri, məktəb tərbiyəsi mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə mövcud olan milli birlik yeni strateji dövrdə də qorunacaq, vətəndaş cəmiyyəti quruculuğu prosesləri davam etdiriləcək.

### Quruculuq və texnoloji inkişaf dövrü

Azərbaycanın ilk addımlarını atdığı bu yeni başlanğıcın əsas tarixi vəzifələrindən biri də şanlı Qələbəmizdən sonra Qarabağın, Şərqi Zəngəzurun tam bərpası, torpaqlarımızın minalardan təmizlənməsi, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qayıdışıdır. Bu məsələlər uğurla yerinə yetirilir. Ölkəmizin yanvar ayındakı iqtisadi göstəriciləri də iqtisadi inkişaf tempinin bərpa olunduğunu göstərir. Əldə olunan nailiyyətlər sosial-iqtisadi inkişaf proqramlarını uğurla yerinə yetirməyə imkan yaradır. "Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır" deyən Azərbaycan Prezidenti əldə edilmiş razılaşmaların, imzalanmış kontraktların yaxın bir neçə ildə özünü göstərəcəyini və bunun sıçrayış olacağını xüsusi vurğuladı.

Yeni strateji dövrdə ən əsas məsələlərdən biri də texnoloji inkişafın təmin edilməsindən ibarət olacaq. Dövlət rəhbərimiz bildirdi ki, texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar: "Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik".

**Bizim ailəmiz türk dünyasıdır**

Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışının ən yaddaqalan məqamlarından biri də ölkəmizin bundan sonra beynəlxalq təşkilatlarla atacağı addımlarla bağlı oldu. Cənab İlham Əliyev bəyan etdi ki, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. " Bizim ailəmiz türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur… Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik". Dünyanın yeni çağırışlar, təhdidlərlə üzləşdiyi müasir dövrümüzdə türk dövlətlərinin belə qarşılıqlı inamı, müştərək tədbirləri, ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan zirvə görüşü zamanı dövlət rəhbərləri arasında aparılan müzakirələr, əldə olunan razılaşmalar, ticarət, mədəniyyət, enerji, nəqliyyat və sairə bu kimi istiqamətlərdə imzalanan müxtəlif sənədlər türk dövlətlərinin birliyi üçün yeni fürsətlər açır. Tarixən türk dünyasının əsas mərkəzlərindən olan Azərbaycanı XXI əsrdə də bu birliyin mərkəzində görmək qürurverici hissdir.

Azərbaycan haqq işimizə daim dəstək verən İslam Əməkdaşlıq Təşkilatı, hazırda inkişafında ölkəmizin müstəsna rol oynadığı Qoşulmama Hərəkatı kimi təşkilatlar formatında, COP29 kimi möhtəşəm tədbirə evsahibliyi ilə, kommunikasiya imkanları ilə qlobal proseslərə təsir imkanlarını daha da gücləndirəcək, dünyada dayanıqlı inkişafa, iqlim dəyişikliyinin qarşısının alınmasına, neokolonializm, dini, irqi ayrıseçkilik kimi təzahürlərə qarşı mübarizəyə – bir sözlə, insanın xoşbəxtliyi və rifahına töhfələrini verəcək.

Vətən müharibəsi tarixi dəyişdi, həyatımızda yeni başlanğıcların əsasını qoydu, eyni zamanda düşüncələrdə də böyük dəyişikliklərə yol açdı. Bu gün tarix səhnəsində ötən əsrlərin ən böyük Zəfərini qazanmış, dövlətimizin, ordumuzun, milli vəhdətimizin verdiyi ruhla sarsılmaz gücə sahib Azərbaycan xalqı, qətiyyətli Liderin – Prezident İlham Əliyevin mətin iradəsi, bu günə və gələcəyə aydın baxışı, müdrikliyi sayəsində tarixinin ən qüdrətli mərhələsinə yetişmiş Azərbaycan dövləti var. Bütün bunlar xalqımızın layiq olduğu qalibiyyət, qüdrətlilik duyğusunu gücləndirir, bizi yeni dövrün milli hədəflərinə doğru aparır.

**İradə ƏLİYEVA,**
**"Azərbaycan"**

# Qalib lider Azərbaycanı işıqlı gələcəyə aparır

**Ümummilli lider Heydər Əliyev tərəfindən 1993–2003-cü illər ərzində görülmüş genişmiqyaslı işlər Azərbaycanda siçrayışlı inkişafın başlaması üçün zəruri potensial formalaşdırmışdır. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, bu kursun ideoloji bazası əsasında yeni inkişaf modelini həyata keçirən, Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah, mədəni cəmiyyətin qurulması istiqamətində 2003-cü ildə bəyan edilmiş hədəflər artıq günümüzün reallığına çevrilmişdir. Bu gün dövlət başçısı tərəfindən təsdiq olunmuş müasir inkişaf konsepsiyası keyfiyyətcə yeni prioritetlər müəyyən edir. İnnovasiya əsaslı inkişaf modelinə keçid, yüksək rəqabət qabiliyyətli və şaxələnmiş iqtisadiyyatın qurulması qarşıda duran ən mühüm prioritetdir.**

2003-cü ilin oktyabrında, prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyev Azərbaycan vətəndaşlarına tarixi müraciətində əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin dəqiq ünvanını da göstərmişdi: "...Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Müstəqilliyini günbəgün, ilbəil möhkəmləndirən Azərbaycan dövlətinin tarixində Prezident İlham Əliyevin qızıl hərflərlə yazdığı şanlı səhifələrin sayı getdikcə artır. Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə əbədi yazıldı. Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsi yolunda böyük inam və qətiyyətlə çalışdı, nəhayət, üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail oldu. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə

çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə Prezident İlham Əliyev xarici KİV-ə otuzadək müsahibə verdi ki, bu da münaqişə və Qarabağla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Müasir Azərbaycanın intensiv tərəqqisini təmin edən daha bir mühüm faktor Prezident İlham Əliyevin milli maraqlara əsaslanan, milli inkişafı şərtləndirən regionların sosial-iqtisadi inkişafı konsepsiyasıdır. Dövlət başçısı seçildikdən sonra bütün bölgələrin inkişafını strateji məqsəd kimi müəyyənləşdirən İlham Əliyev bu istiqamətdə mühüm uğurlara nail olunmasını təmin edib. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilib. Əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, həyatımızın bütün sferalarında demokratik dəyərlərin tam bərqərar olması istiqamətində inkişafın davamlılığı təmin olunub. Sözsüz ki, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi. Belə də oldu: Azərbaycan, doğrudan da, heç vaxt indiki qədər güclü olmayıb.

Xarizmatik liderlik və yüksək idarəçilik məharəti ilə fərqlənən Azərbaycan Prezidentinin müasir siyasət strategiyası nəticəsində ölkəmiz modernləşərək öz inkişafının yeni keyfiyyət mərhələsinə qədəm qoyub, həyatın bütün sahələri yenilənib. Milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsinə əsaslanır. Bu praqmatik, çevik siyasət, sistemli və ardıcıl strateji kurs ölkəmizin müasir inkişafının əsas təminatçısıdır. Qədirbilən xalqının sevgisini qazanmış Güclü lider İlham Əliyev öz daxili və xarici siyasətinin həyata keçirilməsində dərin zəka, universal düşüncəsi, analitik analiz qabiliyyəti ilə böyük qətiyyət nümayiş etdirir. Öz irsi şəxsi keyfiyyətlərinin daşıyıcısı olan müzəffər Ali Baş Komandan İlham Əliyev harada çıxış etməsindən, istənilən sahədə mövqe bildirməsindən asılı olmayaraq, daim start vəziyyətində olaraq qarşı tərəflər üzərində öz üstünlüyünü təmin edir. Əgər qısa və konkret olaraq 20 ilin uğurlarını ümumiləşdirərək ifadə etsəm, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması özü buna sübutdur.

Yeni Azərbaycan Partiyasından prezidentliyə namizəd kimi irəli surulən Qalib xalqın Qalib lideri İlham Əliyevin 7 fevral 2024-cü il tarixində keçirilmiş növbədənkənar prezident seçkilərində parlaq qələbəsi bir daha subut etdi ki, məqsədyönlü və xalqının, dövlətinin gələcəyə xidmət edən universal siyasəti bundan sonra da ölkəmiz Azərbaycana böyük uğurlar və tarixi ədaləti bərpa edən, ona söykənən Zəfərlər qazandıracaqdır.

Məlum olduğu kimi, 30 ildən artıq bir vaxtdan sonra bu seçki Azərbaycanımızın bütün ərazisini əhatə etdi. Yəni seçki məntəqələri suveren ölkəmizin Xankəndi, Şuşa, Xocalı, Ağdərə və digər azad olunmuş ərazilərində quruldu. Ümumiyyətlə Qarabağımıza qayıdış konsepsiyası çərçivəsində dədə-baba torpaqlarına dönən keçmiş məcburi köçkünlər öz yurdlarında səs verdilər. Bu tarixi hadisə isə ölkəmizin ictimai-siyasi mühitində yeni bir mərhələnin başlanğıcı

olmaqla yanaşı, zəfər platformasında prezident seçkilərində qədirbilən xalqımız böyük coşqu və ruh yüksəkliyi ilə seçki məntəqələrinə axın etdi. Əlbətdə ki, xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu seçkiyə müharibəni zəfərlə bitirmiş, ərazi bütövlüyümüzü tam təmin edərək və sərhəd zolaqlarımızı müəyyənləşdirib sülhə doğru addımlayaraq getdik. Ölkəmiz hazırda, təkcə öz suverenliyini bərpa etməyib, eyni zamanda da bölgəyə yeni sabitlik və sülh gətirmişdir. Qalib xalqımız isə 7 fevral 2024-cü il Zəfər seçkisində öz Qalib liderini, Prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevi növbəti dəfə Prezident seçdi, ictimai-siyasi sabitlik içərisində firavan yaşayacaqdır. Nəhayət əminliklə deyə bilərik ki, qədirbilən xalqımız fevralın 7-də əvvəlki seçkilərdə olduğu kimi, yenə tarixi seçimini etdi. Yəni xalqımız sabitliyə, əmin-amanlığa, bütövlüyə səs verdi. Hətta qeyd edim ki, 2024-cü il fevral seçkiləri Azərbaycanın yüz illik tarixinə düşərək Zəfər seçkisi oldu.

Prezident İlham Əliyev yaxın gələcəkdə sosial-iqtisadi modelin məzmununu və strukturunu keyfiyyətcə yeni prinsiplər əsasında qurmaqla, iqtisadiyyatın sürətli və dayanıqlı artımının təmin edilməsi, ekoloji tarazlığın qorunması, bu məqsədə xidmət edən təşəbbüslərin dəstəklənməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviq edilməsi kimi məsələləri xususi qeyd etmişdir. Eyni zamanda Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək 34500 ailənin doğma torpaqlarda layiqli şəkildə yaşayışı təmin ediləcək, həmin ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası istiqamətində mühüm addımlar atılacaqdır.

Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMTnin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un cari ildə ölkəmizdə keçirilməsinə dair yekdil qərarın qəbul edilməsi də beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmət və etimadının bariz göstəricisidir. Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi və Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması və eyni zamanda Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsini zəruri hesab etmişdir. Milli təhlükəsizlik sahəsində ölkəmizin qarşısında duran kompleks vəzifələrin son 20 il ərzində tam və effektiv həllinin nəticəsi olaraq Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması, müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi əsas məsələlərdən biridir.

Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Tam əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə qazandığı misilsiz uğurlar məhz İlham Əliyev siyasətinin təntənəsidir və Ulu öndərin əbədiyaşar ideyalarından qaynaqlanır.

**Əvəz ƏLƏKBƏROV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, Əməkdar müəllim**
**Elnur SADIQOV,**
**professor**

## Azərbaycan tarixində İlham Əliyev epoxası

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildən başlanan hakimiyyət dövrü Azərbaycan tarixinin epoxal hadisəsi olmuşdur. Onun əsasını İlham Əliyevin fenomenal tarixi şəxsiyyəti, dövlətçilik fəlsəfəsi və qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaq üçün tətbiq etdiyi strategiya və taktika təşkil edir.**

İlham Əliyev nəinki Azərbaycan tarixində dərin iz qoymuş görkəmli dövlət xadimləri, eləcə də bir sıra dövlətlərin dünya tarixinə adını yazdırmış liderləri ilə müqayisədə yeni, fərqli bir dövlət başçısı obrazı yaratmağa nail olmuşdur. Dünyada məşhur olan dövlət xadimlərinin hər biri hakimiyyətə gələn kimi ölkənin bütün resurslarını təmərküzləşdirib, ən qısa müddətdə qalib gəlmək, bununla adını əbədiləşdirməyə çalışmışdır. Nəticədə, "ildırımsürətli" müharibə planları meydana gəlmiş, əksəriyyəti isə dövlətə qələbə əvəzinə daha böyük fəlakətlər gətirmişdir.

Azərbaycan lideri İlham Əliyev özünəməxsus, tamamilə orijinal dövlətçilik təfəkkürü nümayiş etdirmiş, qələbə üçün olduqca çətin, lakin strateji baxımdan daha optimal taktika tətbiq etmişdir. Ermənistanın Azərbaycan torpaqlarını işğalından sonra dövlət başçısının ən mühüm vəzifəsi onun ərazi bütövlüyünü bərpa etmək olmuşdur. İlham Əliyev tarixdə çoxlu örnəyi olan "ildırımsürətli" yanaşmanı deyil, uzunmüddətli hazırlıq taktikasını seçmiş, dövlətin layiqli qələbəsini təmin etmişdir.

Dövlət başçısı İlham Əliyev bir-birinin ardınca 5 prezident seçkisində (2003, 2008, 2013, 2018, 2024) qələbəni təmin edərək, işğalçı Ermənistan ilə mübarizənin, xüsusilə gərgin və ağır sülh danışıqlarının məsuliyyətini öz üzərinə götürmüşdür. İlham Əliyev 2003-cü ildən Azərbaycanın ümumxalq dəstəyi almış yeganə lideri olduğu halda, Ermənistanda 3 dövlət və hökumət başçısı dəyişmişdir. Azərbaycan rəhbəri Ermənistanın bir-birinin ardınca yeniləşən 3 başçısına qarşı təkbaşına dayanmış, onları məğlub etməyə nail olmuşdur.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevi xarakterizə edən ən mühüm cəhətlərdən biri də onun istər daxili, istərsə də xarici siyasətinin dinamik xarakter daşımasındadır. Bunu İlham Əliyevin dövlətçilik təcrübəsində özünü aydın şəkildə ifadə edən prioritetlərin dinamikasında görmək mümkündür. Bu baxımdan, İlham Əliyev nəyi nə vaxt edəcəyini bilən, dediyi sözə əməl edən dövlət başçısı kimi tarixə düşmüşdür.

Son dövrlərdə tarixi hadisə və proseslərin rəqəmlərlə ifadə edilməsi geniş yayılmışdır. Prezident İlham Əliyevin dövrünün rəqəmlərlə ifadəsinə gəldikdə belə bir model tətbiq etmək olar: 17+3+... Bu o deməkdir ki, Prezident İlham Əliyevin müdrik dövlət siyasəti nəticəsində 17 il ərzində (2003–2020) Ermənistanın kapitulyasiyası ilə nəticələnən hazırlıq başa çatdırıldı, 3 il (2020–2023) ərzində isə Azərbaycanın ərazi bütövlüyü təmin edildi və yeni formatda prezidentlik başlandı.

7 fevral 2024-cü il seçkilərilə Azərbaycan tarixində yeni dövrün başlanması təmin olunmuşdur. Bu yeni dövrü də nəzərə alsaq, Prezident İlham Əliyevin hakimiyyətinin növbəti mərhələsinin daha böyük uğurlar ilə müşayiət ediləcəyini və ümumi kombinasiyada yeni illər kimi öz yerini tutacağını söyləmək mümkündür.

### I. İlham Əliyev epoxası: dövrləşdirilmə

Prezident İlham Əliyevin 2003-cü ildən başlanan hakimiyyət dövrünü yalnız xronoloji və ya problem üzrə deyil, hər ikisinin kombinasiyası: xronoloji-problem yanaşması ilə dövrləşdirmək elmi baxımdan daha səmərəli hesab oluna bilər.

Dövlət başçısı xronoloji baxımdan hakimiyyət dövrünün ilk 17 ilini xüsusi dövr kimi ayırır. O, 23 noyabr 2020-ci il tarixində Ağdam rayonuna səfəri zamanı demişdir: "Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq... Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq... Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik". Dövlət başçısı 28 may 2021-ci ildə yenidən Ağdama səfəri zamanı qeyd etmişdir ki, "Bir daha dediyim sözlərə qayıtmaq istəyirəm, mən bu 17 il ərzində – 2003-cü ildən 2020-ci ilə qədər ovaxtkı məcburi köçkünlərlə bir çox görüşlər keçirmişdim və hər zaman onlara deyirdim ki, biz torpaqlara qayıdacağıq, siz torpaqlara qayıdacaqsınız. Ancaq görürdüm ki, son illər onların gözlərində ümidlər azalır. Görürdüm və bu da təbii idi. Çünki 30 ilə yaxın vaxt keçmişdi. Ancaq mən hər zaman əmin idim ki, bu, olacaq. Sadəcə olaraq, deyə bilmirdim. Sadəcə olaraq, deyə bilmirdim ki, nə vaxt olacaq, necə olacaq. Amma bilirdim ki, olacaq".

Sonrakı dövrlər isə məntiqi cəhətdən özü müəyyənləşir. Bunları əsas götürsək, bütövlükdə, aşağıdakı xronoloji dövrləri ayırmaq olar:

– 2003–2020-ci illər – Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarının azad edilməsi üçün siyasi, sosial-iqtisadi və hərbi potensialın yaradılması;
– 2020-ci il (27 sentyabr–10 noyabr) – 44 günlük Vətən müharibəsi;
– 2020-ci il (10 noyabr–10 dekabr) – 10 noyabr bəyanatından Zəfər paradınadək;
– 2020-ci il (10 dekabr 2020 – 19 sentyabr 2023) – Zəfər paradından lokal antiterror əməliyyatınadək;
– 2023-cü il (19–20 sentyabr–8 noyabr) – lokal antiterror əməliyyatı, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Xankəndidə parad;
– 2023-cü il 7 dekabr növbədənkənar prezident seçkilərinin (Zəfər seçkilərinin) elan edilməsi, İlham Əliyevin qələbəsi, Azərbaycan tarixində yeni mərhələnin başlanması.

Bu xronoloji yanaşma ilə birgə, təqdim edilən dövrlərin hər birində davam edən iki hadisəni də xü-susi ayırmaq olar:

Birinci, Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərləri. Bu səfərlər Prezidentin 16 noyabr 2020-ci ildə işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına getməsindən başlayır və xronoloji cəhətdən davam edir.

İkinci, Böyük Qayıdış hərəkatı. Böyük Qayıdış da 2021-ci ilin iyulunda Zəngilanın Ağalı kəndinə əhalinin qayıtması ilə başlayır və xronoloji cəhətdən davam edir.

### II. Azərbaycan 2003–2020-ci illərdə: daxili və xarici siyasət

#### 1. İlham Əliyevin prezident seçkilərində qələbələri

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlətçilik məktəbinin ən yaxşı ənənələrini şəxsiyyətində ifadə etmişdir. O, Heydər Əliyevlə birgə təqiblər və ağır siyasi mübarizələrdən keçərək müstəqil Azərbaycanın strateji sahələrinə rəhbərlik

səviyyəsinə nail olmuşdur. İlham Əliyev 1994–1996-cı illərdə Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində mühüm yer tutan Azərbaycan Respublikası Dövlət Neft Şirkətində xarici iqtisadi əlaqələr üzrə vitse-prezident, sonra isə birinci vitse-prezident olmuşdur. 1995-ci ildə Milli Məclisə deputat seçilmişdir. İlham Əliyev 1997-ci ilin iyulundan Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbərlik edir.

Yeni tipli dövlət xadimi İlham Əliyevin fəal siyasi mövqeyi onun Yeni Azərbaycan Partiyasının (YAP) birinci qurultayında (1999) sədr müavini, ikinci qurultayda (2001) isə birinci müavin seçilməsini təmin etmişdir. İlham Əliyev 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasında fəal iştirak etmiş və onun uğurlarına sanballı töhfə vermişdir. O, Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) daimi nümayəndə heyətinin başçısı təyin olunmuşdur. 2003-cü ilin yanvarında isə AŞPA sədrinin müavini və büro üzvü seçilmişdir.

Prezident Heydər Əliyev 2003-cü il avqustun 2-də İlham Əliyevin Baş nazir təyin edilməsi haqqında Milli Məclisə müraciət etmişdir. Avqustun 4-də İlham Əliyev Baş nazir təyin edilmişdir. Bir müddət sonra Azərbaycanda yeni prezident seçkilərinə hazırlıq başlanmışdır.

2003-cü ilin prezident seçkilərində YAP tərəfindən ulu öndər Heydər Əliyevin namizədlliyi irəli sürülmüş, lakin o, 2003-cü il oktyabrın 1-də öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürmüşdür. Heydər Əliyev bu münasibətlə Azərbaycan xalqına müraciətində qeyd edirdi ki, "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

İlham Əliyev prezident seçkilərinin gedişi zamanı geniş seçki kampaniyası aparmışdır. İlham Əliyev Bakıda və Azərbaycan bütün bölgələrində seçicilərlə görüşlər keçirmiş, seçki platformasını ətraflı şəkildə izah etmiş, siyasi rəqiblərinin qeyri-real və populist vədlərini alt-üst edərək, sadə və dərin məzmunlu nitqlərilə xalqı öz ətrafında birləşdirməyə nail olmuşdur.

2003-cü il 15 oktyabr prezident seçkilərini böyük uğurla həyata keçirən İlham Əliyev seçicilərin 76,8 faizinin səsini toplayaraq bu seçkilərdə inamlı qələbə qazanmağa nail olmuşdur. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası prezident seçkilərinə dair protokolu oktyabrın 20-də təsdiq etmişdir. Konstitusiya Məhkəməsi isə oktyabrın 28-də prezident seçkilərinin nəticələrini təsdiq etmiş və İlham Əliyevin prezident seçilməsi rəsmən elan olunmuşdur.

Oktyabrın 31-də Heydər Əliyevin fərmanı ilə İlham Əliyev Baş nazir vəzifəsindən azad edilmiş, elə həmin gün yeni prezidentin – İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi keçirilmişdir. İlham Əliyev andiçmə mərasimində proqram səciyyəli çıxış etmişdir. O, Heydər Əliyev kursunu davam etdirəcəyini rəsmən elan etmiş, prezidentliyinin əsas prioritetlərini xalqa çatdırmışdır.

İlham Əliyevin prezidentliyə başlamasından qısa bir müddət sonra, 2003-cü il de-

kabrın 12-də Ulu öndər vəfat etmişdir. Azərbaycan xalqı və Heydər Əliyev şəxsiyyətinə böyük hörmət əlaməti olaraq müxtəlif dövlətlərdən dəfn mərasimində iştirak edən çoxsaylı nümayəndə heyəti dekabrın 15-də Heydər Əliyevi dərin hüznlə son mənzilə yola salmışdır. Prezidentliyinin ilk dövründə bu itkinin yaratdığı sarsıntılara baxmayaraq, İlham Əliyev görkəmli dövlət xadimi kimi bu sınaqdan da çıxmış, Azərbaycanın yeganə siyasi liderinə çevrilmişdir.

Bu, Azərbaycan xalqının sonrakı prezident seçkilərində də birmənalı şəkildə İlham Əliyevə səs ver-məsilə də təsdiq olunmuşdur. İlham Əliyev 2008-ci il oktyabrın 15-də keçirilən ikinci prezident seçkilərində 88,73 faiz səs toplayaraq yenidən qalib gəlmişdir. 24 oktyabrda keçirilən andiçmə mərasimindəki nitqində qələbənin səbəblərini və qarşıda duran vəzifələri hərtərəfli şərh etmişdir.

Azərbaycan xalqı 2013-cü il oktyabrın 10-da keçirilən üçüncü prezident seçkilərində İlham Əliyevə 84,54 faiz səs verərək, onu yenə də öz lideri kimi görmək istəmişdir. İlham Əliyev 19 oktyabrda keçirilən andiçmə mərasimində bu etimadı yüksək qiymətləndirmiş, qarşıda duran yeni vəzifələri müəyyən etmişdir.

İlham Əliyevin dördüncü prezident seçkisi xüsusilə əlamətdar olmuşdur. Konstitusiya islahatından sonra prezidentliyin müddəti yeddi ilədək uzadılmışdır. 2018-ci il 11 apreldə keçirilən dördüncü prezident seçkilərində seçicilər İlham Əliyevə 86,02 faiz səs verərək, onu bu dəfə yeddi il müddətinə prezident seçmişdir. Aprel ayının 18-də keçirilən andiçmə mərasimində İlham Əliyev qarşıda duran yeni hədəflərini müəyyən etmişdir.

Azərbaycan İkinci Qarabağ müharibəsində (2020, 27 sentyabr–10 noyabr) tarixi qələbə qazanmış, 19-20 sentyabr 2023-cü il tarixdəki lokal anti-terror əməliyyatları ilə bütün torpaqları üzərində suverən hüquqlarını bərpa etməyə nail olmuşdur. Buna baxmayaraq, İlham Əliyev daha bir tarixi qərar qəbul etmiş, prezidentlik müddətinin başa çatmasına xeyli qalmış 2024-cü il fevralın 7-nə yeni prezident seçkisi elan etmişdir.

**2. Prioritetlərin dinamikası**

Görkəmli dövlət xadimi kimi Prezident İlham Əliyevi xarakterizə edən ən başlıca xüsusiyyət onun dünyanın və ölkənin başlıca inkişaf tendensiyalarını yüksək siyasi həssaslıqla duya bilməsi, buna uyğun qərarlar qəbul etməsi və onları uğurla həyata keçirməsidir. Məhz buna görə İlham Əliyev nəyi nə vaxt edəcəyini bilən dövlət başçısı kimi xüsusi imic qazanmışdır. Ona görə də onun daxili və xarici siyasət xəttinin əsasını təşkil edən prioritetlərin dinamikası və reallaşdırılması xüsusi önəm kəsb edir. İlham Əliyevin hakimiyyətinin birinci dövründə onlarla belə prioritet ayırmaq mümkündür.

İlk belə prioritet kimi dövlət quruculuğunun daha da inkişaf etdirilməsi və onun modernləşdirilməsi diqqəti cəlb edir. Konstitusiya referendumlarına görə, eyni şəxsin 2 dəfədən çox prezident seçilmə-si (18 mart 2009-cu il), prezidentlik müddətinin 5 ildən 7 ilə çatdırılması, birinci vitse-prezident və vitse-prezident vəzifələrinin təsis edilməsi (28 sentyabr 2016-cı il) xalq tərəfindən bəyənilmişdir. Bununla da hakimiyyətdə varisliyin təmin edilməsi və dövlət hakimiyyətinin qeyri-konstitutsion yol ilə həyata keçirilməsi təcrübəsinə son qoyulmuşdur.

İlham Əliyevin dövlət quruculuğunun şah əsəri Azərbaycan Ordusu hesab oluna bilər. Dövlət başçısının ordu quruculuğu konsepsiyasına görə, o sadəcə müasir silahla

silahlanmış əsgər və zabitlərdən ibarət bir qurum olmayıb, Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni və hərbi qüdrətinin təcəssümü olmalı idi. Azərbaycan ordusu nəyin bahasına olursa-olsun dövlətin ərazi bütövlüyünü təmin etməyə qadir olmalı idi. İlham Əliyev hərbi dühası ilə buna nail ola bildi.

Ən mühüm prioritetlərdən biri kimi xarici siyasəti ayırmaq olar. Bu onunla izah olunur ki, iqtisadiy-yat, sosial həyat və s. prioritetlər müəyyən edildikdən sonra onların həyata keçirilməsi istiqamətində müəyyən hazırlıq işləri aparılır. Xarici siyasətdə isə fasilə etmək mümkün olmur, əsas məsələləri paralel şəkildə həll etmək tələb olunur. Daha bir vacib məsələ ondan ibarətdir ki, digər sahələrdə müəyyən komanda ilə fəaliyyət göstərmək mümkün olduğu halda, xarici siyasət bilavasitə Prezident tərəfindən hazırlanır və həyata keçirilir. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsinədək olan dövrdə Azərbaycanın xarici siyasət xətti qarşısında duran bütün məsələləri uğurla həll etdi.

Rusiya Federasiyası və ABŞ ilə münasibətləri yeni səviyyəyə yüksəldə bildi. Azərbaycanın 2011-ci il oktyabrın 24-də 2012–2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi onun dünya miqyasında nüfuzunun əsas göstəricilərdən biri oldu. İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan 2019-cu ilin oktyabrında 2011-ci ilin may ayında üzvlüyünə qəbul olunduğu, BMT-dən sonra ikinci böyük təşkilat olan, Qoşulmama hərəkatının sədrliyini qəbul etdi. Bu hərəkat İkinci Qarabağ müharibəsi dövründə Azərbaycana qarşı beynəlxalq diplomatik dəstəyin təmin edilməsində böyük rola malik oldu.

Ölkə rəhbəri İlham Əliyevin prioritetləri içərisində dövlətin iqtsadiyyatının möhkəmləndirilməsi daim əsas yerlərdən birini tutmuşdur. Azad bazar iqtisadiyyatına keçid başa çatdırılmış, yeni, modern iqtisadi münasibətlər formalaşdırılmışdır. Ənənəvi yanacaq-energetika sisteminin inkişafı ilə birgə, iqtisadiyyatın şaxələndirilməsi diqqət mərkəzində olmuşdur. Qeyri-neft sektoru sürətlə inkişaf etdirilmişdir. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023) qəbul olunmuşdur.

Müdrik və uzaqgörən dövlət başçısı İlham Əliyev ənənəvi prioritetlərdən olan səhiyyə, turizm, elm, gənclər, ekologiya, mədəniyyət, humanitar və idman siyasəti ilə birgə, Azərbaycan tarixində yeni bir istiqamətin – multikulturalizm siyasətinin əsasını qoymuşdur. Bu siyasət nəticəsində tarixin dərin qatlarından gələn multikulturalizm ənənəsi Azərbaycanda həyat tərzinə çevrilmişdir.

Azərbaycan dövlətinin dəstəyi ilə Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarının keçirilməsi sistemli xarakter almışdır. 2014-cü il may ayının 15-də Azərbaycanda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış, 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir.

### 3. Ermənistanla münaqişə Danışıqların uğursuzluğu

Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair ilk danşıqlar ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə başlamışdır.

1994-cü ildən başalayan bu danışıqların 2003-cü ilədək olan dövründə həmsədrlər tərəfindən münaqişənin həlli üçün "paket" (iyun 1997), yəni o zamankı terminlə Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi; "mərhələli" (1 sentyabr 1997), yəni münaqişənin mərhələlərlə nizama salınması və

dünya praktikasında olmayan "ümumi dövlət" layihəsi (noyabr 1998) irəli sürülmüşdür. Bu layihə ilə danışıqlar dalana dirəndiyi üçün həmsədrlərin təklifinə əsasən, danışıqların Azərbaycan və Ermənistan prezidentləri daimi nümayəndələri səviyyəsində davam etdrilməsi qərara alınmışdır. İlk belə görüşlər 2002-ci ilin mart və iyul aylarında Praqada keçirilmişdir.

İlham Əliyev prezidentliyə başladıqda vəziyyət belə idi. 2004-cü ilin aprelindən isə danşıqlar Praqada xarici işlər nazirlərin iştirakı ilə davam etdirilmişdir. Bu görüşlərin ilk mərhələsi 2006-cı ilin fevralınadək davam etmişdir. Bu görüşlər seriya xarakterində olduğu üçün "Praqa prosesi" adını almışdır. Bu danışıqlarda nizamlanmanın baza prinsipləri hazırlanmış, 2007-ci ilin noyabrında Madriddə xarici işlər nazirlərinə təqdim edilmiş və "Madrid prinsipləri" adlandırılmışdır. Danışıqlar getdikcə formal xarakter almış və işğalın legitimləşdirilməsinə xidmət etmişdir.

Ermənistan hakimiyyəti bu yol ilə mövqeyini daha da möhkəmləndirməyə çalışmışdır. Ona görə də siyasi strukturun dəyişdirilməsi yolu ilə bunu davam etdirmək istəmişdir. Bu, əks-nəticə vermiş və hakimiyyət 2018-ci ilin mayında Qarabağ klanından siyasi hadisələrin sonrakı əsas fiquru Nikol Paşinyanın əlinə keçmişdir.

Baş nazir N.Paşinyan da sələfləri kimi hakimiyyətini möhkəmləndirmək üçün Qarabağ kartından istifadəni əsas vasitə kimi görürmüşdür. Bu, iki istiqamətdə həyata keçirilmişdir. Bir tərəfdən, özü və hökumət üzvləri (Parlament sədri, müdafiə naziri və b.) danışıqların ruhuna zidd bəyanatlar vermiş, digər tərəfdən hərbi təxribatlara əl atılmışdır. Bu bəyanatlar içərisində N.Paşinyanın "Qarabağ Ermənistandır, nöqtə" avantürası açıq-aşkar danışıqların sona çatdığı anlamına gəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyev buna "Qarabağ Azərbaycandır, nida!" hökmü ilə cavab vermiş və belə bir yanaşma ilə barışmadığını bir daha təsdiq etmişdir.

Beləliklə, İlham Əliyev qətiyyəti ilə, siyasi leksikona daxil olan terminlə deyilsə, bu "filoloji müharibə"də qalib gələrək hərbi variantda qələbənin əsasını qoymuşdur. Bu bu "şüar savaşı" onu da göstərmişdir ki, müharibənin yeni – odlu fazasına keçilməsi uzaq deyil.

**Lokal "savaşlar"da ciddi qələbələr**

Ermənistan–Azərbaycan münaqişəsi ətrafında danışıqların davam etdiyi dövrlərdə ermənilərin təxribatı nəticəsində hərbi toqquşmalar da baş verirdi. Onlardan biri 2016-cı ilin 1–5 aprelində baş verən və tarixə " 4 günlük müharibə" kimi daxil olan savaş idi. Bu müharibə Rusiyanın müdaxiləsi ilə dayandırılsa da Azərbaycan silahının parlaq qələbələrindən biri oldu. Müharibənin gedişində bir sıra ərazilər, o cümlədən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi azad edildi. Dövlət başçısı bu kəndin azad edilməsi və orada həyata keçirilən quruculuq işlərinə 2 oktyabr 2020-ci ildə Əl-Cəzirə telekanalına müsahibəsi zamanı yüksək qiymət verərək demişdir: "Cocuq Mərcanlı ləyaqətimizin rəmzidir, iradəmizin rəmzidir və Cocuq Mərcanlı bizim qayıdışımızın rəmzidir".

N. Paşinyan hakimiyyətə gəldikdən sonra Azərbaycandan "yeni torpaqların işğalı" doktrinası irəli sürüldü. 2020-ci ilin iyulunda münaqişə bölgəsindən kənarda, Azərbaycanın qərbində yerləşən Tovuz rayonu istiqamətində genişmiqyaslı hücum əməliyyatı təşkil edildi. Azərbaycan Ordusu bu hüçümu dəf etdikdən sonra, ölkə ərazisinə təxribat qrupu göndərildi və onlar da zərərsizləşdirildi. Prezident İlham

Əliyev həmin hadisələrlə bağlı qeyd etmişdir ki, "Xüsusilə keçən ilin (2020-ci il–K.Ş.) iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi".

**III. Vətən müharibəsi**
**İlham Əliyevin xalqa müraciəti**

Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də Azərbaycana qarşı yeni hücum təşkil etdi. Bu tarixə Vətən müharibə adı ilə yazılan II Qarabağ savaşının başlanğıcı oldu. Prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana geniş miqyaslı hücüm əməliyyatına qarşı əks-hücum əməliyyatları ilə cavab vermək barədə tarixi qərar qəbul etdi və Azərbaycan üçün Vətən müharibəsi başlandı. İlham Əliyev müharibənin ilk anlarından etibarən onun aparılmasının bütün məsuliyyətini Ali Baş Komandan kimi öz üzərinə götürdü.

Elə həmin gün xalqa müraciətlə çıxış etdi. Çıxışda deyilirdi ki, "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür". Çıxış bu cümlələrlə bitirdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir". Ali Baş Komandan İlham Əliyev elə bu inamla da xalqı qələbəyə apardı. Müharibənin gedişi zamanı xalqa 8 dəfə müraciət edən İlham Əliyev xüsusilə həyəcanlı olan ilk müraciətindən etibarən müharibənin gedişinə dair məlumatları və baxışlarını xalq ilə bölüşməklə, onun qələbəyə səfərbər edilməsinə nail oldu.

**Ölkə müharibə relsində**

Prezident İlham Əliyevin rəhbərliyi altında müharibənin ilk günündən ölkənin hərbi relsə keçirilməsi üçün tədbirlər görüldü. Prezidentin sədrliyilə 2020-ci il 27 sentyabrda Təhlükəsizlik Şurasının iclası keçirildi. Elə həmin gün Respublikada hərbi vəziyyət elan edilməsi haqqında Prezident fərmanı elan edildi. Sentyabrın 28-də isə qismən səfərbərlik və hərbi vəziyyət dövründə komendant saatının tətbiqinin həyata keçirilməsinə dair sərəncam verildi.

Müharibənin taleyi döyüş meydanlarında həll edilirdi. Ona görə də, ən ümdə məsələ müharibənin strategiya və taktikası ilə bağlı idi. Azərbaycan əvvəlki döyüş əməliyyatlarından fərqli olaraq bu dəfə qəti şəkildə işğal altındakı torpaqlarını azad etmək istəyirdi. Tətbiq olunan taktikaya gəldikdə Prezident, Ali Baş Komandan İlham Əliyev bu barədə belə demişdir: "Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək".

Ermənistan əsas əks-hücum istiqamətinin mərkəzdən, Ağdamdan olacağını düşündüyü halda, Azərbaycan hərbi rəhbərliyi şimal və cənub istiqamətlərinə üstünlük vermişdir. Prezident 3 oktyabr 2021-ci ildə Suqovuşana səfəri zamanı demişdir: "Suqovuşan qəsə-

bəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi. Düşmən yəqin ki və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik".

Bununla birgə, Ağdam əməliyyatı da nəzərdə tutulmuş, lakin sonrakı mərhələyə saxlanmışdır. Prezident, Ali Baş Komandan İlham Əliyev Ağdama səfərləri zamanı bu məsələyə aydınlıq gətirmişdir. O demişdir: "Bir məqama toxunmaq istəyirəm, bilirəm ki, müharibə dövründə mənim "twit"lərimi, mənim çıxışlarımı xalqımız səbirsizliklə gözləyirdi. Mən öz çıxışlarımda və bütün "twit"lərimdə də hər zaman həqiqətləri deyirdim və yazırdım. Bir gün fikirləşdim, dedim ki, yəqin, ağdamlılar fikirləşirlər ki, bəs nə üçün indi Cəbrayıl azad olundu, Xocavənd azad olundu, Hadrut, Suqovuşan, Murovdağ, Füzuli, Zəngilan, Qubadlı, gör, haralara gedib çıxmışıq. Bəs nə üçün Ağdamın kəndləri azad olunmur? Fikirləşirdim, yəqin ki, siz fikirləşirsiniz, ağdamlılar fikirləşir. Amma özümü saxlayırdım, deyə bilmirdim ki, nə üçün, deyə bilmirdim. Amma indi hər kəs bilir nə üçün".

Bu taktikaya aydınlıq gətirən dövlət başçısı ağdamlılara xitabən bildirmişdir: "Çünki əgər biz bu istiqamətdən hücuma keçsəydik, bir çox şəhidlərimiz olacaqdı. Çünki onlar elə bir istehkam qurmuşdular, elə minalamışdılar ki, buradan bizim hücum etməyimiz, əlbəttə, böyük səhv olardı. Ancaq biz bu istiqamətdə kifayət qədər böyük hərbi qüvvə saxlamışdıq ki, erməni ordusunun əhəmiyyətli hissəsi, bax, burada olsun. Beləliklə biz onların manevr imkanlarını böyük dərəcədə məhdudlaşdırdıq. Onsuz da biz Ağdamı alacaqdıq. Şuşa – alınmaz qala götürüləndən sonra mənim göstərişimlə növbəti istiqamət Ağdam oldu. Mən indi bunu deyə bilərəm. Artıq biz elə bil ki, arxa hissədən gələrək erməni qruplaşmasını mühasirəyə alıb tam məhv edəcəkdik".

Prezident 2020-ci il noyabrın 23-də Ağdama səfəri zamanı bu məsələyə bir daha toxunmuşdur: "Burada (Ağdamda.-K.Ş.) beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin... Müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq".

Azərbaycanın hərbi rəhbərliyi tərəfindən müharibə tələblərinə uyğun olaraq, bəzən hərbi əməliyyat planları şəraitə uyğun şəkildə yenidən nəzərdən keçirilmiş və ya dəqiqləşdirmələr aparılmışdır.

**Dövlət – Ordu – Xalq birliyi**

II Qarabağ müharibəsində qələbənin təmin edilməsində Prezident İlham Əliyev tərəfindən dövlət, ordu və xalqın vahid qüvvə kimi birləşdirilməsinin təmin edilməsi tarixi qələbənin əldə edilməsində böyük rol oynadı. Prezident İlham Əliyevin siyasəti dünyanın tərəqqipərvər qüvvələri tərəfindən də rəğbətlə qarşılanmışdır. Bütün bunlar dünyanın müxtəlif yerlərindən Azərbaycan Prezidentinə ünvanlanan müraciətlərdə də öz əksini tapmışdır.

Ölkənin siyasi partiyaları da Prezident İlham Əliyevin siyasətini dəstəkləmiş, mü-

haribə dövründə bir neçə dəfə bununla əlaqədar kollektiv bəyanatla çıxış etmişlər. 27 sentyabr 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı müharibəyə başladığı gündə 52 siyasi partiyadan 50-si birgə bəyanat imzalayaraq, Azərbaycan Prezidenti ətrafında birləşdiyini bəyan etmişdir. Müharibənin gedişi zamanı Fransanın anti-Azərbaycan mövqeyinə qarşı, Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən top atəşinə tutulmasına qarşı da birgə bəyanatlar verilmişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi əməliyyat planlarının hazırlanması və həyata keçirilməsinə şəxsən rəhbərlik etmişdir. Onun rəhbərlyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində oktyabrın 7-si və 25-də opertaiv müşavirə keçirilməsi haqqında mətbuatda məlumatlar verilmişdir.

**30 illik işğala son**

Sentyabrın 27-də, elə ilk hücum zamanı Ermənistanın işğalı altında 6 kənd azad edildi, lakin sonrakı günlərdə düşmənin müqavimətini qırmaq üçün qızğın döyüşlər baş verdi. Əsas döyüşlər Talış kəndi və Suqovuşan ətrafında gedirdi. Prezident demişdir: “Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə– keçən il oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi.

Suqovuşan qəsəbəsinin və Talış kəndinin azad edilməsinin digər əhəmiyyətli tərəfi ondan ibarətdir ki, birinci kəndlər sentyabrın 27-də müharibənin ilk günündə azad edilmişdi – 6 kənd, oktyabrın 3-nə qədər isə hər hansı bir yaşayış məntəqəsi azad edilməmişdi. Bunun təbii səbəbləri var idi, hazırlıq gedirdi, manevrlər gedirdi, şiddətli döyüşlər gedirdi. Ancaq müharibənin ilk günündə əldə edilmiş qələbələrdən sonra növbəti yaşayış məntəqələrinin azad edilməsi, əlbəttə ki, ordumuza, xalqımıza əlavə güc, mənəvi güc verdi və müharibənin yeddinci günündə 8 kəndin azad edilməsi, o cümlədən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsi bizə böyük mənəvi üstünlük verirdi”.

Hərbi əməliyyatların şimaldan cənuba keçirilməsi böyük hərbi üstünlüyü təmin etdi. Bunun nəticəsi idi ki, Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa, bütövlükdə isə 300-dən çox yaşayış məntəqəsi Ermənistan işğalından azad edilmişdir. Azərbaycan Silahlı Qüvvələri ən müasir tələblərə cavab verən silahlardan, PUA-lardan səmərəli şəkildə istifadə etmişdir. Bununla eyni zamanda, Şuşanın azad edilməsi zamanı hərb tarixinin ənənələri müasir yanaşma ilə zənginləşdirilmişdir.

Ali Baş Komandan tərəfindən Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olan Şuşanın azad edilməsi zamanı dağıdıcı silahlardan istifadə edilməməsi barədə ayrıca göstəriş verilmiş, buna əsasən də xüsusi əməliyyat planı hazırlanmışdır. Azərbaycan Ordusunun xüsusi təyinatlıları yüngül silahlarla sərt qayalardan keçərək, Ermənistanın möhkəm müdafiə sistemi yaratdığı Şuşaya daxil olmuş, şəhəri demək olar ki, əlbəyaxa döyüşdə azad etmişdir. Təsadüfi deyil ki, Azərbaycan Ordusunun Şuşa əməliyyatı beynəlxalq aləmdə də geniş əks-səda yaratmışdır. Prezident demişdir: “Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq”.

Müharibənin gedişində Azərbaycan əsgər və zabitləri inanılmaz qəhrəmanlıq nümayiş etdirmişdir. Təsadüfi deyil ki, Azərbaycan Ordusu bütün müharibə boyu bir addım da geri çəkilməmiş, azad edilən heç bir yaşayış məntəqəsini düşmən geri ala bilməmişdir.

Azərbaycan Ordusu 44 gün ərzində 2904 nəfər şəhid vermişdir ki, onlardan 1001 nəfəri zabit və idarəedici heyət, 1898 nəfəri əsgərdir. Bu faktlar göstərir ki, zabit və əsgər heyəti birlikdə necə qəhrəmanlıq göstərmişdir.

**Ermənistanın müharibə cinayəti**

Ermənistan ilk günlərdən müharibənin aparılması haqqında beynəlxalq sənədlərə, o cümlədən, 1949-cu il Cenevrə konvensiyalarına zidd addımlar atmağa başlamışdır. Ermənistan öz ərazisindən Azərbaycanın müharibə zonasından kənarda olan yaşayış məntəqələrini atəşə tutmuş, mülki əhali arasında itkilər törədilmişdir. Azərbaycanın sağlamlıq mərkəzlərindən biri olan Naftalan şəhəri bir dəfə, Tərtər rayon mərkəzi və kəndləri 9 dəfə, Ağdam rayonu 2 dəfə, respublikanın ikinci böyük şəhəri və sənaye mərkəzi olan Gəncə şəhəri 6 dəfə, Cənubi Qafqazda ən böyük SES-in yerləşdiyi Mingəçevir şəhəri 2 dəfə, Bərdə şəhəri 4 dəfə, bütövlükdə, mülki əhali 24 dəfə atəşə məruz qalmışdır. Bu barbar aktlar nəticəsində 94 nəfər mülki şəxs, o cümlədən qadın, uşaq və yaşlı adam həlak olmuş, 400 nəfər yaralanmış, mülki obyektlərə ciddi ziyan dəymişdir.

Ermənistan dinc əhaliyə hücumu ilə panika yaratmaq, arxa cəbhəyə zərbə vurmaqla birgə, Azərbaycanı həmin atəş nöqtələrinə əks-zərbə ilə təhrik edərək, provakasiyaya çəkmək məqsədi güdürdü. Bu yol ilə bir tərəfdən Azərbaycanı dünya ictimaiyyəti qarşısında qınaq obyektinə çevirməyə, digər tərəfdən Ermənistan ərazisinin hücuma məruz qalması iddiası ilə MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını müharibəyə cəlb etmək istəyirdi.

**Savaşın informasiya təminatı, müharibə dövrü diplomatiyası**

Prezident, Ali Baş Komandan İlham Əliyev müharibənin informasiya təminatını da öz üzərinə götürdü. Müharibənin gedişi zamanı dünyanın 30-dək nüfuzlu media nümayəndələrinə müsahibələr verdi. İstisnasız olaraq, onların bəzən təxribat xarakterli sualları daxil, hər bir məsələyə aydınlıq gətirdi. Müharibənin başlama səbəbləri, Türkiyənin iştirakı, sonrakı addımları hərtərfli şəkildə izah etdi.

Dövlət başçısı İlham Əliyev müharibə dövründə Türkiyə, Rusiya, Fransa və digər dövlətlərin liderləri ilə 17 dəfə telefon əlaqəsi saxlayaraq, Azərbaycanın haqlı mövqeyini izah etmişdir. Azərbaycana ilk mənəvi dəstək verən Türkiyənin rolu olduqca əhəmiyyətli olmuşdur. Müharibə dövründə yeni məzmun kəsb edən Azərbaycan–Türkiyə dostluq münasibətləri, dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq əlaqələri 2021-ci ilin iyununda imazalanan Şuşa Bəyannaməsinin bünövrəsi olmuşdur.

Prezidentin fəal diplomatik səyləri nəticəsində müharibənin gedişində Azərbaycanı dəstəkləyən dövlətlər sisteminin formalaşdırılmasına nail olunmuşdur. O, 30 sentyabr 2020-ci ildə hospitalda yaralı hərbçilər ilə görüş zamanı demişdir: “Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bə-

zi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər".

Ölkə rəhbəri İlham Əliyevin müharibə dövrü diplomatiyasının əsas yeniliyi ondan ibarət idi ki, o sadəcə diplomatiya deyil, hərbi-diplomatik səciyyə kəsb etmişdir. Bunun göstəricisi onda idi ki, Prezident qalib tərəf kimi müharibənin dayandırılmasına dair öz konseptual baxışını irəli sürmüşdür. O, 2020-ciil oktyabrın 4-də xalqa müraciətində Ermənistanın Azərbaycan ərazisindən çıxmasını, onun ərazi bütövlüyünü tanımasını, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılmasının qrafikinin verilməsini irəli sürmüşdür.

Prezidentin hərbi-siyasi dühası bu şərtləri vaxtında qəbul etməkdən imtina edən Ermənistanı kapitulyasiya həddinə çatdırmış, onu təslim olmağa məcbur etmişdir. Prezident qeyd edirdi ki, "Otuz il bizə meydan oxuyan, bizim əsəblərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim qabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı".

## Ermənistanın birinci kapitulyasiyası

10 noyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidenti birgə bəyanat imzaladılar. Bəyanat 9 maddədən ibarət idi. Birinci maddəyə görə atəşkəs elan olunur və hərbi əməliyyatlar dayandırılırdı. İkinci maddə 20 noyabrda Ağdam rayonunun Azərbaycana qaytarılmasını nəzərdə tuturdu. Üçüncü və dördüncü maddə Rusiya Federasiyasının Qarabağın dağlıq hissəsi üzrə təmas xətti və Laçın dəhlizi boyunca sülhməramlı kontingentinin yerləşdirilməsi və onların qalma müddətini tənzimləyirdi. Beşinci maddəyə görə, sülhməramlı mərkəzi yaradılmalı idi. Altıncı maddə Kəlbəcər (15 noyabr) və Laçın (1 dekabr) rayonlarının qaytarılmasını və Laçın dəhlizi ilə bağlı rejimi nəzərdə tuturdu. Yeddinci maddə məcburi köçkün və qaçqınlara, səkkizinci maddə hərbi əsir və girovlar haqqında idi. Sonuncu, doqquzuncu maddə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat təhlükəsizliyinə (sonralar Zəngəzur dəhlizi adını almışdır) zəmanət verilməsinə aid idi.

10 noyabr Bəyanatı ilə Ermənistan Azərbaycan qarşısında kapitulyasiyaya məcbur edildi. Qarşıda 19–20 sentyabr 2023-cü il lokal antiterror əməliyyatında Ermənistanın daha bir kapitulyasiyası olduğu üçün, 10 noyabr Bəyanatı birinci kapitulyasiya idi.

## Azərbaycanın hərbi strategiya və taktikası

Ali Baş Komandan kimi Prezident İlham Əliyevinfəaliyyəti, onun Zəfər strategiya və taktikası həm ölkə daxilində, həm də beynəlxalq aləmdə yüksək dəyərləndirilmişdir. Müharibədə əldə edilən əzmkar qələbəyə görə, Ali Baş Komandan İlham Əliyev xalq içərisində "Müzəffər Ali Baş komandan" titulu qazanmışdır. İlham Əliyev dünya hərb tarixində ölkəsinin silahlı qüvvələrinə bilavasitə rəhbərlik edərək, onu qələbəyə aparan nadir liderlər sırasındadır. Onun bu istiqamətdəki fəaliyyəti Azərbaycanın hüdudlarından kənara çıxaraq, dünya hərb sənətinə də ciddi təsir göstərmişdir.

Azərbaycanın hərbi təcrübəsi ən qısa müddətdə ümumiləşdirilərək, ali hərbi məktəblərdə tədris edilməyə başlandı. Dövlət başçısı 23 dekabr 2020-ci ildə Qubadlıya səfəri zamanı bu məsələyə diqqəti cəlb edə-

rək demişdir: "Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib".

**Vətən müharibəsinin tarixi əhəmiyyəti**

Azərbaycannın İkinci Qarabağ müharibəsində qələbəsilə onun 30 ilədək Ermənistanın işğalı altında olan əraziləri azad edildi. Bu qələbə ilə birgə, Azərbaycan dünyaya sübut etdi ki, o müharibələr tarixinə yeni bir səhifə yazmışdır. Bunu Prezident İlham Əliyev belə ifadə etmişdir: "Biz müharibə dövründə də özümüzü ləyaqətlə aparmışıq və müharibənin bütün qaydalarına riayət etmişik. Məhz buna görə Ermənistan tərəfində mülki vətəndaşlar arasında itkilər həddindən artıq azdır".

İkinci Qarabağ müharibəsindəki qələbə Azərbaycan dövlətini, onun xalqını qaliblər sırasına daxil etdi. Prezident İlham Əliyev demişdir: "Bizim üçün, xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir və heç vaxt biz bu vəziyyətlə barışmadıq və bunu açıq bəyan edirdik. İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq".

Prezident İlham Əliyev tarixi qələbənin böyük əhəmiyyətini və onun bütün nəsillər üçün örnək olmasını nəzərə alaraq onun əbədiləşdirilməsinə də xüsusi diqqət vermişdir. 26 noyabr 2020-ci il tarixdə "Vətən müharibəsi qəhrəmanı" adı təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu verilmiş, dekabrın 1-də isə bu haqda Əsasnamə qəbul olunmuşdur. "Zəfər" və "Qarabağ" ordenlərinin statutu da təsdiq edilmişdir. Bundan başqa, 1 dekabr 2020-ci il tarixdə bir sıra medallar üzrə əsasnamələr təsdiq olunmuş, 2 dekabrda "Anım günü"nün təsis edilməsi haqqında Prezident Sərəncamı verilmişdir. 3 dekabr 2020-ci il tarixdə "Zəfər günü"nün təsis edilməsi, "Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi" haqqında, "Bakı şəhərində Vətən müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması" haqqında Prezident sərəncamları verilmişdir.

Bu sahədə ən böyük tədbirlərdən biri kimi 12 aprel 2021-ci ildə Hərbi Qənimətlər Parkının yaradılmasını qeyd etmək olar.

Tarixi qələbənin əbədiləşdirilməsi üzrə siyasət davam etdirilmiş, 31 iyul 2023-cü ildə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 26 avqust Laçın (həmin gün Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçmişdir), 4 oktyabr Cəbrayıl, 17 oktyabr Füzuli, 20 oktyabr Zəngilan, 25 oktyabr Qubadlı, 20 noyabr Ağdam və 25 noyabr Kəlbəcər günü elan edilmişdir.

## IV. Qələbədən Zəfər paradına

### 10 noyabr Bəyanatının həyata keçirilməsi

10 noyabr Bəyanatı imzalandıqdan sonra həyata keçirilməyə başladı. İlk olaraq atəşkəs elan edildi və hərbi əməliyyatlar dayandırıldı. Yuxarıda qeyd edildiyi kimi, bəyanat üzrə müəyyən edilmiş qrafikə uyğun olaraq, ikinci

maddə üzrə noyabrın 20-də Ağdam, altıncı maddə üzrə noyabrın 15-də Kəlbəcər, dekabrın 1-də Laçın azad edilməli idi. Ermənistan Kəlbəcəri müəyyən edilmiş vaxtda azad edə bilməyəcəyini nəzərə alaraq, Rusiya vasitəsilə vaxtı noyabrın 25-dək uzatmağı xahiş etmişdir. Ona görə də üçtərəfli bəyanat üzrə işğaldan azad olunan ilk ərazi Agdam oldu. Kəlbəcər noyabrın 25-də, Laçın isə dekabrın 1-də Ermənistanın işğalçı qüvvələri tərəfindən azad edildi. Ağdamı demək olar ki, dağıdan Ermənistan, Kəlbəcər və Laçın azad edilərkən bu ərazilərdəki evlərə də böyük ziyan vurmuş, ekoloji terror həyata keçirilmişdir.

Rusiya sülhməramlı kontingentinin yerinə yetirilməsini nəzərdə tutan üçüncü maddə də qısa zamanda icra olunmuşdur. Atəşkəsə nəzarətin həyata keçirilməsi üçün tərəflərin razılığı üzrə Rusiya və Türkiyənin iştirakı ilə mərkəzin yaradılması da təşkil edilmişdir. Səkkizinci maddə üzrə, xüsusilə əsirlərin və cəsədlərin mübadiləsi üzrə də müəyyən işlər həyata keçirilmişdir.

Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində elə bir dağıntı törətmişdir ki, məcburi köçkün və qaçqınların geri qaytarılmasına həsr edilmiş yeddinci maddənin həyata keçirilməsi yalnız böyük bərpa və quruculuq işlərindən sonra başlaya bildi.

Bəyanatın ən önəmli maddələrindən biri olan doqquzuncu maddə üzrə Zəngəzur dəhlizinin açılması Ermənistan tərəfindən güclü müqavimətə rast gəldi və müxtəlif bəhanələr vasitəsilə onun reallaşdırılmasına müqavimət göstərildi.

### Zəfər təntənəsi

Azərbaycanın II Qarabağ müharibəsində qələbəsi və Ermənistanın kapitulyasiyası münasibətilə 10 dekabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər paradı keçirilmişdir. Türkiyə Cümhuriyyətinin Prezidenti R.T.Ərdoğan da Zəfər paradında iştirak etmişdir. Prezidentlər tarixi qələbənin əhəmiyyəti və Azərbaycan–Türkiyə əməkdaşlığının bu qələbədə rolunu xüsusi qeyd etmişlər.

## V. Zəfərin davamı – lokal antiterror əməliyyatı

### Erməni vandalizmi

Müharibənin qurtarmasından sonra Ermənistanın işğaldan azad edilmiş ərazilərində törətdiyi dağıntıların miqyası əyani şəkildə aydın oldu. Erməni vandalları demək olar ki, işğal altında olan əraziləri tamamilə məhv etmişdilər. Ağdam şəhəri dağıntıların miqyasına görə, Azərbaycanın Xirosiması adlandırılırdı.

Prezident 17 noyabr 2020-ci il tarixdə Füzuliyə səfəri zamanı demişdir: "Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq.

### Ermənistanın mina terroru

Ən böyük problemlərdən biri də Ermənistanın işğal etdiyi ərazilərdə mina terroru idi. Həmin dövrdə bu ərazilər dünya miqyasında minalar ilə ən çox çirklənmiş ərazi idi. Azərbaycanın bütün tələblərinə baxmayaraq, Ermənistan müharibə cinayətlərini davam etdirir və minalanmış ərazilərin xəritəsini verməkdən imtina edirdi. Bunun nəticəsi idi ki, dinc azərbaycanlıların minalara düşməsi davam edir və ölümlə nəticələnirdi. 2021-ci il iyun ayının 4-də AZƏRTAC və

AzTv-nin əməkdaşları vəzifələrini yerinə yetirərkən Kəlbəcər rayonunun Susuzluq kəndində tank əleyhinə minaya düşərək həlak olmuşdular. Ümumiyyətlə isə, 2020-ci il noyabrın 10-dan 2023-cü il noyabrın əvvəllərinədək 336 insan minaya düşmüşdür ki, onlardan 65-i həlak olmuşdur.

### Azərbaycan–Ermənistan sülh danışıqları

44 günlük müharibədən sonra Azərbaycan və Ermənistan arasında sülh danışıqları da aparılırdı. Sülh danışıqlarında vasitəçilik uğrunda Brüssel ilə Moskva arasında gərgin mübarizə gedirdi. Belə ki, tətəflər arasında Moskvanın təşkilatçılığı ilə üç görüş (2021, 11 iyun, Moskva; 2021, 26 may, Soçi; 2023, 25 may, Moskva), Brüsselin iştirakı ilə altı görüş (2021, 14 dekabr; 2022, 6 aprel; 2022, 22 may; 2022, 31 avqust; 2023, 13 may; 2023, 15 iyul) təşkil edilmişdir. Vaşinqton da bu istiqamətdə ilk təşəbbüslər (2023, 1 may) göstərmişdir. Buna baxmayaraq, sülh müqaviləsini razılaşdırmaq mümkün olmamışdır.

Ermənistan sülh danışıqlarında iştirak etməklə eyni zamanda, Azərbaycana qarşı hərbi təxribatlarını davam etdirirdi. Azərbaycan ordusu bütün bu təxribatların qarşısını qətiyyətlə almağa nail olmuşdur. 2022-ci il martın 9-da strateji cəhətdən mühüm əhəmiyyətə malik olan Fərrux yüksəkliyi ələ keçirilmiş, avqustun 3-də Qisas əməliyyatı uğurla başa çatmışdır. Ermənistan qisasçılıqdan əl çəkməmiş, 2022-ci ilin sentyabrında və 2023-cü ilin aprel və mayında yeni təxribatlar törətmiş, bu dəfə də Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbə vurmuşdur.

Hərbi təxribatlar ilə birgə ekoloji təxribatlar da davam etdirilirdi. Azərbaycanın Xankəndi bölgəsindəki yataqlar vəhşicəsinə istismar edilərək Ermənistana daşınırdı. Bu ekoloji təxribatın qarşısını almaq məqsədi ilə Azərbaycanın ekofəalları tərəfindən 2022-ci ilin dekabrından 2023-cü il aprelin 28-dək Laçın–Şuşa yolunda uzunmüddətli aksiya keçirmişdir.

Ermənilər tərəfindən onların əlində olan ərazilərdə, xüsusilə Xankəndidə siyasi təxribatlar davam etdirilirdi. Rusiyanın layihəsi hesab edilən milyarder Ruben Vardanyan onun vətəndaşlığından imtina edərək, Qarabağın dağlıq hissəsində yeni hərəkat yaratmaq məqsədilə 2022-ci ilin sentyabrında Xankəndiyə gəlmişdir. Ermənilərin oyuncaq hökumətində “dövlət naziri” postu tutaraq, Azərbaycan dövlətçiliyi əleyhinə fəaliyyətə başlamışdır.

### Laçın dəhlizinə nəzarət

Erməni separatçılarının mövcudluğunun əsas mənbəsini Ermənistandan silah-sursat və yeni istehsal edilən minalar gətirilməsini təmin edən Laçın dəhlizi idi. Azərbaycan Laçın şəhərinin daha tez azad edilməsi məqsədilə Laçın dəhlizinin yeni marşrutunu hazırladı. 26 avqust 2022-ci ildə Zabux və Laçın şəhəri azad edilsə də, ermənilərin Rusiya sülhməramlılarının nəzarətində olan Laçın dəhlizindən sui-istifadəsi davam etdirilirdi. Bunu nəzərə alan Azərbaycan Laçın–Xankəndi yolu üzərində suveren hüquqlarına uyğun olaraq, buraxılış nəzarət məntəqəsi yaratdı. Bu, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda atılan mühüm addımlardan biri oldu. Ermənistan və erməniпərəst qüvvələr, guya, ermənilərin blokadaya alınması haqqında mif irəli sürməyə başladı. Bu məntəqənin açılışı ilə ekofəalların missiyası da yerinə yetirilmiş oldu.

Azərbaycan Qarabağın dağlıq hissəsi ilə Xankəndi arasında əlaqələrin Ağdam–Xan-

kəndi yolu vasitəsilə həyata keçiriləcəyini bildirdi. Xarici qüvvələrin, xüsusilə də Fransanın bilavasitə iştirakı ilə Azərbaycana qarşı yeni təxribata əl atıldı. Ermənistan tərəfindən Azərbaycan sərhədinə doğru ərzaq yüklü tırlar göndərildi. Azərbaycan Laçın dəhlizinin, yalnız Ağdam–Xankəndi yolunun açılması ilə mümkün olacağını bəyan etdi. Ermənilərin ərzaqla təminatı və s. məsələlərin həlli üçün onların nümayəndələrinin iştirakı ilə görüş təklif etdi.

Bunun müqabilində erməni separatçıları 9 sentyabr 2023-cü il tarixdə "prezident seçkisi" təşkil etdi. Azərbaycanın suveren hüquqlarının pozulmasına xidmət edən bu tədbir qəti şəkildə pisləndi. "Seçki"nin nəticələrini bir sıra dövlətlər, o cümlədən, Avropa İttifaqı da tanımaqdan imtina etdi.

Azərbaycan onun ərazisində erməni separatçı qüvvələrinin fəaliyyətinin qarşısının alınması üçün qəti tədbir görməli oldu.

### VI. Lokal antiterror əməliyyatı

### Xankəndidə parad

19–20 sentyabr 2023-cü il tarixlərində cəmi 23 saat davam edən lokal antiterror əməliyyatı nəticəsində Xankəndi və ətrafındakı Ermənistan ordusunun hissələrinin müqaviməti qırıldı və ölkə ərazisini tərk etməyə məcbur edildi. Bu, Ermənistanın Azərbaycan qarşısında ikinci kapitulyasiyası idi. Birinci kapitulyasiya 10 dekabr 2020-ci il paradı ilə qeyd edilmişdisə, ikinci kapitulyasiya 8 noyabr 2023-cü ildə Xankəndi paradı ilə qeyd edildi.

### Yevlax görüşləri

Ermənilər yeni yaranmış situasiyanı nəzərə alaraq erməni icmasının ehtiyaclarına dair Azərbaycan tərəfindən müəyyən edilmiş nümayəndə heyəti ilə əvvəllər imtina etdikləri danışıqlar aparılmasına məcbur oldu. 21 sentyabr 2023-cü ildə ilk dəfə Yevlaxda və 25 sentyabrda isə Xocalıda görüşlər keçirildi.

2023-cü il sentyabrın 28-də "DQR"-in oyuncaq prezidenti 2024-cü il yanvarın 1-dən onun buraxılmasını elan etdi. 29 sentyabrda Azərbaycan və erməni icmasının nümayəndələri arasında ikinci Yevlax görüşü oldu. Azərbaycan erməni vətəndaşlarının ərzaq və həyati təhlükəsizliyini tam şəkildə təmin etməyə hazır olduğunu bildirdi. Buna baxmayaraq, Azərbaycan vətəndaşlığının qəbul edilməsi haqqında təklifləri qəbul etməyən ermənilər ölkəni tərk etməli oldu. Beləliklə, Azərbaycan ərazi bütövlüyünü tam şəkildə bərpa etdi.

### Separatçı "liderlər"in həbsləri

19-20 sentyabr 2023-cü il tarixli lokal antiterror əməliyyatının qələbəsinin ən mühüm nəticələrindən biri də Azərbaycan torpaqlarında hakimiyyət iddiasında olan separatçı "liderlərin" həbs edilməsi oldu. İlk belə tədbirlərdən biri 29 iyul 2023-cü ildə keçirilmiş, Xocalıda soyqırımının həyata keçirilməsindən fəal iştirakçılarından olan Vaqif Xaçatryan tutulmuşdur. Sentyabrın sonu – dekabrın əvvəllərində isə Ruben Vardanyan, Lyova Mnatsakanyan, David Babayan, Bako Saakyan, "prezident" Araik Arutyunyan, Arkadi Qukasyan və digərləri həbs edilərək, Bakıya gətirildi.

### Azərbaycan bayrağı Xankəndidə və Xocalıda

Prezident İlham Əliyev 15 oktyabr 2023-cü ildə əvvəlcə Xocalıda, sonra isə Xankəndidə Azərbaycan bayrağını ucaltdı. Noyabrın 8-də Xankəndidə qələbə paradı keçirildi. Prezident İlham Əliyev paradda çıxışında demişdir: "biz tarixi ədaləti bərpa etdik. 20

sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq".

Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpası həmin ərazilərin Ümumazərbaycan iqtisadiyyatına, sosial-mədəni və siyasi həyatına inteqrasiyası sahəsində yeni tələblər irəli sürdü. 28 noyabr 2023-cü ildə Xankəndi şəhərində Qarabağ Universitetinin açılması haqqında Prezident sərəncamı verildi. İlham Əliyev dekabrın 6-da "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlət və çətinliklər" adlı forumda xarici ekspertlərin suallarını cavablandırdı.

### VII. Növbədənkənar prezident seçkiləri Qalib liderin qələbəsi

Azərbaycan Respublikasının Prezidenti yalnız ona məxsus siyasi uzaqgörənlik və iradə ilə bütün dünyaya örnək ola biləcək bir qərar qəbul etdi. Prezident sərəncamına uyğun olaraq 2024-cü il dekabrın 7-də Azərbaycan Respublikasında növbədənkənar prezident seçkiləri elan edildi. Prezident İlham Əliyev bu qərarını yerli telekanallara 10 yanvar 2023-cü il tarixli müsahibəsində ətraflı şəkildə təhlil etmişdir.

Dekabrın 15-də YAP İdarə Heyətinin genişləndirilmiş iclasında partiya lideri İlham Əliyevin prezidentliyə namizədliyi yekdilliklə irəli sürüldü. Prezident həmin günlərdə də Azərbaycanın təmin edilmiş ərazi bütövlüyünün möhkəmləndirilməsi sahəsində fəaliyyətini davam etdirirdi.

Dekabrın 21-də Xankəndi şəhər stadionunda Prezident İlham Əliyevin dərin məzmunlu çıxışı oldu, sonra isə Qarabağ və MOİK komandaları arasında Azərbaycan kuboku üzrə futbol oyunu keçirildi. Azərbaycanın bütün ərazisi üzərində suveren hüquqlarını həyata keçirməsi geridönməz xarakter aldı. Bunun ən mühüm simvollarından biri İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın seçki günü məhz Xankəndidə səs verməsi oldu. Prezident İlham Əliyev andiçmə mərasimində bu barədə demişdir: "Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

2024-cü il 7 fevral prezident seçkiləri böyük ruh yüksəkliyi və davamiyyət ilə əlamətdar oldu. Çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin də təsdiq etdiyi kimi seçki demokratik və şəffaf şəraitdə keçirilmişdi. Seçki prosesində seçicilərin 92,12 faizi hakim partiya YAP İlham Əliyevə səs verdi. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Konstitusiya Məhkəməsinin Plenumu seçkinin nəticələrini təsdiq etdi.

### Azərbaycan tarixində yeni mərhələ

2024-cü il fevralın 14-də Milli Məclisdə İlham Əliyevin andiçmə mərasimi keçirildi. Prezident İlham Əliyev andiçmə mərasimində tarixi nitq söylədi. Prezidentin nitqində həm 2003-cü ildən başlanan tarixi yola yekun vuruldu, həm də ölkənin inkişaf perspektivi müəyyən edildi.

### VIII. Prezident Qarabağ və Şərqi Zəngəzurda

İşğaldan azad edilmiş ərazilərin tarixində Prezident İlham Əliyevin həmin ərazilərə səfəri böyük tarixi əhəmiyyətə malik idi. Prezident İlham Əliyev 2020-ci ilin oktyab-

rından 2023-cü ilin noyabrınadək işğaldan azad edilmiş ərazilərə doxsan dəfəyədək səfər etmişdir. Bu səfərlər prosesində işğaldan azad edilmiş ərazilərin bərpa və yenidən qurulması və Böyük Qaydışın həyata keçirilməsi hazırlanmışdır.

**IX. Böyük Qayıdış**

**Zəfərdən quruculuğa**

Azərbaycanın II Qarabağ müharibəsinin gedişi zamanı əldə etdiyi qələbələr və işğaldan azad edilmiş torpaqların ərazisinin genişləndirilməsi bu ərazilərin bərpa və yenidən qurulmasını, həmçinin məcburi köçkünlərin öz yerlərinə qayıtmasını da reallığa çevirdi. Ermənistanın işğalı altında olan Azərbaycan əraziləri azad edildikcə ictimai fikirdə belə bir təsəvvür var idi ki, məcburi köçkünlər bu prosesin ardınca həmin ərazilərə qayıda biləcəkdir. Azərbaycan dövləti isə bu ərazilərdə baş verən dağıntının miqyasını və minalanmasının səviyyəsini nəzərə alaraq, problemin həllinə konseptual yanaşmağa üstünlük verdi.

**Bərpa və inkişaf konsepsiyası**

Bununla əlaqədar olaraq, dövlət tərəfindən müvafiq tədbirlər görülməsinə başlandı. İlk tədbirlər işğaldan azad edilmiş ərazilərinin idarəsinin təşkili bağlı idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müharibənin davam etdiyi dövrdə, 29 oktyabr 2020-ci ildə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərmanı imzalandı.

Fərmana uyğun olaraq, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmağa başlandı. Müharibənin başa çatmasından sonra, 24 noyabr 2020-ci ildə Prezdent sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı əlaqələndirmə qərargahı yaradıldı.

Bu sahədə görülən ən mühüm işlərdən biri kimi Azərbaycan Respublikasının iqtisadi rayonlaşdırılmasının təkmilləşdirilməsi oldu. Prezidentin 7 iyul 2021-ci il tarixli sərəncamı ilə yeni Qarabağ (Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan) iqtisadi rayonları yaradıldı.

**Azad edilmiş ərazilərdə idarəetmə**

İdarəetmənin təşkili ilə birgə, işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı inkişafının təmin edilməsi ciddi vəzifə kimi qarşıda dururdu. Bu məsələ "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nda da (26 aprel 2021-ci il) əksini tapmışdır. Dövlət Proqramının 5-ci bölməsində əhalinin repatriasiyasından bəhs olunur. Orada qeyd edilir ki, "İsğaldan azad edilmişərazilərə əhalinin repatriasiyası prosesinin fundamental əsaslarının müəyyən edilməsi üçün, ilk növbədə, məcburi köçkünlər arasında sorğular aparılır və səmimilik prinsipinə əsaslanan bu sorğuların nəticələrinə əsasən müvafiq planlasḑırma sxemləri hazırlanır. Əhalinin repatriasiyası prosesi sosial-demoqrafik dinamika nəzərə alınmaqla, könüllülük, sosial ədalətin qorunması, o cümlədən əmlak və mülkiyyət hüquqlarının bərpası kimi prinsiplər əsasında aparılır".

Dövlət Proqramında məcburi köçkünlərin

doğma torpaqlarına qaytarılmasının beynəlxalq praktika nəzərə alınmaqla, yerli şəraitə uyğun şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Əhalinin repatriasiyası kompleks yanaşmanın tətbiqi və mərhələlik prinsipinin gözlənilməsi şərti ilə həyata keçirilməlidir. Bu zaman repatriasiya üç fazada reallaşdırılmalıdır. Proqramda qeyd olunan repatriasiya prosesinə uyğun, müvafiq prioritet istiqamətlərin həyata keçirilməsinin mərhələliyini və digər zəruri tədbirlərin icrasının isə paralel yerinə yetirilməsinin vacibliyini nəzərə alaraq bu istiqamətdə yerinə yetiriləcək tədbirlərin matrisi də hazırlanmışdır.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında ən mühüm yenilik onun müasir dövrün tələblərinə uyğunlaşdırılması olmuşdur. Bu məqsədlə "ağıllı kənd" və "ağıllı şəhər" modeli hazırlanmışdır. Bərpa ediləcək birinci kənd kimi Zəngilanın Ağalı kəndi müəyyən edilmişdir. Prezident İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarına 2021-ci il aprelin 26-dakı səfəri zamanı demişdir: "Əslində, bu, azad edilmiş torpaqlarda inşa edilən birinci kənddir. Əlbəttə ki, bu kəndin çox böyük önəmi var".

**Qayıdışın xronikası**

Prezident İlham Əliyev məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasını Böyük qayıdış kimi müəyyən etmişdir. O, Kəlbəcər və Laçın rayonlarına 2021-ci il avqustun 16-dakı səfəri zamanı demişdir: "Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq" . Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərinin uğurla həyata keçirilməsinə paralel olaraq məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması da reallığa çevrildi.

19 iyul 2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsilə Böyük qayıdışa start verilmişdir. Böyük Qayıdış 2023-cü ildə də davam etdirildi. Martın 16-da 20 köçkün ailəsi Talış kəndinə, mayın 27-də 20 ailə (90 nəfər) Laçın şəhərinə, avqustun 18-də 25 ailə (90 nəfər) Füzuliyə, avqustun 25-də 20 ailə (88 nəfər) Laçının Zabux kəndinə qayıtmışdır.

**X. Birinci xanım Prezidentlə çiyin-çiyinə**

Birinci xanım Mehriban Əliyeva 1990-cı illərin ortalarından Azərbaycanın ictimai-siyasi həyatında önəmli rol oynamağa başlamışdır. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsilə bu idman sahəsində yeni uğurlar əldə edilməsini təmin etmişdir. Onun Heydər Əliyev Fondunu təsis etməsi və prezidenti kimi fəaliyyəti isə onun ictimai-siyasi həyatında yeni dövr açmışdır. Mehriban Əliyevanın fəaliyyəti Azərbaycanın hüdudlarını aşaraq dünya miqyasına çıxmışdır. İSESKO-nun xoşməramlı səfiri kimi İslam mədəniyyətinin inkişafına böyük töhfələr vermişdir. 2005-2017-ci illərdə Azərbaycan Milli Məclisinin üzvü kimi parlamentdə fəaliyyət göstərmiş, nəinki öz seçicilərinin, bütövlükdə Azərbaycan xalqının hörmətini qazanmağa nail olmuşdur. Mehriban Əliyeva məhz bu nüfuzuna görə, 1 fevral 2027-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilmişdir.

Mehriban Əliyevanın dövlət rəhbərlərindən biri kimi rolu İkinci Qarabağ müharibəsi dövründə özünü xüsusilə nümayiş etdirmişdir.

O, müharibənin ilk günündən etibarən Ali Baş Komandan İlham Əliyev ilə birgə müharibədə qələbənin təmin olunmasında iştirak etmişdir. Müharibənin gedişində onun sosial şəbəkələrdəki paylaşımları Azərbaycan xalqına dəstək olmuşdur.

Birinci xanım Mehriban Əliyeva müharibənin 3-cü günü, 29 sentyabr 2020-ci ildə İnstaqram səhifəsindən paylaşımında yazırdı: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir…Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm! Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin! Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!".

Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevlə bir yerdə ilk dəfə işğaldan azad edilmiş Azərbaycan torpaqlarında olmuş, real vəziyyət haqqında ilk paylaşımlar etmişdir. Onun ən böyük xidmətlərindən biri də rəhbərlik etdiyi Heydər Əliyev Fondu vasitəsilə Böyük Qaydışın həyata keçirilməsinə verdiyi töhfəsilə bağlıdır. Heydər Əliyev Fondu işğal edilmiş bütün ərazilərdə, xüsusilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada ən möhtəşəm tarix və mədəniyyət abidələrinin bərpası missiyasını öz üzərinə götürərək, bunu uğurla həyata keçirməkdə davam etməkdədir.

**Nəticə**

Prezidentliyə namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb, onun namizədliyini müdafiə edən Ulu öndər Heydər Əliyevin tarixi qərarı öz həyatiliyini təsdiq etdi. İlham Əliyev bir-birinin ardınca Azərbaycan Respublikasının Prezidenti seçilərək xalqın və dövlətin qarşısında duran ən mühüm məqsədə – Ermənistanın işğalı altında olan ərazilərin müharibə yolu ilə azad edilməsinə nail ola bildi.

Bu möhtəşəm qələbəyə çatmaq üçün Prezident İlham Əliyev dünya hərb tarixində tayı-bərabəri olmayan strategiya və taktika hazırladı və tətbiq etdi. Hakimiyyətinin ilk 17 ili ərzində bir tərəfdən Ermənistanın bir-birini əvəz edən dövlət və hökumət başçıları ilə səbr və təmkinlə sülh danışıqlarını davam etdirdi, digər tərəfdən dövlətin qarşısında duran prioritetləri dəqiq müəyyən edərək, ardıcıl şəkildə yerinə yetirməyə başladı.

Modern dövlət quruculuğu təmin edildi, yeni və müasir Azərbaycan Ordusu yaradıldı, dövlət, xalq və ordunun qələbə naminə birliyi təmin edildi. Bunun nəticəsində, 44 gün ərzində Böyük Zəfərə nail olundu, Ermənistan kapitulyasiyaya məcbur edildi. Post-müharibə dövründə də qələbə strategiyası davam etdirildi, 2023-cü ilin 19-20 sentyabrında uğurla həyata keçirilən lokal antiterror əməliyyatı nəticəsində Azərbaycanın bütün ərazisində suveren hüquqları bərpa edildi.

Prezident İlham Əliyev yenilməz siyasi iradə nümayiş etdirərək növbədənkənar prezident seçkiləri elan etdi. Bununla da Azərbaycan tarixində yeni dövrün də başlanğıcını qoydu. Azərbaycan tarixinin İlham Əliyev epoxasının tarixi təcrübəsi yeni dövrdə də yeni qələbələrdən xəbər verir.

**Kərim ŞÜKÜROV,**
**AMEA Tarix İnstitutunun**
**baş direktoru, professor**

## Çoxşaxəli siyasətin uğurları

**İyirmi ildən çox müddət ərzində Azərbaycana uğurla rəhbərlik edən İlham Əliyevin beşinci dəfə prezident seçkilərinə qatılması və parlaq qələbəsi xalqın ləyaqətini, milli heysiyyətini, vətəndaşlıq düşüncəsini bərpa edən tarixi şəxsiyyətə ümumxalq məhəbbətinin daha bir təsdiqi oldu. İlham Əliyev 20 il ərzində Azərbaycan xalqının bütün nailiyyətlərinin təşkilatçısıdır.**

Ulu öndərin tarixi fikirləri necə də dəqiqliklə deyilmişdir: "O, yüksək intellektli, praktik düşüncəli, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev və Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı, xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm..."

Bu gün hər birimiz Ümummilli liderimizin böyük etimadının heyrətamiz dərəcədə doğrulduğunun şahidiyik...

İnkişaf təbii, iqtisadi, sosial, siyasi, mədəni, mənəvi təkamülü, keyfiyyətcə dəyişməni nəzərdə tutur. Azərbaycan xalqının yüzillikləri əhatə edən tarixi yolundakı inkişaf mərhələlərini kimsə dana bilməz. Məsələ burasındadır ki, iyirmi il ərzində Azərbaycan xalqı və İlham Əliyevin müştərək müəllifliyi ilə əldə olunmuş yekunları yalnız inkişaf göstəriciləri saymaq azdır. Çünki, o, kifayət qədər möhtəşəm milli inkişafla bərabər, müasir Azərbaycan intibahının müəllifidir. Belə müəlliflik səlahiyyəti ciddi şərtlər daxilində mümkün ola bilir. Məncə, ilk şərt odur ki, İlham Əliyev dövlət rəhbərliyinə başlayan ilk günlərdə Ulu öndərin yoluna, ümumxalq sədaqətinə üz tutdu və belə seçim dünən də, bu gün də Azərbaycanın hərtərəfli, qlobal uğurlarının müasir, milli və ideoloji əsaslarını təmin edir.

Azərbaycanın dövlət müstəqilliyi tam, dönməz, əbədi bərqərar olmuşdur. Milli iqtisadi inkişaf beynəlxalq səviyyədə nümunədir. Azərbaycanda ərazi bütövlüyünü, ölkənin sərhədlərini qorumaq qüdrətinə malik ordu yaradılmışdır. Sosial-infrastruktur quruculuğunun həm miqyası, həm keyfiyyəti, həm də görülən işlərin sürəti heyrətamizdir. İyirmi il ərzində müvafiq mərhələ ardıcıllığı ilə əhalinin həyat şəraiti yüksəlmiş, insanların təhlükəsizliyi, asayişi təmin olunmuş, hüquqi dövlət möhkəmlənmişdir.

Yenidən Prezident seçilən İlham Əliyev 2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Milli Məclisində geniş və əhatəli, məzmunlu, cəmiyyəti maraqlandıran bütün təməl sualların cəmini cavablandıran, yekunları və perspektivləri əks etdirən nitq söylədi. Həmişə olduğu kimi, Prezidentin proqram mahiyyətli nitqi həm daxili, həm də xarici auditoriyanın diqqətini ciddi şəkildə cəlb etdi. Yeni mərhələdə də "Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyünün qorunması üçün" var gücünü sərf edəcəyini bəyan edən İlham Əliyev 2003-cü ildə verdiyi bütün vədlərin yerinə yetirildiyini, qazanılmış nailiyyətlərin mənbəyinin Azərbaycan xalqı, xalqın öz rəhbərinə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığı olduğunu bildirir: "Biz böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik," – deyir.

Möhtərəm Prezident Milli Məclisdə keçirilən andiçmə mərasimində Xankəndidə səs verməsinin səbəbini açıqladıqda ürəyimiz dağa döndü. Cənab İlham Əliyev dedi ki, Azərbaycanın istənilən yerində səs verə bilmək imkanına malik olsa da, Xankəndidə səs verməyi daha düzgün addım hesab edib. Çünki dünya erməniliyinin məhv edilmiş 200 illik məkrli planlarının ssenarilərinə əsasən, məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlanıb. Məhz Xankəndidə səs verdiyi binada xalqımıza qarşı soyqırımı planlaşdırılıb və oradan idarə olunub. Məhz səs verdiyi binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti Azərbaycana qarşı ərazi iddialarını irəli sürüb. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilib və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq olub. Otuz il bu yurd yerlərimizi işğal altında saxlayıb xarabalığa çevirən şeytanlar sonda elə bir zərbə aldılar ki, bir də çətin özlərinə gələrlər. Çünki Zəfər komandanı onların 200 illik xülyasını məhv edib. Xankəndidə seçki qutusuna atılan bülleten isə möhtərəm Prezidentimizin təbirincə desək, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi…

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ötən 20 ildə keçdiyi inkişaf yolunu xarakterizə edərkən ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial təminat sisteminin dinamikası istiqamətində görülmüş tədbirləri və əldə olunmuş uğurları xüsusilə qeyd etmək lazımdır. Həyata keçirilən çoxşaxəli islahatlar, genişmiqyaslı tədbirlər sosial dövlət quruculuğu istiqamətində böyük nailiyyətlərin əldə olunmasını şərtləndirmişdir. Ölkənin ildən-ilə artan maliyyə imkanları hər zaman vətəndaşların daha yaxşı həyat şəraiti ilə təmin olunmasına, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğuna xidmət etmişdir. Möhtərəm liderimizin səsləndirdiyi "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların mənafeyi dayanır" iqtibası ölkəmizdə reallaşdırılan sosial siyasətin mahiyyətini ifadə etməklə, cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin qayəsini "xalqa ləyaqətlə xidmət etmək" prinsipi təşkil etdiyini göstərir.

Cənab İlham Əliyev həmişə sözünə güvənilən liderdir. Bütün Azərbaycan xalqı bilir və əmindir ki, dövlətimizin başçısının sözü ilə əməli üst-üstə düşür. O, nəyi deyirsə, onu da edir, nə vəd verirsə, çox keçmədən bütün hər kəs bu vədin həyata keçdiyinə şahid olur. Prezident kimi vəzifəsinin icrasına başlayarkən, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəyini bildirən cənab Prezidentin rəhbərliyi ilə sosial həyatın elə bir sahəsi yoxdur ki, orada məqsədyönlü tədbirlər həyata keçirilməsin. Dövlət başçısının uğurlu sosial siyasətinin nəticəsi olaraq 2003-2023-cü illərdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artmışdır ki, bu rəqəm nəinki keçmiş postsovet məkanında, eləcə də dünyanın qabaqcıl dövlətləri ilə müqayisədə də ən yüksək göstəricilərdən biridir. Bu dövrdə əhalinin nominal gəlirləri 12 dəfə, orta aylıq əməkhaqqı 10,8 dəfə, pensiyaların orta aylıq məbləği 15,6 dəfə artmışdır. O cümlədən işsizliyin səviyyəsi 5,6 faizə, yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizədək enmişdir. Sözügedən dövrdə əhalinin yaşayış səviyyəsinin əsas indikatorlarından biri olan

minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, minimum pensiya 14 dəfə artırılaraq 280 manata çatdırılmışdır. Həmçinin orta aylıq əməkhaqqı 12 dəfə artaraq 940 manata, orta aylıq pensiya 18 dəfədən çox artaraq 500 manata çatmışdır.

Ümumiyyətlə, cənab İlham Əliyevi həm xalqına, həm də dünyada sevdirən ən mühüm amil verdiyi sözə, vədə sadiqliyidir. Prezidentimizin sözü imzası qədər keçərlidir və bu günədək reallaşdırmadığı söz, vəd qalmayıb.

Andiçmə mərasimində Azərbaycanın daha böyük zəfərlərə doğru inamla irəliləyəcəyini söyləyən möhtərəm Prezident növbəti 7 illik fəaliyyətində də ölkə vətəndaşının maraqlarının, onun rifahının daim diqqət mərkəzində olacağını, yaşayış səviyyəsinin daha da yaxşılaşacağını söylədi.

Adı tariximizin qızıl səhifəsinə qalib xalqın qalib lideri kimi yazılan cənab İlham Əliyevin andiçmə mərasimindəki nitqi həm də çox mühüm mesajlarla yadda qaldı. Dövlət başçısı nitqində bir çox məqamlara aydınlıq gətirdi, Azərbaycanın qarşısında duran yeni hədəflərdən, nəhəng iqtisadi layihələrdən, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi istiqamətində görüləcək işlərdən söz açdı, şanlı Zəfərimizi şərtləndirən amilləri diqqətə çatdırdı, yeni prioritetlərin yol xəritəsini təqdim etdi.

Azərbaycan güclü və özünü təmin edən regional aktor qismində yeni dövrə qədəm qoyur. Hər zaman tam müstəqil siyasət yürüdən və məhz bu səbəbdən də etibarlı tərəfdaş statusuna sahiblənən dövlətimiz xarici siyasət kursunu davam etdirməlidir. Məhz bu xarici siyasət ölkəmizin nüfuzunu gündən-günə yüksəldir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi qitənin enerji xəritəsini tamamilə dəyişib. Bütün bunlar İlham Əliyevin müəllifi olduğu qlobal layihələrin hesabına reallaşıb.

Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimində çıxışı zamanı bir çox önəmli məqamlarla yanaşı, Türk dünyasının sıx əməkdaşlığına, Türk Dövlətləri Təşkilatının güclü quruma çevrilməsi məsələsinə də toxundu. Dövlət başçısı vurğuladı ki, Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bu səbəbdən də Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik: “Bu, bizim üçün prioritetdir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir”. Dövlət başçısı əlavə edib ki, bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır: “Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik”.

Azərbaycan Türk Dövlətləri Təşkilatının üzvləri, Mərkəzi Asiya ölkələri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Heç təsadüfi deyil ki, Prezident seçildikdən sonra cənab İlham Əliyev ilk xarici səfərini qardaş Türkiyəyə etdi, ilk xarici qonaqlardan biri kimi

isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi Azərbaycana dəvət etdi və çox uğurlu, yüksək səviyyəli qardaşlıq görüşü baş tutdu.

Prezident İlham Əliyevin də söylədiyi kimi, Azərbaycanın xarici siyasəti bundan sonra da çox aydın və açıq olacaq. Çünki indiyədək möhtərəm Prezidentimizin yürütdüyü siyasət dünya ictimaiyyəti tərəfindən bəyənilir, dəstəklənir. Əgər belə olmasaydı, 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv, 120 ölkə Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bugünədək ölkəmizdə bir çox tədbir keçirilsə də, COP29 bu vaxta qədər keçirilən tədbirlərlə müqayisəyə gəlmir. Çünki COP29 ərəfəsində on minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı növbəti dəfə dünyanın diqqətini çəkəcək. Müəyyən ehtimallara görə, təqribən 70-80 min əcnəbi qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Digər tərəfdən, vaxt da o qədər çox deyil. Ona görə də Prezident İlham Əliyev dərhal bütün hazırlıq işlərinə start verilməsi üçün tapşırıq verib. COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq, Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Azərbaycan Prezidentinin digər sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən, Təşkilat Komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP29-la bağlı Azərbaycandan böyük gözləntilər var: həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə əlaqədar qarşıya yeni hədəflər qoyur. Bununla yanaşı, İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

COP29 iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biri olduğu üçün Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü dünyaya sübut edəcək. Bu sammit Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə mühüm təkan, ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına isə müsbət impuls verəcək.

Avropanın lider ölkələrinin rəhbərləri özləri etiraf edirlər ki, bu gün dünya siyasətçiləri, dövlət başçıları beynəlxalq tədbirlərdə cənab İlham Əliyevlə şəkil çəkdirmək üçün növbəyə dururlar.

Elə bu il fevralın 16-18-də Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransına dəvət edilməsi, bu mühüm toplantıda iştirakı, konfrans çərçivəsində bir çox dövlət liderinin xahişi ilə keçirilən görüşlər bir daha sübut edir ki, dünya ölkələri, böyük iqtisadi təşkilatlar Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir, cənab İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və önəmli lider hesab edirlər.

Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransı dünya liderlərinin, aparıcı beynəlxalq təşkilatların, nüfuzlu tədqiqat, elm mərkəzlərinin rəhbərlərinin, tanınmış ekspertlərin toplaşdıqları ən mühüm platformalardan biridir. Azərbaycan müntəzəm şəkildə bu platformaya cənab İlham Əliyevin şəxsində dəvət alır, dövlət başçısı müzakirələrdə fəal iştirak edir, qlobal və regional təhlükəsizlik məsələləri ilə bağlı öz dəyərli fikirlərini bölüşür. Prezident İlham Əliyev üç gün ərzində qarşı tərəflərin müraciətlərinə əsasən, 23 mühüm görüş keçirib. Bu görüşlər haqqında qarşı tərəfin müraciətləri və görüşlərin intensivliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan böyük hörmət və diqqətin göstəricisidir. Görüşlərin intensivliyi Azərbaycanla əməkdaşlıq etmək istəyənlərin sayının həddən artıq çox olması ilə bağlı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cəmiyyətin və dövlətin marağında olan təhsil sahəsinin inkişafına xüsusi əhəmiyyət verir. Ötən dövrdə ölkəmizdə elm və təhsilin inkişafına böyük diqqət yetirilmişdir. Ümummilli liderimiz tərəfindən əsası qoyulmuş və xalqın gələcəyinə hesablanmış təhsil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün neft kapitalının insan kapitalına çevrilməsini prioritet məsələ hesab edən Prezident İlham Əliyev deyir ki: “Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı, büdcədə təhsil xərcləri birinci yerdə olacaqdı. Bu fikir cənab Prezident tərəfindən təhsilə nə qədər böyük əhəmiyyət verildiyinin göstəricisidir. Bu gün Azərbaycanda həyata keçirilən dövlət proqramları və islahatlar çərçivəsində təhsilin bütün sahələri surətlə inkişaf edir.

Təhsilin səviyyəsinin yüksəlməsində müəllimlərin peşəkarlığı mühüm rol oynayır. Bununla bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev demişdir: “Təhsilin keyfiyyəti artmalıdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, burada əsas məsələlərdən biri müəllimlərin peşəkarlığıdır. Çünki təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirlərsə, uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər”.

Prezident İlham Əliyevin son iyirmi illik fəaliyyəti ölkəmizdə təhsil siyasətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. O, təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərək azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, Vətənə sədaqət, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi mə-

sələlərini önə çəkibdir. Bunlar isə hər bir məsuliyyətli ölkə vətəndaşı, o cümlədən respublikamızın təhsil ictimaiyyəti qarşısında yeni vəzifələr qoyur.

Ermənistan tərəfindən onilliklər boyu soyqırımı, deportasiya və təhdidlərə məruz qalmış, bu gün təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan yüz minlərlə azərbaycanlının doğma Vətəninə qayıtmaq hüququnun təmin edilməsi üçün yeni bir mübarizəyə başlayaraq, Qərbi Azərbaycan İcmasının yaradılmasına xeyir-dua vermiş cənab Prezident 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasında etdiyi çıxışında vurğunu məhz bu amillərin üzərinə salmışdır: “Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir.” Bu gün onun ideyalarını gerçəkləşdirmək uğrunda ardıcıl və yorulmaz mübarizə aparan Qərbi Azərbaycan İcması “Qayıdış Konsepsiyasını” həyata keçirmək əzmindədir.

Bütün bunlar cənab İlham Əliyevin 20 ildə həyata keçirdiyi xarici siyasətin aynasıdır. Hər kəs dövlət başçımızla görüşmək istəyir. Amma Azərbaycan Prezidenti heç kimdən nəyisə xahiş etmir. Özünün də dediyi kimi, 20 ildən çoxdur ki, Prezident kimi heç kimdən heç nə xahiş etməyib. Çünki buna ehtiyac da olmayıb. Azərbaycan özünü tam təmin edən ölkədir. Azərbaycan hər zaman ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır və xarici siyasəti də buna hesablanıb – bərabərhüquqlu münasibətlər, qarşılıqlı hörmət, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, Azərbaycanın prinsipləridir və bu prinsipləri cənab İlham Əliyev diktə edib və qəbul etdirə də bilib.

Bu gün isə Azərbaycan üçün yeni bir mərhələ başlayır. Dövlətimizin başçısının da bəyan etdiyi kimi, ən mühüm vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, 30 illik işğal dövründə tamamilə dağıdılan, talan olunan yurdlarımızın, şəhər və rayonlarımızın ən yüksək səviyyədə yenidən qurulması, orada həyatın bərpa olunması, keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasıdır. Azərbaycan dövləti bu istiqamətdə çox nəhəng tədbirlər həyata keçirməkdədir. Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, həyata keçirilən işlərə birbaşa özləri nəzarət edirlər.

İşğaldan azad edilmiş ərazilərdə ən müasir şəhərsalma nümunələri, texnologiyaları tətbiq etməklə, "ağıllı şəhər" və "ağıllı kənd"lər, bütün sosial infrastruktur, o cümlədən xəstəxanalar, məktəblər, idman obyektləri, iaşə obyektləri, yollar, tunel və körpülər inşa olunur, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılmış, elektrik və su təsərrüfatı yenidən qurulmaqdadır. Burada görülən işlər, bir çoxu üçün xəyal kimi görünən nəhəng layihələrin reallaşdırılması azad edilmiş torpaqlara gələn hər kəsi valeh edir, təəccübləndirir.

Bu gün Qarabağ və Şərqi Zəngəzur nəhəng quruculuq, dirçəliş meydanıdır. Təəssüf ki, çox insan mina qurbanına çevrilib, həyatını, yaxud sağlamlığını itirənlər var. Bununla belə ərazilər mənfur düşmənin yeraltı xəyanətindən xilas edilir; 120 min hektara yaxın ərazi təmizlənib. Əhalinin təhlükəsizli-

yi təmin olunduqca, həyat şəraiti yaradıldıqca azad edilmiş yurdlara əbədi qayıdış sürətlənir. İndiyəcən 5400 keçmiş köçkün beş yaşayış məntəqəsinə göndərilib. İlin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min insan yerləşdiriləcək. Böyük Qayıdış proqramının birinci mərhələsində – 2026-cı ildə dədə-baba yurdlarına dönənlərin sayı 140 min nəfərə çatacaq. Hazırda erməni vandallarının xarabazara çevirdiyi torpaqların yarasına məlhəm qoyulur. Orada bütün sosial infrastruktur əsaslı şəkildə yenidən qurulur: xəstəxanalar, məktəblər, idman obyektləri, yollar, 130-dan çox tunel və körpü inşa edilir. İqtisadiyyatın hərtərəfli inkişafı, yoxsul-luğun minimum həddə endirilməsi, xarici iqtisadi və beynəlxalq münasibətlər, insanların sosial rifah halının yaxşılaşdırılması, iş yerlərinin açılması, gəlirlərin artımı, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi kimi vacib həyati problemlərə toxunan, perspektivləri, həll yollarını göstərən Prezident İlham Əliyevin çıxışının son cümlələrini həyəcansız oxumaq olmur: “Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik. Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək!”

Möhtərəm Prezident İlham Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin də böyük hamisidir. O, Azərbaycanın inkişaf trendlərini müəyyənləşdirərkən iqtisadi-sosial tərəqqiyə xidmət edən proqram və konsepsiyaların həyata keçirilməsində, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqində nə qədər yenilikçi, islahatçı, novator lider kimi çıxış edirsə, milli-mənəvi dəyərlərin, xalqımızın tarixi ənənələrinin qorunması məsələlərinə isə kifayət qədər mühafizəkar yanaşır. O, hər zaman xalqi siyasət həyata keçirir və haqlı olaraq, hesab edir ki, "xalq", "millət" anlayışları ön planda olanda istənilən problem öz həllini tapa bilər. "Milli dəyərlər hər şeydən üstün olmalıdır. Bizi xalq kimi, millət kimi əsrlər boyu qoruyan bizim dəyərlərimiz olub"– deyən dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan o ölkələrdəndir ki, öz inkişafını, gələcəyini milli köklər üzərində qurmuşdur. Ötən dövrdə də milli-mənəvi dəyərlərimizin, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişafı istiqamətində geniş tədbirlər həyata keçirilmişdir.

Artıq Azərbaycan xalqı öz şərəfli tarixinin yeni mərhələsini yaşayır. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, yeni dövrə qədəm qoyarkən bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun. Bütün xalqımız kimi mən də əminəm ki, bu ümidlər, arzular həyata keçəcək, yeni dövr də Azərbaycan xalqı üçün çox uğurlu olacaq. Bu əminlik xalqımızın öz gücünə, öz bacarığına inamla yanaşı, öz Liderinə sonsuz etimadından irəli gəlir.

İnanıram ki, möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün vədləri həyatda öz əksini tapdığı kimi, yeni dövrdə də qarşıda duran vəzifələr uğurla yerinə yetiriləcək, Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir!

**Misir MƏRDANOV,**
**AMEA-nın müxbir üzvü, Riyaziyyat və Mexanika İnstitutunun direktoru**

# Milli iqtisadi doktrinanın hədəfi ümumi tərəqqi və yüksək rifahdır

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son 2 onillikdə Azərbaycanda aparılan siyasi, iqtisadi və sosial islahatlar dönməz xarakter almaqla cəmiyyətin bütün fəaliyyət sahələrini əhatə etmiş, ölkəni yeni inkişaf mərhələsinə çıxarmışdır.**

Azərbaycan hərtərəfli yeniləşmə və tərəqqinin bu yüksək mərhələsinə Ümummilli lider Heydər Əliyevin yaratdığı məqsədyönlü və fundamental əsaslar üzərində gəlib çatmışdır. Ulu öndərin ölkəyə rəhbərliyinin hər iki dövründə gerçəkləşdirilmiş strateji proqramlar respublikamıza əsrə bərabər inkişaf və tarixi nailiyyətlər qazandırmışdır. Prezident İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır".

Dövlət başçısı son 20 ildə Ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın dövlət kimi dayaqlarını daha da möhkəmləndirmiş, inkişaf perspektivlərini yeni keyfiyyət və kəmiyyət platformasına yüksəltmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri Prezident İlham Əliyevin 2003-cü ildən bəri imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır. Bu dövrdə respublikamızda iqtisadi quruculuq yeni strateji proses kimi gerçəkləşdirildi. Nəticədə, ölkəmiz regionun ən güclü dövlətinə çevrildi. Bunun nəticəsi olaraq insanların maddi rifahı və həyat səviyyəsi xeyli yaxşılaşdı.

Prezident İlham Əliyev ulu öndərin müəyyən etdiyi dövlətçilik kursuna uyğun olaraq ölkənin sosial-iqtisadi cəhətdən inkişafını təmin etdi. Azərbaycanın regionda lider dövləti kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı oldu. Ölkəyə rəhbərlik estafetini Ulu öndərdən qədul etmiş İlham Əliyev 2003-cü ildə bildirmişdi: "İnsanların həyat səviyyəsini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm". 20 il öncə həyata keçirilməyə başlayan bu uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk dövrdə ölkənin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı, daha sonra davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş Azərbaycan respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004–2008-ci illər) təsdiq etdi.

2003–2005-ci illər üçün "Azərbaycan respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın başa çatması ilə əlaqədar olaraq 15 sentyabr 2008-ci il tarixində Prezident İlham Əliyevin rəhbərliyi ilə 2008–2015-ci illərdə Azərbaycan

Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı” hazırlanıb qəbul edildi. Uğurla icra olunan bu dövlət proqramları, eləcə də digər vacib sənədlər, aparılan məqsədyönlü dövlət siyasəti respublikada uzunmüddətli sosial-iqtisadi inkişafı təmin etdi.

Prezident İlham Əliyev ölkədə neft gəlirlərinin artdığı və inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq imzaladığı “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında ” 31 may 2005-ci il tarixində fərmanda neft bumundan milli iqtisadiyyatın qorunması, dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarə olunması və istifadəsi məsələlərinə geniş yer verilmişdi.

Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin təmin edilməsi, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması, qeyri-neft sektorunun stimullaşdırılması, əhalinin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, neft-qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbulu zərurətə çevrilmişdi. Bu məqsədlə Prezident İlham Əliyev “Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya” (2005–2025) təsdiq etdi. Burada neft və qaz gəlirlərindən istifadənin əsas prinsipləri və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi.

2003–2023-cü illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Belə ki, bu uğurlar ilk növbədə dövlət başçısının siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanması, dövlət idarəçiliyinin səmərəli təşkili, iqtisadi inkişafda əsas hədəflərin düzgün müəyyən edilməsi, islahatların davamlı olması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəlmiş dövlət proqramlarının reallaşdırılması təmin edilmişdir. Bu isə sonda ölkə vətəndaşlarının maddi rifahının yaxşılaşmasında və həyat səviyyəsinin yüksəlməsində özünü daha qabarıq göstərmişdir.

Hazırda ölkəmizdə islahatların texnologiyası davamlı olaraq təkmilləşdirilir. Prezident İlham Əliyev göstərir ki: “İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir”. Respublikamız göstərilən istiqamətlərdə son 20 ildə həyata keçirilən islahatlar nəticəsində Dünya Bankının qiymətləndirmələrinə görə, yuxarı orta gəlirli ölkələr qrupuna daxil oldu. Bu müddət ərzində ümumi daxili məhsul 6,2 milyard dollardan 78,7 milyard dollara çatdı, ÜDM-un həcmi 4 dəfə artdı.

Adambaşına düşən ÜDM 769 dollardan 7 min 798 dollara çatdı. Qeyri-neft-qaz ÜDM-u 4,1 milyard dollardan 41,1 milyard dollara çatdı. Respublikamızın xarici ticarət dövriyyəsi 3,8 milyard dollardan 52,7 milyard dollara yüksəldi. İxracın həcmi 2,2 milyard dollardan 38,1 milyard dollara, qeyri-neft ixracı isə 0,26 milyard dollardan 3,05 milyard dollara qalxdı. 20 il ərzində kənd təsərrüfatı istehsalı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artdı. Respublikamızın valyuta ehtiyatı isə satronimik səviyyəyə – 1,4 milyard dollardan 58,5 milyard dollara çatdı. Ölkəmizdə yoxsulluğun səviyyəsi son 20 ildə 46,7 faizdən 5,5 faizə endi.

Ötən dövrdə iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının və ixracının stimullaşdırılması,

daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi istiqamətində kompleks və ardıcıl işlər görülüb. Bu baxımdan, iqtisadiyyatın neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun davamlı inkişafı iqtisadi siyasətin mərkəzində duran əsas hədəflərdəndir.

Qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meylləri, ölkənin valyuta ehtiyatlarının həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, nəqliyyat enerji layihələrinin həyata keçirilməsi ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm zəmin yaradır. Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi məsələsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir.

Son 20 il ərzində sənayedə məhsul istehsalının həcmi 4 milyard manatdan 86,4 milyard manata çatıb. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı isə 2002-ci ildə 54,9 faiz olduğu halda, 2022-ci ildə 87,6 faiz təşkil edib. Bundan əlavə 2002-2022-ci illərdə ölkənin qeyri-neft qaz sənayesində istehsalçı həcmi 1,6 milyard manatdan 17,7 milyard manata yüksəlib.

Hazırda Azərbaycanda 7 sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl sənaye parkları və 5 sənaye məhəlləsi – Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir. Sənaye zonalarında 10,23 milyard manatlıq məhsul istehsal edilib və onun 3,35 milyard manatlıq hissəsi xarici ölkələrə ixrac edilib. 2023-cü ilin birinci yarısında bu müəssisələrin satdığı 1,4 milyard manat dəyərində məhsulun 33,2 faizi, yəni 470,6 milyon manat ixrac edilib. Sənaye zonalarının qeyri-neft sektorunun xüsusi çəkisi 16,5 faiz, qeyri-neft sənaye məhsulunun ixracında isə 20,7 faiz olub.

Milli iqtisadiyyatın inkişaf strategiyası da prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi, inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici məkan kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaq. Bu, eyni zamanda, qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə etməklə turizm sektorunun iştirakçıları arasında əməkdaşlığın inkişafına və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəlməsinə gətirib çıxaracaqdır.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənir, Bakı–Tbilisi–Ceyhan (BTC) neft ixrac kəməri və Bakı–Tbilisi–Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynayır. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz 2" layihəsi üzrə qərarının imzalanması xüsusi qeyd edilməlidir.

Son 20 ildə ölkəmizdə biznes və investisiya mühiti, ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, mühüm tranzit mərkəzi olması məsələləri investisiya cəlbediciliyi baxımından çox əlverişli olmuşdur. Bu baxımdan Azərbaycan beynəlxalq öhdəliklərə vaxtında əməl edir və transmilli layihələrin, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində yaxından iştirak edir. Bütün bunlar isə ölkəmizə qoyulan investisiyaların həcminin artmasına səbəb olmuşdur.

Ötən dövrdə ölkə iqtisadiyyatına qoyulmuş 300 milyard ABŞ dolları investisiyaların 200 milyard dollardan çoxu ölkənin qeyri-neft-qaz sektoruna yönəldilmişdir. İnvesti-

siyaların həcminin belə sürətlə artmasının mühüm səbəblərindən biri ölkədəki sabitlik, əmin-amanlıq, xalq-iqtidar birliyi, milli həmrəyliyin olması, xalqımızın öz Prezidenti ətrafında sıx birləşməsidir. Ölkənin inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib.

Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Baki Beynəlxalq Dəniz ticarət limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirmişdir. Respublikamız Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-loqistika mərkəzinə çevrilmişdir. Azərbaycan son 5–8 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

2013-cü ildə ilk peykin buraxılmasından sonra Azərbaycan kosmik klubun üzvü olmuşdur və bu gün kosmik fəzanın istifadəsi sahəsində fəaliyyətini 3 peyklə davam etdirir. Bu isə dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

Ölkə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliyinin artırılması və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir. Respublikamızda qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan aqroparkların yaradılması istiqamətində önəmli iş görülmüşdür. Bu isə regionlarda yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunması ilə yanaşı, ixracyönümlü məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Respublikada 51 aqroparkın yaradılması ilə bağlı addımlar atılır. Artıq 30-dan çox aqropark fəaliyyətdədir.

Bundan sonra bizim qarşımızda duran əsas məsələ qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatının səmərəliliyinin təmin edilməsidir – fikrini Prezident İlham Əliyev heç də təsadüfən qeyd etməmişdir. Bu baxımdan çox illərdə həyata keçirilən liberallaşma tədbirləri, xüsusilə də institusional islahatlar ölkə iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri kimi qiymətləndirilmişdir.

Respublikamızın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər qəbul edilmişdir. Bu mühüm sənəddə qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və loqistika infrastrukturunun təkmilləşdirilməsi, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, ətraf mühitin mühafizəsi azad edilmiş ərazilərin bərpası və s. məsələləri əhatə edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2019-cu ildə ölkəmizdə sosial-iiqtisadi islahatların yeni mərhələsinə başlanılıb. Bu məqsədlə “2019–2023-cü illərdə sosial-iqtisadi inkişafın Dövlət Proqramı” qəbul edilib. Dövlət Proqramında dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələndirilməsi, investisiyaların cəlbi, ölkə əhalisinin maddi rifahının yaxşılaşdı-

rılması və s. məsələlər öz əksini tapmışdır. Artıq bu Dövlət Proqramı da uğurla icra edilmişdir.

Qeyd etmək lazımdır ki, tədqiqat aparan beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi islahatları yüksək qiymətləndirirlər. Görülən tədbirlərin nəticəsidir ki, Dünya Bankının "DOİNG BUSİNESS" hesabatında ölkəmizin reytinqi daim yüksəlir. Artıq Azərbaycan bu reytinqdə 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Eyni zamanda ölkəmiz dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilib.

Prezident İlham Əliyevin rəbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial Şanlı Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirdi.

Artıq işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri həyata keçrilir. Tarixi qələbədən sonra Qarabağın bərpası və dirçəldilməsi sahəsində böyük işlərə Prezidentimiz özü rəhbərlik edir. Prezidentimiz İlham Əliyev, Birinci vitse prezidentimiz Mehriban xanım Əliyeva öz istirahət günlərini də Qarabağın tikinti meydançalarında keçirirlər. Bütün bunlar isə xalqın onlara olan sevgi və ehtiramını artırır. Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramını təsdiq etmişdir. Dövlət Proqramına uyğun olaraq, bütün ərazilərin və şəhərlərin bərpası, torpaq və su ehtiyaclarından səmərəli istifadə, yaşayış məntəqələrinin "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulması, ətraf mühitin qorunması, yaşıl iqtisadiyyat, infrastrukturun və ekosistemin bərpası və s. istiqamətlərdə layihələr həyata keçrilir.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişiklərinin fəsadlarına qarşı mübarizədə öz töhfəsini verir. Ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi sahəsində böyük işlər görülür. Prezidentin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan edilmişdir.

Ölkə Prezidenti 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir. Aparılmış tədqiqatlar göstərir ki, artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi gücü müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstərişlərin önündə bu gün məhz ölkədə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Bu baxımdan Azərbaycan dünya üzrə ekoloji mübarizənin ön cəbhəsinə çevrilib. COP29-un ölkəmizdə keçirilməsi bu gerçəyin mötəbər təsdiqidir .

Azərbaycan son 20 ildə İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edib, bütün sahələr üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə həyata keçirilib. Gerçəkləşdirilən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcək.

**Arif ŞƏKƏRƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Əməkdar elm xadimi**

# Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya

***Mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır.***

**İlham ƏLiYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Azərbaycan: yeni tarixi mərhələnin çağırışları

Hər bir müstəqil xalqın tarixi təkamülünün mərhələləri olur. Həmin mərhələləri lideri ilə birlikdə xalq, cəmiyyət özü yaradır. Sözün həqiqi mənasında, toplum azaddırsa, müstəqildirsə, qarşısına qoyduğu məqsədlərə çatır. Məqsədlər ab-strakt, mücərrəd və hər şeyi əhatə edən olmur. Onlar konkret tarixi özəlliklərə uyğun olaraq cəmiyyətin (xalqın) malik olduğu dəyərlərin fonunda müəyyənləşir. Yəni kollektiv olaraq hansı məqsədlərə çatmaq məsələsi müəyyən edilir.

Bu proses asan deyildir. Burada xalqın liderinin zəkası, iradəsi, qətiyyəti və tarixi uzaqgörənliyi həlledici rol oynaya bilər. Strateji məqsəd düzgün müəyyən ediləndə, obrazlı desək, o, cəmiyyətin legitimliyini qazanır. Yəni bütövlükdə, toplum həmin məqsədi “qanuni” (legitim) hesab edir. Bu zaman toplum toparlanaraq həmin məqsəd uğrunda həyat mübarizəsinə başlayır. Və konkret məqsədə çatandan sonra qarşıya yeni vəzifə çıxır –əldə edilən nəticələr əsasında yeni düzgün məqsədlər, vəzifələr və birgəyaşam formaları müəyyən etmək zərurəti yaranır. Məhz bu keçid mərhələsi hər bir xalq üçün sınaq dövrüdür. Onun özünü nə dərəcədə yeniləşdirə bilməsi potensialının özünütəsdiqidir.

Belə çıxır ki, cəmiyyət və ya xalq halında birgəyaşamağın özünəməxsus ideya, mənəvi, əxlaqi və iradi şərtləri mövcuddur. Bu prizamadan baxanda strateji məqsədlərə nail olmaq üçün zəruri olan mexanizmləri həm dərindən anlamaq, həm də onların reallaşması üçün konkret fəaliyyət planlarına malik olmaq gərəkdir. Bu cür mexanizmlər sırasında “milli ideya” və “milli ideologiya”nın rolu həlledicidir.

Əslində, milli ideya və milli ideologiya yalnız məqsədə çatmaq mexanizmləri deyil. Onlar substantiv olaraq xalqın kollektiv mövcud olmasını şərtləndirən fundamental anlayışlardır. Çünki ideya çoxlu sayda insanları konkret məqsəd ətrafında birləşdirə və onları fəaliyyətə motivasiya edə bilər. Kollektiv fəaliyyəti yaxşı səviyyədə stimullaşdırılmayan xalqların tarixdə yeri məlum deyil.

Deməli, milli ideya və milli ideologiya həm kollektiv mövcudluğun mənəvi bağıdır, həm də ümumi məqsədə çatmağın başlıca mexanizmi. Burada, təbii ki, milli ideya ilə milli ideologiyanın fərqini görmək lazımdır. Lakin onların hər ikisini kollektivə, xalqa, topluma məxsus olan səviyyədə mənəvi, ruhani, ideya faktorlarını aktuallaşdırmaq və reaktuallaşdırmaq (təkrar-təkrar aktuallaşdırmaq) özəlliyi birləşdirir.

Bu məqam bir tarixi mərhələsini başa vurmuş və yeni mərhələyə qədəm qoyan xalqların həyatında özünü daha həssas aspektlərdə göstərir. Azərbaycan hazırda tarixi təkamülünün bu yeni keçid pilləsindədir. Dövlətçilik, müstəqillik, müasirləşmək qüdrəti, daim uğurlu olmaq fəlsəfəsi baxımından son dərəcə əhəmiyyətli, məsuliyyətli və şərəfli bir dövrdür!

**Nələrə nail olunmuşdur?**

Biz son 20 ilin qısa xronologiyası əsasında mövzuya uyğun kontekstlərdə suala cavab axtaracağıq. 2003-cü ildən Azərbaycan yeni Prezidenti ilə möhtəşəm proqramları həyata keçirməyə başladı. Bu barədə geniş informasiya verilmədi, ancaq dövlət başçısı əsas istiqamətverici və müəyyənedici tezisləri ilə kifayət qədər innovativ (yenilikçi) bir prosesə başladığını aydın ifadə edirdi. Bu innovativlik birmənalı olaraq Ulu öndər Heydər Əliyevin siyasi varislik prinsipinə tam uyğun həyata keçirilirdi. Siyasi varisliyə əsaslanan yeniləşmə cəmiyyətin həyatının bütün sferalarını əhatə edirdi. Buraya iqtisadiyyat, siyasət, geosiyasət, mənəvi-əxlaqi dəyərlər, sosial faktorlar, təhlükəsizlik, ordu quruculuğu, müdafiə fəlsəfəsinin yeniləşməsi daxil idi. Onların sintezi isə bir milli məqsədə çatmağa xidmət edirdi. Prezident İlham Əliyev bu barədə deyirdi: "Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik".

Doğrudan da indi ötən həmin o 20 ilin hər ayına, həftəsinə, gününə baxanda Prezidentin nə dediyinin yeni prizmada fərqinə varırsan! Çox möhtəşəm və çətin bir məqsəd uğrunda dövlətin başçısı böyük qətiyyət, yüksək zəka və sınmayan iradə ilə başlamışdı. Əksəriyyətin gözləmədiyi istiqamətdən ədalətli və yaradıcı həmlələr edir, beynində, könlündə və qəlbində daşıdığı (bu da Ulu öndərin siyasi varisliyinin mühüm əlamətlərindən biridir – F.Q.) milli sevgini, ədaləti, qüruru, qətiyyəti və müdrikliyi reallaşdırdığı dövləti əhəmiyyətli böyük proqramların ruhuna və məzmununa hopdururdu. Bununla damla-damla, qətrə-qətrə Azərbaycan cəmiyyətinin həyatına yeridilmiş məğlubiyyət sindromunu əridirdi! Onun fövqündə isə Prezidentin milli ideya və ideologiyada mükəmməl məzmununu və formasını almış Qələbə siyasəti daha da təkmilləşir, mükəmməl formada milyonların ruhuna hopdurulurdu! Təsdiqi vardır!

O təsdiq gənclərin 2020-ci ildə "Vətən!", "Azərbaycan!", "Qarabağ!" deyib bir nəfər kimi hərb meydanında şir kimi savaşmasıdır! Bir gənc belə, ordudan fərarilik etmədi! Əksinə, hərbi komissarlıqların qarşısında həyəcan və tələbkarlıqla torpaqları azad etməyə can atırdılar. Dünyanın hər yerindən yüz minlərlə azərbaycanlı Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanından cəbhəyə getmək istədiklərini və buna imkan yaradılmasını xahiş edirdilər! Niyə məhz Azərbaycan Prezidentindən bu xahişi edirdi gənclərimiz? Yalnız ona görə yox ki, dövlətin başçısı İlham Əliyevdir. Əsas ona görə ki, İlham Əliyevə inanırlar, ona tam etibar edirlər!

İlham Əliyevin gənclərdə illərlə yaratdığı, stimullaşdırdığı, səslədiyi və nəhayət, böyük anlamda tərbiyə etdiyi vətənsevərliyin, milliliyin, ideyanın çağırışı, həyəcanı və "xahişi" idi, bu! Həm həyata keçirdiyi proqramları, həm siyasi-diplomatik məharəti, həm də mənəvi-əxlaqi davranışları ilə nümunə olan Azərbaycan Prezidentini hər bir gənc səngərdə özü ilə bərabər görürdü və ya görməyi arzulayırdı. Prezidentə inanır və onunla birgə savaşmağa hazır olduqlarını bəyan edirdi yüz minlərlə azərbaycanlı. Bax, o ruhları, könülləri, qəlbləri 2003-cü ildən bu yana milli ideya və milli ideologiya ətrafında birləşdirən Prezident İlham Əliyevdir.

Bu ruhani və mənəvi coşqu əsassız deyildi. Onun üç ideya sütunu vardı. Hansılardır?

**Ərazi bütövlüyü və suverenliyin 3 əsas sütunu: Milli ideya fonunda**

44 günlük Zəfər savaşına qədər milli ideyanın məzmununu motivə edən və həm də formalaşdıran üç prinsip mövcud idi. Onları Prezident müəyyənləşdirmişdi və praktiki fəaliyyətində qətiyyətlə və səmərəli yerinə yetirirdi. Həmin üç prinsip bunlardır: tarixi ədalət, milli qürur və beynəlxalq hüquq! Bu prinsiplər dərin düşünülmüş və dəqiq ifadə edilmişdir. Onlar fəlsəfi və politoloji baxımdan çoxfunksiyalıdırlar. Faktiki olaraq fərqli sfeBunları birləşdirə bilirlər.

Birincisi, bu prinsiplər milli ideya və milli ideologiyanın yaradılmasının və funksionallığını daim saxlamasının mahiyyətinə uyğundurlar. Filosofların fikrinə görə, milli ideya konkret millətin keçmişdə, indi və yaxın gələcəkdə mövcudluğunu izah edə bilən mənalar sistemidir. Bu zaman milli ideyanın məzmununa və məqsədinə millətin mentaliteti (o cümlədən, siyasi mentaliteti), xarakteri, hakimiyyətə münasibəti, başqa ölkələrə münasibəti və s. kimi çoxlu sayda faktorların mümkün təsirlərini nəzərə almaq lazım gəlir.

Müstəqillik əldə edəndən sonra Azərbaycanın keçdiyi keşməkeşli yol fonunda bu məsələnin bizim üçün ikiqat çətin olduğunu anlamaq güc tələb etmir. Həmin faktorların fonunda milli ideya "millət indi nəyin naminə mövcuddur və onun gələcək missiyası nədən ibarətdir?" sualına cavab verməlidir. Özlüyündə bu məsələ də üç altməsələyə bölünür. Belə ki, milli ideya a) humanitar dəyərlərin; b) insan hüquqları və azadlıqlarının; c) ənənənin yeri və rolunu özündə dəqiq ehtiva etməlidir. Bu faktorlardan hansına üstünlük verilməlidir?

Azərbaycan Respublikası Prezidentinin ifadə etdiyi milli ideyada bu suala mükəmməl cavab vardır. Onlar lakonik şəkildə vurğuladığımız üç prinsipdə ifadə olunmuşdur. Tarixi ədalət, milli qürur və beynəlxalq hüquq keçmişi, indini və gələcəyi fəlsəfi-siyasi məntiqlə bir-birinə bağlayan parametrlərdir. Çox əhəmiyyətlidir ki, bu prinsiplər həm ayrılıqda, həm də bir-biri ilə qarşılıqlı münasibətlərdə "zamanı xalqın kollektiv həyatı müstəvisində bütövləşdirir": ədalət qürur və hüquqla təmin edilir, qürur ədalətlilikdən və hüquqdan qaynaqlanır, hüquq isə ədalət və qürurun sayəsində münasibətlərin qurulmasında "xəritə olur, yol olur"!

Deməli, müasir fəlsəfi-elmi təfəkkürdə mövcud olan "plektiks" ("sarmaşıq", "bir-biri ilə bütün mənalarda vəhdətdə olan") anlamı milli ideyada İlham Əliyev tərəfindən ifadəsini tapmışdır! Fəlsəfi baxımdan da burada bir dinamizm və ahəngdarlıq (bu termini Əhməd Qəşəmoğlu mənasında işlədirik – F.Q. ) vardır. Biz konkret olaraq Jil Delyoz fəlsəfəsində indinin öz mövcudluğu üçün keçmişə və gələcəyə "yayılması" fikrini nəzərdə tuturuq. Bu yayılma xalq üçün elə olmalıdır ki, həm özünəməxsusluğunu saxlasın (tarixdir), həm də indi potensialını elə reallaşdırsın (bu gündür) ki, gələcəyə perspektivi (strateji anlamdır) təmin etsin!

Buradan milli ideya və milli ideologiya ilə bağlı fəlsəfi əhəmiyyəti olan yeni məsələlər meydana çıxır. Məsələnin bu tərəfinə nəzər salmadan öncə bir məqama aydınlıq gətirək.

Bir sıra hallarda milli ideya ilə milli ideologiyanı eyniləşdirirlər. Ancaq onlar fərqlidirlər. Hər ikisi dəyərlər sistemini ifadə edir, onu ümumxalq miqyasına qədər genişləndirir və hər ikisi milli sayıla bilər. Ancaq ideologiya ideyaların mürəkkəb sistemidir. O, müxtəlif ictimai subyektlərin həyatının ideal və dəyərlərini özündə daşıya bilər. Məsələn, qrupların, insanların, icmaların, sosial stratların,

siyasi partiyaların və s. Bu mənada, milli ideya milli ideologiyanın tərkib hissəsi kimi görünür.

Başqa bir aspektdən isə milli ideya ideologiyanın sistemləşməsinin, onun mürəkkəb struktur-funksional fenomen kimi mövcudluğunun mümkün olmasını təmin edən əsas faktordur! Milli ideologiya milli ideyanın konseptləşməsi və konseptuallaşması sayəsində meydana gəlir.

Belə görünür ki, milli ideya və milli ideologiya milli özşüurdan qaynaqlanır. Milli özşüur məsələsi problemi daha dərinlərə aparır. Hər şeydən öncə, milli ideya və ideologiyanın milyonların özşüurları ilə sıx bağlılığını nəzərə almaq lazım gəlir. Bu baxımdan "milli şüurun milli ideyaya təsiri necədir və hansı hallarda onlar kollektiv miqyasda cəmiyyətə fayda verir?" kimi sual aktuallaşır.

Problemin fəlsəfi aktuallığı kifayət qədər ciddi faktorlarla əlaqəlidir. Çünki milli özşüur milli şüurun nüvəsi kimi daha çox fərdi şüura bağlıdır. O, başlıca olaraq, qiymətvermə və rasional-dəyər təsəvvürlərinin mərkəzi sistemi kimi çıxış edir. Bu isə fərdin həyatın mənəvi-ruhani cəhətində insanın özünü uyğun müəyyən etməsini ifadə edir. Deməli, milli özşüur ümummilli şüurun bu və ya digər komponentlərinin fərdlər tərəfindən qavranılması səviyyəsini əks etdirir. Özlüyündə özşüurun bu xüsusiyyəti milli ideya və milli ideologiyada milyonlarla fərdin ortaq təsəvvürlərini doğru ifadə etməklə sıx əlaqəlidir. Mürəkkəb sistemlərdə müxtəlifliyin vəhdətini təmin etmək mahiyyətcə mürəkkəb və çətin işdir.

Bu bağlılıqda o da aydın olur ki, milli ideyanı və milli ideologiyanı formalaşdıran lider bütövlükdə milli özşüurun incəliklərinə varmalı və onları toplum üçün səmərəli olan aspektdə sintez etməlidir.

Çox mürəkkəb və dinamik bir prosesdir. İlham Əliyev bunu bacardı! Yüksək səviyyədə bacardı!

### Milli ideya iki fəlsəfi yanaşmanın işığında

Birinci məqalədəki yekun tezisimizin davamı olaraq son 20 ildə milli ideya və milli ideologiyanı nəzəri məzmunlaşdıran və praktiki reallaşdıran siyasətin fəlsəfi-elmi dərkinə çalışacağıq. Məsələyə bu cür yanaşmamızın elmi əsası vardır. Bizcə, milli ideya və milli ideologiyaya fəlsəfi prizmada iki istiqamətdən yanaşmaq olar: Birincisi, abstrakt ümumfəlsəfi aspektdən. Ümumiyyətlə, milli ideya və milli ideologiyaya analitik fəlsəfə kontekstində yanaşmaq mümkündür. İkincisi, məsələyə konkret predmet fəlsəfəsi, yəni Azərbaycan təcrübəsi fonunda nəzəri və praktiki-tətbiqi aspektlərin vəhdəti istiqamətindən yanaşmaq olar.

Biz ikinci yanaşmaya üstünlük veririk. Çünki ümumi fəlsəfi analitik yanaşmanın təhlil gücü və yaradıcılıq potensialı nə qədər geniş olsa da, söhbət Azərbaycanın müəyyən dövrü üçün milli ideya və milli ideologiyanın formalaşmasının fəlsəfi və siyasi-nəzəri təhlilindən getməlidir. Ona görə ki, bu prosesin praktiki-tətbiqi aspekti ilə fəlsəfi-nəzəri tərəfinin vəhdət məsələsi çox önəmlidir. Ümumfəlsəfi analitik təfəkkürünün yüksək nəzəri "məsafəsindən baxışında" konkret mənzərə vətəndaş üçün yayğın və xeyli mücərrəd görünə bilər. Eyni zamanda, onu da vurğulamaq zəruridir ki, bir başqa kontekstdə ümumfəlsəfi analitik tədqiqat olduqca vacibdir və onu mütləq reallaşdırmaq gərəkdir.

Bunlarla yanaşı, bizim yeni tarixi mərhələdə milli ideya və milli ideologiyanın formalaşmasının Azərbaycan təcrübəsi kontekstində mütləq nəzərə almamızı zəruri edən bir

arqumentimiz də var. Reallıq ondan ibarətdir ki, müasir mərhələdə Azərbaycanda milli ideya və milli ideologiya "Heydər Əliyev–İlham Əliyev" siyasi varislik, idarəetmə və ideoloji "xətti"nin məhsuludur. Ulu öndər azərbaycançılıq ideologiyasını müasir anlam verdiyi "Müstəqil Azərbaycan" ideyası və konsepti əsasında məzmunlaşdırdı. İlham Əliyev XXI əsrin çağırışları kontekstində onu daha da zənginləşdirdi və faktiki olaraq yeni transformasiya mərhələsinə yüksəltdi.

Deməli, Prezidentin "Azərbaycanda yeni dövr başlayır" fikri milli ideya və milli ideologiyanın mərkəzi müddəasıdır. Bu istiqamətdə aparılacaq fəlsəfi və siyasi-nəzəri araşdırmalarda bu tezis ana xətt kimi keçməli, aparıcı və istiqamətverici fikir rolunu oynamalıdır. Bu isə o deməkdir ki, bizim yanaşmamızda ümumfəlsəfi analitik təfəkkürün Azərbaycan təcrübəsinə "yüklədilməsi" abstraktlıqdan–milli ideyaya doğru istiqamətlənməsi deyil, milli ideyanın Azərbaycan təcrübəsindən fəlsəfi ümumiləşdirmələrə istiqamətlənməsi aparıcılıq təşkil edir.

Beləliklə, məsələyə yeni dövrün özəllikləri kontekstində yeni milli ideyanın konkret Azərbaycan təcrübəsinin fəlsəfi təhlili prizmasından yanaşırıq. Məhz buna görə biz I məqalədə tarixi ədalət, milli qürur və beynəlxalq hüquq faktorlarını araşdırmanın mərkəzinə gətirmişik. Bunlar 3 sütun – təməl prinsiplərdir. Onların fəlsəfi analizinin daha aydın dərk edilməsi üçün öncə, "yeni tarixi mərhələ" tezisinin fəlsəfi izahını vermək lazımdır.

**Dövlətçilik şüurunda mühüm aspekt – tarixiliyin və müasirliyin zaman kəsişməsi**

Biz məsələni daha da nəzəriləşdirmirik. Məsələyə dövlətçilik şüuru prizmasında baxmaqla milli ideya kontekstində "başa çatmış mərhələ"dən "yeni mərhələyə" keçidin real ideya transformasiyasının fəlsəfi obrazını yaratmağa çalışırıq. Milli ideya və milli ideologiyada Heydər Əliyev – İlham Əliyev xətti özlüyündə çoxaspektli dinamik prosesdir. Bu xətt davamlı transformasiyaları özündə ehtiva edir və onu bu cür ümumiləşdirici təfəkkürlə adekvat ifadə etmək mümkündür. Konkret faktların prizmasında bu tezisi əsaslandıra bilərik.

Öncəki məqalədə vurğuladığımız kimi milli ideya təfəkkür hadisəsi kimi milli özşüur məsələsinə dayanır. Milli özşüur fərdlərin və onların əmələ gətirdiyi kollektivin özünüdərki, sosial münasibətləri anlama tərzi, cəmiyyəti və dövləti dərketmə səviyyəsi, dünya duyumu və digər faktorlarla bağlı olduğundan bütövlükdə dövlətçilik şüurunun tərkib hissəsi kimi təsəvvür edilə bilər. Milli özşüur faktiki olaraq fərdi şüurla toplum şüuru arasında münasibətləri yığcam ifadə edir. Deməli, hər hansı milli ideyaya dövlətçilik şüuru prizmasında baxmaq lazım gəlir.

Müasir mərhələdə dövlətçilik şüurunun özü ierarxik struktura malikdir və funksional olaraq mürəkkəbdir. Onda bu fenomenin aparıcı elementlərini müəyyən etmək zərurəti meydana çıxır. Milli ideya aspektində bu, faktiki olaraq hər tarixi dönəmdə dövlətçilik şüuru üçün daha aktual olan faktorların müəyyən edilməsi deməkdir. Lider bu baxımdan yaşadığı tarixi dönəmdə dövlətçilik şüurunun elə elementlərini aktuallaşdırmalıdır ki, yekunda milli ideyaya xidmət etsin. Bunun üçün mütləq keçilmiş tarixi mərhələni həm də fəlsəfi olaraq yaxşı anlamaq lazımdır. Prezident İlham Əliyev fəaliyyətinin konkret punktları ilə bunları daim anlatmışdır. Əlavə olaraq da yerli telekanallara verdiyi son mü-

sahibədə onun fəlsəfi, siyasi-nəzəri və realpolitik aspektlərini gözəl izah etmişdir.

**1993-2003-cü illər – milli ideyanın başlanğıcı və bir mərhələnin sonu**

Azərbaycan xalqının 1993-cü ildəki siyasi seçimi milli ideyanın müstəqil dövlət quruculuğu kontekstində formalaşmasına və onun mükəmməl baza ideologiyaya çevrilməsinə təkan verdi. İndiki yol məhz o dövrdən başlayır. İlham Əliyev bu fikri belə ifadə edir: "Bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik". Bu tarixi ədalətin bərpasına aparan, milli qüruru yenidən canlandıran və beynəlxalq hüququ təmin edən milli ideyanın başlanğıc mərhələsi idi. 1993-cü ildə milli ideya xilasediciliklə ərazi bütövlüyünün təmini sintezindən yarandı. Xilasediciliklə ərazi bütövlüyünün bərpası quruculuq və birləşdiricilik prinsipləri çərçivəsində konkret məzmunlaşırdı. Bu aspektləri azərbaycançılıq məfkurəsi ideologiya səviyyəsində mükəmməl surətdə vahid bir məzmun, semantik və funksional sistemdə birləşdirdi. Bununla milli ideyanın əraziləri azad etmək qayəsi ilə xalqın bu ideya ətrafında birləşməsi vahid bir ideoloji sistemdə təcəssümünü tapdı. Bu proses 2003-cü ilə kimi Ulu öndərin rəhbərliyi ilə rəvan və ardıcıl olaraq inkişaf etdirildi, lazım olan səviyyədə təkmilləşdi.

2003-cü ildə isə taleyin hökmü ilə Azərbaycan xalqı ikinci dəfə tarixi seçim etmək qarşısında qaldı. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi".

Seçimin tarixiliyinin əlamətlərindən biri cəmiyyətin liderin güclü olması həqiqətini tam qəbul etməsidir. Bu məsələ, adətən, dərindən dərk edilmir. Hesab edilir ki, hər bir cəmiyyət üçün güclü liderlik tələb olunan faktordur. Lakin əsas məsələ ondan ibarətdir ki, cəmiyyətin dövlətçilik və liderlik ənənəsi heç də həmişə bu istiqamətdə düzgün seçim edə bilmir, yəni məhz "hansı keyfiyyətlərə malik lideri güclü hesab etmək olar?" sualına dövrün tələblərinə uyğun cavab tapa bilmir. Nümunə kimi politoloq və diplomat Arçi Braunun Amerika üçün "güclü lider kimdir?" sualına adekvat cavab tapa bilmədiyini göstərə bilərik. O, amerikalıların bir qisminin D.Trampı güclü lider kimi qəbul etdiyi halda, digər qismin onun dövlətçilik üçün təhlükəli fiqur olduğundan bəhs edirdi. Bu dilemmanı ABŞ cəmiyyəti hələ də həll edə bilməmişdir. Amerikalı siyasətçilər qarşıdakı seçkidə D.Trampın qalib gələ biləcəyini faciə kimi qarşılayırlar. Cəmiyyət elektoratının bir hissəsi də bu fikirdədir.

Hesab edirik ki, xalqın düzgün seçimində əsas rollardan birini Heydər Əliyev anlamında "Azərbaycan ideyası" və azərbaycançılıq ideologiyası oynadı. Toplum artıq bu mənəvi-ideoloji prosesin konstruktiv rolunu tam anlayır və ona uyğun seçim edirdi. Müstəqil dövlət quruculuğunun milli ideya və milli ideologiya aspektində ilk böyük qələbəsi bundan ibarətdir. Bu qələbənin konkret parametrlərini də Prezident İlham Əliyev müsahibəsində lakonik ifadə etmişdir. Onlar dövlətçilik prinsiplərinin bərqərar olması, vətəndaş cəmiyyətinin yaradılması və xalq-iqtidar birliyinin dövlətçilik şüurunda önəmli amilə çevrilməsi idi.

Bütün bu nailiyyətlər milli ideyaya necə təsir etdi? Ümumi halda bu ideya dəyişdimi? Birinci mərhələnin xarakterik xüsusiyyəti

məhz milli ideyanın ümumi məzmununun yeniləşməməsindən ibarət idi. Burada müəyyən yeni çalarlar meydana gəldi. Lakin, bütövlükdə, milli ideyanın hədəfi dəyişməz qaldı: ərazi bütövlüyünü və suverenliyi tam bərpa etmək! Deməli, Azərbaycan təcrübəsində fəlsəfi baxımdan maraqlı bir özəllik mövcuddur. Milli ideya siyasi varisliyin gözləndiyi, lakin dövlət quruculuğunda faktiki olaraq yeni mərhələnin başlanması fonunda ümumi miqyasda dəyişməyə bilər! Bu da, birincisi, Azərbaycanda yeni liderliyin ciddi surətdə siyasi varislik çərçivəsində təkmilləşdiyini ifadə edir. İkincisi, başlıca məqsəd şəxsiyyət deyil, uğurlu müstəqil dövlət qurmaqdan ibarət olduğu təsdiqni tapır. Üçüncüsü, milli ideyanı reallaşdırmaq üçün qüvvələr yenidən bir yerə toparlanır, nəsillərin tərbiyəsi yeni səviyyəyə yüksəldilir, ordu quruculuğu daha mükəmməl formada aparılır, cəmiyyətin birliyi modeli daha da inkişaf etdirilir və müdafiə fəlsəfəsi yeni məzmun çalarları alır. Bütün bu parametrlər 2003-cü ildən başlayaraq konkret proqramlarda ardıcıl, sistemli və qətiyyətli surətdə reallaşdırılmışdır! Bu prosesin də ümumi əlamətlərini Prezident İlham Əliyev ifadə etmişdir: “Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar.

Aydın olur ki, 2003-cü ildən başlayaraq milli ideyanın həyata keçməsi ərazi bütövlüyünü və suverenliyi tam təmin etməklə yanaşı, Azərbaycanı bir müstəqil dövlət olaraq güclü ölkələr sırasına çıxarmışdır. Bu isə Azərbaycan təcrübəsində güclü liderin siyasi varisliyə və milli ideyaya sadiqliyi daxilində böyük uğurlar əldə edə bilməsinin təsdiqidir.

Güclü lider həm də güclü cəmiyyətin formalaşmasının ümumi istiqamətlərini düzgün müəyyən etmişdir. Bununla da Avrasiya məkanında bir siyasi nümunə meydana gəlmişdir: müstəqil bir dövlətdə güclü lider, güclü dövlət və güclü cəmiyyət ahəngdarlığı, harmoniyası, bir-birini tamamlaması baş vermişdir! Lider-dövlət-cəmiyyət birliyi milli ideyanın əsas funksional parametrlərindən biridir. Bununla millilik keçmişə, indiyə və gələcəyə cəmiyyətin bütün sferaları üzrə legitim təsir etmək imkanı qazanır. Müasir dövlətçilikdə bu məqam xüsusi əhəmiyyət kəsb edir. Onu faktiki olaraq politoloqlar suverenlik və davamlı inkişafın başlıca legitim formulu adlandırırlar.

Deməli, Azərbaycan təcrübəsində milli ideyanı siyasi şüur və liderlik qayəsi tam reallaşdırmaq zəkası, niyyəti, məqsədi və həyata keçirmə üsulları müddətindən asılı olmayaraq, mütləq çatılmalı olan hədəf kimi qəbul edir. Prezident İlham Əliyev bu məqamın da izahını dolğun şəkildə vermişdir.

Bu cür geniş fəlsəfi, nəzəri və siyasi-praktiki anlamda qəbul edilən milli ideyanın həyata keçməsi məhz həmin səbəbdən bir mərhələnin başa çatması kimi qəbul edilir. Bununla dövlətçilikdə milli ideyanın aparıcı və istiqamətverici rolu bir daha təsdiq olunur.

Beləliklə, yeni dövr başlayır və cənab Prezidentin sözləri ilə desək “Yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi”. Bu, fikir yeni mərhələdə milli ideyanın formalaşdırılmasının əsas istiqamətinin ifadəsidir. Bu prizmada tarixi ədalətin bərpası, milli qürur və beynəlxalq

hüquq faktorlarına bir daha fəlsəfi nəzər salmaq lazım gəlir.

**Tarixi ədalət – Azərbaycan dövlətçiliyinin tarixin sınağından çıxmış prinsipi**

Prezident İlham Əliyevin bu ilin əvvəllərində yerli telekanallara verdiyi müsahibədə ədalətlilik haqqında ifadə etdiyi fikirlər milli ideya kontekstində məsələnin bu aspektini çox yaxşı izah edir. Dövlət başçımız yuxarıdakı iqtibasdan da göründüyü kimi, ədalətə inamın zəruri olduğunu vurğulayır. Yəni Azərbaycan dövlətçiliyində və cəmiyyətin özünütəşkili ənənəsində ədalətə inam ilk sırada yer almışdır. Bu özəllik Azərbaycan cəmiyyətinin mövcudluq fəlsəfəsinə o dərəcədə hopmuşdur ki, artıq onu bizim toplumun var olmaq psixologiyasının əsas komponentlərindən biri kimi dərk etməyimiz son dərəcə vacibdir.

Buna görədir ki, dövlət başçısı ədalətə inam faktorunu üç mühüm toplumsal (kollektiv) psixoloji məqam kontekstində izah edir. Birincisi, ədalətə inamsızlıq "istər-istəməz insanların şüuruna mənfi təsir göstərir", ikincisi, "ruh düşkünlüyünə gətirib çıxara bilir", üçüncüsü, "bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır" (bax: İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib.

Bu müddəalar milli ideya baxımından prinsipial fəlsəfi və psixoloji əhəmiyyət kəsb edir. Yeni tarixi mərhələdə milli ideyanın sosial-siyasi və psixoloji funksiyasının əhəmiyyətli cəhətlərini anlamaq üçün onların üzərində bir qədər geniş dayanmaq lazımdır.

**Ədalətsizliyin insanların şüuruna təsiri**

Prezident İlham Əliyev müsahibəsində ayrıca vurğulayır ki, "30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı". Bu, ümumiyyətlə, "istənilən cəmiyyət üçün yaxşı hal deyil". Tarixən ədalətə dərin inam əsasında özünüyaradan Azərbaycan cəmiyyəti üçün ədalətə inamın sarsılması daha ağır nəticələr verə bilər. Toplum, bütövlükdə özünü inkişafdan qalar. Vahid bir sistem kimi mövcud ola bilmə imkanları minimuma enər. O halda hansısa milli ideyanın səmərəli funksionallaşmasından danışmaq belə –mümkün olmaz. Yəni ən yaxşı və güclü milli ideya belə, reallaşma şansını itirmiş olur.

Məhz buna görə də Prezident İlhamƏliyev Azərbaycan cəmiyyətində ədalə-tə inamın bərpasını milli ideya kontekstində mühüm vəzifələrdən biri kimi xarakterizə edir. Ədalət hissinin tamamilə itirilməməsi üçün isə ərazi bütövlüyünün bərpası əsas şərt kimi qəbul edilmişdir. Fəlsəfi baxımdan, bu, o deməkdir ki, ərazi bütövlüyünün bərpası digər məsələlərlə yanaşı, həm də xalqda ədalətə inamın bərpa olunması deməkdir.

Öz növbəsndə bu prosesin çox mühüm məna çalarlarından biri də ədalətin tarixi aspektdə Azərbaycan toplumu üçün böyük əhəmiyyəti olduğunu insanlara çatdırmaqla əlaqəlidir. Vurğulanan səbəblərdən, Azərbaycan toplumu üçün ədalətin tarixiliyi dövlətçilik kontekstində çox əhəmiyyətlidir. Ona görə ki, tarixən Azərbaycan dövlətçiliyində ədalət faktoru əsas yerlərdən birini tutmuşdur.

Belə nəticə alınır ki, İlham Əliyev Prezident kimi ədalətin bərpasını həmişə Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən biri olaraq zəruri saymışdır. Bu özəllik isə tarixi ədalətin dərindən və üzvi olaraq milli ideyanın mənası, məzmunu və mahiyyətində mühüm prinsip statusunda nəzərə alındığını ifadə edir. Ərazi bütövlüyünün bərpası milli ideya kimi bu

səbəbdən tamamilə tarixi legitimliyi olan müsbət bir fenomen-prosesdir!

Bu əsasda tarixi ədalətin yeni mərhələdə milli ideyanın substantiv və funksional olaraq vacib yer tutması mümkündür (bizcə, faydalı olardı). Yəni Azərbaycan tarixin bütün mərhələlərində ədalət prinsipini milli ideyanın mərkəzi amillərindən biri kimi əbədiləşdirməlidir! Məsələnin digər aspekti Prezidentin vurğuladığı iki vacib sosial-psixoloji faktorla bağlıdır.

**Ruh düşkünlüyü – toplumsal fəsad**

Bu, doğrudan da, ağır dağıdıcı sosial-psixoloji haldır. Əgər cəmiyyət ruh düşkünlüyünə uğrayarsa, onun özünə qiymət verməsi ciddi təhriflərə müşayiət olunur. Faktiki olaraq, cəmiyyət keçmiş-müasirlik-gələcək qarşılıqlı əlaqəsi kontekstində özünü adekvat dərk edib, konkret zaman-məkan reallıqlarında perspektivlilik aspektində qiymətləndirə bilmir. Bu, ümumi halda toplumun adekvat empatiya (özünüdərketmə) qabiliyyətini itirməsi deməkdir. Belə halın mövcud olduğu cəmiyyətin bütövlüyünü saxlaması mümkün deyil. Proses uzun müddət mənfi istiqamətdə davam edərsə, bütövlükdə, xalq yoxa çıxa bilər. Bu cür gedişatın əsas əlamətlərindən biri kollektiv reallıqlar səviyyəsində bədbinliyin olmasıdır.

**Bədbinlik – özünəinamın düşməni**

Özünəinamın fərdi və xalq anlamında rolu çox güclüdür. Hər iki anlamda fəaliyyətin sonuclarına birbaşa təsir edir. Hətta, özünəinam güclü olanda digər sosial, psixoloji, mənəvi çatışmazlıqların bərpası imkanı meydana gəlir. Kollektiv miqyasda özünəinam isə olduqca əhəmiyyətli faktor kimi bütövlükdə cəmiyyətin sosial, psixoloji, mənəvi, mədəni, əxlaqi özəllikləri ilə sıx bağlıdır.

Bunlara görə, bədbinlik özünəinamın azalmasının və ya olmamasının yekunudur. Bədbin cəmiyyətin daxili bağlantısı minimum səviyyədə olur. İnsanları birləşdirən ictimai faktorlar öz funksiyasını yerinə yetirə bilmir. Başqa fəsadlarla yanaşı, bu, həm də kollektiv səviyyədə milli ideyanı görə bilməmək halını yaradır. Fəlsəfi ifadə ilə, bədbinlik fərdin özünü milli ideya kontekstində identifikasiya etmək qabiliyyətini itirməsi kimi bir qorxulu durum yaranmasını motivasiya edir.

Beləliklə, ədalətsizlik, ruh düşgünlüyü və bədbinlik toplumsal miqyasda xalqın mövcudluğuna risk ola biləcək bir mühit formalaşdıra bilir. Prezident İlham Əliyev bu faktorların birgə təsirini sağlam cəmiyyətin yaranması və möhkəmlənməsi üçün "çox təhlükəli amillər" kimi qiymətləndirməkdə tamamilə haqlıdır. Xüsusilə milli ideyanın reallaşması aspektində bu məqamın ayrıca əhəmiyyəti vardır.

**Milli ideya və sağlam cəmiyyət: əks-əlaqə prinsipi kontekstində**

Belə çıxır ki, tarixi ədalətin bərpası cəmiyyətdə ədalətə inamı, ruh yüksəkliyini və toplumsal nikbinliyi sitmullaşdırır və onların qarşılıqlı təsirlərini milli ideyanın reallaşması aspektində harmoniya halına salır. Bu isə sağlam cəmiyyətin yaranmasının mühüm əlamətlərindəndir. Müəyyən edilmiş milli ideyanın həyata keçməsi yalnız sağlam cəmiyyət mühitində mümkündür. Müasir tarixi mərhələ üçün cəmiyyətin "sağlamlığı"nın fəlsəfi anlamı azad və güclü vətəndaş cəmiyyətinin yaranması ilə sıx bağlıdır.

Bu fəlsəfi müddəaların fonunda milli ideya ilə sağlam cəmiyyət arasında əks-əlaqənin xüsusi məzmuna malik olması nəticəsini almaq olar. Konkret olaraq, milli ideya sağlam cəmiyyətin mövcudluğunu, sağlam cəmiyyət isə milli ideyaya inamı tələb edir. Bunun

üçün milli ideya konkret mərhələ üçün real və əsaslı olmalı, inkişafın və özünütəşkilin əsas prinsiplərinə dayanmalıdır. Bu mənada Azərbaycanda milli ideyanın bir mərhələsinin tamamlanması sağlam cəmiyyətin yarandığının təsbiti və təsdiqidir. Cəmiyyət özünü adekvat empatiya edə bilir, qarşısına qoyduğu məqsədlərə çatmaq üçün öz ədalətini gözləyir, ruh yüksəkliyinə malikdir və sosial-psixoloji nikbinliyə malikdir. Vurğulanan bu özəlliklər milli ideyanın ilk mərhələsinin komponentləri kimi çox əhəmiyyətlidirlər. Eyni zamanda, yeni tarixi mərhələnin milli ideya kontekstində elə təməl sahəsini formalaşdırırlar ki, yeni milli ideyanı müəyyənləşdirmək üçün prinsipial əhəmiyyət daşıyırlar.

Bununla milli ideyanın reallaşmasında tarixi ədalətin bərpasının böyük əhəmiyyətini anlamaqla yanaşı, çox vacib bir məqamın aktuallığına da əmin oluruq. Bu, milli ideyanın həyata keçməsində ədaləti təmin edən liderin mövcudluğu ilə bağlıdır.

### Ədaləti təmin edən lider – milli ideyanın yaradıcısı və daşıyıcısı

Tarixin bütün dönəmlərində xalq üçün əhəmiyyəti olan ədaləti liderlər təmin edirlər. Cəmiyyət üçün milli ideya baxımından vacib olan yuxarıdakı faktorların reallaşması birbaşa liderin fəaliyyəti ilə sıx bağlıdır. Təsadüfi deyildir ki, tarixdə "Qanuni Süleyman" ifadəsi vardır və yaxud elə liderlər olmuşlar ki, onlara xalqın vicdanı və ədaləti kimi qiymət verirlər. Həmin liderlər milli ideyanın yaradıcıs və daşıyıcılarıdır. Nümunə kimi, Heydər Əliyevin müasir mərhələdə müstəqilliyi milli ideyasının yaradıcısı və əsas daşıyıcısı olmasını göstərə bilərik. Bununla yanaşı, Şarl de Qoll Fransanın müstəqilliyi ideyasının XX əsrin ikinci yarısında yaradıcıs idi. Mustafa Kamal Atatürk türklərin istiqlal milli ideyasının XX əsrdə yaradıcısı və əsas daşıyıcısı kimi, Mahatma Qandi isə Hindistanın azadlığı ideyasınını yaradıcısı kimi qəbul edilir.

Azərbaycan üçün XXI əsrin çox çətin şərtləri altında ərazi bütövlüyünü bərpa etmək, sözün həqiqi mənasında, bu milli ideyanın yaradıcısını və daşıyıcısını tələb edirdi. Vurğulanan anlamda məsələnin mahiyyəti ondan ibarətdir ki, sağlam, ədalətli, özünəinamlı, ruh yüksəkliyinə malik və nikbin cəmiyyətdə toplumsal maraqları ifadə edə bilən şəxsiyyət – lider olmalıdır. Məhz həmin liderin fəaliyyəti sayəsində vurğulanan müsbət toplumsal keyfiyyətlər potensialdan aktuallığa çevrilə bilir, yəni sosial praktika vasitəsilə tarixi reallığa çevrilir. Bu gerçəklikləri Prezident İlham Əliyevin aşağıdakı fikirləri çox gözəl ifadə edir: "Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən".

Beləliklə, Azərbaycan üçün milli ideyanın reallaşması kontekstində tarixi ədalətin bərpası bir sıra faktorların mövcudluğunu zəruri etmişdir. Tarixi ədalətin bərpası baxımından bunun iki məqamı önəmli olmuşdur. Birincisi, tarixi ədaləti təmin edə bilən şəxsiyyət-liderin mövcudluğu, ikincisi, sağlam cəmiyyət ("azad və güclü multikultural vətəndaş cəmiyyəti" mənasında). Lider azad və güclü multikultural cəmiyyəti formalaşdırmaqla onun ədalətə inamını bərpa edir və bununla da müəyyən edilmiş prinsiplər üzrə milli ideyanın reallaşması üçün "sağlam təməl fəaliyyət sahəsi" yaradır. Eyni zamanda, "sağlam təməl fəaliyyət sahəsi"nin başqa bir vacib komponentinin – milli qürur hissinin formalaşması üçün münbit və stimulverici şərait formalaşır.

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

## Ermənilərin türk-islam mədəni irsinə qarşı səlib yürüşü

**Ümumilli lider Heydər Əliyev hələ 1999-cu ildə Naxçıvan Muxtar Respublikasınn 75 illik yubi-leyinə həsr olunmuş dövlət komissiyasının iclasında Azərbaycanın tarix elmi qarşısında çox mühüm bir vəzifələr qoymuşdu. Azərbaycan tarixçilərinin qarşısında ümdə vəzifələrdən biri kimi dünya ictimaiyyətinə ermənilərin Azərbaycan torpaqlarını mənimsəməsində irəli sürdükləri "elmi" dəlillərin əsassız və uydurma olduğunu sübut etmək və bunun üçün də Cənubi Qafqazın yeni tarixi konsepsiyasını yaratmaq vəzifəsi dururdu. Ulu öndər demişdi: "Biz... bütün bu iddiaların əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün də əsaslı sənədlər, fundamental elmi, populyar əsərlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaq üçün çox güclü bir konsepsiya, əsas yaratmalıyıq".**

Ümummilli liderin çağırışından sonra bizim tərəfimizdən Azərbaycan-Ermənistan siyasi münasibətləri və hayların Azərbaycan xalqına qarşı irəli sürdükləri torpaq iddialarının tarixçəsi geniş tədqiq olunmuş və nəticələr 2003-cü ildə nəşr olunmuş monoqrafiyada *(Вафа Кулиева. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений. Баку, "Нурлан", 2003 г.)* öz əksini tapmışdır.

Yüksək elmi səviyyədə, çoxsaylı mənbələrə əsaslanaraq *(epiqrafik, Orta əsr Azərbaycan hökmdarlarının fərmanları, arxiv sənədləri)* Cənubi Qafqazda tarixən heç bir erməni dövlətinin olmadığı monoqrafiyada sübuta yetirilmişdir.

Tədqiqatlarımız Antanta ilə Çar Rusiyasının Cənubi Qafqazı xristianlaşdırma siyasətinin davamı kimi Sovet Rusiyasının bu regionda ermənilər üçün ilk dövlətin 1920-ci ildə Qərbi Azərbaycan torpaqlarında yaradılmasını təsdiqləyir. Ermənistan Respublikası Türkiyə və türk dünyası arasında bufer rolunu oynayaraq, tarix boyu rus siyasətçilərinin təbirincə desək, Qafqazda Rusiyanın forpostu rolunu oynamışdır. 1920-ci ildə Cənubi Qafqazda erməni dövlətinin yaradıldığını onun tarixinin yazılması ehtiyacını irəli sürdü.

Məlumdur ki, Cənubi Qafqazın tarixi konsepsiyası hələ XX əsrin ortalarında İ.P.Petruşevski tərəfindən "XVI-XIX əsrin əvvəllərində Azərbaycan və Ermənistan feodal münasibətlərinin tarixi oçerk"ində işlənilib. Bu konsepsiyanın əsasını erməni dövlətçiliyinin Cənubi Qafqazda dərin köklərə malik olduğu ideyası təşkil edir.

İ.P.Petruşevskinin və erməni tarixçilərinin əsərlərində Qərbi Azərbaycan torpaqlarında, guya, mövcud olmuş erməni dövlətinin "Qafqaz Ermənistanı və Ararat respublikası" adlandırdıqları anlayışa Orta əsr mənbələrinin heç birində rast gəlinmir. Bu sənədlərdə Ermənistanın yerləşdiyi ərazi Çuxur Səd adlanır və Azərbaycan anlayışına daxildir. Sənədlərin təhlili Cənubi Qafqazın yeni tarixi konsepsiyasının işlənməsinə zəmin yaradır və Azərbaycan tarixinin sovet rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırıldığını sübuta yetirir.

Sovet İttifaqı dövründə azərbaycanlıların bu torpaqlardan tədricən sıxışdırılıb çıxarılması ilə yanaşı, onlara məxsus olan maddi-

mədəniyyət abidələri dağıdılıb, yer adları erməniləşdirilibdir.

1988-ci ildən sonra kütləvi terrora məruz qalmış azərbaycanlılar Qərbi Azərbaycan ərazisini tərk etmək məcburiyyətində qalmış və bundan sonra bu ərazidə qalmış azərbaycanlılara məxsus olan memarlıq abidələri, maddi-mədəniyyət nümunələri dağıntılara, məhvə məhkum olmuşdur.

Qərbi Azərbaycanda, Zəngəzurda aparılan ciddi elmi araşdırmalar 1961-ci ilə təsadüf edir. Demək olar ki nə ondan əvvəl və nə də ondan sonra bu əraziyə Azərbaycan alimləri buraxılmamışdır. Məhz həmin ildə Qarabağda və Zəngəzurda Azərbaycan və erməni alimlərinin birgə elmi ekspedisiyası fəaliyyətə başlayır. Zəngəzurun Urud (Oront) qəbiristanlığında XV-XVI-cı əsrlərə aid sənduqə formalı və qoç heykəlli məzar daşları aşkarlanır. Abidələrin üzərində həkk olunmuş Quran ayələri və birinin üzərində olan "Allah, Məhəmməd, Əli. Min evladi avğvan" kitabəsi (yəni alban nəslindən) və qədim türk tayfalarına məxsus onqonların (tanrıların) Tibet yak öküzü, şamanların, Humay quşunun və s. təsvirləri *(см. Мешадиханум Неймат, Корпус Эпиграфических памятников Азербайджана, т.I, стр.9-15, III, №1042-1058)* alban tayfalarının İslamı qəbul etməsini və ondan çox-çox əvvəl türkləşməsini sübuta yetirir. AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, "Şöhrət" ordenli Məşədixanım Nemətin bu elmi kəşfi ona qədər sovet tarixşünaslığında mövcud olan Qafqazın xilafət tərəfindən istilasından sonra xristian olan alban tayfalarının erməniləşməsi və gürcülüşməsi konsepsiyasını alt-üst edir və Azərbaycan türklərinin Qafqazda gəlmə deyil yerli, köklü xalq olduğunu təsdiqləyir. Məşədixanım Nemət Urud abidələrini 1981-ci ildə nəşr etdirdiyi "Мемориальные памятники Азербайджана" (Azərbaycanın memorial abidələri) kitabına salır və Azərbaycan xalqının mədəni irsi kimi təqdim edir.

Buna cavab olaraq erməni "alimləri" xət-tat savadsız olmuş, kitabəni səhv yazmışdır, – deyə "Min evladi avğvan" (yəni alban nəslindən) kitabəsinə hərflər əlavə edərək oxunuşunu "Avlağum Va-ğudlu" kimi təqdim edirlər. A.D.Papazyanın yazdığına görə, Orbelyan nəslindən olan Avlağum vagudluları Əmir Teymur türkləşdirmiş və onlara İslamı qəbul etdirmişdir. Həmən Urud qəbiristanlığında yatanlar da onlardır. Guya, azərbaycanlılar heç vaxt Zəngəzurda (Sisian) yaşamamışlar və Zəngəzur Azərbaycan torpağı deyil. Lakin A.D.Papazyanın 1959, 1968-ci illərdə çap etdirdiyi "Персидские документы Матенадарана» («Matenadaranın fars sənədləri"), "Персидские купчии Матенадарана" (Matenadaranın fars çıxarışları) əsərlərindəki sənədlərdə Zəngəzurun Naxçıvana, Naxçıvanın isə Azərbaycan ölkəsinə daxil olduğu göstərilir.

Digər erməni alimi Z.S.Xaçikyan yazır ki, Teymurun istilası zamanı Syunikdə yaşamış Avlağum vaqudlular İslamı qəbul etməsinlər deyə Gürcüstanın Lori dağlarına köçdülər *(Z.S.Xaçikyan, Pamyatnıe zapisi Armyanskix rukopisey XV v. Avtoreferat, Dokt.diss., Erevan, 1961 q.).* Beləliklə, A.D.Papazyanın irəli sürdüyü fikir digər erməni tarixçisi tərəfindən təkzib olunur. Bundan sonra Urud qəbiristanlığı dağıdılır və Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar öz dədə-baba yurdlarından didərgin salınırlar.

Ermənilər epiqrafika sahəsində də böyük saxtakarlıqlara yol verirlər və məqsəd üç dəniz arasında (Aralıq, Qara və Xəzər dənizləri) "Böyük Ermənistan" dövlətinin tarixən mövcudluğunu sübut etməkdir. Bu saxtakarlığın bariz nümunəsi kimi A.A.Xaçaturyanın "Корпус арабских надписей

Армении XIII-XVI вв." (Ереван, 1987) (XIII-XVI əsr Ermənistanın ərəb yazıları korpusu) əsərini qeyd etmək olar. Burada müəllif Türkiyənin İxlat, Ərzincan, Ərzrum, Azərbaycanın tarixi və müasir torpaqları olan – Zəngəzur, Naxçıvan, Göycə ərazisindəki abidələri daxil etmişdir. O, abidələrin coğrafiyasını və xronologiyasını qarışdıraraq, sözlərə hərflər əlavə etməklə saxtakarlığa yol vermişdir. Tarixi mənbələri təhrif edərək, Əbdürrəşid Bakuvinin "Kitab-o Təlxis əl-asar və əcayib əl-məlik əlqəhhar" əsərində "Abşeronda xristianlar yaşamışdır" ifadəsini saxtalaşdıraraq, "Abşeronda ermənilər yaşamışdır" sözləri ilə əvəz etmişdir.

Haylar dağıda bilmədiklərini erməni milli memarlıq abidəsi kimi təqdim edirdilər. Onlar Anadoludan Çinə qədər Araz boyu karvan-ticarət yolu – İpək yolu üzərində Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilmiş karvansaranı (h.729–1328-29 il) "erməni milli memarlıq abidəsi" kimi təbliğ edib xüsusi buklet də nəşr ediblər. *(Arutunyan V.M., Yerevan, 1984 il) (bax. Мешадиханум Неймат, Корпус Эпиграфических памятников Азербайджана, т.III, №991, стр.62).* Həmin yol üzərində Zəngilanın Məmmədbəyli kəndində Yəhya ibn Məhəmməd türbəsinin (vəf.1305 il) qapısı üzərində qoyulmuş kitabə ölçüsü, forması, həkk olunan texnikasına görə qeyd olunan karvansara kitabəsinin eynidir. Belə kitabənin üçüncüsünə Azərbaycanın tarixi ərazisində hələ rast gəlinməyib. Qeyd olunan kitabədə XIV əsrdə İpək yolu üzərindəki bütün abidələri yaratmış memar Əli Nəcməddinin adı çəkilir.

Abidənin içərisində erməni dilində divara bir yazı qoyulmuşdur. Bu yazıda olan mətnlə qapının üzərinə hörülmüş yazının mətni üst-üstə düşmür. Erməni dilində olan yazıda qeyd olunur ki, bu abidə 1332-ci ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Lazar Universitetinin müəllimi Xr.İv.Kuçuk-İoannasov iddia edir ki, "tatarlar" (yəni azərbaycanlılar) sonradan bu karvansaraya Səlim adı vermiş və ərəbcə yazını qapının üzərinə qoymuşlar. Halbuki ərəbcə yazı bina tikildiyi zaman qapının üzərinə hörülmüşdür. Maraqlısı odur ki, ermənilərin çap elədikləri bukletdə karvansara Səlim karvansarası adı ilə çap olunub. İstər-istəməz belə bir sual meydana çıxır, əgər bu erməni milli-mədəni abidəsidirsə, niyə ermənilər bunu "tatarlar" adlandırdıqları kimi adlandırırlar?

Erməniləşdirmək istədikləri digər abidə Azərbaycan Qaraqoyunlu dövləti, ÇuxurSəd əmirlərinə aid İrəvanın 8 kilometrliyində Cəfərabad kəndində yerləşən möhtəşəm türbədir.

Ermənilər türkmən alimlərini dəvət edərək bu abidənin bünövrəsində qazıntı işləri aparmış və belə bir qənaətə gəlmişlər ki, Qaraqoyunlu dövləti İran dövləti olub, onun başında türkmən (müasir türkmənləri nəzərdə tuturlar) əmirləri durublar və ərazisində erməni maddi-mədəniyyət abidələri olub. Bu cəfəng elmi nəticə yalnız xəstə təfəkkürün məhsulu ola bilər. Qaraqoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək qeyri-elmidir və düzgün deyil. Ona görə ki, onlar XIII əsrdə Anadoluda yarım köçəri tayfa birləşmələrindən ibarət idi. Onların mərkəz vilayətləri Arciş, Van gölünün şimalında yerləşirdi.

Bundan əlavə, memarlıq-konstruktuv formasına görə bu abidə Naxçıvanda yerləşən Möminə-xatun və Yusif bin Kəbir türbələri ilə eynidir və Əcəmi bin Əbu Bəkr memarlıq məktəbinin davamıdır.

Qeyd olunan yerdə bir neçə türbə və azərbaycanlılara məxsus böyük qəbiristanlıq olmuşdur. Hamısı dağıdılıb. *(Мешадиханум Неймат, Корпус Эпиграфических памят-*

*ников Азербайджана, т.III, №1027, стр.66-67).*

İrəvan şəhərində Göy məscidin kompleksində yerləşən Mədrəsə binasının hücrələrindən birində mərmər başdaşının üzərində "h.1330=1911-12-ci il Abasquluxan" yazılmışdır. Abasqulu ağa İrəvanski İrəvanın görkəmli maarif-pərvərlər ziyalılarından biri olmuş, maarifin, təhsilin, mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Arxiv sənədlərindən məlumdur ki, 1898-ci ildə bir qrup İrəvan ziyalısı Göy məscidə toplaşaraq məscidin nəzdində məktəb açmaq qərarına gəlirlər və bu məktəbin maliyyələşdirilməsini öz üzərlərinə götürürlər.

Mehri rayonunun Nüvədi kəndində bir neçə abidə qeydə alınmışdır. Bunlardan biri Anqizet qəbiristanlığında Şeyx oğlu Şeyx Mirinin başdaşıdır (h..700–1300-1301-ci ildə vəfat etmişdir). Digəri quş fermasının yerində Orta əsr qəbiristanlığı bir başdaşı qeydə alınmışdır. Üzərində dəfn olunanın adı qalmışdır – Qəni Tax. Kitabəni kufi xəttinə görə XIII əsrə aid etmək olar. Nüvədi kənd qəbiristanlığında h.1244–1828-29-cu il Əbdülkərim, h.1281–1864-65-ci il Məsumənin yerli daşdan və mərmərdən hazırlanmış başdaşları mövcud idi.

Zəngəzur dağlarında Baba Hacı türbəsi var. Hündürlüyü 3,50 metrdir. Planı xaricdən dairəvi, içəridən 16 bucaqlı (4,70x4,70 m), divarın eni 1,14 m. İçəridəki qəbirlər malalanıb, xaricdə baş daşılar üzərində h.932–1525-26-cı il və h.995=1586-87-ci il tarixləri yazılıb. Deməm Baba Hacı türbəsi daha əvvələ aiddir. Ətrafda böyük qəbiristanlıq olmuşdur.

Zəngəzurun Ələyaz kəndində Əxi Təvəkkül türbəsi var. Əxi Təvəkkül Məhərrəm ayı h.950–1543-cü ildə şəhid olmuşdur. Türbə uçub dağılmış, Əxi Təvəkkülün başdaşı qalmışdır. Əxi cəmiyyəti orta əsrlərdə sənətkarları birləşdirmişdi.

1915-ci ildə İrəvan quberniyasının ərazisində 382 şiə, 9 sünni məscidi, Zəngəzurda 38 məscid fəaliyyət göstərirdi. İrəvan quberniyasında məscidlərin sayının artma dinamikası belə idi: 1904-cü il – 201; 1911-ci il – 342; 1915-ci il – 382 məscid. Qeyd etməliyik ki, Çar Rusiyası dövründə məscid açmaq elə də asan iş deyildi. Bunun üçün qubernatorun və canişinin xüsusi icazəsi lazım idi. Məscidlərin sayının artım dinamikası müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə ruhanilərin bütün təzyiqlərə və ciddi nəzarətə baxmayaraq, böyük siyasi quvvə olduğundan və iradəsindən xəbər verir.

Məscid Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Kərkəs, Çərəli, Xardcmaqlı, Dəstəyird, Qalacıq, 1-ci Cicimli, 2-ci Cicimli, Qaroaçarlı, Seyidlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçü, Kaqlar, Yuva kəndlərində fəaliyyət göstərirdi *(Вафа Кулиева. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений Баку 2003, стр.183. ГИА ф.290, опись.2, дело № 756, лл.23, 49, 53).* O vaxtlar prixod məscidləri kənd soveti rolunu oynayırdı. Burada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların uçotu aparılırdı. Hər prixodun mollası var idi və o, qubernator tərəfindən təyin olunurdu. Ümumən XIX əsrin sonunda İrəvan quberniyasında 233 şiə və 14 sünni məscid prixodları fəaliyyət göstərirdi.

İrəvan şəhərində XX əsrin əvvəlinə kimi Qədim Şəhər məscidi, Came məscidi, Hacı

Novruzəlibəy məscidi, Hacı İmamverdibəy məscidi, Mirzə Səfibəy məscidi, Hacı Cəfərbəy məscidi fəaliyyət göstərirdi. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud idi. Binanın möhtəşəmliyi Qərbi Azərbaycanda tədrisin, elmin inkişafından xəbər verir. Bu cür komplekslərə Bakıda İçərişəhərdə və Dərbənddə rast gəlinir.

Azərbaycanlıların bu regionda köklü xalq olduğunu toponimlər – yer adları bir daha sübut edir. Toponimlər hansısa etnosun konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə ilk növbədə yer adlarını dəyişdirirlər. Demək olar ki, bütün toponimlər erməniləşdirilib. Adını çəkdiyimiz Urud – Oront, Cəfərabad – Arqavanq, Zeyvə – Metsamor və s. adlandırılıb. Bu da azərbaycanlıların bu torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədini güdür. Əslində, bu, Ermənistan Respublikasının dövlət siyasəti statusuna qaldırılmışdır.

Zəngəzurun Pir Davudan kəndində XIX əsrin sonunda 8-ci imam Rzanın nəvəsi Mir Davudun məqbərəsi var idi. Qara Vəli kəndində 7-ci imam Museyi Kazımın oğlu Seyid Əhmədin məqbərəsi yerləşirdi. Hal-hazırda dağıdılıb.

Mənbələrə əsasən demək olar ki, 1919-cu ildə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlılar əhalinin 72,3 faizini, Sürməli qəzasında 96 faizini, İrəvan qəzasında 60,2 faizini, Milistan və Vedibasar mahallarında 90 faizini... təşkil edirdilər *(Вафа Кулиева. Указ соч. стр.212).*

İrəvan məscidlərinin quberniyanın müxtəlif yerlərində vəqf əmlakları yerləşirdi. Bu, əsasən torpaq sahələri, dükanlar idi. Sənədlərdən göründüyü kimi, vəqf əmlaklarının sərhəd olduğu torpaqlar azərbaycanlılara məxsus idi. Bu da öz növbəsində bu regionda azərbaycanlıların çoxluq təşkil etdiyindən xəbər verir.

Böyük təəssüf hissi və ürək ağrısı ilə qeyd etmək lazımdır ki, hazırda bütün bu abidələr dağıdılıb.

Qarabağda yerləşən abidələr də ermənilər tərəfindən kütləvi surətdə dağıdılıb. Ermənilər çalışırlar ki bu yolla öz aqressiv siyasətlərinə haqq qazandırsınlar. Eyni zamanda, dünya ictimaiyyətinin nəzərini başqa istiqamətə yönəltmək məqsədi ilə azərbaycanlıların Naxçıvanda erməni qəbiristanlıqlarını dağıtması haqqında cəfəng məlumatlar yayırlar.

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri ermənilər tərəfindən mənimsənilir və erməni mədəni irs kimi təqdim edilir. Bu haqda rus, erməni, Avropa dillərində "əsərlər" çap olunur. *(Samvel Karapetyan. Памятники армянской культуры в зоне Нагорного Карабаха. 2000 г.; Шаген Мкртчян. Сокровища Арцаха. Ереван, 2000 г.).*

Lakin Qarabağ ərazisində yaxın zamanlara qədər külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikililər, Orta əsr qəbiristanlıqları, məscidlər və s. müsəlman abidələri mövcud idi.

Məhv olmuş abidələrin üzərində olan yazılar memarların, alimlərin, xəttatların, nəqqaşların, sufi şeyxlərinin, Azərbaycanda memarlıq məktəblərinin banilərinin adlarını aşkarlayır. Həkəri çayının hövzəsində yerləşən bir sıra türbələr öz memarlıq-konstruktiv formasına görə seçilir. Bunlardan Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən Yəhya ibn Məhəmməd türbəsini, Cəbrayıl rayonunun Şıxlar kəndində yerləşən Şıxbaba türbəsini (XIV əsr) misal göstərmək olar. Ətrafda Orta əsr qəbiristanlığı yerləşir. Türbədən bir qədər aralı Şeyxzadə Şeyx abd as-Salam ibn Şeyx Qiyas əd-Dinin (h.759 – 1358-ci il) məzarı yerləşirdi. Yaxınlıqda

həmçinin şeyxin davamçılarının məzarları üzərində başdaşları var idi. Yazıların mətninə, paleoqrafik xüsusiyyətlərinə, bədii tərtibatına görə, Şıxbaba xanəgahının Qədiriyyə Sufi Cəmiyyətinə aid olduğu müəyyənləşdirilmiş və fəaliyyət dövrü XIII-XIV əsrlərə aid edilmişdir.

Bu ərazilərdə XIV-XIX əsrlərə aid sənduqələr, başdaşı formalı qoç, at heykəlli məzar daşları ərəb, fars və Azərbaycan dilli yazılarla Azərbaycan xalqının həyat və məişətinin müxtəlif tərəflərini əks etdirir. Bunlar, həmçinin xalqın tarixinə, toponimikasına, təbabətinə, etnoqenez məsələlərinə aydınlıq gətirməklə, Azərbaycanın Orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır.

Qarabağın Laçın rayonunun Malıbəyli kəndində aşkarlanmış üç at heykəlli qəbir daşında (XVI-XVII əsrlər) və Armazisxevidə yerləşən (XIV əsr) at heykəlli abidənin bud tərəfinə həkk olunmuş Oğuz türk tayfalarına məxsus tamqalar – üç horizontal və bir vertikal xətt maraq doğurur. Qarabağ abidələrindəki epiqrafik məlumatlardan və təsviri incəsənət motivlərindən Cənubi Qafqazda Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış qədim türk tayfalarının məskunlaşma arealını müəyyən etmək olur.

Laçın rayonunun Malıbəyli, Güləbird kəndlərində at heykəlli qəbir daşlarında Günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri var. Məlumdur ki, qədim türk xalqlarının tanrısı Humay quşu idi. Bunun abidələrin üzərində təsvir olunması, güman ki, onları dağılmaqdan qorumaq məqsədi daşıyırdı.

Epiqrafik abidələr Qarabağda gedən tikinti işlərindən, Elxanilər dövründən və Qarabağ xanlarının mədəni-maarif fəaliyyətindən xəbər verir.

Bu abidələr sırasına Füzuli rayonunun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XII əsr) türbəsini aid etmək olar.

Bərdədə bir türbə və Axsadanbaba türbəsinin bünövrəsinin qalıqları qalıb. Bu, memar Əhməd bin Eyyub əl-Hafiz an-Naxçıvaninin işidir.

Cəbrayıl rayonunda köhnə qəbiristanlıqda yazının bir parçası aşkar olunub. Həmin yerdə, yolun qırağında iki başdaşı aşkarlanıb. Başdaşıların yuxarı hissəsində heyvan təsvirləri var – dağ keçiləri və Qobustanda, Abşeronda olan qayaüstü təsvirləri xatırlayan müxtəlif tamqalar həkk olunub.

Cəbrayıl rayonunda Diridağ platosunda Orta əsr qəbiristanlığı yerləşir. Orada dağılmış türbə binası var. Türbənin ətrafında müxtəlif bədii formaya malik qəbir daşları qalıbdır. Onlardan ikisi qoç heykəllidir və Azərbaycanın digər dağətəyi rayonlarında mövcud olmuş abidələrin analogiyasıdır.

Ağdamın rayon mərkəzində “İmarət” adlanan memarlıq kompleksində XVI əsrə aid Orta əsr qəbiristanlıqlarından yığılmış sənqudə formalı qəbir daşları cəmlənmişdir.

Laçın rayonunda Ağoğlan məbədinə gedən yolun sağında XVI əsrin at heykəlli və sənduqə formalı qəbir daşları var idi.

Füzuli rayonunun Əhmədallar kəndində, Orta əsr qəbiristanlığının yerində sənduqə formalı qəbir daşı qalmışdı (1024 – h.1615 il). Qarğabazar kəndindəki, Şah Abbas karvansarasından yuxarı, qayanın üstündə Qiyasəddin məscidi durur. Yerli əhali onu “Şah Abbas” məscidi adlandırırdı. Kənddə yerləşən bulağın üzərində üç sətirlik ərəbdilli yazı var idi. Yazıda deyilirdi ki, bulağı 1305-ci ildə Gəncəli Əmir Qarğabazarlının oğlu tikdirib.

Qarabağ xanı Pənahəli xanın mərmər başdaşısı Ağdamda yerləşən türbəsindən Azərbaycan Tarix muzeyinə köçürülüb.

Laçın rayonunun Cicimli kəndində 1790-1791-ci ildə çaylaq daşından düzbucaqlı planda tikilmiş məscid binası mövcud idi.

Şuşa şəhərində memar Kərbəlayi Səfi xan Qarabağlı tərəfindən inşa edilmiş iki məscid və iki mədrəsə binası var. Bu haqda məlumatı məscidin üzərindəki kitabə xəbər verir. Memarın adına Füzulidə yerləşən məscidin, Bərdə və Ağdamda olan məscidlərin, Şuşa şəhərinin bir sıra məhəllə məscidlərinin üzərində də rast gəlmək olar. Bütün bu abidələr XIX əsrin ikinci yarısına aiddir.

Bu unikal tarixi məlumatlarla Azərbaycan tarixşünaslığını görkəmli epiqrafçı alim, AMEA-nın müxbir üzvü Məşədixanım Nemət zənginləşdirib. *(М.С.Неймат. Надписи Джума-мечети, находится в г. Шуше. Изв.АН.ССР, Серия общественных наук. №1, 1961 г., с.47, 58 на аз.яз.; ее же. Эпиграфические памятники Карабаха. С-1 «Азербайджан и азербайджанцы», №11-12, 2002 г.; Р.Гарабаглы. Архитектор Кербалаи Сафихан Гарабаги. Баку, 1994, сс.18-24, 30-35, 40-57).*

XIX əsrin sonlarında Şuşada 17 məscid fəaliyyət göstərirdi. Bunlar: Yuxarı və Aşağı came məscidləri, Təzə məhəllədə təmir olunmuş məscid, Malıbəyli, Gulablı, Şelli, Yusifcanlı, Mərəzəli, Xəzəristan, Ləmbəran, Ağcabədi, Xəlil Fəxrəddinli, Xunaşın, Qərar kəndlərində fəaliyyət göstərən məscidlərdir. Şuşa muzeyində Hacı Yusifli, Heydəri, Hamam, Culfa, Məriyanlı, Rahatlı, Dəmirçi, Hacı Mircanlı, Çoluçağa, Məhəli, Çuxur, Quyluq, Dördlər qurdu, Qapan kəndlərində də məscidlər var idi *(ГИА, ф.290, опись.24, дело 124, лл. 5, 6).*

1828-ci ildə Azərbaycana köçürülmüş ermənilər hələ sovet hakimiyyəti zamanı yaşadıqları Ordubadın Der kəndində azərbaycanlılara məxsus Orta əsr qəbiristanlığını erməni qəbiristanlığına çevirmişlər.

Şamaxının Kəlaxana kəndində yaşayan Qriqorian ermənilər XIV-XVII əsr qəbiristanlığında sənduqə formalı məzar daşlarını dağıdıb yerində üzüm bağları salmışdılar.

Əmircan kəndindəki Nizaməddin məscidinin portalındakı kitabə üzərindəki yazılar pozulmuş və sonradan bərpa olunmuşdur.

Bərpa idarəsində işləyən erməni inşaatçı ustalar Bakıda, İçərişəhərdə yerləşən Came məscidi kompleksində olan mədrəsə kitabəsini torpağa basdırmış, Came məscidi bünövrəsindəki Şirvan ordusunun baş komandanı şəhid Əbu Yaqub Yusifə həsr olunmuş kufi yazılı xatirə lövhəsini ovub, oxunmaz hala salmış, İçərişəhər qala divarında "Daşnaksütyun" partiyasının emblemini həkk etmişlər.

Ümumiyyətlə, son 200 ildə Azərbaycan xalqı, onun maddi-mədəniyyət abidələri ermənilər tərəfindən soyqırımına məruz qalmışdır. İşğaldan sonra gözümüzün önündə canlanan mənzərə bizə dərin şok yaşatdı. Azərbaycanın 20 faiz ərazisini işğal etmiş məkirli düşmən 30 ildə daşı-daş üstündə qoymamışdır.

Mənəvi soyqırım fiziki soyqırımından daha dəhşətlidir. Nə qədər ağır olsa da, insan itkisi zaman keçdikcə öz yerini doldurur, amma mənəviyyata vurulan zərbə birdəfəlik olur, ömür boyu unudulub, yaddan çıxmır. Mənəvi soyqırım bir xalqın keçmişinin, kökünün, əcdadının, tarixi yaddaşının itirilməsi deməkdir. Mən inanıram ki, qədim tarixə, zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı qazandığı tarixi Qələbədən sonra azad olunmuş ərazilərdə tarixi yaddaşı olan mədəniyyət abidələrinin imkan daxilində bərpasına çalışacaq, bu sahədə də öz qüdrətini bir daha dünyaya nümayiş etdirəcəkdir.

**Vəfa QULİYEVA,**
**tarix elmləri doktoru**

# 32-ЛЕТНЯЯ ХОДЖАЛИНСКАЯ ТРАГЕДИЯ ПОКА НЕ РАССЛЕДОВАНА. ПОЧЕМУ? ПУСТЬ СПРАВЕДЛИВОСТЬ ВОСТОРЖЕСТВУЕТ! [1]

**Ариф Джамиль оглу Гулиев,**
**доктор юридических наук, профессор, профессор кафедри конституцийного, международного права та публично-правовых дисциплин Киевський университета интелектуальний собственности и права Национального университету «Одесский юридический Академия», Заслужений работник образование Украины, руководитель ОО «Ученый Совет Азербайджанцев Украины».**
E-mail: Arif Guliyev [arifguliyev@ukr.net]

### Смерть невиновных – бремя для врага-злодея

Почему сегодня мировое сообщество должным образом не реагирует на горе других народов, ведь, по словам Байрона, «горе – учитель мудрых?» И почему чьи-то территориальные претензии к соседям остаются без внимания?..

Ходжалы – азербайджанский город в Карабахе Азербайджанской Республики, он, как и Бабий Яр, Освенцим, Хатынь, Бухенвальд, давно перестал быть просто географическим названием. Ныне Ходжалы как точка на карте – один из трагических адресов массовых убийств, от жестокости и бесчеловечности которых содрогнулся весь мир. Прошло 32 года, а боль от кровавой бойни, учиненной армянскими агрессорами в этом небольшом азербайджанском городе, до сих пор не утихает. Двадцатый век окропил страницы истории кровью миллионов невинных людей, ставших жертвами самого низкого и подлого, что есть в человеке — жестокости и зверства...

### Кровавые страницы ИСТОРИИ

Исторические факты подтверждает, что азербайджанцы, последовательно подвергаясь политике этнической чистки, геноцида и агрессии со стороны армянских националистов, превратились в беженцев и вынужденных переселенцев, изгнанных из своих исторических земель. Армяне, живущие идеей о «великой Армении», для того, чтобы добиться своих целей, с помощью иностранных покровителей осуществляли в 1905-1906, 1918-1920, 1948-1953 и 1988-1993-х годах террор и геноцид против азербайджанцев, проводили политику этнической чистки.

В начале XX века армянские националисты, расширив деятельность по реализации идеи о «великой Армении», выдвинутой в программе партии «Дашканцутюн», планомерно изгоняя проживающих на своих исторических землях азербайджанцев из родных краев, осуществляли политику этнической чистки и геноцида. В результате в 1905-1906-х годах армяне учинили в Баку, Гяндже, Карабахе, Иреване, Нахчыване, Ордубаде, Шаруре-Дерелейезе, Тифлисе, Зангезуре, Газахе и в других местах резню азербайджанцев, с особой жестокостью было истреблено население, сожжены и уничтожены города и села. Армянские вооруженные отряды

опустошили в Шушинском, Зангезурском и Джебраильском уездах, Ireванском и Гянджинском губерниях более 200 населенных пунктов, где проживали азербайджанцы, десятки тысяч наших соотечественников, изгнанных из своих родных земель, стали беженцами и вынужденными переселенцами [2].

Как продолжение этого процесса, в декабре 1917 года С.Шаумян, назначенный временным чрезвычайным комиссаром по делам Кавказа, стал организатором и руководителем массовой резни азербайджанцев. В период с начала 1917 года по март 1918 года армянскими вооруженными силами в Иреванской губернии были разрушены 197 сел, Зангезурском уезде – 109, Карабахе – 157, в других регионах уничтожено, сожжено и разграблено 60 населенных пунктов.

31 марта 1918 года и в первые дни апреля тысячи мирных азербайджанцев были уничтожены только из-за их национальной принадлежности. В эти дни армяно-большевистские соединения в Баку истребили 12 тысяч мирных азербайджанцев. Во время этих кровавых событий людей заживо сжигали в их домах, убивали с особой жестокостью, подвергая невиданным пыткам.

Претензии армян на азербайджанские земли, в том числе и на Карабах, являются частью их стратегического плана по созданию т. н. «Великой Армении». С приходом к власти сторонника армян Михаила Горбачева правящие круги Армении, пользуясь покровительством и поддержкой кремлевского руководства, стали выдвигать территориальные претензии к Азербайджану. Первым шагом Горбачева на пути к реализации захватнического плана явилось устранение из Политбюро выдающегося сына Азербайджана Гейдара Алиева, который был самым мощным препятствием. Дальше события на политической арене стали развиваться с такой скоростью, что азербайджанцы, не успев понять «глубинной сути» одного политического акта кремлевских руководителей, оказывались перед фактом совершения ими уже следующего коварного шага. Высшее руководство СССР озвучивало постановление за постановлением, которые были якобы направлены на стабилизацию положения в Карабахе, а на самом же деле никаких практических мер не предпринималось [3].

Напротив, эти документы только узаконивали вмешательство соседней республики во внутренние дела Азербайджана, предоставляя ей тем самым широкие возможности в Нагорно-Карабахской области, что сводило на нет конституционные права Азербайджана на своей территории. Начиная с 1987 года, вокруг Азербайджана шла самая настоящая информационная война. В советских СМИ практически не было и двух слов правды о событиях в Азербайджане, все преподносилось в искаженном виде, а что нельзя было дезавуировать, то просто нагло замалчивалось. После февральских событий 1988 года начались военные действия по захвату Карабаха. К армянским военным формированиям присоединились части вооруженных сил СССР, находящиеся в Армении и Нагорно-Карабахской автономной области Азербайджанской ССР.

### Смертельная ночь

15 января 1992 года была захвачена деревня Керкиджахан, 10 февраля — деревни Малыбейли, Гушчулар. В середине

февраля армянские и российские военные группировки захватили селение Гарадаглы.

В ночь с 25 на 26 февраля 1992 года в ходе армяно-азербайджанского нагорно-карабахского вооруженного конфликта армянские вооруженные формирования при участии военнослужащих 366-го полка бывшего СССР взяли штурмом населенный преимущественно азербайджанцами город Ходжалы. В списке участников фигурировали такие лица, как заместитель командира полка по тылу, полковник Байлуков; командир первого батальона, полковник Моисеев; командир второго взвода, майор Оганян; командир третьего взвода, майор Набоких; начальник штаба первого батальона, майор Читчиян; начальник разведки полка, майор Айриян; командир роты, старший лейтенант Мирзохалзаров; начальник взвода разведки, старший лейтенант Хринхуа; командир танковой роты, старший лейтенант Гармаш; командир роты, старший лейтенант Акопян; командир роты, старший лейтенант Вавиловский; командир взвода, старший лейтенант Лысенко; командир батареи, старший лейтенант Азаров; командир противотанковой батареи, старший лейтенант Абрамов; командир третьей танковой роты, лейтенант Балезний; командир танкового взвода, лейтенант Смакин; командир саперной роты, лейтенант Рачковский; замначальника разведки, лейтенант Бондарев; начальник радиохимического взвода, лейтенант Кулов, а также 41 армянский военнослужащий офицерского состава» [4] .

Были совершены беспрецедентные по своим масштабам расправы над проживавшим в нем гражданским населением и его защитниками, квалифи¬цируемые как геноцид. В ходе террористического акта на этот город и его захвата были жестоко убиты 613 азербайджанцев, 1000 мирных жителей различного возраста стали инвалидами вследствие полученных пулевых ранений. С особой жестокостью было убито 106 женщин, 63 малолетних ребенка, 70 стариков, 8 семей было уничтожено полностью, 25 детей потеряли обоих родителей, 130 – одного из родителей, 1275 мирных жителей было взято в плен, о судьбе 150 из них до сих пор ничего неизвестно, 56 погибших были убиты с особой жестокостью и беспощадностью – сожжены заживо, оскальпированы, у них были отрублены части тела и головы, выколоты глаза, беременным женщинам штыками вспороли животы. Некоторые жители, пытавшиеся спастись бегством, погибли в заранее расставленных ловушках. Армянские солда¬ты, зверствуя, снимали скальпы, отсекали головы, кололи штыками беременных женщин и глумились над телами погибших. Не щадили даже детей. Факты подтверждают, что жители и защитники Ходжалы подверглись целенаправленному массовому истреблению только за то, что они были азербайджанцами. Цель этой чудовищной акции заключалась в уничтожении всего населения города. Лишь благодаря чистой случайности некоторые жители Ходжалы остались в живых, чтобы стать затем свидетелями на суде истории [5].

**Горести и боль живы. История не стирает память кровавых событий Ходжалы**

По информации Российского правозащитного центра «Мемориал» за четыре

дня в Агдам из Ходжалы было доставлено 200 трупов, были зафиксированы факты надругательства над десятками трупов. В Агдаме 181 труп (130 мужчин и 51 женщина, в том числе 13 детей) прошел судебно-медицинскую экспертизу. Я сам лично был свидетелем этих дней соседнего Агдама, присутствовал судебно-медицинскую экспертизах и похоронах земляков. Во время экспертизы было установлено, что причиной смерти 151 человека явились пулевые и осколочные ранения, 10 человек скончались от ударов тупыми предметами, также зафиксирован факт скальпирования живых людей. Эти цифры лишь подтверждают, что Ходжалинский геноцид – самая кровавая трагедия, произошедшая в результате Армяно-азербайджанского карабахского конфликта.

**Мировая политика: какова цена Ходжалинского геноцида?**

Следует отметить, тот неоспоримый факт, что события в Ходжалы произошли в то время, когда нынешний президент Республики Армения возглавлял «Комитет сил самообороны» незаконного сепаратистского режима и, соответственно, был одним из лиц, ответственных за насильственный захват этого города. Кроме того, сам Серж Саргсян (поначалу, для заметания следов, сменивший фамилию «Саркисян» на фамилию «Саргсян») и другие непосредственные участники этого преступления, почувствовав безнаказанность, без зазрения совести во всеуслышание признали свою ответственность за истребление жителей и защитников Ходжалы.

24 февраля 2012 года ведущий эксперт Международного фонда Карнеги Томас де Ваал (автор знаменитой книги «Черный сад» (Москва: Текст, 2005. 413 с.) на сайте фонда опубликовал статью «Президент, интервью и трагическая годовщина» («A President, an Interview, and a Tragic Anniversary»), где привел полный текст интервью с министром обороны Армении Сержем Саркисяном (нынешним экс- президентом Республики Армения) от 15 декабря 2000 года на русском языке, где тот дословно признался: «До Ходжалы азербайджанцы подумывали, что они просто с нами шутят. Азербайджанцы подумывали, что армяне – люди, которые не смогут поднять руку на мирное население. Нужно было все это переломить. Так и получилось» [6]. Этим Саргсян признался в убийстве мирных жителей, стариков, женщин и детей, а место наказания он получил международный статус – стал Президентом Армении. Это показал, мировом сообществам «цена» преступника геноцида азербайджанцев городе Ходжалы. Кто теперь сможет отрицать, что Серж Саргсян – военный преступник и подлежит уголовной ответственности за военные преступления? Но это уже тема отдельной беседы.

**Тысячи погибли – открытая рана в сердце патриотов**

Уже сейчас можно делать выводы о том, что армяно-азербайджанский и нагорно-карабахский конфликты, равно как и конфликты в других горячих точках до сих пор остаются острой проблемой. И если эксперты не изучат предпосылки кровавых конфликтов, сопровождавших процесс распада Советского Союза, то могут появиться новые жертвы. Люди,

пытающиеся предать забвению собственную историю, оказываются беззащитными перед лицом новых угроз и вызовов, которые корнями в значительной степени уходят в наше общее историческое прошлое…

Сегодня уже является неоспоримым фактом то, что главными преступниками и виновниками акта геноцида, учиненного в городе Ходжалы, являются армянские вооруженные формирования и личный состав 366-го мотострелкового полка. Их действия расцениваются, как грубое нарушение прав человека, циничное игнорирование международных правовых актов, таких как Женевская конвенция, Всеобщая декларация прав человека, Международный пакт о гражданских и политических правах, Декларация о защите женщин и детей в чрезвычайных обстоятельствах и в период вооруженных конфликтов и других актов международного права.

Кроме того, о трагедии говорят и многие политики, ученые, дипломаты. Азербайджан однозначно опирается на все международные нормы, выстроенные на основе резолюций и постановлений, принятых международными организациями.

Зверства, совершенные армянскими агрессорами в городе Ходжалы, не должны остаться безнаказанными, так как случившееся тогда было не только геноцидом в отношении азербайджанского народа, но и преступлением против всего человечества.

Сегодня, говоря о Ходжалинской трагедии, используют разные определения, эти события называют и «бойней», и «геноцидом». Однако отождествлять эти понятия никак нельзя, поскольку они совершенно разные и имеют совершенно разную юридическую и политическую оценку.

К примеру, в уголовном законодательстве Азербайджана есть специальная статья (АР УП, 105 ст.), где говорится, что уничтожение населения не по национальным, этническим, религиозным признакам оценивается как преступление против населения. Другими словами, это можно назвать бойней. Но в этом законодательстве есть и статья 103, которая определяет геноцид, как уничтожение членов какой-либо национальной, этнической, расовой или религиозной группы, нанесение тяжелых увечий или создание тяжелых условий жизни с целью полного или частичного физического уничтожения. Преступные действия армянских сепаратистов в Ходжалы должны быть оценены именно по этой статье. Они привели к другим преступлениям, установленным другими статьями того же законодательства, а именно: депортации населения и вынужденному переселению (107 ст.), незаконному лишению свободы (112 ст.), пыткам (113 ст.), нарушению международного гуманитарного права во время вооруженного конфликта (116 ст.), военным грабежам (118 ст.) и др.

Таким образом, с полной уверенностью можно заявить, что действия армян являются не только геноцидом, но и нарушением Международного гуманитарного права, Женевской конвенции, Всеобщей декларации прав человека, Международного пакта о гражданских и политических правах, Международного пакта об экономических, социальных и культурных правах, Декларации прав ребенка, Декларации о защите женщин и детей в чрез-

вычайных обстоятельствах и в период вооруженных конфликтов и других актов международного права.

Первая политико-правовая оценка этой кровавой трагедии была дана азербайджанским общенациональным лидером Гейдаром Алиевым, пришедшим к власти по настойчивому требованию азербайджанского народа. С 1994 года до мировой общественности начала широко доходить информация об истинных масштабах и ужасах преступлений, совершенных армянскими агрессорами. Гейдаром Алиевым принимались целенаправленные меры для доведения до государств мира, влиятельных международных организаций всей правды о Ходжалинской бойне, для того чтобы это преступление получило правовую оценку на международном уровне.

Ходжалинский геноцид, совершенный с особой жестокостью, привел в ужас украинских, русских, грузинских, английских, французских, немецких, американских журналистов, а также журналистов и публицистов из других стран.

Действующие международные конвенции, законы во всех странах мира осуждают акты геноцида, подобные Ходжалинской трагедии, заявляют об их недопустимости. Мир должен знать о том, что это преступление направлено не только против азербайджанского народа, но и против всего человечества. Лица, занимающие сегодня высокие посты в Армении, как виновники геноцида должны ответить перед международным судом.

Это преступление не должно остаться безнаказанным. Военно-политическая агрессия Армении против Азербайджана должна быть осуждена мировой общественностью. Международные организации, парламенты стран мира должны дать политическую и правовую оценку Ходжалинскому геноциду, совершенному Армянской Республикой на территории Азербайджана, как подлинному геноциду.

Изгнанные из своих домов и разбросанные по всему Азербайджану живые свидетели ходжалинского геноцида, с которыми я общался каждый день в течение семи лет, надеются на справедливое урегулирование нагорно-карабахского конфликта, отражение агрессии Армении против Азербайджана, восстановление территориальной целостности страны. Хочется верить, что мировая общественность не останется равнодушной к страшной трагедии, произошедшей в городе Ходжалы, и не только даст правовую оценку геноциду, совершенному против всего человечества, но и вынесет приговор всем тем, кто виновен в совершении этого кровавого преступления. Мы призываем мировое сообщество не верить лживым оправданиям армянских преступников, призываем осудить их действия, чтобы они понесли заслуженное наказание...

### Дипломатия или решительные действия?

Принятые в мире международные конвенции осуждают акты геноцида, подобные Ходжалинской трагедии, заявляют о его недопустимости. Азербайджанский народ вправе подать иск в Международный суд ООН против Армянской Республики, руководствуясь конвенцией «Предупреждение и наказание преступления геноцида» от 9 декабря 1948 г. Мир должен знать о том, что это жестокое преступление на-

правлено не только против азербайджанского народа, но и против всего человечества. Сегодня люди, занимающие до недавного времени высокие посты в Армении, – Серж Саркисян, Сейран Оганян, а также Роберт Кочарян и другие должны ответить перед международным судом как виновники случившегося геноцида. Преступление не должно остаться безнаказанным. Мировой общественности следует предъявить обвинения Армении за военно-политическую агрессию. Международным организациям, парламентам стран мира необходимо дать международную политико-правовую оценку Ходжалинскому геноциду, совершенному Арменией на территории Азербайджана. На этой точке зрения Азербайджан будет стоять всегда…

По отношению к беззащитному населению Ходжалинская трагедия – это самый страшный и массовый, после фашизма во Второй мировой войне, акт геноцида со стороны армянских сепаратистов-террористов. Страшной смерти подверглись беженцы, нашедшие приют на азербайджанской земле. До сих пор неизвестна судьба свыше двух тысяч ходжалинцев.

Когда думаешь о варварстве армян в городе Ходжалы, охватывает ужас от мысли: неужели все это происходило не в средние века, а в цивилизованном современном обществе? Человек отрезает голову живому человеку, скальпирует, сжигает живьем, выкалывает глаза, вспарывает животы беременным женщинам... Неужели человечество не выносит никаких уроков из трагических событий прошлого? Что это – безнаказанность, порождающая все новые и новые зверства?

Хотя ходжалинские события и признаны во всем мире геноцидом, однако за совершение этих ужасающих преступлений так никто и не понес наказания. Жертвы и палачи по-прежнему сосуществуют рядом, организаторы и заказчики продолжают строить зловещие планы, своевольно кроят границы и ведут кровавую статистику своих жертв. А Горбачев, с чьей «легкой» руки начались все эти античеловеческие зверства не только в Азербайджане, но на всем постсоветском пространстве, сидит в Москве или разъезжает по миру и преподает людям «уроки демократии». Нежелание мирового сообщества решить нагорнокарабахскую проблему на основе общепризнанных норм и принципов международного права создает опасность новых трагедий, и не только в Азербайджане... Любое преступление, оставаясь безнаказанным, влечет за собой другие преступления. Армяне, пользуясь тем, что им в христианском мире всегда и во всем верят, только умножают ложь, выставляя агрессора в роли жертвы и пытаясь переложить вину с виновников на пострадавших. Стоит ли говорить о том, что в условиях продолжающегося нагорно-карабахского конфликта монополия на правду одной стороны не просто опасна – она смертельна. Слова, произнесенные в 1984 году тогдашним послом США в ООН госпожой Джин Киркпатрик по поводу очередной кампании против сионизма, стали актуальными и в отношении армяно-азербайджанского конфликта: «Мы позволили лжи распространяться, не опровергнув ее. Она затем переросла в политику – и эта политика, которая также не была осуждена, переросла в смерти... Иногда судьба целых народов зависит от слов...».

**Незабываем и не прощаем!**

О зверствах и чудовищных надругательствах армянских захватчиков над ходжалинцами сегодня написано достаточно, существует много фотографий и видеокадров с места трагедии, которые говорят сами за себя, однако до сих пор остается открытым вопрос: почему не наказаны все повинные в этом зверском преступлении? Несомненно, в трагедии Ходжалы осталось немало темных пятен, и чтобы дать этим событиям объективную правовую оценку, необходимо, прежде всего, понимать, где искать причину произошедшего. Выяснение роли 366-го полка, принадлежавшего войскам бывшего СССР, во взятии Ходжалы имеет сегодня во многом решающее значение для понимания причин произошедшей трагедии. Бывшее российское руководство и военные с самого начала в категорической форме отрицали участие 366-го полка в захвате Ходжалы. Однако под давлением фактов признали, что некоторые военнослужащие приняли в этом участие.

Начальник спецотдела (№02270) 366-го мотострелкового полка полковник Владимир Савельев в своем секретном донесении российскому командованию писал о зверствах, которые творили армянские бандиты при захвате города Ходжалы. В нем, в частности, говорилось: «...Не имею желания умалчивать эти факты, которые происходили на моих глазах. Не могу забыть расстрелянных людей, детей и стариков, беременных женщин. Пусть меня простят азербайджанцы за то, что я был не в силах противостоять этим кровавым событиям...». К донесению был приложен и список некоторых военных чинов, которые объединились с армянами и убивали пленных азербайджанцев.

Все эти годы армянская сторона, прекрасно осознающая свою вину, пытается всячески снять с себя ответственность за геноцид азербайджанского населения. С самого начала Армения категорически отрицала уничтожение Ходжалы и факты вандализма, преподнося это как «пропагандистскую акцию Азербайджана». После появления видео о зверствах армянских агрессоров отрицать факты массового уничтожения азербайджанцев стало невозможно, существовало много неопровержимых доказательств, свидетельствовавших о зверствах армян в городе Ходжалы. Однако и тогда их признания были с многочисленными оговорками. В прессе стали появляться заявления армянской стороны о том, что взятие Ходжалы было обусловлено военной необходимостью. При всем том они утверждали, что убивать мирных жителей никто не собирался, для них якобы был открыт специальный «коридор» спасения.

А вот тому, как армяне изуверски измывались над оставшимися в живых людьми, есть конкретные доказательства. Фотои видеоматериалы из Ходжалы облетели весь мир, вызывая ужас и возмущение всего цивилизованного общества. Мир содрогнулся от кадров с места событий, тяжело было поверить, что это средневековое варварство совершалось в XX столетии.

Во время атаки в Ходжалы использовались запрещенные патроны калибра 5,45 и химическое оружие. Действия армянской стороны были заранее продуманы и направлены на уничтожение людей по признаку национальной принадлежности. Все это подтверждает факт нарушения

Арменией протоколов Женевской конвенции и осуществление геноцида против мирного населения.

Мировая общественность должна знать всю горькую правду о Ходжалы, а совершенное против человечности данное преступление должно получить свою объективную правовую оценку, поскольку, согласно международному праву, геноцид является деянием, направленным против мира и цивилизации, и считается самым тяжким международным преступлением.

Сегодня, говоря о Ходжалинской трагедии, используют разные определения, эти события называют и «бойней», и «геноцидом». Однако отождествлять эти понятия никак нельзя, поскольку они совершенно разные и имеют совершенно разную юридическую и политическую оценку.

К примеру, в уголовном законодательстве Азербайджана есть специальная статья (АР УП, 105 ст.), где говорится, что уничтожение населения по национальным, этническим, религиозным признакам оценивается как преступление против населения. Другими словами, это можно назвать бойней. Но в этом законодательстве есть и статья 103, которая определяет геноцид как уничтожение членов какой-либо национальной, этнической, расовой или религиозной группы, нанесение тяжелых увечий или создание тяжелых условий жизни с целью полного или частичного физического уничтожения. Преступные действия армянских сепаратистов в Ходжалы должны быть оценены именно по этой статье. Они привели к другим преступлениям, установленным другими статьями того же законодательства, а именно: депортации населения и вынужденному переселению (107 ст.), незаконному лишению свободы (112 ст.), пыткам (113 ст.), нарушению международного гуманитарного права во время вооруженного конфликта (116 ст.), военным грабежам (118 ст.) и др.

Таким образом, с полной уверенностью можно заявить, что действия армян являются не только геноцидом, но и нарушением Международного гуманитарного права, Женевской конвенции, Всеобщей декларации прав человека, Международного пакта о гражданских и политических правах, Международного пакта об экономических, социальных и культурных правах, Декларации прав ребенка, Декларации о защите женщин и детей в чрезвычайных обстоятельствах и в период вооруженных конфликтов и других актов международного права.

Первая политико-правовая оценка этой кровавой трагедии была дана азербайджанским общенациональным лидером Гейдаром Алиевым, пришедшим к власти по настойчивому требованию азербайджанского народа. С 1994 года до мировой общественности начала широко доходить информация об истинных масштабах и ужасах преступлений, совершенных армянскими агрессорами. Гейдаром Алиевым принимались целенаправленные меры для доведения до государств мира, влиятельных международных организаций всей правды о Ходжалинской бойне, для того чтобы это преступление получило правовую оценку на международном уровне.

Ходжалинский геноцид, совершенный с особой жестокостью, привел в ужас украинских, русских, грузинских, английских, французских, немецких, американских журналистов, а также журналистов и публицистов из других стран.

Действующие международные конвенции, законы во всех странах мира осуждают акты геноцида, подобные Ходжалинской трагедии, заявляют об их недопустимости. Мир должен знать о том, что это преступление направлено не только против азербайджанского народа, но и против всего человечества. Лица, занимающие сегодня высокие посты в Армении, как виновники геноцида должны ответить перед международным судом.

Это преступление не должно остаться безнаказанным. Военно-политическая агрессия Армении против Азербайджана должна быть осуждена мировой общественностью. Международные организации, парламенты стран мира должны дать политическую и правовую оценку Ходжалинскому геноциду, совершенному Армянской Республикой на территории Азербайджана, как подлинному геноциду.

Изгнанные из своих домов и разбросанные по всему Азербайджану живые свидетели ходжалинского геноцида, с которыми я общался каждый день в течение семи лет, надеются на справедливое урегулирование конфликта, отражение агрессии Армении против Азербайджана. Хочется верить, что мировая общественность не останется равнодушной к страшной трагедии, произошедшей в городе Ходжалы, и не только даст правовую оценку геноциду, совершенному в отношении азербайджанского народа, но и вынесет приговор всем тем, кто виновен в совершении этого кровавого преступления. Мы призываем мировое сообщество не верить лживым оправданиям армянских преступников, призываем осудить их действия, чтобы они понесли заслуженное наказание... Этот акт жестокости и вандализма, совершенный армянскими захватчиками, должен быть осужден мировой общественностью и всем прогрессивным человечеством наравне с такими трагедиями, как Хатынь, Холокост, Освенцим, Бухенвальд, Бабий Яр, Хиросима, Нагасаки и Сонгми.

### Месть настигнет врага: жизнь невинных людей и неиссякаемые слезы скорби не будут прощены…

Неужели человечество не выносит никаких уроков из трагических событий прошлого? Что это – безнаказанность, порождающая все новые и новые зверства? Чудом оставшиеся в живых свидетели Ходжалинского геноцида более 20 раз с большими надеждами обращались к Организации Объединенных Наций, в Совет Европы, в Организацию по безопасности и сотрудничеству в Европе, а также ко всей прогрессивной общественности мира, с требованием к международному сообществу, могущественным миролюбивым странам: осудить агрессивное государство, игнорирующее международное право и общечеловеческие ценности, дать политико-правовую оценку Ходжалинскому геноциду и заставить это государство жить по принципам правды и справедливости, строить с соседними государствами цивилизованные отношения!

### Литература и ссылки

1. Ариф Гулиев. УКРАИНО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ: ПРАВО, ПОЛИТИКА, ДИПЛОМАТИЯ. Том 3. Харьков, «Факт», 2018. – с. 359.
2. Ариф Гулиев. УКРАИНО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ: ПРАВО, ПОЛИТИКА, ДИПЛОМАТИЯ. Том 3. Харьков. «Факт» 2018. – с. 359-384.

3. 32-летняя Ходжалинская трагедия пока не расследована. Почему? https://yenimedia.org/ru/posts/detail/32-letnyaya-xodzalinskaya-tragediya-poka-ne-rassledovana-pocemu-1708789372
4. https://www.newsazerbaijan.ru/karabakh/20120227/296999686.html
5. Ариф Гулиев. УКРАИНО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ: ПРАВО, ПОЛИТИКА, ДИПЛОМАТИЯ. Том 4. Харьков. «Факт» 2021. – с. 185-193.
6. Карнеги Томас де Ваал. «Черный сад». Москва: Текст, 2005. 413 с.) на сайте фонда https://carnegieendowment.org/2012/02/24/president-interview-and-tragic-anniversary/9vpa

## 32 ILLIK XOCALI FACIƏSI HƏLƏ DƏ ARAŞDIRILMAYIB. NIYƏ? QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

**Arif Cəmil oğlu Quliyev, hüquq elmləri doktoru, professor.**

Xocalı cinayəti cəzasız qalmamalıdır. Ermənistanın Azərbaycana qarşı hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən pislənməlidir. Beynəlxalq təşkilatlar və dünya ölkələrinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan ərazisində törətdiyi Xocalı soyqırımına əsl soyqırım kimi siyasi-hüquqi qiymət verməlidirlər.Xocalı faciəsi hələ də araşdırılmayıb. Niyə? Qoy ədalət zəfər çalsın!

**Açar sözlər:** Xocalı genosidi, hərbi-siyasi təcavüz, xarici siyasət konsepsiyası, siyasi və iqtisadi kurs, dünya ölkələri ilə tərəfdaşlıq, beynəlxalq təşkilatlar.

## THE 32-YEAR-OLD KHOJALY TRAGEDY HAS NOT YET BEEN INVESTIGATED. WHY? LET JUSTICE PREVAIL!

**Arif Jamil oglu Guliyev, Doctor of Law, Professor.**

The Khojaly crime should not go unpunished. Armenia's military-political aggression against Azerbaijan must be condemned by the world community. International organizations and parliaments of countries around the world must give a political and legal assessment of the Khojaly genocide committed by the Armenian Republic on the territory of Azerbaijan as a genuine genocide. The Khojaly tragedy has not yet been investigated. Why? Let justice prevail!

**Key words:** Khojaly genocide, military-political aggression, foreign policy concept, political and economic course, partnership with countries of the world, international organizations.

## 32 YILLIK HOCALI FACIASI HENÜZ ARAŞTIRILMADI. NEDEN? ADALET HAKIM OLSUN!

**Arif Cemil oğlu Guliyev, Hukuk Doktoru, Profesör.**

Hocalı suçu cezasız kalmamalı. Ermenistan'ın Azerbaycan'a yönelik askeri-siyasi saldırganlığı dünya toplumu tarafından kınanmalıdır. Uluslararası kuruluşlar ve dünya ülkelerinin parlamentoları, Ermenistan Cumhuriyeti'nin Azerbaycan topraklarında gerçekleştirdiği Hocalı soykırımının gerçek bir soykırım olarak siyasi ve hukuki değerlendirmesini yapmalıdır.Hocalı trajedisi henüz araştırılmamıştır. Neden? Adalet hakim olsun!

**Anahtar Kelimeler:** Hocalı soykırımı, askeri-siyasi saldırı, dış politika kavramı, siyasi ve ekonomik gidişat, dünya ülkeleriyle ortaklık, uluslararası kuruluşlar.

# MEDİASİYA PROSESİNİN ƏSASLARI: hüquqi aspektlər

**Etibar Əli oğlu Əliyev,**
**Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru.**
e-mail: a-etibar@rambler.ru
telefon:+99450 220 24 42;

**Hüseynova Fatimə Etibar qızı,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası"nın dosenti, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: lawyer.fatima85@gmail.com,
telefon:+99450 206 24 42;

**Mirzəyeva Leyla Eytibar qızı,**
**Azərbaycan Respublikası Sumqayıt İnzibati Məhkəməsinin hakimi, hüquqşünas.**
e-mail: leylamirzayeva88@mail.ru,

*Elmi tədqiqat işində müəlliflər tərəfindən Azərbaycan Respublikasında mediasiya prosesinin əsaslarının hüquqi aspektləri nəzərdən keçirilir. Qeyd edilir ki, mülki və kommersiya, eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin alternativ həlli mediasiya prosesi vasitəsilə həyata keçirilir. Mediasiya prosesi tərəflərin mübahisə işi üzrə qərar qəbuletmə prosesini ehtiva edir.*

*Mediasiya prosesinin əsasları dedikdə mübahisələrin alternativ həll və mediasiyaya müraciət, mübahisələrin yaranma səbəbləri, təhlili və dinamikası, mübahisələrin yaranmasının və həll edilməsinin mərhələləri, mübahisələrin həllinə psixoloji maneələr, mediasiyaya müraciətin formaları, mediasiya prosesi və onun mərhələləri, eləcə də mediasiyanın həyata keçirilməsi ilə bağlı yaranan digər münasibətləri nizama salan hüquq normalarının sistemi başa düşülür. Mediasiya prosesi müvafiq normativ hüquqi aktlar vasitəsi ilə tənzimlənir.*

**Açar sözlər:** mediasiya, alternativ həll, mediasiya prosesi, hüquqi aspektlər, mediasiya münasibətləri, mediasiya prosesinin tərəfləri,mediator.

Qeyd etməliyik ki, hər bir tələbin, mövqenin, xahişin altında maraq vardır. Azərbaycan dilinin izahlı lüğətinə görə, maraq bir şeyə diqqət göstərmək, bir şeyi bilmək, öyrənmək həvəsi, meyili, arzusu deməkdir.(1)

Mübahisələrin alternativ həlli mediasiya prosesi vasitəsilə həyata keçirilir. Mediasiya prosesi dedikdə mübahisə üzrə qərar qəbuletmə prosesi, tələblər irəli sürən və öz mövqelərini, maraqlarını arqumentlər ilə əsaslandıran tərəflər arasında formalaşan qarşılıqlı təsir mexanizmi başa düşülür. Lakin mediasiya prosesi mərhələlərinin əsasında duran fundamental reallıq ondan ibarətdir ki, mübahisə tərəfləri yalnız onların mövqelərinin necə qəbul edilməsindən deyil, həm də onların maraqlarının necə təmin edilməsindən asılı olaraq qərar qəbul edirlər.

Mediasiya sahəsindəki bilikləri ötürmək və iştirakçıların mediasiya sahəsindəki bacarıqlarını yeniləmək üçün "ADR Center"in mediasiya mərhələləri üzrə metodologiyası uzunmüddətli praktikaya əsaslanaraq, mediasiya prosesinin mərhələləri-

ni aşağıdakı kimi fərqləndirir: hazırlıq, birgə sessiya, fərdi sessiyalar və yekun sessiya.(2)

Göstərilən dörd əsas mərhələ mediasiya haqqında sorğunun – müraciətin daxil olması tarixindən mediasiya prosesinin yekunlaşması vaxtına qədər xronoloji ardıcıllıqla bölünür. Belə ki, mediasiyaya müraciətlə bağlı proses mediatorun və tərəflərin "hazırlanması" ilə başlayır - birinci mərhələ, birgə açılış sessiyası və ya "məlumatlandırma" mərhələsi ilə davam edir - ikinci mərhələ. Növbəti üçüncü mərhələ olan fərdi sessiyalar da, faktiki olaraq, iki etapdan ibarətdir – "araşdırma" və "danışıqlar". Yekun mərhələ isə yekun sessiyadır – dördüncü mərhələ; bu mərhələyə tərəflərin razılıq əldə edə bilib-bilməməsindən asılı olmayaraq, mediasiya prosesinin yekunlaşdırılması üçün lazım olan bütün zəruri işlərin həyata keçirilməsi daxildir.

Mediasiya hüquq institutunun xüsusi hissəsi müəyyən struktur tərkib hissələrdən ibarətdir ki, mediasiya prosesinin əsasları subinstitutu onlardan biri sayılır. Mediasiya prosesinin əsasları dedikdə mübahisələrin alternativ həll (MAH) və mediasiyaya müraciət, mübahisələrin yaranma səbəbləri, təhlili və dinamikası, mübahisələrin yaranmasının və həll edilməsinin mərhələləri, mübahisələrin həllinə psixoloji maneələr, mediasiyaya müraciətin formaları, mediasiya prosesi və onun mərhələləri, eləcə də mediasiyanın həyata keçirilməsi ilə bağlı yaranan digər münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür.

Mediasiya prosesinin ilkin, yəni başlanğıc mərhələsi məhz mediasiyaya müraciətdən başlayır. Məlum olduğu kimi, cəmiyyətdə tarixən mübahisələrin alternativ həll (MAH) spektri təşəkkül tapmışdır. Mediasiya da unikal proses olaraq, MAH spektrinin əhatə dairəsinə daxildir. Mediasiya haqqında qanunvericiliyə görə, mediasiya dedikdə mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı müəyyən olunan proses nəzərdə tutulur.(3)

Eyni zamanda, hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, mübahisələrin həlli üzrə proseslərdə aşağıda göstərilən formatlar ehtimal edilir: (4)

– transformativ mediasiya;
– asanlaşdırıcı mediasiya;
– qiymətləndirici mediasiya;
– zərərçəkmiş-təqsirkar mediasiyası;
– Ombudsman proqramları üçün mediasiya;
– məhkəmə mediasiyası və s.

Mediasiyanın həyata keçirilməsi üçün ilkin şərt kimi tərəflər arasında yaranmış və ya yarana biləcək mübahisə faktoru çıxış edir. Söhbət mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələr, əmək münasibətlərindən irəli gələn mübahisələr və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrdən gedir (MHQ, maddə 3). Mediasiya qanunvericiliyində təsbit edilmiş hüquq normalarına uyğun olaraq, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur (MHQ, maddə 28, 29). Ona görə də müvafiq mübahisəyə baxılması üçün mediasiyaya müraciət ilkin mərhələ kimi vacib əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, mübahisə ictimai münasibətlərin tərkib hissəsi kimi, adətən, tərəflərin eyni bir məsələ ilə bağlı ziddiyyətli maraqlara malik olduqlarına inandıqda əmələ gəlir.(5) Başqa sözlə ifadə etsək, mübahisə – fikirlərin, mövqelərin, mülahizələrin uz-

laşmayaraq kəsişməsidir və bu zaman tərəflər öz mövqeyini müdafiə edərək qarşı tərəfin dəlillərini və ya arqumentlərini təkzib etməyə çalışır. İctimai münasibətlər inkişaf edərək mürəkkəbləşdikcə mübahisələrin də qəlizliyi və əmələgəlmə səbəbləri daha da çoxalır. Göstərilən bu amillər mübahisənin yaranmasına və ağırlaşmasına, eyni zamanda, onun praktik və hüquqi həllinə də təsir edir.

Mübahisənin məzmununu təşkil edən aspektləri, şərti olaraq, iki qrup üzrə fərqləndirmək mümkündür:

1. Mübahisənin "məqsədi" (motiv və arqumentləri) və açıq aspektləri;
2. Mübahisənin aşkar olmayan (görünməyən) və aşkar edilməli olan "subyektiv" aspektləri.

Bu o deməkdir ki, mübahisə edən tərəflər tətbiq ediləcək mediasiya qanunvericilik aktlarına, sübutedici amillərə, faktlara və mövcud situasiyaya, habelə mübahisənin görünən aspektlərinə aktiv diqqət yetirməklə öz hüquqi mövqelərini formalaşdırırlar; belə vəziyyəti aktiv yanaşma da adlandırmaq olar. Bununla yanaşı, mübahisə tərəfləri mübahisənin əsl səbəb və motivlərini, həmçinin mübahisənin narahatlıqlar, qavrayışlar, qorxular, emosiyalar, duyğular, ehtiyaclar, dəyərlər və ya maraqlar kontekstində müəyyən edilən subyektiv aspektləri nəzərdən qaçırırlar; belə mövqeyə passiv yanaşma deyilir.

Qeyd edilən amillər mediasiyaya ilkin müraciət zamanı nəzərə alınarsa, həm mübahisə edən tərəflər, həm də mediator mübahisənin əsl mahiyyətini, mövcud situasiyanı və özlərinin həmin mübahisənin əmələ gəlməsində rollarını daha yaxşı və aydın anlaya bilərlər.

Qeyd etməliyik ki, mediasiyaya müraciət proseduru həyata keçirilərkən müəyyən mediasiya münasibətləri yaranır. Yaranan bu cür münasibətlər müvafiq mediasiya-hüquq normaları vasitəsi ilə qaydaya salınaraq tənzimlənir. Müvafiq mediasiya-hüquq normaları isə, əsasən, aşağıda göstərilən normativ hüquqi aktlarda təsbit olunmuşdur:

– "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (MHQ).6 Adıçəkilən qanunda mediasiyaya müraciətlə bağlı ictimai münasibətləri tənzimləyən müvafiq hüquq normaları öz əksini tapmışdır. Bu kontekstdə, məsələn, aşağıdakıları göstərə bilərik: maddə 21.5 – mediasiya prosesi barədə təklifin göndərilməsi, maddə 21.6 – tərəflərdən birinin mediasiya prosesinin tətbiqi barədə zəruri məlumatların və ya yazılı formada təklifin qarşı tərəfə göndərilməsi, maddə 21.7 – göndərilmiş təklif 10 gün ərzində cavablandırılmadıqda və ya hər hansı formada rədd edildikdə mediasiya prosesinə avtomatik xitam verilməsi, maddə 29.1 – ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediator tərəfindən mediasiya prosesinin mahiyyətinin, üstünlüklərinin və qaydalarının izah edilməsi, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirilməsi, maddə 31.1 – məhkəmə mediasiyası zamanı məhkəmə icraatı müddətinin dayandırılması, maddə 35.1 – mediasiya prosesi tətbiq edildikdə tərəflər arasında mübahisə üzrə qanunla nəzərdə tutulan iddia müddəti axımının dayandırılması`və s. müddəalar;

– Azərbaycan Respublikasının Mülki Məcəlləsi (MM).7 Sözügedən normativ hüquqi aktın, məsələn, XVIII fəsli (maddə 372-384) "İddia müddəti" adlanır. Burada iddia müddətinə anlayış verilir, habelə iddia müddətinin müəyyənləşdirilməsi, iddia müddətinin tətbiqi və s. məsələlər barədə müddəalar yer almışdır. Belə ki, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hü-

ququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Ümumi iddia müddəti on il, müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti altı il, vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti isə üç il təşkil edir. Tələblərin ayrı-ayrı növləri üçün MM ilə ümumi müddətə nisbətən qısaldılmış və ya uzadılmış xüsusi iddia müddətləri təyin edilə bilər. Bu qaydalar, əgər qanunla ayrı hal müəyyənləşdirilməyibsə, xüsusi iddia müddətlərinə də şamil edilir və s.;

– Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi (MPM).8 Bu məcəllədə mediasiyaya müraciət proseduru həyata keçirilən zaman faydalı ola biləcək kifayət qədər müvafiq hüquq normaları təsbit edilmişdir. Məsələn, MPM-in X fəsli (maddə 128-133) prosessual müddətlərə, XVIII fəsli (maddə 254-258) iş üzrə icraatın dayandırılması, XX fəsli (maddə 261-262) iş üzrə icraata xitam verilməsi barədə müddəalara həsr olunmuşdur və sairə;

– Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (İXM).9 İnzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrlə bağlı mediasiyaya müraciət prosesinin həyata keçirilməsi zamanı İXM-də təsbit edilmiş müvafiq hüquq normalarından istifadə oluna bilər. Məsələn, göstərilən məcəllənin III bölməsi "İnzibati xətalar haqqında işlər üzrə icraat" adlanır (maddə 48-98). Həmin bölmədə inzibati xətalar haqqında işlər üzrə icraata dair ümumi müddəalar, inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquq və vəzifələri, inzibati xəta haqqında iş üzrə sübutlar və onların qiymətləndirilməsi, eləcə də icraatla bağlı digər tədbirlərin təmin edilməsi istiqamətində praktiki cəhətdən vacib müddəalar ehtiva olunur və s.;

– Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi (İPM).10 Məcəllədə prosessual müddətlər, proses iştirakçıları, iddianın növləri, iddia müddəti və s. barədə müvafiq hüquq normaları təsbit edilmişdir (maddə 22-39) ki, onlar da mediasiyaya müraciət prosesində əhəmiyyət kəsb edə bilər;

– Azərbaycan Respublikasının Ailə Məcəlləsi (AM).11 Adıçəkilən normativ hüquqi aktda ailə hüquqlarının müdafiəsi (maddə 7), ailə münasibətlərindən irəli gələn mübahisələrin mediasiya vasitəsilə həlli (maddə 7-1), ailə münasibətlərinə iddia müddətinin tətbiqi (maddə 8) və s. ilə bağlı müddəalar yer almışdır;

– Azərbaycan Respublikasının Əmək Məcəlləsi (ƏM).12 Məcəllədə göstərilir ki, fərdi əmək mübahisələri mediasiya vasitəsilə həll oluna bilər. Fərdi əmək mübahisələri ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur (maddə 294).

Fərdi əmək mübahisələrinin həllində iddia müddətləri xüsusi qaydada tənzimlənir. Belə ki, məsələn, işçi öz hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 3 təqvim ayı ərzində fərdi əmək mübahisələrinə baxan orqana müraciət edə bilər; həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər. İşçilərin həyat və sağlamlığına vurulmuş zərərin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir. Göstərilən müddətlər üzürlü səbəblərdən – iddiaçının xəstələnməsi, ezamiyyətdə, yaşayış yerindən kənarda məzu-

niyyətdə olması, yaxın qohumunun ölməsi və digər obyektiv hallarla bağlı səbəblərdən ötürülərsə, fərdi əmək mübahisəsinə baxan orqan buraxılmış müddəti bərpa edərək mübahisəyə mahiyyəti üzrə baxa bilər. Eyni zamanda, ƏM-də qeyd edilir ki, iddiaçının «yaxın qohumu» dedikdə, işçinin atası, anası, babası, nənəsi, əri (arvadı), uşaqları, bacıları, qardaşları, qudaları, ərinin (arvadının) valideynləri, qardaşları, bacıları başa düşülməlidir (maddə 296). Məcəllədə həmçinin müəyyən edilmişdir ki, mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması məsələsi MHQ ilə müəyyən edilir və s.;

– "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu (VMQ).13 Bu normativ hüquqi aktda da mediasiyaya müraciətlə bağlı münasibətlərin tənzimlənməsində əhəmiyyətli ola biləcək müvafiq hüquq normaları təsbit edilmişdir. Məsələn, müraciət etmək hüququ (maddə 1), vətəndaşların müraciətlərinə dair tələblər (maddə 6), vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası (maddə 7), müraciətə baxılması müddəti (maddə 10) və s. müddəalar;

– Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarı.14 Mediasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlərin nizama salınmasında müvafiq hüquq normalarının şərh edilməsinə dair adıçəkilən orqanın qərarları hüququn mənbəyi kimi mühüm rol oynayır. Nümunə qismində aşağıdakı qərarları göstərə bilərik: məsələn, Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 3 iyun 2013-cü il tarixli Qərarı (Qərarda qeyd edlir ki, MM-in 384.0.4-cü maddəsində nəzərdə tutulan əşya hüquqlarının müdafiəsi ilə əlaqədar tələblərə iddia müddətinin şamil edilməməsi kredit müqavilələrindən yaranan münasibətlərə aid edilə bilməz); Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155-ci maddəsinin həmin Məcəllənin 4.3–4.6, 55.2, 152.1.6 və 152.1.6-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 14 dekabr 2022-ci il tarixli Qərarı (Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsində təsbit edilmiş məhkəmə müdafiəsi hüququnun təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155.1-ci maddəsinə uyğun olaraq, ilk iddia ilə birlikdə baxılmaq üçün qarşılıqlı iddia verən cavabdehdən həmin Məcəllənin 4.3–4.6-cı maddələrinə əsasən kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə qədər nizamlama qaydalarına (pretenziya və mediasiya) riayət edilməsi tələb olunmur) və digər qərarlar.

Beləliklə, yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, mediasiyaya müraciət hüquqi qurum kimi mediasiya prosesinin əsasları subinstitutunun tərkibində yer almışdır. Deməli, mediasiyaya müraciət anlayışı özündə mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə münasibətlərindən, əmək münasibətlərindən və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin mediasiya təşkilatlarında həlli üçün mediasiyaya müraciətlə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemini ehtiva edir.

Vətəndaş cəmiyyətində həyata keçirilən mediasiya fəaliyyətinin elmi-nəzəri kontekstdə təhlili və formalaşmış praktika nəticəsində qeyd etməliyik ki, mediasiyaya müraciətin

dörd əsas növü mövcuddur. Bu sırada aşağıdakıları göstərə bilərik:

1) tərəflərin könüllü təşəbbüsləri;
2) müqavilədə nəzərdə tutulmuş tələblər;
3) məhkəmə tərəfindən mediasiyaya yönəldilmə;
4) qanunvericiliyin göstərişi ilə mediasiya.

Birinci, tərəflərin könüllü təşəbbüsləri anlayışı onu ifadə edir ki, əgər hər iki tərəf yaranmış və ya yarana biləcək mübahisəni mediasiya üsulu vasitəsilə həll etmək istəyirsə, onlar öz könüllü təşəbbüsləri ilə qarşılıqlı seçdikləri mediatora və ya mediasiya təşkilatına müraciət edə bilərlər.15 Belə halda mediasiya prosesi, əsasən, tərəflərin istəklərinə uyğun olaraq, lakin, MHQ-nin tələblərinə cavab verməsi şərti ilə təşkil edilir. Bu zaman tərəflər mediator barədə, eləcə də mediasiya təşkilatı barədə və ya hər hansı digər şərt barədə razılığa gəlmədikləri təqdirdə mediasiyadan imtina etmək hüququna malikdirlər.

İkinci, müqavilədə nəzərdə tutulmuş tələblər dedikdə tərəflər arasında bağlanan "müqavilə-əqd"ə daxil edilən xüsusi qeyd başa düşülür. Belə qeyd hüquq ədəbiyyatında klauzula (latınca – clausula) adlanır.16 Müqaviləyə xüsusi olaraq daxil edilən belə bir konkret qeyd (klauzula) mübahisələrin müqavilə-əqd bağlayan tərəflərin qarşılıqlı razılığı əsasında mediasiya təşkilatlarında baxılıb həll edilməsini şərtləndirir və onlar üçün müvafiq öhdəlik yaradır. Bu o deməkdir ki, müqavilədə mediasiya barədə qeyd-şərtin nəzərdə tutulması tərəfləri məhkəmədən əvvəl mediasiya təşkilatına müraciət etməyə məcbur edir. Bununla yanaşı, klauzula prinsipindən mediasiya münasibətlərinin ayrı-ayrı aspektlərinin nizamlanmasında da istifadə oluna bilər.

Üçüncü, məhkəmə tərəfindən mediasiyaya yönəldilmə mediasiyaya müraciətin digər bir əsası sayılır. Belə təşəbbüs bəzi hallarda tərəflər üçün məcburi olan məhkəmənin göstərişi və ya sərəncamı formasında, digər hallarda isə, sadəcə olaraq, tövsiyə xarakterli ola bilər. Belə ki, məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

Qeyd etməliyik ki, tərəflər qarşılıqlı razılıq əsasında mübahisəyə baxacaq mediasiya təşkilatı və ya mediator barədə razılığa gələ bilərlər. Belə razılıq olmadıqda, mübahisəyə həmin məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə, həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatında baxılır. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə mediasiyasının aparılması üçün mediator müəyyən edə bilər.17

Mediasiya prosesində iştirak edən, lakin müsbət nəticə əldə etməyən tərəflər və ya onlardan biri mediasiya prosesinin nəticələri barədə protokolu təqdim etməklə növbəti dəfə məhkəməyə müraciət etdikdə dayandırılmış icraat təzələnir və işə məhkəmə tərəfindən baxılır. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə isə barışıq

sazişi məhkəməyə təqdim olunur. Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə icraata xitam verilir.

Dördüncü, mediasiyaya müraciət üçün əsas sayılan hallardan biri də qanunvericiliyin göstərişi ilə mediasiya adlanır. Belə ki, müəyyən hallarda tərəflərin mediasiyada iştirakı MHQ-yə əsasən məcburi hesab edilir və bu şərtə əməl edilməməsi işin baxılmamış saxlanması üçün əsas ola bilər. Məsələn, mediasiya haqqında qanunvericiliyə görə, kommersiya, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələrlə bağlı məhkəməyə müraciət etməzdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tərəflər üçün məcburi tələb kimi müəyyənləşdirilmişdir.

Ümumiyyətlə, mediasiyanın tətbiqi üçün əsaslar və bununla bağlı münasibətləri tənzimləyən müddəalar mediasiya qanunvericiliyində ayrıca yer almışdır (MHQ, maddə 21). Qanunvericilik aktında göstərilir ki, mediasiya prosesi tərəflər arasında bağlanan "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında və ya MHQ-nin 28-ci və 29-cu maddələrinə uyğun olaraq, ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" tərəflər arasında yaranmış mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilir.

"Mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması təşəbbüsü ilə tərəflər və ya onlardan biri çıxış edə bilər. Məhkəmələr də tərəflərə aralarında yaranmış mübahisənin mediasiya yolu ilə həllinə dair təkliflər verirlər. MHQ-nin 3.2-ci maddəsində nəzərdə tutulmuş hallarda isə (yəni kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur) müvafiq orqanlar (qurumlar) tərəflərə ilkin mediasiya sessiyasında iştirak etmək vəzifələrini izah edirlər.18 MHQ ilə müəyyən edilmiş qaydada "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması məhkəmədə tərəflər arasında baxılan mülki, kommersiya və inzibati mübahisələrə dair işlər üzrə icraatın dayandırılmasına səbəb olur.

Mediasiya prosesi sözügedən Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərildiyi andan, belə təklif olmadıqda isə bu Qanunun 28-ci və 29-cu maddələrinə nəzərdə tutulmuş hallarda tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi, digər hallarda isə MHQ-nin 22-ci maddəsində nəzərdə tutulmuş "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı andan başlanmış sayılır. Tərəflərdən biri mediasiya prosesinin tətbiqi barədə yazılı formada digər tərəfə mediasiya qanunvericiliyində nəzərdə tutulan məlumatları, həmçinin tərəflərin qarşılıqlı razılaşdığı mediator (mediatorlar) və ya mediasiya təşkilatı varsa, bu barədə məlumatı, olmadıqda isə bu barədə təklifləri əks etdirən təklifi göndərir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, qeyd edilən bu təklif tərəfə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

Mediasiya qanunvericiliyinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə mediasiya prosesinə MHQ-nin 32.1.4-cü maddəsinə əsasən, həmin təklif 10 gün ərzində hər hansı formada rədd edildikdə isə mediasiya prosesinə MHQ-nin 32.1.3-cü maddəsinə əsasən avtomatik xitam verilir.

Tərəflər arasında mediasiyaya dair qeyd-şərtdə mediatorun (mediasiya təşkilatının) adı müəyyən edildiyi halda və MHQ-nin 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş

təklifə 10 gün ərzində cavab verilmədikdə və ya təklif rədd edildikdə, təklifi göndərən tərəf mediasiyaya dair qeyd-şərtdə nəzərdə tutulmuş mediatora (mediasiya təşkilatına) müraciət edir. Həmin mediatorun (mediasiya təşkilatının) mediasiya qanunvericiliyində nəzərdə tutulan məlumatları və mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən mediasiya sessiyası barədə bildirişi tərəflərə təqdim etməsindən sonra tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, yaxud "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"ni imzalamağa razı olmadıqda, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "Mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, qeyd edilən bildiriş tərəflərə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

Şərh etdiyimiz dörd növ əsaslarla yanaşı, mediasiyaya müraciətin həm də elmi-praktik müstəvidə təsnifini aşağıdakı kimi formulə etmək mümkündür:

– mediasiyaya müraciətin faktiki əsası;
– mediasiyaya müraciətin hüquqi əsası.

Qeyd etdiyimix kimi, mediasiyaya müraciət olunması üçün faktiki əsas mövcud olmalıdır. Mediasiyaya müraciətin faktiki əsası dedikdə mediasiya hüququnun bir subyekti ilə digər subyekti arasında mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin mövcud olması və ya yarana bilməsi faktı başa düşülür. Belə ki, mediasiya hüququnun bir subyekti tərəfindən başqa subyektə zərər vuran hərəkət edir və ya hərəkətsizliyə yol verir. Bu zaman vurulmuş zərər iki formada (növdə) ola bilər: əmlak zərəri; qeyri-əmlak zərəri.

Əmlak zərəri dedikdə maddi ziyan başa düşülür; buna görə də, ona çox vaxt maddi zərər deyilir. Maddi zərər mediasiya hüquq subyektinə vurulmuş elə bir ziyandır ki, həmin ziyanı pulla qiymətləndirmək mümkündür; həm də zərərin bu növü faktiki mübahisənin və hüquqda maddi məsuliyyətin yaranmasına səbəb olur.

Qeyri-əmlak zərəri dedikdə mediasiya hüquq subyektinə vurulan və pulla qiymətləndirilməsi mümkün olmayan qeyri-maddi ziyan başa düşülür; ona həm də qeyri-maddi zərər deyilir. Qeyri-maddi zərər isə, faktiki olaraq, subyektlər (tərəflər) arasında mübahisənin yaranmasına səbəb olur.

Mediasiyaya müraciət üçün təkcə faktiki əsasın mövcudluğu kifayət etmir. Bundan ötrü həm də hüquqi əsasın mövcud olması tələb edilir. Əgər hüquqi əsas yoxdursa, onda tərəflərin mediasiyaya müraciət etməsi mümkün olmur, istisna edilir. Mediasiyaya müraciətin hüquqi əsası dedikdə mediasiya fəaliyyəti sahəsində hüquqi cəhətdən məcburi olan normativ hüquqi aktların elə məcmusu başa düşülür ki, bu hüquqi aktlara əsasən, mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflərin mediasiyaya müraciət etmək imkanı yaranır. Hüquqi aktlar dedikdə isə Azərbaycan Respublikasının Konstitusiyası, AM, ƏM, MM, MPM, MHQ və digər aktlar nəzərdə tutulur.

Hüquqi öhdəlik və vəzifələr hüquq subyektlərinin üzərinə məhz normativ hüquqi

aktlar vasitəsi ilə qoyulur. Əgər subyektlər normativ hüquqi aktların onların üzərinə qoyduğu hüquqi öhdəlikləri pozarlarsa, bunun nəticəsində, təbii ki, digər subyektə zərər vurulur. Zərər vurulması faktı isə, öz növbəsində, hüquqi kontekstdə mübahisənin yaranmasına səbəb olur.

Deməli, tərəflərin mediasiyaya müraciət etməsi üçün mediasiya subyektlərinə hüquqi imkanlar verən müvafiq normativ hüquqi aktlar mövcud olmalıdır (hüquqi əsas), həm də həmin subyektlərin öz üzərinə düşən hüquqi öhdəlikləri pozmaları nəticəsində başqalarına zərər yetirməsi nəticəsində yaranan mübahisələr olmalıdır (faktiki əsas).

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR VƏ İQTİBASLAR

1. Bu barədə ətraflı bax: Azərbaycan dilinin izahlı lüğəti. II cild / Filologiya elmləri doktoru, professor Ağamusa Axundovun redaktəsi ilə. Bakı, "Çıraq", 2000, s.235.
2. "ADR Center"in 4 x 4 matrisi barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.44-45.
3. Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.3.
4. Ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.10-18.
5. Bu barədə bax: məsələn, Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.16-30.
6. Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.18-31.
7. Ətraflı bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir: B.C. Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, s.268-273.
8. Bax: Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi / Naşir - B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.33-221.
9. Ətraflı bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli, hüquq üzrə fəlsəfə doktoru . Bakı, "Hüquq Yayın Evi", 2016, s.62-93.
10. Bax: Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi / Naşir - B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.368-430.
11. Məcəllənin mətni üçün bax: https://www.e-qanun.az/framework/46946 (29.02.2024-cü il).
12. Ətraflı bax: https://www.e-qanun.az/framework/46943 (29.02.2024-cü il).
13. Ətraflı bax: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu / Buraxılışa məsul: Kərimli B.C. Bakı: «Hüquq Yayın Evi», 2017, 136 c.
14. Bu barədə ətraflı bax: https://constcourt.gov.az/az/decisions (01.03.2024-cü il).
15. Mediasiyaya müraciət barədə ətraflı bax: məsələn, Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.55-60.
16. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.147-148; Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр,2005, с.406.
17. Məhkəmə mediasiyası barədə ətraflı bax: MHQ (maddə 31) // "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.26-27.
18. Mediasiya prosesinin tətbiqi üçün əsaslar barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.18-19.

## ОСНОВЫ ПРОЦЕССА МЕДИАЦИИ: правовые аспекты

**Этибар Али оглы Алиев,**
**член Конфедерации юристов Азербайджана, профессор кафедры ЮНЕСКО «Права человека и информационное право » Юридического факультета Бакинского государственного университета, доктор юридических наук.**
электронная почта: a-etibar@rambler.ru,
телефон: +99450 220 24 42;

**Гусейнова Фатима Этибар кызы,**
**Бакинский государственный университет, Юридический факультет, Кафедра международного частного права и европейского права, доцент, доктор философии по праву.**
э-почта: lawyer.fatima85@gmail.com;

**Лейла Эйтибар кызы Мирзаева,**
**судья Сумгайытского административного суда, юристь-правовед.**
электронная почта: leylamirzayeva88@mail.ru

В научно-исследовательской работе авторы рассматривают правовые аспекты основ медиационного процесса в Азербайджанской Республике. Отмечается, что альтернативное разрешение споров, возникающих из гражданских и коммерческих, а также семейных, трудовых и административных правоотношений, осуществляется в порядке медиации. Процесс медиации включает в себя процесс принятия решений сторонами по спорному делу.

Под основами процесса медиации подразумеваются альтернативное разрешение споров и обращение к медиации, причины, анализ и динамика споров, этапы зарождения и разрешения споров, психологические барьеры разрешения споров, формы медиации, процесс медиации и его этапы, а также другие вопросы, связанные с осуществлением медиации; подразумевается система правовых норм, регулирующих подобные отношения. Процесс медиации регулируется соответствующими нормативными правовыми актами.

**Ключевые слова:** медиация, альтернативное решение, процесс медиации, правовые аспекты, медиативные отношения, стороны процесса медиации, медиатор.

## FUNDAMENTALS OF THE MEDIATION PROCESS: legal aspects

**Etibar Ali oglu Aliyev,**
**Member of the Azerbaijan Lawyers Confederation, Professor of the UNESCO Chair "Human Rights and Information Law", Faculty of Law, Baku State University, Doctor of Law.**
mail: a-etibar@rambler.ru,
phone: +99450 220 24 42;

**Fatima Etibar gizi Huseynova,**
**Baku State University, Faculty of Law Department of International Private Law and European** Law, Associate Professor, doctor of philosophy in the field of law.
e-mail: lawyer.fatima85@gmail.com;

**Leyla Eytibar gizi Mirzayeva,**
**judge of Sumgayit Administrative Court, jurist-lawyer.**
e-mail: leylamirzayeva88@mail.ru

In the scientific research work, the legal aspects of the foundations of the mediation process in the Republic of Azerbaijan are considered by the authors. It is noted that alternative resolution of disputes arising from civil and commercial, as well as family, labor and administrative law relations is carried out through the mediation process. The mediation process includes the decision-making process of the parties in the dispute case.

The basics of the mediation process mean the alternative resolution of disputes and recourse to mediation, the causes, analysis and dynamics of disputes, the stages of dispute generation and resolution, psychological barriers to dispute resolution, the forms of mediation, the mediation process and its stages, as well as other issues related to the implementation of mediation. the system of legal norms regulating relations is understood. Mediation process is regulated by relevant normative legal acts.

**Key words:** mediation, alternative solution, mediation process, legal aspects, mediation relations, sides of the mediation process, mediator.

## ARABULUCULUK SÜRECİNİN TEMELLERİ: hukuki yönler

**Etibar Ali oqlu Aliyev,**
**Azerbaycan Avukatlar Konfederasyonu Üyesi, UNESCO "İnsan Hakları ve Bilgi Hukuku" Kürsüsü Profesörü, Hukuk Fakültesi, Bakü Devlet Üniversitesi, Hukuk Doktoru.**
e-posta: a-etibar@rambler.ru,
telefon: +99450220 24 42;

**Fatima Etibar kızı Hüseynova,**
**Bakü Devlet Üniversitesi, Hukuk Fakültesi, Uluslararası Özel Hukuk ve Avrupa Hukuku Anabilim Dalı,doçent, hukuk alanında felsefe doktoru.**
e-posta: lawyer.fatima85@gmail.com;

**Leyla Eytibar kızı Mirzayeva,**
**Sumgayıt İdare Mahkemesi hakimi, avukat.**
e-posta: leylamirzayeva88@mail.ru

Bilimsel araştırma çalışmasında Azerbaycan Cumhuriyeti'nde arabuluculuk sürecinin temellerinin hukuki yönleri yazarlar tarafından ele alınmaktadır. Hukuki ve ticari ilişkilerin yanı sıra aile, iş ve idare hukuku ilişkilerinden kaynaklanan uyuşmazlıkların alternatif çözümünün arabuluculuk süreci yoluyla yürütüldüğü kaydedildi. Arabuluculuk süreci, uyuşmazlık halindeki tarafların karar verme sürecini kapsamaktadır.

Arabuluculuk sürecinin temelleri, uyuşmazlıkların alternatif çözümü ve arabulucuya başvurulması, uyuşmazlıkların nedenleri, analizi ve dinamikleri, uyuşmazlığın oluşması ve çözümlenmesi aşamaları, uyuşmazlık çözümünün önündeki psikolojik engeller, arabuluculuk biçimleri, arabuluculuk süreci ve sürecidir. arabuluculuğun uygulanmasına ilişkin diğer hususların yanı sıra, aşamaları, ilişkileri düzenleyen hukuk normları sistemi anlaşılmaktadır. Arabuluculuk süreci ilgili normatif yasal düzenlemelerle düzenlenir.

**Anahtar kelimeler:** arabuluculuk, alternatif çözüm, arabuluculuk süreci, hukuki boyutlar, arabuluculuk ilişkileri, arabuluculuk sürecinin tarafları, arabulucu.

# Səhiyyə sahəsində beynəlxalq xarakterli “mülayim” hüquq normalarının Azərbaycan Respublikası qanunvericiliyinə təsirinin xüsusiyyətləri

**Hüseynova Fatimə Etibar qızı,**
**hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Hüquq fakültəsi “Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası”nın dosenti.**
e-mail: lawyer.fatima85@gmail.com
https://orcid.org/0009-0004-9457-0342

*Məqalədə səhiyyə sahəsində beynəlxalq xarakterli “mülayim” hüquq normalarının Azərbaycan Respublikasının qanunvericiliyinə təsirindən bəhs olunur. İlk olaraq səhiyyə sahəsində “mülayim” hüquq normalarının xüsusiyyətləri araşdırılır. Qeyd olunan normaların Azərbaycan Respublikasının hüquqi sistemində maddi hüquqi implementasiyasının xüsusiyyətləri təhlil edilir. Bu istiqamətdə “mülayim” hüquq normalarını təsbit edən beynəlxalq sənədlərlə Azərbaycan Respublikasının milli qanunvericiliyi müqayisə edilir. Eyni zamanda “mülayim” hüquq normalarının yardılmasında və realizəsində Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətinə diqqət edilir.*

**Açar sözlər:** Ümumdünya Səhiyyə Təşkilatı, səhiyyə, beynəlxalq xarakterli, “mülayim” hüquq normaları, “mülayim hüquq”, milli hüquqi implementasiya, Azərbaycan Respublikasının qanunvericiliyi.

Son dövrlər səhiyyə sahəsində beynəlxalq xarakterli “mülayim” hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası ilə bağlı nəzəri və praktiki məsələlər aktuallıq kəsb etməkdədir. Xüsusilə, bu cür normaların milli hüquqda tətbiqi ilə bağlı tendensiyalar COVİD-19 pandemiyası ilə mübarizədə daha geniş vüsət almağa başladı. Ona görə də biz ilk növbədə beynəlxalq xarakterli “mülayim” hüquq normalarının mahiyyəti və xüsusiyyətləri kontekstində bu normaların ölkəmizin səhiyyə sahəsində qanunvericiliyinə təsirinin xüsisyyətlərini təhlil edəcəyik.

“Mülayim hüquq” konsepsiyası müasir beynəlxalq hüquda mübahisəli elmi paradiqmalardan biri hesab edilir. Beynəlxalq hüquq alimləri, o cümlədən Çin alimləri mülayim hüququn əhatə dairəsini müəyyənləşdirməyə çalışmış və bu hüququn müxtəlif növlərə ayrılması ilə bağlı təklif irəli sürmüşlər. Mülayim hüququn qəbul etdiyi çoxsaylı təzahürlər o deməkdir ki, mülayim hüququn sərhədlərini müəyyən etmək asan məsələ deyil. Professor L.Haocai tərəfindən təklif edilən konsepsiya [13] bir çox alimlərin diqqətini cəlb etmişdir. O hesab edirdi ki, əmr-nəzarət tədbirlərində ifadə olunan və dövlətin məcburedici qüvvəsi tərəfindən həyata keçirilən sərt qanunla yanaşı, milli hüquqdakı daha geniş institusional mexanizmlər mülayim qanunlardır [24]. Bu cür mülayim hüquq normaları aşağıdakı dörd növə bölünür: 1) qanunlar çərçivəsində təcəssüm olunmuş hüquq normaları, hüquqi faktları təsvir edən və ya nümayiş etdirici, təhrikedici, təşviqedici, məsləhətçi və ya təlimat xarakteri daşıyan qaydalar; 2) dövlət orqanları tərəfindən qanuni olaraq yaradılmış

hüquqi qüvvəyə malik olmayan normativ sənədlər; 3) hakimiyyətin həyata keçirilməsi, hökumət və ictimai siyasi diskurs kimi məsələləri müəyyən etməyə çalışan müxtəlif siyasi təşkilatlar tərəfindən hazırlanmış özünütənzimləmə normaları; 4) müxtəlif ictimai icmalar tərəfindən yaradılmış özünütənzimləmə normaları [21].

Beynəlxalq hüquq dövlətlər üçün hüquqi mənbələrin siyahısını Beynəlxalq Məhkəmənin Statutunda vermişdir. Bunlardan başqa, professor D.L.Sheltonun göstərdiyi kimi, son illərdə dövlətlərin milli qanunvericilik praktikalarında, beynəlxalq təşkilatlar daxilində və xaricində getdikcə daha çox bəyannamələr, qətnamələr və fəaliyyət proqramları kimi məcburi olmayan siyasi sənədlərdə normativ bəyanatlar yerləşdirir və siqnal verir ki, bu mətnlərin ehtiva etdiyi normalara uyğunluğu gözlənilir. Beynəlxalq hüquq şərhçiləri bu sənədləri "mülayim hüquq" adlandırırlar və onların qəbulu təcrübəsinin beynəlxalq hüquq yaradıcılığının yeni üsullarının sübutu olub-olmadığını müzakirə edirlər [11]. Bununla belə, K. Raustialanın fikrincə, dövlətlər aydın şəkildə başa düşürlər ki, bu cür "mülayim hüquq" mətnləri qanuna gətirib çıxara bilən siyasi öhdəliklərdir, lakin onlar qanun deyil və beləliklə, yalnız siyasi nəticələrə səbəb olur [17, s. 587].

Ona görə də bir çox alimlər hesab edirlər ki, "mülayim hüquq" termini heç bir hüquqi qüvvəyə malik olmayan və ya məcburi qüvvəsi adət hüququnun məcburi qüvvəsindən bir qədər zəif olan kvazi-hüquqi sənədlərə (tövsiyələr və ya təlimatlar kimi) aiddir. "Mülayim hüquq" çox sərt qanunla ziddiyyət təşkil edir [12]. Boston Universitetinin professoru A.D.Robilant yazır ki, "mülayim hüquq" termini milli hüquq sistemində daha çox müşahidə olunsa da, ilk dəfə beynəlxalq hüquq kontekstində yaranmışdır [18].

Professor K. Çinkin qeyd edir ki, sərt hüquq məcburidir və mülayim hüquq olmasa da, fərq əslində daha nüanslıdır. Onun fikrincə, hüquq normaları ikili deyil, lakin məcburi olandan qeyri-məcburi olanadək mərhələli normativliyə əsaslanır [6, s. 21-42]. Prof. S.Şarifah və hüquq üzrə fəlsəfə doktoru M.Halima yazırlar ki, qlobal səhiyyə hüququ məcburi müqavilələr və normaları - qətnamələr, bəyannamələr, təlimatlar, protokollar və tövsiyələr kimi səlahiyyətli, lakin məcburi olmayan normativ sənədlər (məsələn, sağlamlıq hüququ və beynəlxalq hüquqla məcəlləşdirilmiş digər insan hüquqları normalarını əhatə edilən) əhatə edir. Həm sərt, həm də mülayim qanunun tətbiqi heç bir normativ məzmuna malik olmayan siyasət tövsiyələrinə əsaslana bilər [19, s.152].

Qeyd etmək lazımdır ki, sərt hüquqdan başqa, insanların davranışını məhdudlaşdıra bilən bütün qaydaların mülayim qanunlar olduğunu təklif etmək tendensiyası mövcuddur. Çin Universitetinin professoru Xiezhong Cheng bunu "pan mülayim hüquq" adlandırır. Buraya adət-ənənələr, xalq qanunları, etika, dini qaydalar, hüquqi şüur, hüquq mədəniyyəti və s. aid edilir. Bir tərəfdən, bu çərçivə mülayim qanunların hüquqi normalar kimi qoyulduğu əsas müddəasını nəzərə almır və mülayim hüquq nəzəriyyəsinin elmi qurulmasına mane olur. Digər tərəfdən, Pan mülayim hüquq ideyası mülayim hüququ "cib konsepsiyasına" köçürür, bu da mülayim hüququn öz müstəqil dəyərini əldə etməsinə mane olur. Lakin hüquq və əxlaq arasındakı mürəkkəb əlaqə kimi, mülayim hüquq və digər normalar da tam fərqli və əlaqəsiz deyildir. Mülayim hüququn unikallığı ondadır ki, onun norma yaradan orqanları, yaranma yolları, təsir, implementasiya vasitələri, əha-

miyyəti və s. xüsusiyyətlər onu digər sosial normalardan ayırmaq üçün istifadə edilir [25].

Beynəlxalq hüquq kontekstində "mülayim hüquq" termini aşağıdakı ünsürləri əhatə edir: 1) BMT Baş Assambleyasının əksər qətnamə və bəyannamələri, 2) bəyanatlar, prinsiplər, təcrübə kodeksi və s. kimi elementlər; tez-tez çərçivə müqavilələrinin bir hissəsi kimi tapılır; 3) fəaliyyət planları; 4) müqavilədənkənar digər öhdəliklər.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq səhiyyə sahəsində BMT-nin orqanları və ixtisaslaşmış qurumları, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı (bundan sonra – ÜST) tərəfindən qəbul edilən bütün tövsiyə xarakterli sənədləri – bəyyanat, bəyanamə, təlimat və qaydalar, habelə fəaliyyət planları və digər normaları beynəlxalq səhiyyə hüququnda mülayim normalar hesab etmək olar.

Bu səbəbdən də səhiyyə sahəsində belə beynəlxalq xarakterli "mülayim" hüquq normalarının Azərbaycan Respublikası (bundan sonra – AR) qanunvericiliyinə təsiri də məhz həmin normaları qəbul edən qurumun səlahiyyət dairəsi və Nizamnanməsinin xüsusiyyətlərindən asılı olacaqdır.

Bu mənada ÜST Nizamnaməsinin müvafiq müddəaları AR-da səhiyyə ilə bağlı mülayim hüququn tətbiqinin bəzi xüsusiyyətlərinə aydınlıq gətirir. ÜST Nizamnaməsinin 2-ci maddəsinə görə, məqsədinə nail olmaq üçün Təşkilatın funksiyalarından biri də konvensiyalar, sazişlər və qaydalar təklif etmək, beynəlxalq səhiyyə məsələlərinə dair tövsiyələr vermək və bununla Təşkilata həvalə edilmiş və onun məqsədinə uyğun gələn vəzifələri yerinə yetirməkdən ibarətdir [5]. Göründüyü kimi, ÜST Nizamnaməsi mülayim hüquq hesab edilən qaydalar və tövsiyələr verilməsi məsələsini üzv dövlətlər üçün vəzifə kimi müəyyən edir. Ona görə də səhiyyə sahəsində AR-da bu normalar mühüm əhəmiyyətli normalar hesab edilməlidir. Pandemiya zamanı bu cür mülayim hüquq normalarının ölkəmizdə real və səmərəli implementasiyası ilə bağlı beynəlxalq səhiyyə üzrə təlimat və tövsiyələrin təsiri bir daha özünü göstərdi.

Bundan başqa, AR üçün üçün mülayim hüquq xarakteri kəsb edən sənədlərdən biri də Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qəbul edilən tövsiyə xarakterli qətnamələr hesab edilir. Bu səbəbdən də bir sıra alimlər hesab edirlər ki, Ümumdünya Səhiyyə Assambleyası qlobal səhiyyə hüququnu inkişaf etdirmək üçün böyük səlahiyyətlərə malikdir [4]. Əlbəttə, bu qurumun qətnamələri AR üçün də müstəsna əhəmiyyət kəsb edir və tövsiyə xarakteri kəsb edir. Məlumat üçün qeyd edək ki, AR Assambleyanın bütün sessiyalarında fəal şəkildə iştirak edir və onun tövsiyə xarakterli bütün qətnamələrini yerinə yetirir. Xüsusilə, "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 2021-ci il tarixli 74-cü sessiyasında ölkəmiz Prezident səviyyəsində təmsil olunmuş və onun "mülayim hüquq" hesab edilən bütün normalarına qeyd-şərsiz əməl etmişdir.

AR səhiyyə sahəsində beynəlxalq xarakterli "mülayim hüquq" normalarının nəinki implementasiyası ilə bağlı işlər görür, eyni zamanda bu sahədə hüquq normalarının yaradılmasında həlledici beynəlxalq aktorlardan biri kimi çıxış edir. Bununla da ölkəmiz səhiyyə sahəsində beynəxalq əməkdaşlığa töhələr verir. Qeyd edilməlidir ki, AR-in təşəbbüsü ilə 3 dekabr 2020-ci ildə BMT Baş

Assambleyasının koronavirus xəstəliyi ilə mübarizəyə həsr edilən xüsusi sessiyası [2] keçirilmişdir. Bundan əlavə, ölkəmizin bilavasitə təşəbbüsü ilə koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuş 10 aprel 2020-ci il tarixdə Türk Şurasının fövqəladə Zirvə görüşü [3] keçirilmişdir. Qeyd edilən beynəlxalq səviyyəli sessiyaların nəticəsi olaraq qəbul edilən sənədlər tövsiyə xarakterli olsalar da, yəni mülayim hüquq mahiyyəti daşısalar da, pandemiya dönəmi üçün implerativ mahiyyəti ilə yadda qalmışdır.

Bu kontekstdə AR-in təşəbbüsü ilə 18 noyabr 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində qəbul edilmiş Qoşulmama Hərəkatının sədri qismində "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə [1] xüsusi vurğulanmalıdır. Həmin qətnamə AR-in birbaşa mülayim hüquq norma yaradıcılığının və səhiyyə sahəsində milli hüquqi implementasiya ilə bağlı ən mühüm sənədlərindən biri hesab edilməlidir. 126 BMT üzv dövləti həmmüəllif qismində qoşulduğu həmin Qətnaməyə görə, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən AR Prezidentinin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci il tarixində keçirilmiş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası, habelə COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret təşkilati-hüquqi tədbirlər təqdir edilir. Bu fakt əlbəttə, AR-nın səhiyyə sahəsində beynəlxalq hüquq əməkdaşlığı və səhiyyə sahəsində mülayim hüquq normalarının implementasiyası üçün əlverişli zəmin yaradan amil hesab edilməlidir.

Bundan başqa, AR-in təşəbbüsü ilə qəbul edilən həmin sənəd səhiyyə sahəsində digər sənədlərin – mülayim hüquq normalarının implementasiyası üçün də bazis sənədi kimi çıxış edir. Belə ki, qətnamədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca faktorlardan biri olduğu vurğulanır [1].

Müxtəlif növ mülayim hüquq sənədləri arasında ümumi cəhət ondan ibarətdir ki, onların hüquqi məcburi qüvvəsi yoxdur və könüllüdür və buna görə də sanksiyaları əhatə etmir.

Bundan başqa, ÜST tərəfindən hazırlanmış iki sənəd – Tütünlə Mübarizə üzrə Çərçivə Konvensiyası və Beynəlxalq Sağlamlıq Qaydaları (BSQ) da mülayim hüquq təbiətinə malik olan sənədlər kimi qəbul edilir. Bu sənədlərin hüquqi məzmunu və milli hüquqi implementasiyasının xüsusiyyətləri ilə bağlı növbəti paraqraflarda ətraflı məlumat verəcəyik.

ÜST mülayim hüquqdan istifadə etməklə səhiyyə sahəsində böyük uğur qazanmışdır. Qeyri-sağlam qida və pəhriz kimi məsələlərin tənzimləmlənməsi, müqavilələrə normativ izahatın verilməsi, müvafiq standartların təyin olunması, monitorinq və hesabatlılığın təmin olunmasını misal olaraq göstərmək olar. ÜST-dən qaynaqlanan mülayim hüquq normaları eyni zamanda, dövlətlərə sirayət etdi, bir növ bunun tətbiqi dövlətlər üçün asan oldu. Belə ki, mülayim normanın qeyri-məcburiliyi, ölkələrin müxtəlif maraqları, eyni zamanda özəl subyektlərin kommersiya

maraqlarının cəlb olunduğu çətin sahələrdə konsensusa nail olmağa kömək edə bilər. Məsələn, İctimai Sağlamlıq haqqında Doha Bəyannaməsində beynəlxalq ticarət hüququ və səhiyyə hüququ arasında rəqabət aparan rejimlər arasında toqquşma zamanı bir normanın digərini üstələyib-üstələməməsini aydınlaşdırmaq üçün mülayim hüquq normasından istifadə edilmişdir [27].

Beynəlxalq hüquqda "mülayim hüquq" terminologiyası nisbətən, mübahisəli olaraq qalır, çünki onun mövcudluğunu qəbul etməyən bəzi beynəlxalq praktiklər vardır. Digərləri üçün isə onun hüquq sahəsində statusu ilə bağlı kifayət qədər aydın olmayan fikirlər vardır. Bununla belə, əksər beynəlxalq praktiklər üçün mülayim hüquq alətlərinin inkişafı beynəlxalq hüquq sistemində gündəlik iş üçün tələb olunan kompromislərin qəbul edilmiş hissəsidir. Burada dövlətlər çox vaxt milli narazılıqla nəticələnə biləcək həddən artıq çox öhdəlikləri imzalamaqdan çəkinirlər.

Beynəlxalq səhiyyə hüququnda "mülayim hüquq" kosepsiyasının milli hüquqa təsirini daha müfəssəl öyrənmək üçün Çinin bu sahədə təcrübəsinə istinad edilməsi zəruridir. Bunu səhiyyə sahəsində beynəlxalq xarakterli "mülayim" hüquq normalarının AR milli qanunvericiliyinə təsiri baxımından əhəmiyyətli hesab edirik.

Belə ki, Çinin yoluxucu xəstəliklərin qarşısının alınması və onlara nəzarətlə bağlı sərt hüquq çərçivəsi 2003-cü il SARS epidemiyasından sonra başlamışdır. Həmin dövrdə Çin geniş miqyasda yoluxucu xəstəliklərin qarşısının alınması və nəzarəti ilə bağlı qanunvericiliyi qəbul etməyə və yenidən nəzərdən keçirməyə başladı. 2003-cü ildə qəbul edilmiş Yoluxucu xəstəliklərin qarşısının alınması və nəzarət haqqında Qanun Çində yoluxucu xəstəliklərin qarşısının alınması və nəzarəti üzrə əsas qanuna çevrildi. 2007-ci ildə qəbul edilmiş Fövqəladə Hallara Qarşı Mübarizə Qanunu Çinin fövqəladə hallara, o cümlədən ictimai səhiyyə ilə bağlı fövqəladə hallar reaksiyası üçün hüquqi əsas yaradır. Bundan əlavə, hökumət İctimai Səhiyyə Fövqəladə Hallarına Fövqəladə Hallar üzrə Qaydaları qəbul etmiş və Peyvəndlərin Dövriyyəsi üzrə İnzibati Qaydalara yenidən baxmışdır. Dövlət Şurasının müvafiq departamentləri həmçinin yoluxucu xəstəliklərin qarşısının alınması və nəzarəti ilə sıx əlaqəli olan Qan Stansiyalarının İdarə Edilməsi üzrə Tədbirlər və Dezinfeksiyanın Təşkili üzrə Tədbirlər kimi yenidən işlənmiş idarə qaydaları qıbul edilmişdir.Bundan başqa diaqnostika ilə bağlı müvafiq standartlar işlənib hazırlanmışdır. Bütün bunlar yoluxucu xəstəliklərin qarşısının alınması və xəstəxana infeksiyalarına nəzarət üzrə mühüm nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Muxtar vilayətlər və bələdiyyələr də 2003-cü ildən ardıcıl olaraq yoluxucu xəstəliklərin qarşısının alınması və onlara nəzarəti daha da təkmilləşdirmək üçün bir sıra yerli qaydalar qəbul etmişlər. Ümumiyyətlə, Çin hərtərəfli qanunvericilik bazası yaratmışdır ki, onlar yoluxucu xəstəliklərin epidemiyasının monitorinqi və erkən xəbərdarlıq sistemləri, hesabatlar və məlumatların açıqlanması, epidemiyalara qarşı mübarizə tədbirləri və yoluxucu xəstəliklərin tibbi müalicəsi və qarşısının alınması da daxil olmaqla əsas epidemiyalara cavab vermək iqtidarındadır. Bütün bunlar böyük epidemiyaların qarşısının alınması və nəzarət edilməsi riayət edilməli olan qanunlar, qaydalar və idarə qaydaları əsasən sərt hüquq normalarıdır [20]. Göründüyü kimi Çində səhiyyə sahəsində formal olaraq

"mülayim hüquq" hesab edilən təlimatlar və qaydalar belə, mahiyyət etibarilə "sərt hüquq" kimi çıxış edir və ümummәcburi qüvvə daşıyır.

Səhiyyə sahəsində Çinin qeyd edilən mülayim hüquq təcrübəsini AR-in milli qanunvericilik praktikası təsiri ilə bağlı bir sıra nəticələri qeyd edə bilərik. Birincisi, səhiyyə sahəsində milli hüquqi implementasiyanın səmərəliliyi ümumişləq qanunvericilik normalrından asılı bir məsələ kimi çıxış edir. İkincisi, mərkəzi icra hakimiyyətləri ilə yanaşı səhiyyə sahəsində yerli özünüidarə orqanları, xüsusilə bələdiyyələr aktiv şəkildə iştirak etməli və yerlərdə bu barədə təlimat və qaydalar qəbul edilməsi praktikasına yiyələnməlidirlər.

Səhiyyə sahəsində mülayim hüququn ən optimal variantlarından biri Avropa İttifaqı (bundan sonra – Aİ) çərçivəsində öz təsdiqini tapmışdır. Aİ səviyyəsində "mülayim hüquq" termini Avropa Birliyinin müxtəlif növ kvazihüquqi aktlarını, məsələn, "davranış kodeksləri", "təlimatlar", "bildirişlər", "tövsiyələr" və ya "kommunikasiyalar"ı təsvir etmək üçün istifadə edilmişdir. Aİ-nin fəaliyyəti haqqında Müqavilənin 288-ci maddəsinə görə mülayim hüquq – qaydalar, direktivlər və qərarlardan fərqli olaraq, ünvanlandığı şəxslər üçün məcburi olmayan rəhbər prinsiplər, tövsiyələr, bəyannamələr və rəylər kimi Aİ tədbirlərinə tətbiq edilən termindir.

Qeyd edək ki, son illər Aİ-nin səhiyyə sahəsində mülayim hüquq tendensiyası da AR-də geniş yaylmlş və milli hüquqi implementasiya baxımından Aİ layihələri, fəaliyyət planları, qayda və direktivləri önəmli yer tutur.

Beynəlxalq və ya hökumətlərarası təşkilatların (hüquqi və ya qeyri-hüquqi xarakterli) orqanları tərəfindən qəbul edilən bütün qətnamələr "mülayim hüquq" un məcmusuna aiddir. Qətnamə, bəyannamə və ya qərar kimi terminlər beynəlxalq təşkilatlar tərəfindən demək olar ki, bir-birini əvəz edir.

Mülayim hüquq anlayışı onun hüquq normalarını (bəzən birtərəfli qaydada tərtib edilir) beynəlxalq hüququn klassik qaydaları hesab edilən və "sərt hüquq" kimi tanınan qaydalardan fərqləndirmək üçün istifadə olunur. Sərt qanun, dövlətlərin və ya bu qaydalarla bağlı olacaq digər subyektlərin iştirakı və açıq razılığı ilə hazırlanmış və qəbul edilmiş qaydalara əsaslanır. Məsələn, beynəlxalq müqavilələr və konvensiyalar bu hüquq kateqoriyasına aiddir.

Qətnamələrin əksəriyyəti hüquqi cəhətdən məcburi xarakter daşımır. Başqa sözlə, onların həyata keçirilməsi məcburi deyil. Bununla belə, bu mətnləri qəbul edən qurumdan, onların forma və məzmunundan asılı olaraq, qətnamələr dövlətlər üçün öhdəliklər yarada və müəyyən hüquq statusuna malik ola bilər.

Mülayim hüquq normasının malik ola biləcəyi qanunun qüvvəsi və buna görə də onun potensial məcburiyyəti xarakteri hər bir hal üçün aşağıdakılar əsasında müəyyən edilməlidir: mümkün adi təbiət, onun məzmununun dəqiqliyi və spesifikliyi, onun qəbul olunma üsulu (məsələn, konsensus əsasında olub-olmaması).

Mülayim hüququn müqavilələrə təsiri bir neçə formada ola bilər: Birincisi, mülayim hüquq müqaviləni şərh etməklə iştirakçı dövlətlərə öz öhdəliklərini başa düşməyə kömək üçün istifadə edilə bilər. İkincisi, mülayim hüquq çoxtərəfli müqavilənin qəbuluna aparan prosesdə ilk addım ola bilər [9, s. 514].

Mülayim hüquq normasının məcburi olmaması onların hər hansı formada rolunun olmaması anlamına gəlməməlidir. Müəyyən

dərəcədə mülayim hüququn milli qanunvericiliyə təsiri var [14, s. 867-893]. Mülayim normalar dövlətlərin daxilində əsas etibarilə, adət hüquq normaları formasında tətbiq olunur. Səhiyyə sahəsində AR-in milli qanunvericiliyində də mülayim normaların tətbiqi zamanı bu hal nəzərə alınmışdır. Nəzəri baxımdan daxili məhkəmələrdə insan hüquqları normalarının tətbiqi ilə bağlı iki baxış (monizm və dualizm) mövcuddur. Dualist nöqteyi-nəzərdən beynəlxalq hüquq normalarının dövlət ərazilərində tətbiqi və ya daxili məhkəmələrdə tətbiq edilməsi üçün onların daxili qanununa çevrilməlidir. Beynəlxalq hüquqla milli hüququn eyni olduğunu iddia edən monizm tərəfdarları isə bunu qəbul etmir. Amma fakt budur ki, formasından asılı olmayaraq, bu proses dövlətlərin hüquq sistemindən asılıdır.

Beynəlxalq insan hüquqları hüququ baxımından, milli məhkəmələrin mülayim normalardan necə faydalandığını göstərən bir neçə hal var. Məsələn, əksər hüquqşünaslar tərəfindəndən mülayim hüquq kimi qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi məhkəmələr tərəfindən müxtəlif üsullarla tətbiq edilmişdir. Avstriya və Tanzaniyada buna beynəlxalq hüquq normaları kimi yanaşırlar, lakin bir çox dövlətlərin məhkəmələrində isə sadəcə Bəyannamədən dövlət siyasətinin həyata keçirilməsi formasında istifadə edirlər [8, s. 150-151]. Burada Bəyannamənin dəyəri ölkə konstitusiyasının ona istinadları ilə ölçülməlidir. Səhiyyə hüququna aid mülayim hüquq normaları bütün sahələri əhatə etməsə də xüsusilə QİÇS-lə bağlı məsələlrdə tətbiq olunur. Bu sahədə milli məhkəmələr dövlətin QİÇS daşıyıcılarına dərman və tib xidməti göstərməklə, öhdəliyini yerinə yetirmək məqsədilə, mülayim hüquqa istinad edir. Cənub-Şərqi Asiyada QİÇS-lə mübarizədə mülayim hüquqdan istinad etmişdir.

Mülayim hüquq normalarının həyata keçirilməsində müəyyən məhdudiyyətlər də var. Əgər mülayim hüquq səlahiyyətli orqan tərəfindən dəstəklənmirsə, dövlətləri hərəkətə keçməyə sövq etmək üçün zəruri olan məcburi öhdəliklərdən məhrum ola bilər.

Mülayim hüququn başqa bir mənfi cəhəti ondan ibarətdir ki, ona arxalanan təşkilatlar zəif kimi qəbul edilə bilər. Məsələn, ÜST əsasən məcburi olmayan sazişlər vasitəsilə hərəkət edirsə, digər sektorlar sərt qanunlar hazırlayırsa, bu, ÜST-nin nüfuzlu beynəlxalq təşkilat kimi görünməsinə mane ola bilər [7]. Bununla belə, zaman keçdikcə dövlətlər daha az sərt müqavilələrə üstünlük verirlər, bu da o deməkdir ki, hazırda mülayim hüquq qlobal idarəçiliyi çərçivəyə salmaq üçün ən məqbul yol hesab olunur [16].

Qeyd olunanlardan başqa, BMT və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş "mülayim normalar" da sağlamlığın qorunması hüququna dair müddəaları özündə ehtiva edir. Sağlamlığın qorunması hüququnun müdafiəsi və təmin olunması ilə bağlı dövlətlərin öhdəliklərinin müəyyənləşdirilməsində BMT-nin ayrı-ayrı köməkçi orqanlarının rolu mühüm əhəmiyyət kəsb edir. Belə ki, İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinin qəbul etdiyi 2000-ci il tarixli 14 nömrəli Ümumi Rəydə sağlamlığın qorunması hüququnun təmin edilməsi ilə bağlı dövlətlərin aşağıdakı öhdəlikləri göstərilmişdir:1) mövcudluq; 2) mümkünlük; 3) qənaətbəxş sayılma; 4) müvafiq keyfiyyət.

Bütövlükdə isə Komitənin qərarı ilə sağlamlığın qorunması hüququnun vacib tərkib elementləri qismində əsas ilkin tibbi yardım, minimum səviyyədən aşağı olmayaraq zəruri və qidalanma üçün qida ilə təmin edilmə,

sanitariya şəraiti, təhlükəsiz və içməli su, zəruri dərman preparatları göstərilmişdir [15, s. 205]. Bununla yanaşı, Komitə qeyd etmişdir ki, iştirakçı-dövlətlər əsas dərman preparatlarının əldə olunması ilə bağlı əsaslandırılmamış yüksək xərclərin qarşısını almaq öhdəliyini daşıyırlar [22, s. 82].

Beynəlxalq birliyin tamhüquqlu subyekti sayılan AR da XX əsrin 90-cı illərində öz müstəqilliyini əldə etdikdən sonra sağlamlığın qorunması hüququna dair müxtəlif beynəlxalq sənədlərə qoşulmaqla və ayrı-ayrı institusional mexanizmlərin işində iştirak etməklə, bu sahədə irəliyə doğru müəyyən addımlar atmışdır. Bu isə səhiyyənin dövlət siyasətinin prioritet istiqamətlərindən və ölkə rəhbərliyi tərəfindən müəyyən olunaraq qarşıya qoyulan ən vacib vəzifələrdən biri olmasını sübut edir.

2003-cü ildən etibarən isə səhiyyə və onun maliyyələşdirilməsi sahəsində həyata keçirilən islahatlar, eləcə də AR-in sosial yönümlü dövlət siyasətini özü üçün əsas strateji xətt qismində qəbul etməsi vətəndaşların sağlamlığının qorunmasını sosial sahənin ən prioritet vəzifələrindən birinə çevirmişdir.

İnsan Hüquqları Komitəsinin 1982-ci il tarixli 6 nömrəli Ümumi Rəyində isə qeyd olunur ki, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsində ehtiva olunmuş "yaşamaq hüquq" anlayışı məhdudlaşdırıcı mənada ifadə və təfsir olunmuşdur və bu subyektiv imkanın müdafiəsi dövlətlərdən dəqiq tədbirlər görülməsini tələb edir. Eyni zamanda, Komitənin gəldiyi qənaətə görə, uşaq ölümünün azaldılması və ömür müddətinin uzadılması, xüsusilə qidalanma ilə bağlı qeyri-qənaətbəxş halın və epidemiyaların aradan qaldırılmasına yönəlmiş bütün zəruri tədbirlərin görülməsi yaşamaq hüququnun müdafiəsi üçün məqbul hal hesab oluna bilər [10, s. 92].

Göstərilənlərə əsaslanaraq, qeyd etmək istərdik ki, mülayim hüquq normalarının təsiri AR-in qanunvericiliyindən də yan keçməmişdir. Covid 19 pandemiyası dövründə qanunvericiliyə bu daha çox təsir göstərmişdir. İlk növbədə dövlət öz öhdəliklərini yerinə yetirmək məqsədilə, təmasların axtarışı, sınaq, müalicə və ictimai səhiyyə reaksiyaları kimi sahələrdə texniki təlimatları aydınlaşdırmaq və gücləndirmək üçün mülayim hüquqdan istifadə etmişdir. Bu təlimatın böyük hissəsi texniki xarakter daşısa da, dövlət mövcud hüquq normalarını gücləndirmişdir. ÜST-ün mülayim hüquq norması hesab olunan qərar və bəyanatları Azərbaycan tərəfindən nəzərə alınmış və yerinə yetirilmişdir.

2019-cu ilin sonunda COVID-19 pandemiyasının başlanmasından bəri, demək olar ki, hər kəsin işində və həyat tərzində böyük dəyişikliklər baş verdi. Naməlum virusun törətdiyi koronavirus epidemiyası təkcə tibb elminə və bütün dünyada ictimai səhiyyə sistemlərinə böyük problemlər gətirməyib, həm də bütün ölkələrdə dövlət idarəçiliyinə ciddi problem yaradıb. Başqa ölkələrdə olduğu kimi AR-də COVID-19 böhranını həll etmək üçün müxtəlif səviyyələrdə dövlət orqanları rəhbər sənədlər və təlimatlar kimi çox sayda mülayim qanun tədbirləri qəbul etdi. Bu mülayim qanun tədbirləri, sərt qanunun heç vaxt uyğun gəlməyəcəyi şəkildə COVID-19 pandemiyası ilə mübarizədə həlledici rol oynadı. Etiraf etmək lazımdır ki, qanunvericilikdə mülayim hüquq üçün aydın hüquqi bazanın olmaması və onların hüquqi qüvvəyə malik olmaması səbəbindən mülayim hüquq tədbirləri onların qanuniliyi və legitimliyi ilə bağlı müəyyən narahatlıqlara səbəb olmuşdur. Bu narahatlıqlar mütəxəssislər

üçün COVID-19 böhranı ilə mübarizədə mülayim hüququn funksiyalarını və sərhədlərini yenidən nəzərdən keçirməkdə və daha geniş şəkildə müasir ictimai idarəetmə aləti kimi mülayim hüquq haqqında düşünməkdə faydalı ola bilər.

AR-də koronavirusun qarşısının alınması və nəzarəti üçün tənzimləyici reaksiyanı nümunə göstərən üç növ mülayim hüquq normalarına diqqət yetirilmişdir: 1) yeni koronavirus pnevmoniyasının diaqnoz və müalicə Protokolu; 2) maskalardan istifadə Təlimatları; 3) işin və istehsalın bərpasına dair Təlimat.

Birinci istiqamət üzrə - yeni koronavirus pnevmoniyasının diaqnoz və müalicə Protokolu COVID-19 kimi yeni aşkar edilmiş yoluxucu xəstəliklər qarşısında, qüvvədə olan qanunlar və qaydalar Dövlət Şurasının səhiyyə inzibati departamentinin üzərinə diaqnostika və müalicə protokollarını formalaşdırmaq öhdəliyi qoyur.

Qeyd edək ki, yuxarıda göstərilən müddəalarda tibb orqanlarının yoluxucu xəstəliklərin diaqnostika və müalicə tələblərinə uyğun olaraq zəruri tədbirlər görməsi nəzərdə tutulsa da, bu, həmin müddəaların hüquqi qüvvəyə malik olması demək deyil. Bir tərəfdən, qanunvericilik bu vəzifənin pozulmasına görə müvafiq hüquqi məsuliyyət müəyyən etməyib. Digər tərəfdən, diaqnoz və müalicə protokolu mütləq konkret davranış tələbini nəzərdə tutmur. Tibb orqanları, tibb işçiləri və ya ictimaiyyət baxımından Diaqnoz və Müalicə Protokolunun hüquqi qüvvəsi yoxdur; başqa sözlə, mülayim hüquqdur.

Yumşqaq hüququn AR-də səhiyyə sahəsinə təsiri Maskalardan istifadə Təlimatları ilə bağlıdır. ÜST-ün COVID-19-un qarşısının alınmasına dair təlimatına əsasən, maskaların taxılması hava-damcı yolu ilə ötürülən yoluxucu xəstəliklərin qarşısının alınması və onlara nəzarət etmək üçün istifadə edilən müxtəlif tədbirlərdən biridir [26].

Qeyd etmək istərdik ki, bu sənəd ictimaiyyətin qorunmasına və yoluxma riskinin azaldılmasına rəhbərlik etmək üçün yalnız bir "təlimat"dır. Bundan əlavə, onun funksiyası, sənəddə göstərildiyi kimi, yalnız "şəxsi müdafiəni gücləndirmək üçün təlimat vermək" idi. Təlimat nə ictimaiyyəti bütün ictimai yerlərdə maskalar taxmağa məcbur edir, nə də maska taxmamaq üçün sanksiyalar tətbiq edir. Bu mənada, bayıra çıxarkən maskaların taxılması açıq məcburi qüvvəyə malik sərt qanun öhdəliyi deyil, yalnız şəxsi müdafiə üçün ictimaiyyətə rəhbərlik edən mülayim qanun öhdəliyidir. Qeyd olunanlardan da görünür ki, qanunvericilikdə pandemiya zamanı küçəyə çıxarkən maska taxmaq qanuni öhdəliyi və bu öhdəliyə əməl edilməməsinə görə konkret hüquqi məsuliyyət nəzərdə tutmur və bununla bağlı şəxslərin saxlanmasının hüquqi əsası ola bilməz. Bu heç zaman AR-in məcburi norma hesab olunan qanunlarının tələblərinin pozulması kimi dəyərləndirilə bilməz.

Mülayim hüququn tətbiqi ilə bağlı üçüncü istiqamət İşin və istehsalın bərpasına dair Təlimatla bağlıdır. 21 fevral 2020-ci il tarixində epidemiyaya qarşı mübarizə şəraitində iş və istehsalın bərpası üzrə müəssisə və qurumlar üçün Təlimat dərc edilib.

Təlimatlarda əsasən, epidemiyanın qarşısının alınması və nəzarətində müəssisə və qurumların məsuliyyəti vurğulanır. Təlimatlarla müəyyən edilmiş öhdəliklərə aşağıdakı aspektlər daxildir: işçilərin sağlamlığının monitorinqinin gücləndirilməsi zərurəti. Mülayim norma olan təlimatın tələblərinə müvafiq olaraq, hər bir işəgötürən gündə iki

dəfə kollektiv yataqxanalarda yaşayan işçilərin hərarətinə nəzarət etməli, bütün işçilərin sağlamlıq vəziyyətini ümumiləşdirməli və bu barədə gündəlik olaraq xəstəliklərlə mübarizə şöbəsinə məlumat verməlidir; işçilərin giriş-çıxışının qeydiyyatı, iş yerinin mütəmadi olaraq dezinfeksiya edilməsi, işçilərin toplanmasının və kollektiv fəaliyyətlərin azaldılması, pilləli yemək yeməyi və uzaqdan ofis işi də daxil olmaqla, iş yerlərində profilaktika və nəzarət tədbirlərinin gücləndirilməsi zərurəti; işçilər arasında epidemiya əleyhinə biliklərin artırılması ehtiyacı. Bunun bir hissəsi olaraq işəgötürənlər işçilərə şəxsi müdafiələrini gücləndirmək, o cümlədən lazımsız səfərləri azaltmaq və izdihamlı yerlərdə maskalar taxmaq üçün təlimat verməlidirlər. Qeyd olunan aspektlərin hər birinə Azərbaycan dövləti tərəfindən əməl olunmuşdur.

Xüsusilə qeyd etmək istərdik ki, mülayim hüquq və sərt hüquq bir-birinə zidd olan hüquqi paradiqmalardır [23]. Əgər beynəlxalq hüquq sahəsində mülayim hüququn mövcudluğunun və yüksəlişinin köklü səbəbi suverenliyin olmamasıdırsa, daxili hüquq sahəsində mülayim hüququn tətbiqi qanunvericilik səlahiyyətinə malik qanunvericilərin olmamasından irəli gəlmir. COVID-19 pandemiyasının qarşısının alınması və ona nəzarət kontekstində hər bir ölkədə müvafiq sərt qanunun çatışmazlıqları aşkar olundu.

Göstərilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, "Yolxucu xəstəliklərin immunoprofilaktikası haqqında" AR Qanununda Covid-19 pandemiyası haqqında hər hansı müddəa yoxdur və təbii ki, olması da mümkün deyil. Burada paradoks ondadır ki, Qanunun əsas məqsədi yoluxucu xəstəliklərin mövcudluğuna nəzarət etməkdir; bununla belə, mövcud profilaktika və nəzarət modeli altında həm tənzimləyici resurslar, həm də qanunun dizaynı əsasən mövcud yoluxucu xəstəliklərə yönəldilmişdir. Ona görə də indiyədək heç vaxt rast gəlinməmiş yeni yoluxucu xəstəliklərin effektiv monitorinqi, erkən xəbərdarlıqların vaxtında verilməsi və müvəqqəti nəzarətin nizamlı şəkildə aparılması problemə çevrilib. Bu halda mülayim hüquqdan istifadə olunmuşdur.

Beləliklə, bu paraqraf üzrə aşağıdakı nəticələri qeyd edə bilərik. Birincisi, səhiyyə sahəsində BMT-nin orqanları və ixtisaslaşmış qurumları, o cümlədən ÜST tərəfindən qəbul edilən bütün tövsiyə xarakterli sənədləri – bəyanat, bəyanamə, təlimat və qaydalar, habelə fəaliyyət planları və digər normaları beynəlxalq səhiyyə hüququnda mülayim normalar hesab etmək olar. Bu səbəbdən də səhiyyə sahəsində belə beynəlxalq xarakterli "mülayim" hüquq normalarının AR qanunvericiliyinə təsiri də məhz həmin normaları qəbul edən qurumun səlahiyyət dairəsi və ÜST Nizamnanməsinin xüsusiyyətlərindən asılı olacaqdır. İkincisi, səhiyyə sahəsində Çinin qeyd edilən mülayim hüquq təcrübəsini Azərbaycan milli qanunvericilik praktikası təsiri ilə bağlı bir sıra nəticələri qeyd edə bilərik. Birincisi, səhiyyə sahəsində milli hüquqi implementasiyanın səmərəliliyi ümumişləq qanunvericilik normalrından asılı bir məsələ kimi çıxış edir. İkincisi, mərkəzi icra hakimiyyətləri ilə yanaşı, səhiyyə sahəsində yerli özünüidarə orqanları, xüsusilə bələdiyyələr aktiv şəkildə iºtirak etməli və yerlərdə bu barədə təlimat və qaydalar qəbul edilməsi praktikasına yiyələnməlidirlər. Üçüncüsü, AR-in təşəbbüsü ilə 18 noyabr 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində qəbul edilmiş Qoşulmama Hərəkatının sədri qis-

mində "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə AR-in birbaşa mülayim hüquq norma yaradıcılığının və səhiyyə sahəsində milli hüquqi implementasiya ilə bağlı ən mühüm sənədlərindən biri hesab edilməlidir. Qətnaməyə görə, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən AR Prezidentinin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci il tarixində keçirilmiş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası, habelə COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret təşkilati-hüquqi tədbirlər təqdir edilir. Bu fakt əlbəttə, AR-in səhiyyə sahəsində beynəlxalq hüquq əməkdaşlığı və səhiyyə sahəsində mülayim hüquq normalarının implementasiyası üçün əlverişli zəmin yaradan amil hesab edilməlidir. Bundan başqa, AR-in təşəbbüsü ilə qəbul edilən həmin sənəd səhiyyə sahəsində digər sənədlərin – mülayim hüquq normalarının implementasiyası üçün də bazis sənədi kimi çıxış edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin BMT Baş Assambleyasında COVID-19 əleyhinə peyvəndlərə əlçatanlığın təmin edilməsi ilə bağlı qətnamənin qəbul edilməsinə dair məlumatı, https://mfa.gov.az/az/news/no44621
2. Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyasında videoformatda çıxış edib, https://president.az/az/articles/view/48460/print
3. İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib, https://president.az/az/articles/view/36412
4. B. M. Meier, A. Taylor, M. Eccleston Turner, R. Habibi, S. Sekalala, and L. O. Gostin, "The World Health Organization in Global Health Law," Journal of Law, Medicine & Ethics 48, no. 4 (2020)
5. Constitution of the World Health Organization, https://apps.who.int/gb/bd/pdf_files/BD_49th-en.pdf#page=6
6. Chinkin C. "Normative Development in the International Legal System," in Commitment and Compliance: The Role of Non-Binding Norms in the International Legal System, D. Shelton, eds. (Oxford: Oxford University Press, 2000)
7. Gostin and Sridhar, supra note 2. Google Scholar
8. Hannum H. The Udhr in National and International Law//Health and Human Rights (1998)
9. Hillgenberg H. A Fresh Look at Soft Law // European Journal of International Law 10, no. 3 (1999)
10. HRC General Comment No. 6: the right to life (Article 6). Migration and the right to health: A review of international law. Compiled and edited by P.Pace. International Migration Law, 2009, No 19
11. Dinah L., Shelton. Soft Law in Handbook of International Law (Routledge Press, 2008). Raustiala, K. (2005), "Form and Substance in International Agreements," 99 Am.J.Int'l L. 581 (2005).
12. Druzin, B.H. (2016). "Why does Soft Law have any Power anyway?" Asian Journal of International Law, https://www.cambridge.org/core/journals/asian-journal-of-international-law/article/abs/why-does-soft-law-have-any-power-anyway/ 00EBCEA91F92F97E1079A80AE077BD39
13. L Haocai and S Gongde, Soft Law Is Law (Law Press 2009
14. L. Sossin and C. Smith, "Hard Choices and Soft Law: Ethical Codes, Policy Guidelines

and the Role of the Courts in Regulating Government," Alberta Law Review 40(2003).
15. Moeckli D., Shah S., Sivakumarah S., Harris D. International human rights law. Second edition. Oxford, Oxford University Press, 2014
16. Pauwelyn, J., Wessel, R. A., and Wouters, J., "When Structures Become Shackles: Stagnation and Dynamics in International Lawmaking," European Journal of International Law 25, no. 3 (2014): 733–763
17. Raustiala, K. Form and Substance in International Agreements, 99 Am.J.Int'l L. 581 (2005).
18. Robilant, Anna Di. Genealogies of Soft Law // The American Journal of Comparative Law. 2006, 54 (3): 499–554. doi:10.1093/ajcl/54.3.499.İSSN 0002-919X
19. Sharifah S. and Haleema M., Soft Law Possibilities in Global Health Law / The Journal of Law, Medicine & Ethics, 49 (2021)
20. Soft Law in the Prevention and Control of the COVID-19 Pandemic in China: Between Legality Concerns and Limited Participatory Possibilities, https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC8060617/
21. Soft Law Possibilities in Global Health Law https://www.cambridge.org/core/journals/journal-of-law-medicine-and-ethics/article/soft-law-possibilities-in-global-health-law/46454AEC8B9033032728A49218F03C3F
22. Stephen P.M. Access to Essential Medicines as a component of the right to health. In: Realizing the Right to Health (eds. A.Clapham& M.Robinson). Zurich, Rüfer& Rub, The Swiss HumanRights Book Series
23. The Administration Regulations on the Circulation of Vaccines and Vaccination are an administrative regulation formulated by the State Council in 2005 to strengthen the supervision of vaccines.
24. The "Soft law" of the supreme peoples court, https://supremepeoplescourtmonitor.com/2020/11/16/the-soft-law-of-the-supreme-peoples-court/
25. Xiezhong Cheng. Soft Law in the Prevention and Control of the COVID-19 Pandemic in China: Between Legality Concerns and Limited Participatory Possibilities, https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC8060617/
26. World Health Organization, "Advice on the Use of Masks in the Context of COVID-19: Interim Guidance, 5 June 2020
27. World Trade Organization (WTO), Doha declaration on the TRIPS agreement and public health, WT/MIN(01)/ DEC/W/2. Ministerial conference (2001): Fourth Session, Doha, 9-14 November.

**Peculiarities of the impact of "soft" legal norms of an international nature on the legislation of the Republic of Azerbaijan in the field of healthcare**

**Huseynova Fatima Etibar gizi,**
**Doctor of Philosophy in Law, Associate Professor of the Department of Private International Law and European Law Baku State University**
e-mail: lawyer.fatima85@gmail.com

The article talks about the influence of "soft" legal norms of an international nature in the field of healthcare on the legislation of the Republic of Azerbaijan. First, the characteristics of "soft" legal norms in the field of healthcare are considered. The features of the material legal implementation of these norms in the legal system of the Republic of Azerbaijan are analyzed. In this direction, the national legislation of the Republic of Azerbaijan is compared with international

documents establishing "soft"" legal norms. At the same time, attention is paid to the activities of the World Health Organization in the creation and implementation of "soft" legal norms.

**Key words:** World Health Organization, healthcare"soft" legal norms, "soft law", national legal implementation, legislation of the Republic of Azerbaijan.

**Особенности воздействия «мягких» правовых норм международного характера на законодательство АзербайджанскойРеспублики в сфере здравоохранения**

**Гусейнова Фатима Этибар кызы,**
**доктор философии по праву, доцент кафедры международного частного права и европейского права Бакинского государственного университета**
э-почта: lawyer.fatima85@gmail.com

В статье говорится о влиянии «мягких» правовых норм международного характера в области здравоохранения на законодательство Азербайджанской Республики. Сначала рассматриваются характеристики «мягких» правовых норм в сфере здравоохранения. Анализируются особенности материальной правовой имплементации указанных норм в правовой системе Азербайджанской Республики. В этом направлении сравнивается национальное законодательство Азербайджанской Республики с международными документами, устанавливающими «мягкие»" правовые нормы. При этом уделяется внимание деятельности Всемирной организации здравоохранения в создании и реализации «мягких» правовых норм.

**Ключевые слова:** Всемирная организация здравоохранения, здравоохранение, «мягкие» правовые нормы, «мягкое право», национально-правовая имплементация, законодательство Азербайджанской Республики.

**Uluslararası nitelikteki "ılımlı" hukuk normlarının Azerbaycan Cumhuriyeti'nin sağlık alanındaki mevzuatına etkisinin özellikleri**

**Hüseyinova Fatıma Etibar Gizi,**
**Hukuk Felsefe Doktoru, Bakü Devlet Üniversitesi Hukuk Fakültesi "Uluslararası özel hukuk ve Avrupa hukuku" bölümü doçentidir.**
e-posta: avukat.fatima85@gmail.com
https://orcid.org/0009-0004-9457-0342

Makalede sağlık alanında "ılımlı" uluslararası hukuk normlarının Azerbaycan Cumhuriyeti mevzuatına etkisinden bahsediliyor. Öncelikle sağlık alanında "ılımlı" hukuk normlarının özellikleri incelenmektedir. Bahsedilen normların Azerbaycan Cumhuriyeti hukuk sisteminde esaslı hukuki uygulamasının ayrıntıları incelenmektedir. Bu doğrultuda Azerbaycan Cumhuriyeti'nin ulusal mevzuatı "ılımlı" hukuk normlarını belirleyen uluslararası belgelerle karşılaştırılmaktadır. Aynı zamanda Dünya Sağlık Örgütü'nün "ılımlı" hukuk normlarının geliştirilmesi ve uygulanması konusundaki faaliyetlerine de dikkat ediliyor.

**Anahtar Kelimeler:** Dünya Sağlık Örgütü, sağlık hizmetleri, uluslararası, "yumuşak" hukuk normları, "yumuşak hukuk", ulusal hukuki uygulama, Azerbaycan Cumhuriyeti mevzuatı.

# İNSAN HÜQUQLARINA HAMILIQLA HÖRMƏT VƏ RİAYƏT EDİLMƏSİ PROBLEMİNİN BƏZİ ASPEKTLƏRİ

**Cahangirova Aygül Akif qızı,**
**BDU Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının doktorantı.**
e-mail: aygul.jahan@gmail.com

*Məqalədə qeyd olunur ki, insan hüquqları sahəsində mühüm münasibətlərin tənzimlənməsi beynəlxalq hüququn ən aktual problemlərindən biridir. Belə ki, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlıqla bağlı münasibətlərin tənzimlənməsi çox vacibdir.*

*Dövlətlərarası münasibətlərin inkişafı – insanların hüquq, azadlıq və qanuni maraqlarının təmini ilə əlaqədar çox vacib iqtisadi və hüquqi xarakterli problemlərin yaranmasına səbəb olur. Dövlətlər qarşısında duran mühüm vəzifə insan hüquqlarının kobud və müntəzəm şəkildə pozulmasının qarşısını almaqdır.*

*İnsan hüquqları sahəsində təkmilləşmiş mexanizmin yaradılması və bunun nəticəsində insan hüquqlarının pozulmasının qarşısını almaq dövlətlər qarşısında duran vəzifələrdəndir.*

**Açar sözlər:** insan hüquqları, qlobal problemlər, insan hüquqlarının təsnifatı, humanitar müdaxilə şəraitində insan hüquqları, insan hüquqlarının təminatı və s.

Ötən əsrin 50-ci illərindən başlayaraq insan hüquq və azadlıqlarının beynəlxalq-hüquqi mexanizmləri təşəkkül tapmağa başladı. Hazırda həm universal, həm də regional səviyyədə insan hüquq və azadlıqlarının təmin olunmasının mürəkkəb, çox planlı və çoxşaxəli mexanizmləri yaranmışdır və fəaliyyət göstərir.

Müasir beynəlxalq hüquqda, xüsusilə II Dünya müharibəsindən sonrakı dövrdə insan hüquqları sahəsində əsas standartların müəyyən edildiyi çoxlu sayda müqavilələr qəbul olunmuşdur. Aydındır ki, bu və ya digər dövlətin bunlarda iştirakı onu bu müqavilələrdə təsbit edilmiş fərdin hüquq və azadlıqlarına riayət etmək öhdəliyi deməkdir. Analoji olaraq, bu müqavilələrə riayət edilməsinə müəyyən nəzarət üsullarını, həmçinin onların həyata keçirilməsinə kömək edən digər vasitələri müvafiq prosedurların onun üçün məcburiliyi kimi hüquqi nəticə doğurur.

Müxtəlif ölkələrin əhalisində öz dövlətlərinin insan hüquqları sahəsində beynəlxalq mexanizmlərdə iştirak etməsi zərurətinin dərk edilməsinə təsir göstərən iki amil xüsusi əhəmiyyət kəsb edir. Birincisi, dünya sivilizasiyasının inkişafı gedişində belə anlayış (ən əvvəl mülki və siyasi) əməl edilməməsi, demək olar ki, həmişə hakimiyyətdə olan bu təcrübədə də sübut edilir ki, əksər hallarda nəticə pozuntunun aşkara çıxarılması deyil, dövlətin davranışı ilə üzərinə götürdüyü öhdəliyin uyğunluğu barədə rəy verməkdir.

Beynəlxalq hüquq normalarının optimal həyata keçirilməsinə kömək göstərmək, yəni normaların yerinə yetirilməsi üçün vadaredici motiv olmalı, normaların icrasının təminatı kimi çıxış etməli, beynəlxalq hüquq qaydasının saxlanması və beynəlxalq qanunçuluq rejiminə əməl edilməsi və normaların təkmilləşdirilməsi vasitəsi olmalıdır.

XX əsrin sonuna doğru insan hüquqlarına hamılıqla hörmət və riayət edilməsinin təminatı problemi dövlət sərhədlərini aşmış və ümumi beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz tərkib hissəsi kimi bütün dünya birliyinin irsinə çevrilmişdir. 1993-cü ilin iyununda Vyanada keçirilrniş insan hüquqları üzrə II Ümumdünya konfransında bir daha mövcud olan bütün əsas insan hüquqları və azadlıqlarının universallığı, bölünməzliyi, qarsılıqlı asılılığı və bağlılığı prinsiplərinə dönmədən riayət edilməsinin zəruriliyi bəyan edildi. Konfransın Yekun sənədində göstərilir ki, dövlətlər öz siyasi, iqtisadi və mədəni sistemlərindən aslı olmayaraq, bütün əsas insan hüquqları və azadlıqlarını həvəsləndirmək və müdafiə etmək vəzifəsi daşıyırlar.

İnsan Hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmlərinin mövcud olmasına baxmayaraq bu hüquqların təminatı ilk növbədə ölkədaxili və milli qayda qanunla nizamlanmalıdır. Əslində hər bir ölkənin tərəfdar çıxdığı beynəlxalq normaların da tətbiqi də ilk növbədə ölkə daxilində yaradılan mexanizmlər vasitəsi ilə həyata keçirilir. İnsan hüquq və azadlıqlarının təmin olunması üçün ilk növbədə dövlət tərəfindən həmin hüquq və azadlıqların tanınmasıdır. Bunun üçün hüquqi əsaslar və bu hüquqi əsasları tətbiq edən mexanizmlərin yaradılması zəruridir.

Beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsi və qorunub saxlanması, digər tərəfdən insanın əsas hüquq və azadlıqlarına riayət edilməsi arasında sıx əlaqə olması bu cür əməkdaşlığın obyektiv ilkin şərtlərindən biridir.

Məlum olduğu kimi, BMT-nin Nizamnaməsində insan hüquqlarına və əsas azadlıqlara hörmət prinsip və bu prinsipin inkişaf etdirilməsi sahəsində beynəlxalq əməkdaşlığın zəruri olması barədə hüquqi cəhətdən məcburi olan ümumi müddəalar da öz əksini tapmışdır.

Müasir dövlətlərin bu sahədə əməkdaşlığının digər obyektiv ilkin şərti ondan ibarətdir ki, beynəlxalq hüququn universal normalarının bir sıra mühüm aktlarına uyğun olaraq, dövlətlər insanların irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, hamı üçün mövcud olan bu hüquq və azadlıqlara hörmət bəsləməli və onlara riayət etməlidirlər. Dövlətlərin öhdəsinə qoyulan bu vəzifə mütləq və ümumi xarakter daşıyır, yəni insan hüquqlarına və azadlıqlarına bütün dövlətlərdə riayət edilməli, hər hansı ayrı-seçkiliyə yol verilmədən, dövlətin yurisdiksiyasında olan bütün şəxslərin barəsində qüvvədə olmalıdır. Müasir beynəlxalq hüquq bu sahədə müvafiq minimum standartlar müəyyən edib.

İnsan hüquqlarının beynəlxalq–hüquqi müdafiəsi zamanı beynəlxalq hüququn bu sahədə rolu aşağıdakı kimi müəyyən edilməlidir: a) insan hüquqlarının təbii xarakter daşımasını və dövlətin qanunvericiliyindən kənarda və ondan asılı olmayaraq mövcud olmasını bəyan etmək, b) insan hüquqlarının müdafiəsi məsələsinin dövlətin daxili işi olmadığını bəyan etmək, v) dövlətlər üçün ümumi standartlar müəyyən etmək (əsas insan hüquq və azadlıqlarının «kataloqunu» müəyyən etmək), q) dövlətlərin insan hüquqları sahəsindəki öhdəliklərini yerinə yetirmələri üzərində nəzarət mexanizmləri müəyyən etmək.

İnsan hüquqları sahəsində tənzimlənmənin mühüm problemlərindən biri də insan hüquqlarının qorunması mexanizminin təşkilidir. Bu sahədə mühüm mexanizmlərin: İsan hüquqları komitəsi; İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə; İşgəncə əleyhinə komitə; Uşaq hüquqları komitəsi, qadınlara qarşı irqi ayrı-seçkiliyin ləğvi üzrə komitənin yaradılmasına baxmayaraq insan hüquqları sahəsində bu mexanizmlərin insan hüquqlarının pozulması

zamanı müəyyən tədbirlərin görülməsi səlahiyyətlərinin kifayət etməməsi təəssüf doğurur.

İnsan hüquqları içərisində habelə mütləq hüquqlar və dövlətlərin müəyyən hallarda geri çəkilə bildiyi hüquqlar fərqləndirilir. Mütləq hüquqlar o insan hüquqlarıdır ki, dövlət heç bir halda, o cümlədən fövqəladə vəziyyət şəraitində onlardan geri çəkilə bilməz. Avropa insan hüquqları Konvensiyasına görə, bu, aşağıdakı hüquqlardır: yaşamaq hüququ (maddə 2); işgəncələrə məruz qalmamaq hüququ (maddə 3); köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ (maddə 4) və qanunsuz cəzaya yol verilməsi (maddə 7). [1; s.202]

İnsan hüquqları sahəsində mühüm münasibətlərin tənzimlənməsi beynəlxalq hüququn ən mühüm problemlərindən biridir. Belə ki, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlıqla bağlı münasibətlərin tənzimlənməsi çox vacibdir. Dövlətlərarası münasibətlərin inkişafı – insanların hüquq, azadlıq və qanuni maraqlarının təmini ilə əlaqədar çox vacib iqtisadi və hüquqi xarakterli problemlərin yaranmasına səbəb olur. Dövlətlər qarşısında duran mühüm vəzifə insan hüquqlarının kobud və müntəzəm şəkildə pozulmasının qarşısını almaqdır.

BMT Baş Məclisinin 30-cu sessiyasında (10 noyabr 1975-ci il) Sülh və bütün bəşəriyyət naminə elmi-texniki tərəqqidən istifadə edilməsi haqqında Bəyannamə qəbul edildi. Bu Bəyannamə ilə bütün dövlətləri elmi-texniki tərəqqinin nailiyyətlərindən müasir dövrün problemlərinin, o cümlədən insan hüquqları sahəsində problemlərin həll edilməsində istifadə etməyə çağırmışdır.

BMT Baş Məclisinin 31-ci sessiyasında «İnsan hüquqları və elmi-texniki tərəqqi» qətnaməsində qeyd edilmişdir ki, elmi-texniki tərəqqi sosial-iqtisadi inkişafın, yeni beynəlxalq qaydanın, insan hüquq və azadlıqlarının həyata keçirilməsinin zəruri şərtidir. BMT Baş Məclisi tərəfindən 35-ci, 36-cı, 37-ci sessiyalarında da analoji qərarlar qəbul edilmişdir.

Beləliklə, insan hüquqları sahəsində təkmilləşmiş mexanizmin yaradılması və bunun nəticəsində insan hüquqlarının pozulmasının qarşısını almaq dövlətlər qarşısında duran vəzifələrdəndir.

İnsan hüquqları və azadlıqlarının bir sıra aspektləri hələ də dövlətlərin daxili səlahiyyətlərinə aiddir, bu sahədə beynəlxalq standartların təmin edilməsi qaydası isə dövlətin daxili işidir, çünki konkret şəxsin hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiə edilməsi üçün real imkan, əsasən dövlətdə qüvvədə olan hüquqi mexanizmlərlə təmin edilir.İnsan hüquqlarını tanıyan dövlət hakimiyyətin bölgüsü,hüququn aliliyi prinsiplərinə əsaslanır. [3; s.178]

Hüquqi sistem dövlətin qanunvericiliyi ilə yanaşı müvafiq qaydada ratifikasiya olunmuş müqavilələrin bilavasitə fəaliyyətinə yol verir, lakin dövlətin qanunvericiliyinin əhəmiyyəti həm də ondan ibarətdir ki, bu qanunvericilik insan hüquqlarının reallaşdırılması, qorunması və müdafiə edilməsi üçün başqa hüquqi üsullardan istifadə olunmasını da nəzərdə tutur. Buna görə milli qanunvericilik insan hüquqlarının təmin edilməsinin hüquqi mexanizminin əsas, birinci dərəcəli elementidir. [8; p.188]

Belə bir vəziyyətdə beynəlxalq hüquqi norma ilə daxili milli qanunvericiliyin normasının qarşılıqlı münasibəti xüsusi əhəmiyyətə minir. Bu məsələnin səmərəliyi beynəlxalq hüquq normalarına riayət olunmasını təmin edə bilən hüquqi mexanizmdən asılıdır. Məlumdur ki, beynəlxalq hüquq normaları yalnız daxili hüquq sistemlərinin «iştirakı ilə» lazımi qaydada realizə oluna bilər. Bu

«iştirak»ın forma və metodları müxtəlifdir və ayrı-ayrı ölkələrdə bir-birindən fərqlənir. Beynəlxalq hüquqda bununla bağlı vahid normativ sxem yoxdur. Beynəlxalq hüquq baxımından, dövlətin öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərin milli səviyyədə, necə həyata keçirilməsi və bütövlükdə beynəlxalq hüquqla milli hüququn qarşılıqlı nisbəti probleminin necə həll edilməsi, prinsip etibarilə vacib deyildir. Vacib cəhət ondan ibarətdir ki, dövlətlər beynəlxalq-hüquqi normalara əməl etsələr və lazımi hallarda bu normaların dövlətdaxili qüvvəsini təmin edirlər. Nəzərə almaq lazımdır ki, beynəlxalq müqavilə yalnız o halda həyata keçirilə bilər ki, son nəticədə o, milli hüquq üzərində üstün qüvvəyə malik olsun. Milli qanunvericilikdə bu barədə nəzərdə tutulduğundan asılı olmayaraq milli hüququn tətbiqi beynəlxalq müqavilənin pozulmasına gətirib çıxararsa, o dövlətin beynəlxalq məsuliyyətinə səbəb olacaqdır. Artıq hamılıqla qəbul edilmişdir ki, dövlət Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 27-ci maddəsinə əsasən törətdiyi beynəlxalq hüquq pozuntusuna bəraət qazandırmaq üçün heç vaxt öz daxili qanunvericiliyinin müddəalarına istinad edə bilməz.

Beləliklə, insan hüquqları haqqında beynəlxalq hüquqi normaların dövlətdaxili qüvvəsini təmin etmək vəzifəsi, mahiyyət etibarı ilə, nəticə öhdəliyidir. Belə ki, qeyd edildiyi kimi, bu vəzifənin yerinə yetirilməsinin forma və vasitələrinin seçilməsi dövlətin öz konstitusiya qanunvericiliyi və praktikasında müəyyən olunur. İnsan hüquqları və azadlıqlarının həvəsləndirilməsi və onların müdafiəsi BMT-nin fəaliyyətinin əsas istiqamətlərdən birini təşkil edir. İnsan hüquqlarının pozulması hallarının araşdırılması və bu hüquqlara riayət olunması üzrə nəzarət normalarının müəyyən edilməsi istiqamətində müxtəlif müqavilələrə və beynəlxalq paktlara müvafiq yaradılmış mürəkkəb mexanizm əvvəlki kimi böyük əhəmiyyətə malikdir. Məsələn, insan hüquqlarına riayət edilməsi sahəsində müqaviləsi və ya digər fəaliyyət, o cümlədən Avropa Şurasının fəaliyyətinə İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında, eləcə də Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş mexanizmlərin əsasında sosial və iqtisadi hüquqların müdafiəsi barədə müddəalar daxildir.

İnsan hüquqları və azadlıqlarının bir sıra aspektləri hələ də dövlətlərin daxili səlahiyyətlərinə aiddir, bu sahədə beynəlxalq standartların təmin edilməsi qaydası isə dövlətin daxili işidir, çünki konkret şəxsin hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiə edilməsi üçün real imkan, əsasən dövlətdə qüvvədə olan hüquqi mexanizmlərlə təmin edilir. Hüquqi sistem dövlətin qanunvericiliyi ilə yanaşı müvafiq qaydada ratifikasiya olunmuş müqavilələrin bilavasitə fəaliyyətinə yol verir, lakin dövlətin qanunvericiliyinin əhəmiyyəti həm də ondan ibarətdir ki, bu qanunvericilik insan hüquqlarının reallaşdırılması, qorunması və müdafiə edilməsi üçün başqa hüquqi üsullardan istifadə olunmasını da nəzərdə tutur. Buna görə milli qanunvericilik insan hüquqlarının təmin edilməsinin hüquqi mexanizminin əsas, birinci dərəcəli elementidir. [6; s.86]

Belə bir vəziyyətdə beynəlxalq hüquqi norma ilə daxili milli qanunvericiliyin normasının qarşılıqlı münasibəti xüsusi əhəmiyyətə minir. Bu məsələnin səmərəliyi beynəlxalq hüquq normalarına riayət olunmasını təmin edə bilən hüquqi mexanizmdən asılıdır.

Əsas xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, milli təsisatlar sahəsindəki iş prosesində BMT bu qənaətə gəlmişdir ki, dövlətlərin insan hüquqları və azadlıqları sahə-

sində beynəlxalq öhdəliklərini yerinə yetirmələri üçün bütün dövlətlər üçün zəruri mexanizm kimi vahid milli təsisat modeli yaratmaq mümkün deyildir və bunu tövsiyə etməyə ehtiyac yoxdur. Bundan əlavə, hər bir dövlət başqa dövlətlərin təcrübəsindən özü üçün səmərəli şəkildə istifadə edə bilər, milli təsisatlar isə yerli mədəniyyətlərin, hüquq ənənələrinin və xüsusiyyətlərinin, eləcə də konkret dövlətdə mövcud olan siyasi təşkilatın xüsusiyyətlərinin nəzərə alınması ilə yaradılmalıdır.

İnsan hüquqları və azadlıqlarının həvəsləndirilməsi və onların müdafiəsi BMT-nin fəaliyyətinin əsas istiqamətlərdən birini təşkil edir. İnsan hüquqlarının pozulması hallarının araşdırılması və bu hüquqlara riayət olunması üzrə nəzarət normalarının müəyyən edilməsi istiqamətində müxtəlif müqavilələrə və beynəlxalq paktlara müvafiq yaradılmış mürəkkəb mexanizm əvvəlki kimi böyük əhəmiyyətə malikdir. Məsələn, insan hüquqlarına riayət edilməsi sahəsində müqaviləsi və ya digər fəaliyyət, o cümlədən Avropa Şurasının fəaliyyətinə İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında, eləcə də Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş mexanizmlərin əsasında sosial və iqtisadi hüquqların müdafiəsi barədə müddəalar daxildi. [7; s.122]

İnsan hüquqlarının effektiv dövlətdaxili müdafiəsi üçün təkcə beynəlxalq hüququn ölkənin hüquq sisteminin tərkib hissəsi elan edilməsi kifayət etmir. Həm dövlət orqanı, həm də beynəlxalq ictimaiyyətin müvafiq orqanı kimi çıxış edəcək müstəqil məhkəmə sistemi yaradılmalı, hakimlərin, vəkillərin, dövlətin vəzifələli şəxslərinin peşə hazırlığı artırılmalıdır. [2, s.189]

Son illərdə bir sıra dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının müdafiəsi və həvəsləndirilməsi üçün milli infrastrukturlar yaradılması faktı prinsipial əhəmiyyətə malikdir. Müxtəlif dövlətlərdə bu cür təsisatların vəzifələri müxtəlif ola bilər. Lakin onların hamısı eyni bir məqsədə nail olmağa çalışır. Elə buna görə onların hamısına insan hüquqları üzrə milli təsisatlar deyilir. Milli təsisat barədə müasir konsepsiya xeyli özünəməxsusluğu ilə fərqlənir, belə ki, söhbət insan hüquqlarının həvəsləndirilməsi və müdafiəsi baxımından funksiyaları və səlahiyyəti bilavasitə müəyyən olan xüsusi orqanın fəaliyyətindən gedir. [4, s.44]

Azərbaycan qanunvericiliyinin insan hüquqları və azadlıqları sahəsində beynəlxalq-hüquqi normalara və Avropa standartlarına uyğunlaşdırılmasının zirvə məqamı Azərbaycan Respublikasının Avropa Şurasına daxil olduğu və insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulduğu dövrə təsadüf edir Bu mərhələnin keçilməsi hələ o demək deyildir ki, həmin norma və standartlar praktikada avtomatik tətbiq edilə bilər. Müasir suveren dövlətlərin əksəriyyətində qəbul edilmiş qaydaya görə həmin norma və standartların reallaşdırılması və onların tətbiqinə nəzarət edilməsi üçün müvafiq sistem yaradılmışdır. Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının müdafiəsi üçün nəzarət mexanizmləri sistemində insan hüquqları üzrə müvəkkil (ombudsman) institutuna, eləcə də digər hüquq-müdafiə təşkilatlarına, o cümlədən qeyri-hökumət təşkilatlarına xüsusi əhəmiyyət verilir. Konstitusiya Qanunu (28 dekabr 2001-ci il tarixli) əsasında yaradılmış bu institut həm beynəlxalq təcrübəni, həm də milli xüsusiyyətləri nəzərə almaqla, Azərbaycan Respublikasının vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsi üçün ənənəvi vasitələri tamamlayır.

İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında mühüm beynəlxalq-hüquqi aktlarda öz əksini tapmış universal normaya əsasən, müvafiq konvensiyanın və ya paktın iştirakçısı olan hər bir dövlət öz fəaliyyətində bu hüquq və azadlıqlara hörmət prinsipini rəhbər tutmağa, hər hansı bir ayrı-seçkiliyə yol vermədən bunlara riayət etməyə və həmin dəyərləri öz milli qanunvericilik sistemlərində əks etdirməyə borcludur. İnsan hüquqları və azadlıqları prinsipi ümumi xarakter daşıyan vəzifə kimi üzv-dövlətin yurisdiksiyasında olan bütün şəxslər barəsində bu hüquq və azadlıqlara şərtsiz riayət edilməsini nəzərdə tutur.

Məhz bu universallıq və qeyri-diskriminasiya prinsipi nəinki mövcud sahədə araşdırılan problemlərin xüsusiyyətlərini müəyyən edir, həm də dövlətin yurisdiksiyasında olan şəxslərin hüquqi rejiminin müəyyənləşdirilməsi zamanı insan hüquqları və azadlıqları üzrə konkret normaların qanuniliyinin zəruri meyarı rolunu oynayır. [5, s.123]

Əsas insan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində milli qanunvericiliyin ümumtanınmış prinsiplərə (standartlara) uyğunlaşdırılması prosesisinin gedişatında hüquq sisteminin əsaslı islahatı, demək olar yenidən qurulması, Azərbaycan Respublikası da daxil olmaqla, yeni müstəqil dövlətlərin başlıca xüsusiyyətlərindən biri, onların yeni inkişaf mərhələsinə qədəm qoyması əlamətidir. Dövlətimiz üçün bu cür islahatlar və demokratik inkişafın ali məqamı -Avropa Şurası Nizamnaməsinə qoşulmaq haqqında qanunun qəbul edilməsi və 2001-ci ildə həmin təşkilata tamhüquqlu üzv olmasıdır.

**ƏDƏBİYYAT**


1. Ə.İ.Əliyev. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı. 2009.
2. Ə.İ.Əliyev. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı, 2007.
3. Ə.İ.Əliyev. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı, 2007.
4. Гусейнов Л.Г. Конституция Азербайджанской республики, права человека и международное право// Международное право. 1998. №1, стр.39-54.
5. Гомьен Д. Путеводитель по Европейской Конвенции о защите прав человека и основных свобод (перевод с англ.). Совет Европы. М., Из-во юр. лит., 2016, 260 с.
6. Лукашук И.И. Глобализация, государство, право. XXI век. с. 68-111.
7. Карташкин В.А. Права человека в международном в внутригосударственном праве. М., 1995.
8. Moecki D. Sangeeta Sh. Sandesh S. International Human Rights Law. Oxford University Press, 2014, 630 p.


## НЕКОТОРЫЕ АСПЕКТЫ ПРОБЛЕМ РЕГУЛИРОВАНИЯ ПРАВ ЧЕЛОВЕКА В МЕЖДУНАРОДНОМ ПРАВЕ

**Джахангирова Айгюль Акиф кызы,**
**докторант кафедры ЮНЕСКО права человека и информационное право БГУ.**
почта: aygul.jahan@gmail.com

В статье указывается, что регулирование важных отношений в области прав человека является одной из важнейших проблем международного права. Таким образом, очень важно регулировать отношения, связанные с международным сотрудничеством в области прав человека.

Развитие межгосударственных отношений – вызывает возникновение очень важных экономических и правовых проблем, связанных с обеспечением прав, свобод и законных интересов людей. Важной задачей государств является предотвращение грубых и регулярных нарушений прав человека. Создание усовершенствованного механизма в сфере прав человека и, как следствие, предотвращение нарушений прав человека – одна из задач, стоящих перед государствами.

**Ключевые слова:** права человека, глобальные проблемы, классификация прав человека, права человека в условиях гуманитарный интервенции, гарантия прав человека и и.д.

## SOME ASPECTS OF THE PROBLEMS OF REGULATION OF HUMAN RIGHTS IN INTERNATIONAL LAW

**Jahangirova Aygül Akif gizi,**
**doctoral student of BSU Human Rights and Information law UNESCO Department.**
aygul.jahan@gmail.com

The article states that the regulation of important relations in the field of human rights is one of the most important problems of international law. Thus, it is very important to regulate relations related to international cooperation in the field of human rights.

The development of interstate relations - causes the emergence of very important economic and legal problems related to the provision of rights, freedom and legal interests of people. An important task for states is to prevent gross and regular violations of human rights.

Creating an improved mechanism in the field of human rights and preventing human rights violations as a result is one of the tasks facing the states.

**Key words:** human rights, global problems, classification of human rights, human rights during humanitarian intervention, maintenance of human rights and so on.

## EVRENSEL SAYGI VE INSAN HAKLARINA RIAYET SORUNUNUN BAZI YÖNLERI

**Jahangirova Aygül Akif kızı,**
**BSU Hukuk Fakültesi, UNESCO "İnsan Hakları ve Bilgi Hukuku"**
**Kürsüsü doktora öğrencisi.**
e-posta: aygul.jahan@gmail.com

Makalede, insan hakları alanında önemli ilişkilerin düzenlenmesinin uluslararası hukukun en acil sorunlarından biri olduğuna değiniliyor. Bu nedenle insan hakları alanında uluslararası işbirliğine ilişkin ilişkilerin düzenlenmesi büyük önem taşımaktadır.

Devletlerarası ilişkilerin gelişmesi - kişilerin haklarının, özgürlüklerinin ve hukuki çıkarlarının sağlanmasıyla ilgili çok önemli ekonomik ve hukuki sorunların ortaya çıkmasına neden olur. Devletlerin önemli bir görevi, ağır ve düzenli insan hakları ihlallerini önlemektir.

İnsan hakları alanında gelişmiş bir mekanizma oluşturmak ve bunun sonucunda insan hakları ihlallerini önlemek devletlerin önündeki görevlerden biridir.

**Anahtar kelimeler:** insan hakları, küresel sorunlar, insan haklarının sınıflandırılması, insani müdahale kapsamında insan hakları, insan haklarının güvence altına alınması vb.

# Şəxsiyyətin azadlığının və ləyaqətinin ictimai təhlükəli qəsdlərdən beynəlxalq və milli-hüquqi müdafiəsi

**Hacıbəyli Tural Bəhruz oğlu,**
**hüquq üzrə fəlsəfə doktoru, "Azərbaycan Sənaye Korporasiyası" Hüquq departamentinin Qeydiyyat və məhkəmələrlə iş şöbəsinin müdiri.**
e-mail: mahabbat_d.h.t@mail.ru

*İki minillikdən artıqdır ki, bəşər sivilizasiyası azadlıq, şərəf və ləyaqət, vicdan, vəzifə və məsuliyyət, xeyirxahlıq və ədalət kimi mənəvi dəyərlərə əsaslanan "ideal cəmiyyət" ümid və gözləntiləri ilə yaşayır. Belə bir cəmiyyətin qurulması ideyası həmişə mütəfəkkirləri narahat etmişdir, lakin buna baxmayaraq, mənəvi inkişaf və əxlaqi bəşəri dəyərlərin təkmilləşdirilməsi üçün sosial-hüquqi şəraitin yaradılması problemi bu gün də filosofların, psixoloqların və hüquqşünasların qarşısında sual olaraq qalır.*

*Şəxsin şərəf və ləyaqəti sosial dəyərlər və hüquqi imtiyazlar sistemində aparıcı yer tutur. Şəxsiyyətin azadlığı və ləyaqətinin insan hüquqları yurisdiksiyasında rolu ilə bağlı ilk dayanacaq bu anlayışın ölkələrin konstitusiyalarına necə daxil olması və azadlıq və ləyaqətin beynəlxalq və milli məhkəmələr tərəfindən təhlükəli qəsdlərdən hüquqi müdafiəsi məsələsidir. Şəxsiyyətin azadlığının, şərəf və ləyaqətinin cinayətkar qəsdlərdən qorunması və cinayətlərin qarşısının alınması konstitusion insan hüququ və dövlətin hüquq-mühafizə sisteminin ən mühüm məqsədidir. Bu vəzifənin uğurla yerinə yetirilməsi şəxsin azadlığına və toxunulmazlığına qarşı ictimai təhlükəli qəsdlərin düzgün təsnifləşdirilməsini tələb edir.*

**Açar sözlər:** şəxsiyyətin azadlığı, şəxsiyyətin ləyaqəti, qəsd, ictimai təhlükəlilik, hüquqi müdafiə.

İnsan ləyaqəti konsepsiyasının insan münasibətlərinin tənzimlənməsində və rəqabət aparan maraqların əlaqələndirilməsində əsas rolu əksər əsas əxlaqi nəzəriyyələrdə və Ümumdünya İnsan Hüquqlarının Bəyannaməsi (ÜİHB – Birləşmiş Millətlər Təşkilatı, 1948-ci il) kimi müxtəlif insan hüquqları aktlarında aydın görünür. ÜİHB - nin preambulasında deyilir ki, "insan ailəsinin bütün üzvlərinə xas ləyaqətinin və bərabər və ayrılmaz hüquqlarının tanınması dünyada azadlığın, ədalətin və sülhün əsasıdır". ÜİHB-dən sonra İnsan Hüquqları üzrə Avropa Konvensiyası və 1966-cı ildə iki beynəlxalq pakt (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt) BMT-nin bəyannaməsində qeyd olunan müxtəlif maddələr haqqında daha ətraflı məlumat verir. [12]

ÜİHB müəlliflərinin nöqteyi-nəzərindən insan ləyaqəti ilk növbədə hüquqi konsepsiya deyil, əsas əxlaqi ideyadır və buna görə də fundamental insan ehtiyaclarını və maraqlarını qorumaq üçün nəzərdə tutulmuş qanunları və siyasi normaları nəzəri cəhətdən əsaslandırır. [5] Ləyaqətin insan dəyərinə aid olduğu ümumi qəbul edilsə də, bu termin müasir nəzəriyyəçilər tərəfindən müxtəlif yollarla konseptuallaşdırılıb.

Şəxsin şəxsi (mülki) hüquq və azadlıqları anlayışının anadan olduğu andan insana

məxsus olan və onun konkret dövlətə mənsubiyyətindən asılı olmayan təbii və ayrılmaz hüquq və azadlıqların məcmusudur. İnsan hüquqlarına dair beynəlxalq sənədlər nəzərə alınmaqla şəxsin şəxsi (mülki) hüquq və azadlıqlarının dairəsinin və onların hüquqi xüsusiyyətlərinin müəyyən edilməsi: 1948-ci il İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda və s. bu gün insan hüquqları sahəsində beynəlxalq standartlar adlanır.

Hüquq-mühafizə təcrübəsinin təhlili fərdin azadlığı, şərəf və ləyaqəti əleyhinə cinayətlərin təsnifatında baş verən çoxsaylı çətinliklərin, habelə bu qəsdləri törətmiş şəxslərə cəza tətbiq edərkən məhkəmələr tərəfindən yol verilən səhvlərin mövcud olduğunu göstərir. İstintaq və məhkəmə təcrübəsinin üzləşdiyi müvafiq problemlər gələcəkdə onların minimuma endirilməsi və sözügedən qəsdlərə qarşı effektiv mübarizənin təmin edilməsi üçün diqqətlə təhlil edilməsini tələb edir.

Şəxsiyyətin azadlığı və ləyaqətinin ictimai təhlükəli qəsdlərdən beynəlxalq müdafiəsi hər bir ictimai təhlükəli əmələ görə müxtəlif zamanlarda başlamışdır. İnsan alverinə qarşı beynəlxalq mübarizə 20-ci əsrin əvvəllərinə təsadüf edir. Beləliklə, ilk dəfə olaraq 1904-cü ildə "Ağ dərili qul ticarətinə qarşı mübarizə haqqında" Beynəlxalq Müqavilə imzalandı.[13] Daha sonra Ağ dərili qulların alverinə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya,[16] Qadın və Uşaq Alverinə Qarşı Mübarizə haqqında Beynəlxalq Konvensiya [14]və Yeniyetmə Qadın Alverinə Qarşı Mübarizə haqqında Beynəlxalq Konvensiya [15] qəbul edilmişdir. Bu sənədlər əsasən insan alverinin qarşısının alınmasına yönəlmiş məsləhət xarakterli sənədlər idi.

2 dekabr 1949-cu ildə BMT Baş Assambleyası "İnsan alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarı haqqında Konvensiya"nı qəbul etdi. Bu sənədin qəbul edilməsinin əsas səbəbi insan alverinə qarşı mübarizənin gücləndirilməsi olub. 1949-cu il Konvensiyasına cinsi istismar, insan alverinin digər növləri və ona qarşı mübarizə istisna olmaqla, qurbanların müdafiəsi mexanizmləri və qurbanların hüquqları daxil edilmir.

1979-cu ildə BMT-nin Ali Nümayəndəsi tərəfindən qəbul edilmiş "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya". Bu Konvensiyaya uyğun olaraq, iştirakçı dövlətlər qadın alverinin və qadın fahişəliyinin bütün formalarının aradan qaldırılması üçün hüquqi tədbirlər də daxil olmaqla, zəruri tədbirlər görür (Maddə 6). Konvensiyada insan alverinə qarşı mübarizədə başqa hallar qeyd edilməsə də, BMT-nin Qadın Hüquqları Konvensiyası qadın alveri probleminə bir daha diqqət çəkmiş və onun qarşısının alınmasının zəruriliyini vurğulamışdır.

1995-ci ildə "Qadınların Statusu üzrə Pekin Konfransı" bu məsələni yenidən müzakirə etdi. Həmin Konfransda müzakirə edilən Fəaliyyət Platformasında "insan alveri" anlayışına yenidən baxılmasının zəruriliyi qeyd edilib. Pekin Konfransından dərhal sonra Lorinoda insan alveri cinayətinə qarşı mübarizə üçün müxtəlif tədbirlər həyata keçirilməyə başlandı.

Birləşmiş Millətlər Təşkilatı çərçivəsində insan alverinin, xüsusilə də qadın və uşaq alverinin qarşısının alınması üçün ən mühüm və mükəmməl sənəd "Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Konvensiya" və onun əlavəsi olan "Transmilli Mütəşəkkil Cina-

yətkarlığın Qarşısının Alınması, Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya"dır. 12 dekabr 2000-ci ildə Palermoda BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Konvensiyasına Əlavə olan İnsan, xüsusilə də qadın və uşaq alverinin qarşısının alınması və cəzalandırılması haqqında Protokol imzalanmışdır. [9, s.22]

İnsan alverinə qarşı bu hərtərəfli mübarizənin səbəbi insan alveri cinayətinin transmilli xarakter daşıması, qurbanlarının geniş bir coğrafiyanı əhatə etməsi və insan alveri ilə mübarizənin çətinliyidir. Regional səviyyədə 19 dekabr 2022-ci il tarixində Avropa Komissiyası insan alveri ilə mübarizə və onun qurbanlarını qorumaq üçün Aİ-nin əsas aləti olan 2011/36/EU Direktivinə məqsədyönlü yenidən baxılması üçün təklif təqdim etdi.

Bu sahədə bir neçə əsaslı qərarı olan Avropa İnsan Haqları Məhkəməsi bildirir ki, insan alveri qlobal bir hadisə kimi son illər əhəmiyyətli dərəcədə artıb. Onun Avropada böyüməsinə qismən keçmiş kommunist bloklarının dağılması kömək etmişdir. 2000-ci ildə Palermo Protokolunun və 2005-ci ildə İnsan Alverinə Qarşı Mübarizə Konvensiyasının imzalanması insan alverinin yayılmasının beynəlxalq səviyyədə tanınmasını və onunla mübarizə üçün tədbirlərin görülməsinə ehtiyac olduğunu nümayiş etdirir.

Şəxsiyyətin azadlığı və ləyaqətini təhdid edən digər bir ictimai təhlükəli əməl kimi məcburi əmək xarakterizə olunur və məcburi əməyin ləğvi ilə bağlı Beynəlxalq hüquqi addım kimi ilk olaraq 1814-cü ildə İngiltərə ilə Fransa arasında Paris Sülh Müqaviləsini qeyd etmək olar. Bu müqavilədə onu imzalayan dövlətlər üçün məcburi əməyin tarixi kökləri olan köləliyin qadağan edilməsi barədə razılığa gəlindi. [4, s 247] Bu müqavilənin əlavə maddələrində quldarlığın qadağan edilməsi Fransız qul ticarətinin ləğvi (maddə 1) başlığı altında müzakirə olunur.

1815-ci ildə keçirilən Vyana Konqresi və bu konqresin mətninə əlavə edilən 1815-ci il Qul (kölə) Ticarətinin Ümumdünya Ləğv edilməsi Bəyannaməsi də Avropada qul (kölə) ticarətinin ləğv edilməsində mühüm yer tutur. [7, s.21] Qul Ticarətinin Ümumdünya Ləğv edilməsi köləliyi qadağan edən və pisləyən ilk beynəlxalq mətndir. Beynəlxalq təşkilatlar dövründən əvvəl köləliyin qadağası ilə bağlı digər mühüm inkişaf 15 noyabr 1884-cü il və 26 fevral 1885-ci il tarixləri arasında keçirilən Berlin Konfransı oldu. Konfransda Almaniya, Fransa, ABŞ və Osmanlı İmperiyası da daxil olmaqla ümumilikdə 15 ölkə iştirak edirdi. [10, s.38]

İlk qurulan beynəlxalq təşkilat olan Millətlər Cəmiyyətinin təsisçisi olduğu 1926-cı il Köləlik Konvensiyası 26 sentyabr 1926-cı ildə Cenevrədə imzalanmış və 9 mart 1927-ci ildə qüvvəyə minmişdir. Beynəlxalq Əmək Təşkilatının 1930-cu il tarixli 29 saylı Məcburi Əmək Konvensiyası və 1956-cı il tarixli Köləliyin, qul ticarətinin, köləliyə bənzər adətlərin ləğvi haqqında Əlavə Konvensiya AİHM tərəfindən səmərəli şəkildə həyata keçirilmişdir.

Azərbaycan Respublikasının 1995-ci il tarixli Konstitusiyası, humanitar elmlərdə humanist cərəyanların, habelə insan hüquqları sahəsində beynəlxalq standartların təsiri altında 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966-cı il İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda müəyyən edilən insan və vətəndaşın ən mühüm hüquq və

azadlıqlarını təsbit etmişdir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra insan hüquqları sahəsində beynəlxalq standartlara istiqamətlənməsi və 2001-ci ildə Avropa Şurasına daxil olması onun üzərinə, ilk növbədə, Konstitusiya ilə elan edilmiş hüquq və azadlıqların real təminatı ilə bağlı müəyyən öhdəliklər qoyur.

Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsində " İnsan ləyaqəti qorunur və ona hörmət edilir, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir, hüquqlardan sui-istifadəyə yol verilmir" müddəası, 26-cı maddəsində "hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır, dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir" müddəası, 28-ci maddəsində "hər kəsin azadlıq hüququ vardır, azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər, qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər" müddəaları və 32-ci maddəsində əks olunan "şəxsi toxunulmazlıq", 46-cı maddədə qeyd olunan "şərəf və ləyaqətin müdafiəsi hüququ" müddəaları ilə şəxsiyyətin azadlığı və ləyaqəti təminat altına alınmışdır.

Bütün Azərbaycanın sektoral qanunvericiliyinin insan şəxsiyyətinin dəyəri nəzərə alınmaqla yenidən qurulması üçün çox vaxt lazımdır. Bunun Konstitusiyanın qəbulundan sonra ikinci addımı kimi 2000-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsini göstərmək olar. Azərbaycan cinayət qanunvericiliyinin vəzifələri arasında insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinə birinci yer verilir. Şəxsiyyətin ləyaqəti, onun hüquq və azadlıqlarını nəzərə alaraq birbaşa əsas obyekti olan bir sıra xüsusi cinayətlər Cinayət Məcəlləsinin Xüsusi hissəsində "Şəxsiyyətin Azadlığı və Ləyaqəti Əleyhinə Olan Cinayətlər" fəslində təsbit edilmişdir.[2]

Qanunverici şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə əməllər hesab edərək, adam oğurluğu, insan alveri, məcburi əmək,insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlər, qanunsuz azadlıqdan məhrum etmə, qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə, böhtan, təhqir və 2016-cı il cinayət məcəlləsinə yeni əlavə edilmiş internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə əməllərini şəxsiyyətin azadlığına və ləyaqətinə qarşı ictimai təhlükəli qəsdlər olaraq müəyyən etmişdir.

Adam oğurluğu canlı şəxsin tutulmasını və onun daimi müvəqqəti yaşayış yerindən və ya yaşadığı yerdən onu qaçıranlar tərəfindən müəyyən edilmiş başqa yerə zorla aparılmasını, oğurlanmış şəxsin iradəsi əleyhinə saxlanmasını nəzərdə tutur. Cinayətin obyekti şəxsi azadlıq, insan həyatı və sağlamlığıdır.

Adam oğurluğu Beynəlxalq səviyyədə ilk dəfə 20 dekabr 2006-cı il tarixində BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş "Bütün şəxslərin zorakı itkin düşməkdən müdafiəsi haqqında" Konvensiya ilə daha geniş miqyasda gündəmə gəlmişdir. Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi tərifə

görə, "zorakı itkin düşmə, dövlətin agentləri və ya insanlar və ya insanlar qrupu tərəfindən dövlətin icazəsi, dəstəyi və ya razılığı ilə azadlıqdan məhrumetmə, həbs, oğurluq və ya məhrumetmənin digər hər hansı bir forması, bunun ardınca isə itkin düşmüş şəxsin azadlıqdan məhrum edilməsinin danılması və ya onun taleyinin və ya yerinin gizli saxlanılması və bununla da, həmin insanın qanunla müdafiəsinin qarşısının alınması kimi izah olunur. Hətta ölüm məcburi yoxa çıxmanın son nəticəsi olmasa və zərərçəkmiş məcburi yoxa çıxmaqdan xilas olsa belə, belə bir rəftara məruz qalan şəxsin üzərindəki fiziki və psixoloji izlər çox güman ki, bütün həyatı boyu davam edəcək. Konevsiyaya diqqət çəkmək istəyən BM hətta, 2010-cu il tarixində 30 avqust tarixini "Beynəlxalq Məcburi İtkin Qurbanları Günü" kimi qeyd edilməsinə qərar vermişdir.

"Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"nı imzalamaq səlahiyyətinin verilməsi barədə6 fevral 2007-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə bu Konvesiyan imzalanmış, lakin ratifikasiya edilməmişdir.

Qanunsuz azadlıqdan məhrum etmənin subyekti 16 yaşına çatmış şəxs ola bilər. Cinayətkar bilavasitə qəsdən hərəkət edir, o, insanı öz iradəsinə zidd olaraq azadlıqdan məhrum etdiyini başa düşür və bunu etmək istəyir. Burada, adam oğurluğundan fərqli olaraq, qurbanı öz istəyi ilə qurtardığı yerdə, məsələn, evdə, mənzildə, işdə, gəzintidə saxlayır və tələblərini irəli sürərək hərəkət azadlığını məhdudlaşdırır.

Ən təhlükəli transmilli cinayətlərdən biri insan alveridir, çünki bu halda cinayətkar şəxsin həyatı maddi qazanc subyekti, qazanc əldə etmək imkanı kimi qəbul edilir. İnsan alveri cinayətinin obyekti insan azadlığıdır, onun zorla itirilməsi sonradan istismara səbəb olur. İnsan alveri qurbanları arasında yetkinlik yaşına çatmayanlar xüsusi yer tutur.

Zərər çəkmiş şəxsin hüquq və azadlıqlarına tamamilə məhəl qoyulmayan şəxsə qarşı cinayətlər kateqoriyasına məcburi əmək də daxildir. AİHM-in köləliyin, qul olmağın, məcburi əməyin qadağan edilməsini tənzimləyən 4-cü maddəsində belə qeyd olunur: "1. Heç kim qul və ya qulluqçu kimi tutulmayacaq. 2. Heç kəs məcburi əməyə məcbur edilməyəcək.

Psixiatriya xəstəxanasına qanunsuz yerləşdirmə zamanı vətəndaşlara psixiatrik yardımın göstərilməsi prosesi qeyri-qanuni azadlıqdan məhrumetmənin xüsusi növüdür. Psixiatrik qayğısı şəxsiyyət fəaliyyətinin psixi pozğunluğu, əsaslandırılmış qərarlar qəbul etmək qabiliyyətinin itirilməsi və başqaları üçün təhlükəli ola biləcək məqsədyönlü davranışı olan şəxslərin şəxsi azadlığını məhdudlaşdırır. "Psixiatriya yardımı haqqında" 12 iyun2001-ci il tarixli Qanunla şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olmadan psixiatriya müayinə və stasionar yerləşdirmənin xüsusi norma və qaydaları müəyyən edilmişdir. Cinayətin obyekti fiziki toxunulmazlıq baxımından şəxsi azadlıq və şəxsi ləyaqət və psixi xəstəliyin stasionar müalicəsi ilə bağlı sərbəst qərar qəbul etmək, əlavə obyekt isə könüllülük prinsipləri əsasında insan sağlamlığı və tibbi yardım almaq hüququdur. Obyektiv tərəfi isə ehtiyacı olmayan şəxsin qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirilməsidir.

Ləyaqətin birbaşa obyekt olaraq mühafizə altına alındığı ictimai təhlükəli əməllər qis-

mində qanunverici cinayət məcəlləsinin xüsusi hissəsində xüsusi ittiham qaydasında təqib olunan cinayət kimi təhqir, böhtan və internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə əməllərini kriminallaşdırmışdır.

Bir çox hüquq sistemlərinə nəzər salsaq görərik ki, oxşar cinayətlərə görə cəzalar oxşardır, lakin ləyaqət əleyhinə olan cinayətlərə görə verilən cəzalar qanunda tamamilə fərqli cinayət sanksiyalara malikdir. Bu yanaşma göstərir ki, nəzərdən keçirilən anlayışlar həm də cəmiyyətin mədəni kodeksi və qanunlarının mühüm elementi olan adət və ənənələrdən asılı olaraq cəmiyyətdən cəmiyyətə dəyişə bilər. Təhqir mənfi rəyin ifadəsi və bu kontekstdə ünsiyyət vasitəsi kimi qəbul edilir. [11, s.43]

Böhtan xarakterli məlumatlar şəxsiyyətin mövcud qanunvericiliyin tələblərini və ya ümumi qəbul edilmiş əxlaq normalarını pozması barədə ifadələri ehtiva edən, onun şərəf və ləyaqətini alçaldan həqiqətə uyğun olmayan məlumatlardır. Şərəf və ləyaqət qiymətləndirici, bir-biri ilə əlaqəli mənəvi və etik kateqoriyalardır. Başqa bir insanın bu şəxsiyyət xüsusiyyətlərini inkar etmək və ya alçaltmaq onu başqalarının şüurunda rüsvay etmək deməkdir. “Reputasiya” həm də insanın sosial vəziyyətini dürüstlük nöqteyi-nəzərindən, onun haqqında başqalarının fikrini və ya özünüdərkdə özünün ideyasını vurğulayan qiymətləndirici kateqoriyadır. Yalan məlumat konkret olmalı və yoxlanıla bilən faktları ehtiva etməlidir.

Eyni zamanda cinayət məcəlləsinə 2016-cı ildə daxil edilən internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə əməlinin kriminallaşdırılması böyük əhəmiyyət kəsb edir. Biz informasiya və telekommunikasiya (kompüter) texnologiyalarının geniş şəkildə təmsil olunduğu informasiya cəmiyyətində yaşayırıq. Sosial şəbəkələrdən istifadə, kompüter texnologiyasının imkanları, internetdə böyük həcmdə informasiya məkanı, ani mesajlaşmalar, e-poçt, mobil telefonlar, onlayn alış-veriş, məlumat mübadiləsi, həmfikirlərin axtarışı, virtual ünsiyyət – bütün bunlar getdikcə daha da inkişaf edir. Eyni zamanda, İnternet məkanında imkanların transsərhəd xarakteri, həmsöhbətin coğrafi mövqeyinin gizlədilməsi, resurslara çıxışın anonimliyi, mövcud olmayan şəxsiyyətlərin yaradılmasının yolverilməzliyi ilə ifadə olunur, bu da şəxsiyyətin intensiv inkişafı ilə bağlıdır. Bu amillər informasiya-kommunikasiya texnologiyalarından kriminal istifadə səviyyəsinin artmasına səbəb olur ki, bu da statistika ilə təsdiqlənir. Belə halların sistemli şəkildə həll olunduğu onlayn aləmdə onlayn vasitəçilərin məsuliyyəti baxımından diffamasiya məsələsi ümumi müzakirə mövzusudur. Bir çox internet istifadəçiləri bir sıra sosial media platformalarında təhqir və təhqiramiz sözlər ifadə edirlər.

Şəxsin şərəf və ləyaqətinin tənzimlənməsi və qorunması problemlərinin təhlili müasir daxili hüquqi tədqiqatlarda hələ də geniş yayılmayıb. Bununla belə, bu günə qədər hüquqşünaslığın, əxlaq fəlsəfəsinin, hüquq psixologiyasının və sosiologiyasının müxtəlif bölmələrində şərəf və ləyaqət kateqoriyalarının təhlilinin xüsusi və ya konkret məsələlərinə birbaşa və ya dolayısı ilə aid olan nəticələrin kifayət qədər işlənmiş empirik ba-

zası yaradılmışdır. Bu, şərəf və ləyaqət anlayışlarının mahiyyətinin və əlaqəsinin, onların hüquq elmində və cinayət hüququndakı statusunun öyrənilməsi ilə bağlı bəzi nəzəri ümumiləşdirmələrə cəhddə nikbinliyə gətirib çıxarır.

"Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" 14 may 1999-cu il tarixli AR Ali Məhkəməsi Plenum qərarına əsasən, başqası haqqında yalan məlumat yayan şəxsin hərəkətində cinayətin əlamətləri olduqda (təhqir, böhtan) zərər çəkən şəxslər onun cinayət məsuliyyətinə cəlb edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edə, həm də yalan məlumatın təkzib edilməsi haqqında iddia qaldıra bilərlər.[3]

Şərəf və ləyaqətin müdafiəsi ilə bağlı xarici ölkələrin təcrübəsində "Diffamasiya haqqında" Qanun maraqlıdır. 2013-cü ildə İngiltərə Parlamenti tərəfindən qəbul edilən "Diffamasiya haqqında" Qanun böhtan xarakterli məlumatlara qanun pozuntusu, qeyri-etik davranış, o cümlədən biznes etikasının və ya işgüzar təcrübənin pozulması ilə bağlı iddiaların tənzimlənməsi haqqındadır. Diffamasiya ümumilikdə beynəlxalq termin kimi "şərəf, ləyaqət, nüfuz və adın qorunması hüquqlarının müxtəlif növləri ilə bağlı ümumiləşdirmə kimi" başa düşülür. Diffamasiya haqqında normativ hüquqi aktlar, Amerikada bəzi ştatların qanunvericiliyi, o cümlədən bir sıra Avropa ölkələri tərəfindən qəbul edilmişdir.

Beynəlxalq praktikada təhqir və böhtana görə məsuliyyətin Cinayət Məcəlləsindən çıxarılıb diffomasiya haqqında qanunla tənzimlənməsi tendensiyası var. 27 dekabr 2011-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda diffamasiya ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi məsələsi qeyd olunmuşdur. Hesab edirik ki, diffamasiya haqqında qanunun qəbul edilməsi, hazırki internet əsrində ənənəvi medya və sosyal medyada xüsusilə müəyyən reputasiyaya malik şəxslərin şərəf və ləyaqətinin təhqir və böhtandan, işgüzar nüfuza xələl gətirə biləcək qəsdlərdən qorunması üçün zəruri addım olardı.

Şəxsiyyətin azadığı və ləyaqəti əleyhinə olan ictimai təhlükəli qəsdlərdən "insan alveri" ilə bağlı ümumdünya miqyasında olduğu kimi, Azərbaycan Respublikasında da dövlət səviyəsində hərtərəfli mübarizə aparılır. 28 iyun 2005-ci il tarixində qəbul edilmiş "İnsan alverinə qarşı mübarizə haqqında" AR Qanunu preambulasında da qeyd olunduğu kimi "insan alverinin profilaktikasının, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edir, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi məsələlərini tənzimləyir".

24 mart 2000-ci il tarixli AR Qanunu ilə Azərbaycan 25 iyun 1957-ci il tarixli Beynəlxalq Əmək Təşkilatının "İcbari əməyin ləğv edilməsi haqqında" 105 saylı Konvensiyasına qoşularaq, bu konvensiyada nəzərdə tutulan məcburi əməyin ləğvi ilə bağlı üzv dövlətlərə qoyulan öhdəliyi yerinə yetirmiş və məcburi əməyi kriminallaşdıraraq, barəsində sanksiya müəyyən etmişdir.

Cinayət hüququ nöqteyi-nəzərindən azadlıq cinayət sanksiyaları ilə qorunan qanuni mənafedir, cinayət hüququ isə azadlıqları səmərəli şəkildə qoruyur və azadlıqların təminatını təmsil edir. Azadlıq cinayət hüququn-

da cinayətin predmeti olduğundan azadlıq cinayət hüququ baxımından da subyektiv hüquqdur. [8, s.73] Qanunla tanınan "azad hərəkət zonasına" başqa bir gücün azad iradəsinin müdaxiləsi azadlığın pozulması deməkdir. [6, s.934] Liberal kriminoloqların fikrincə, azadlıq əleyhinə cinayətə fərdi baxış önə çəkilir və bu baxımdan azadlıq fərdi dəyər kimi tapdalanır. Lakin azadlıq qanunverici tərəfindən hüquqi dəyər kimi qəbul edilmiş və onun qorunmasını nəzərə alan normalar sistemi ilə tənzimlənərək, dövlət bu normalarla qəbul etdiyi nizam-intizamın qorunmasını təmin etmək məqsədiləazadlığın qanunsuz olaraq məhdudlaşdırılmasını şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə cinayət olaraq kriminallaşdırmışdır.

Beynəlxalq səviyədə şəxsiyyətin azadlığı və ləyaqətinin ictimai təhlükəli qəsdlərən qorunması əsasən ya regional, ya da dövlətlərarası müqavilələrə, sazişlərə, konvensiyalara əsaslanır və tətbiq olunma dairəsi Beynəlxalq Məhkəmələrdir. Lakin bu beynəlxalq aktların tərtib olunmasının müsbət cəhəti üzv dövlətlərin beynəlxalq müqavilələrə uyğun olaraq milli hüquq sistemində müvafiq qanunvericilik aktlarını tərtib və tətbiq etməsidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı, "Qanun", - 2022.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. -Bakı, Qanun nəşriyyatı,- 2021.
3. "Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" AR Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, -14 may 1999-cu il, № 04.
4. Abdullah Ö, Afrika'da Esir Ticaretinin Yasaklanması: Brüksel Konferansı (1890)",- ANKASAM Bölgesel Araştırmalar Dergisi,- Cilt 2, -Sayı 1,- Yıl 2018.
5. Churchill, R. P. Human rights and global diversity. -Upper Saddle River- Pearson Prentice Hall, -2006.
6. Çetin Özek, " Türk Ceza Kanununa Göre Hürriyet Aleyhine Cürümlerin Genel Prensipleri", -İÜHFM. , -C: XXIX, -1964/4.
7. Edward H, The Map of Europe by Treaty- Butterworths Press, - London, -1875.
8. Faruk Erem, " Siyasi Haklara Karşı İşlenen Suçlar", -AÜHFD., -Cilt: VIII. , - 1951,- Sayı1-2.
9. Qadın Həmrəyliyi Fondu, Qadın Alverinə Qarşı Mübarizə, Qeyri-Hökumət Təşkilatlarının və Yerli Hökumətlərin İnsan Alverinə Qarşı Mübarizədə Maariflәndirilməsi Layihəsi, Ankara, -2010.
10. Matthew C, Between Law and History: The Berlin Conference of 1884- 1885 and The Logic of Free Trade, -London Review of International Law, - 2015.
11. Serhat Sinan Kocaoğlu, Hakaret Suçu,- Birinci Baskı, -Seçkin Hukuk Ankara -2019.
12. Smit, D. Z. Principles of European prison law and policy: Penology and human rights- New York, NY- Oxford University Press, - 2009.
13. UNTC, International Agreement for the suppression of the "White Slave Traffic"- Paris, - 18 May 1904.
14. UNTC, International Convention for the Suppression of the Traffic in Women and Children Geneva,- 30 September 1921.
15. UNTC, International Convention for the Suppression of the Traffic in Women of Full Age Geneva,- 11 October 1933.
16. UNTC, International Convention for the Suppression of the White Slave Traffic- signed at Paris on 4 May 1910- amended by the Protocol signed at Lake Success- New York, - 4 May 1949.

**International and national legal protection of individual freedom and dignity from socially dangerous intentions**

**Hajibeyli Tural Bahruz oglu,**
**Doctor of Philosophy in Law, "Azerbaijan Industrial Corporation"**
**Registration of the legal department and the head of the court affairs department.**
e-mail: mahabbat_d.h.t@mail.ru

For more than two millennia, human civilization has lived with hopes and expectations of an "ideal society" based on moral values such as freedom, honor and dignity, conscience, duty and responsibility, kindness, and justice. The idea of building such a society has always troubled thinkers, but despite this, the problem of creating social and legal conditions for moral development and improvement of moral human values remains a question for philosophers, psychologists, and lawyers today.

The honor and dignity of a person occupies a leading place in the system of social values and legal privileges. The first stop regarding the role of individual freedom and dignity in human rights jurisdiction is the question of how this concept is included in the constitutions of countries and the legal protection of freedom and dignity from dangerous intentions by international and national courts. Protection of personal freedom, honor and dignity from criminal intent and prevention of crimes is the most important goal of the constitutional human right and the law enforcement system of the state. The successful performance of this task requires the correct classification of socially dangerous plots against a person's freedom and integrity.

**Key words:** freedom of personality, dignity of personality, conspiracy, public danger, legal protection.

**Общественная опасность личной свободы и достоинства международная и национально-правовая защита от нападений**

**Гаджибейли Турал Бахруз оглы,**
**доктор философии по праву, «Азербайджанская промышленная корпорация»,**
**начальник отдела регистрации и судебных дел Юридического департамента.**
э-почта: mahabbat_d.h.t@mail.ru

На протяжении более двух тысячелетий человеческая цивилизация жила надеждами и ожиданиями «идеального общества», основанного на таких моральных ценностях, как свобода, честь и достоинство, совесть, долг и ответственность, добро и справедливость. Идея построения такого общества всегда волновала мыслителей, но, несмотря на это, проблема создания социальных и правовых условий нравственного развития и совер-

шенствования моральных ценностей человека сегодня остается вопросом для философов, психологов и юристов.

Честь и достоинство человека занимают ведущее место в системе социальных ценностей и правовых привилегий. Первой остановкой относительно роли свободы и достоинства личности в юрисдикции по правам человека является вопрос о том, как эта концепция включена в конституции стран и о правовой защите свободы и достоинства от опасных намерений международными и национальными судами. Защита личной свободы, чести и достоинства от преступных умыслов и предупреждение преступлений является важнейшей задачей конституционного права человека и правоохранительной системы государства. Успешное выполнение этой задачи требует правильной классификации общественно опасных посягательств против свободы и неприкосновенности личности.

**Ключевые слова:** свобода личности, достоинство личности, заговор, общественная опасность, правовая охрана.

### Kişisel özgürlük ve onurun kamusal tehlikesi saldırılara karşı uluslararası ve ulusal-yasal koruma

**Hacıbeyli Tural Bahruz oğlu,**
**Hukuk Felsefesi Doktoru, "Azerbaycan Sanayi Şirketi",**
**Hukuk departmanının kaydı ve adli işler daire başkanı.**
e-posta: mahabbat_d.h.t@mail.ru

İnsan uygarlığı iki bin yıldan fazla bir süredir özgürlük, onur ve haysiyet, vicdan, görev ve sorumluluk, nezaket ve adalet gibi ahlaki değerlere dayalı "ideal bir toplum" umut ve beklentileriyle yaşamıştır. Böyle bir toplum inşa etme fikri düşünürleri her zaman rahatsız etmiştir ancak buna rağmen ahlaki gelişim ve ahlaki insani değerlerin iyileştirilmesi için sosyal ve hukuki koşulların yaratılması sorunu bugün filozoflar, psikologlar ve hukukçular için bir soru olmaya devam etmektedir.

Bir kişinin şerefi ve haysiyeti, sosyal değerler ve yasal ayrıcalıklar sisteminde önde gelen bir yere sahiptir. İnsan hakları yargısında bireysel özgürlük ve haysiyetin rolüne ilişkin ilk durak, bu kavramın ülke anayasalarında nasıl yer aldığı ve özgürlük ve haysiyetin uluslararası ve ulusal mahkemeler tarafından tehlikeli niyetlerden hukuki olarak nasıl korunacağı sorusudur. Kişi özgürlüğü, şeref ve haysiyetinin suç kastından korunması ve suçların önlenmesi, anayasal insan hakkının ve devletin kolluk sisteminin en önemli amacıdır. Bu görevin başarılı bir şekilde yerine getirilmesi, kişinin özgürlüğüne ve bütünlüğüne yönelik sosyal açıdan tehlikeli komploların doğru şekilde sınıflandırılmasını gerektirir.

**Anahtar kelimeler:** kişilik özgürlüğü, kişilik onuru, komplo, kamu tehlikesi, hukuki koruma.

# Beynəlxalq tibb-hüquq normalarının dövlətdaxili hüquq sisteminə implementasiyası kontekstində Ümumdünya Səhiyyə Təşkilatının digər universal qurumlarla münasibətləri

**Hüseynova Fatimə Etibar qızı,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası"nın dosenti, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: lawyer.fatima85@gmail.com

*Məqalədə universal nəzarət mexanizmi kimi Ümumdünya Səhiyyə Təşkilatının səhiyyə sahəsindəki beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında digər universal təşkilatlarla qarşılıqlı fəaliyyətindən bəhs edilir. Burada səhiyyənin müxtəlif sahələrində qarşılıqlı fəaliyyətin xüsusiyyətləri təhlil edilir. Xüsusi ilə BMT sisteminə daxil olan təşkilatlarla əlaqə təhlil edilir. Eyni zamanda məqalədə BMT sisteminə daxil olmayan, o cümlədən beynəlxalq qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyət araşdırılır. Qeyd edilir ki, Ümumdünya Səhiyyə Təşkilatı müxtəlif beynəlxalq qurumlarla birgə əməkdaşlıq etməklə xəstəliklərə qarşı mübarizədə daha səmərəli nəticələrə nail olur.*

**Açar sözlər:** Ümumdünya Səhiyyə Təşkilatı, səhiyyə, beynəlxalq hüquq normaları, milli hüquqi implementasiya, universal təşkilatlar, qarşılıqlı fəaliyyət.

BMT-nin ən böyük və geniş fəaliyyətə malik ixtisaslaşmış qurumlarından olan Ümumdünya Səhiyyə Təşkilatının (bundan sonra – ÜST) ümumi məqsədi hamı üçün mümkün olan ən yüksək sağlamlıq səviyyəsinə nail olmaqdır. Bu məqsədlə qurum səhiyyə ilə əlaqəli bütün universal təşkilatlarla qarşılıqlı əməkdaşlıq edir, birgə layihələr həyata keçirir. ÜST qlobal səhiyyə məsələlərinə, o cümlədən insan sağlamlıq tədqiqatı gündəliyinə rəhbərlik edir. Bu qurum digər təşkilatlarla əlaqədə səhiyyə üzrə beynəlxalq hüquq normaları və standartlarını müəyyən edir, ölkələrə texniki dəstək verir və sağlamlıq tendensiyalarına nəzarət edir. ÜST səhiyyənin müxtəlif sahələrində və dolayısı ilə insan sağlamlığı ilə bağlı olan bütün istiqamətlərdə digər universal təşkilatlarla son dövrlər daha intensiv qarşılıqlı fəaliyyət həyata keçirir. Eyni zamanda müxtəlif regionlarda həmin qurumlarla müxtəlif layihələr icra etməklə, səhiyyə üzrə beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyası istiqamətində əməkdaşlıq edirlər.

Beynəlxalq hüquqi əməkdaşlıq ayrıca hüquq institutu kimi müəyyən münasibətlər növünü tənzimləyir. Bu münasibətlər dövlətlərarası, hökümətlərarası və ya millətlərarası qarşılıqlı əlaqə münasibətləridir. Bu normalar, xüsusilə səhiyyə sahəsinə aid olan müddəalar müəyyən sistemliliklə xarakterizə olunur. Bu xüsusilə özünü ÜST və BMT sisteminə daxl olan qurumlarda daha əyani formada təzahür etdirir. Məsələn, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın normaları, BMT Nizamnaməsinin müddəaları, ÜST-ün Nizamnaməsi və s. bu sahədə əsas sayılır [7, s.75].

İnsan sağlamlığı qlobal xarakterli insan hüququ olduğu üçün bütün beynəlxalq qurumların bu istiqamətdə səfərbər olması əslində beynəlxalq hüququn tələbidir. Bəşəri sağlamlıq və qlobal səhiyyə faktoru eyni zamanda beynəlxalq təhlükəsizlik məsələsi kimi çıxış edir. Bütün insanların sağlamlığı sülh və təhlükəsizliyə nail olmaq üçün əsasdır və fərdlərlə bütövlükdə dövlət arasında mümkün olan ən sıx əməkdaşlıqdan asılıdır [8, s.633]. Ona görə də hesab edirik ki, ÜST və digər universal təşkilatlarla bu sahədə əməkdaşlığın öyrənilməsi elmi işin məqsədləri baxımından önəmlidir. Riçmond Universitetinin professoru Chiara Giorgetti yazır ki, qlobal sağlamlıq üzrə fövqəladə hallarla mübarizə üçün hərtərəfli və məcburi fəaliyyət planı mövcud olmasa da, ÜST və digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış alətlər tez-tez qlobal sağlamlıq üzrə fövqəladə hallarla mübarizədə effektiv olduğunu sübut etmişdir [12].

Müasir dövrdə universal təşkilatlar çərçivəsində beynəlxalq əməkdaşlıq biotibbi elm və insanın çoxalması, klonlaşdırılması aspektləri də daxil olmaqla getdikcə müxtəlif problemləri əhatə edir. Bu gün belə əməkdaşlıq orqan transplantasiyası və ksenotransplantasiya, səhiyyə xidmətlərinin təhlükəsizliyinə nəzarət, yoluxucu və yoluxucu olmayan xəstəliklər, dərman vasitələrinə çıxış, tütün və narkotik kimi asılılıq yaradan və zərərli maddələrə nəzarət sahələrini əhatə edir. Beynəlxalq səhiyyə hüququ da bu kontekstdə beynəlxalq hüququn digər sahələri ilə qarşılıqlı əlaqə və asılılıqda fəalyyətini genişləndirir. Ətraf mühit hüququ və zəhərli çirkləndiricilərə və silahlara nəzarət, kütləvi qırğın silahlarına qadağa, insan hüquqları hüququ, nüvə təhlükəsizliyi və radiasiya mühafizəsi, gömrük hüququ, əməyin mühafizəsi və təhlükəsizliyi biri biri ilə ayrılmaz şəkildə bağlıdır. Ona görə də biz ÜST-ün digər universal təşkilatlarla qarşılıqlı fəaliyyətinə səhiyyə ilə əlaqəli olan və beynəlxalq hüququn müxtəlif sahələrini əhatə edən beynəlxalq müqavilələr kontekstində yanaşacağıq.

ÜST beynəlxalq sistemdə təsirli çağırış gücünə malik olmaqla, xüsusilə Davamlı İnkişaf üzrə 2030-cü il Gündəliyinə töhfə verməklə qlobal sağlamlıq problemlərinə dair beynəlxalq fəaliyyəti səfərbər edə və əlaqələndirə bilən əsas çoxtərəfli təşkilatdır. ÜST ilk növbədə səhiyyə kontekstində bütün universal insan hüquqları təşkilatları ilə qarşılıqlı fəaliyyət göstərir. Bu sıraya ilk növbədə BMT və onun ayrı-ayrı orqanları və ixtisaslaşmış müəssisələri aid edilir. Beynəlxalq miqyasda, tibb hüququ, qlobal səhiyyə, insanın sağlamlıq hüququ faktiki olaraq 1948-ci il BMT-nın İnsan hüquqları Bəyannaməsinin qəbul edilməsi ilə tanınmışdır. Qeyd olunan hüquq ilk növbədə, tibbi yardım almaq hüququnu təmin edir. ÜST və digər beynəlxalq təşkilatlar arasında formalaşan əlaqələr, habelə qəbul olunan yeni beynəlxalq müqavilələr bu sahədə yeni yanaşma və innovativ dəyərləri formalaşdırdı.

BMT Baş Assambleyası 1966-cı ildə sağlamlığın qorunması hüququnun əsasını qoyan yeni mühüm aktlar qəbul etmişdir. Bunlar İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və həmçinin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktdır. Adı çəkilən sənədlər hər bir insanın fiziki və psixi sağlamlığının ən yüksək əldə oluna bilən səviyyəsini tanıyır [5, s.32]. Bundan başqa, Qadınlara qarşı ayrı-seçkiliyin bütün

formalarının ləğvi haqqında 1979-cu il Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya qarşı 1984-cü il Konvensiyası, 1989-cu il Uşaq Hüquqları Konvensiyası üzrə də sağlamlığın qorunması hüququ ilə bağlı normalar yer almışdır. Həmçinin bu konvensiyalarda sağlamlıq hüquqlarının implementasiyası və dövlətlərin bu sahədə öhdəlikləri ilə bağlı müddəalar da müasir beynəlxalq tibb hüququnda özünəməxsus çalarlara malikdir.

İlk növbədə qeyd etməliyik ki, biz bu paraqrafda ÜST-ün universal təşkilatlarla, xüsusilə də BMT-nin nizamnamə qurumları ilə qarşılıqlı fəaliyyəti prosesində yaranan implementasiya məsələlərini təhlil edəcəyik. Konvension qurumların səhiyyə sahəsində fəliyyətini isə bir qədər sonra araşdıracağıq.

Səhiyyə sahəsində ÜST-lə səmərəli qarşılıqlı əməkdaşlıq edən qurumlardan biri BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığıdır. Ali Komissarlıq BMT çərçivəsində fəaliyyət göstərən və insan hüquqlarının müxtəlif sahələri, o cümlədən sağlamlıq hüquqları üzrə ölklərlə çalışan, onlara məsləhət və texniki yardımlar edən əsas nizamnamə qurumudur. Ali Komissarlıq sağlamlıq hüququnun təşviqində mühüm rol oynayır: Dövlətlərə və digər maraqlı tərəflərə qanuna və siyasətə müdaxilələrə dair texniki yardım və məsləhətlərin verilməsi; BMT-nin siyasətinə, alətlərinə və proqramlarına sağlamlıq standartları hüququnun inteqrasiyasını təşviq etmək; Vətəndaş cəmiyyəti ilə tərəfdaşlıq qurmaq və fərdlərin sağlamlıqla bağlı hüquqlarını tələb etmək səlahiyyətinin artırılmasını müdafiə etmək; Dövlətlərə və digər maraqlı tərəflərə sağlamlıq prinsiplərini insan hüquqları baxımından formalaşdırmaqda köməklik göstərmək; Sağlamlıq və insan hüquqları arasında əlaqə üzrə müxtəlif aktorlar arasında potensialın yaradılması. Bundan əlavə bu qurum hüquqlara əsaslanan iqlim fəaliyyəti; əlilliyi olan şəxslərin sağlamlıq hüququ; ana ölümünün və xəstələnmənin azaldılması və uşağın sağlamlığının qorunması üçün hüquqa əsaslanan yanaşmalar, və miqrantların iqtisadi, sosial və mədəni hüquqları, ümumi sağlamlıq təminatı və sağlamlıq hüququ haqqında qeydlər etmək [19] funksiyalarına malikdir. Qeyd edək ki, son illər silahlı münaqişələr kontekstində Ali Komissarlıq səhiyyə sahəsində milli hüquqi implementasiyaya təsir edən effektiv alətlərdən biri sayılan illik hesabatlar dərc edir. Belə ki, silahlı münaqişə zamanı insanların sağlamlıq hüquqları ilə bağlı 22 may 2018-ci il tarixli "Liviya: Səhiyyə Hücum Altında" adlı maraqlı hesabatsənədi hazırlamışdır. Qeyd olunan bu sənədin analizindən görünür ki, Ali Komissarlıq və BMT Təhlükəsizlik Şurasının silahlı münaqişələrdə mülki şəxslərin müdafiəsi ilə bağlı 2017-2018-ci ildə Liviyada səhiyyə xidmətlərinin və obyektlərinin silahlı qruplar tərəfindən hücumlara və müdaxilələrə qarşı həssaslığı vurğulanır. Bu sənədə əsasən zorakılığın qeyd olunan ölkədə səhiyyə xidmətinə necə mənfi təsir göstərdiyi, xəstəxanaların və digər tibb müəssisələrinin silahlı qruplar arasında döyüşlər zamanı çarpaz atəşə tutulması, bunun nəticəsində isə müharibə cinayətlərinin baş verməsi [18] qeyd olunur. Silahlı münaqişə vəziyyətlərinə tətbiq edilən beynəlxalq humanitar hüquqa əsasən, xəstəxanalar və digər tibb müəssisələri, tibbi nəqliyyat və yalnız tibbi məqsədlər və ya vəzifələr üçün təyin

edilmiş tibb işçiləri bütün hallarda hörmət edilməli və qorunmalıdır, onları hədəf alan hücumlar qadağandır. Tibb müəssisələrinə və personala qarşı qəsdən hücumların istiqamətləndirilməsi, bundan başqa, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna [25] əsasən fərdi cinayət məsuliyyətinə səbəb olan müharibə cinayətinin tərkibini yaradır. Yeri gəlmişkən qeyd olunmalıdır ki, silahlı münaqişə zamanı tibbi personalın atəşə tutulması Azərbaycanda 2020-ci il 44 günlük müharibədə Ermənistan tərəfindən həyata keçirilən ciddi beynəlxalq hüquq pozuntularından biri olmuşdur. Hüquq elmləri üzrə fəlsəfə doktoru S. Məcidli qeyd edir ki, hədəf kimi tibbi personal və yaralıları daşıyan təcili yardım maşınları seçilib. 6 oktyabr 2020-ci ildə Ağdamın ağır artilleriyadan atəşə tutulması nəticəsində düşmən mərmilərindən biri Ağdamda təcili tibbi yardım maşının yanına düşüb, nəticədən ambulansa ciddi ziyan dəyib, yaralılar olub [3, s.189]. Fikrimizcə, silahlı münaqişə zonalrında ÜST xüsusilə yaralı və xəstələrə münasibətdə daha fəal mövqe nümayiş etdirə bilər. Bu məqsədlə ÜST Beynəlxalq Hərbi Tibb Komitəsi ilə qarşılıqlı əməkdaşlığı xüsusi önəm daşıyır. Bu qurum ilk dəfə 1921-ci ildə Brüsseldə Beynəlxalq Hərbi Tibb və Əczaçılıq Konqreslərinin daimi Komitəsi kimi fəaliyyətə başlamışdır. 1990-cı ildə komitənin adı dəyişdirilərək Beynəlxalq Hərbi Tibb Komitəsi adlandırılmışdır. ÜST bu qurumu 1952-ci ildən hərbi tibb məsələləri üzrə ixtisaslaşmış beynəlxalq qurum kimi tanımışdır. Azərbaycan 2017-ci ildən qurumun tamhüquqlu üzvüdür və 2019-ci ildə Komitənin Nizamnaməsinə qoşulmuşdur [2, s.31]. Nizamnaməsinin 1-ci maddəsinə görə, Komitə hərbi tibb üzrə hökumətlərarası beynəlxalq təşkilat statusuna malikdir. Milli hüquqi implementasiya baxımından bu qurumun da təcrübəsi kifayət qədər maraqlı və faydalı ola bilər. Çünki təçkilatın əsas missiyası bütün dövlətlərin Silahlı Qüvvələrinin Tibb Xidmətlərinin üzvləri arasında peşəkar əməkdaşlıq əlaqələrinin saxlanması və gücləndirilməsidir. Eyni zamanda beynəlxalq humanitar hüquqa hörmətin təşviqi, xüsusən də Silahlı Qüvvələr Tibb Xidmətlərinin üzvləri üçün beynəlxalq humanitar hüquq üzrə kursların təşkili və ya dəstəklənməsinə [23] xidmət edən bu qurum xüsusi milli hüquqi implementasiya modeli müəyyən etmişdir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının və ÜST-ün birgə mövqeyi ondan ibarətdir ki, insan sağlamlığının vəziyyətinə eyni vaxtda birbaşa təsir altında olmayan bir çox amillər, ilk növbədə fərdi bioloji xüsusiyyətlər və sosial-iqtisadi vəziyyət təsir göstərir. Bundan əlavə, fərdin sağlamlıq hüququ xidmətlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuş şərtlərlə də bağlıdır. Universal təşkilatlar milli hüquqi implementasiya üçün dövlətlərin öz əhalisinin sağlamlıq ehtiyaclarını ödəmək məqsədilə onlara müvafiq öhdəliklər müəyyən edir. Bu qurumlar layiqli və sərfəli səhiyyə sisteminə və tibbi xidmətlərə çıxışın təmin edilməsindən insan reproduktiv sağlamlıq hüququna keçid konsepsiyasını irəli sürür. Professor Con Tobin qeyd edir ki, sağlamlıq hüququnun tanınması ictimai maraq nəzəriyyəsinin əsasları və iştirakçı dövlətlərin onun möhkəmlənməsinə razılığı ilə diktə olunur [26].

Qlobal sağlamlıq kontekstində ÜST-ün əməkdalıq etdiyi insan hüquqları təşkilatlarından biri də İnsan hüquqları Şurasıdır. Bu

qurum beynəlxalq hüquqda önəmli rola malikdir. Eyni zamanda milli hüquq sistemlərinə də təsir etmə mexanizmi olan qurumdur. Şura BMT Baş Assambleyası tərəfindən 15 mart 2006-cı ildə A/RES/60/251 qətnaməsi ilə İnsan Hüquqları Komissiyasını əvəz etmək üçün yaradılmışdır [27]. Şura Universal Dövri İcmal (UDİ) mexanizmi vasitəsilə obyektiv və etibarlı məlumat əsasında hər bir dövlət tərəfindən insan hüquqları, o cümlədən sağlamlıq hüququ üzrə öhdəliklərin implementasiyasına dair təhlullər aparır. Maraqlı ölkənin bu sahəyə tam cəlb edilməsi və potensialın gücləndirilməsi ehtiyaclarını nəzərə alaraq, interaktiv dialoqa əsaslanan əməkdaşlıq mexanizmi yaratmaqla, belə mexanizm müqavilə orqanlarının işini tamamlayır və təkrarlamır [22]. 2020-ci ildə BMT İnsan Hüquqları Şurasına təqdim etdiyi hesabatda (A/HRC/44/48) Xüsusi Məruzəçi insan hüquqlarına əsaslanan psixi sağlamlıq üçün qlobal gündəmə ehtiyacdan bəhs edir. O, dövlətlərə, psixiatriya peşəsi üzrə təşkilatlara və ÜST-ə bunu necə etmək barədə bir sıra tövsiyələr verir [24]. Bu cür qarşılıq fəaliyyət, səhiyyənin ayrı-ayrı istiqamətləri üzrə BMT və ÜST arasında mövcud milli hüquqi implementasiya təcrübəsi səhiyyə üzrə beynəlxalq normaların ən səmərəli formada milli hüquqda tətbiqini şərtləndirir.

Səhiyyə hüquq normalarının milli hüquqi implementasiyasına 1967-ci ildə yaradılan Dünya Tibbi Hüquq Assosiasiyasının ÜST-lə əməkdaşlığı da təkan vermişdir. Assosiasiyanın əsas məqsədi sağlamlıq hüququ, tibbi hüquq və bioetikanın tədqiqi ilə insan hüquqlarının inkişafı üçün təşviq etməkdir. Hazırda dünyada tibbi təcrübə və hüquqi məsələlər paralel inkişaf edir. Bunun səbəblərindən biri odur ki, səhiyyə tələblərinin təmin edilməsi, pasiyentlər, idarəçilər və maliyyə təminatına cavabdeh olan təşkilatlar arasında mürəkkəb bir tərəfdaşlıq həyata keçirilir. Digər tərəfdən multikultural cəmiyyətlərin tələblərinə uyğun olaraq, səhiyyə ilə əlaqəli qərarlar, normalar və milli hüquq sistemlərinə hüquqi təsirlər əhəmiyyətli dərəcədə artmaqdadır. Bundan əlavə yeni tibbi ixtisasların, ağır xəstələr üçün müasir və inkişaf etmiş müalicələrin yaradılması və tibbi praktikada yeni texnologiyaların tətbiqi, tibbi təcrübə ilə əlaqəli etik və hüquqi məsələlərin spektrini kəskin dərəcədə genişləndirmişdir. Getdikcə daha çox ölkədə tibbi hüquq müstəqil bir sahə kimi qəbul edilir və bioetik prinsiplər kimi beynəlxalq normalara əsaslanaraq müvafiq qanunlar formalaşır. Beynəlxalq səviyyədə tibbi hüququn formalaşmasında Dünya Tibb Assosiasiyası mühüm rol oynamışdır. Belə ki, 1964-cü ildə bu qurum tərəfindən tədqiqat etikası və insanlar üzərində tədqiqat təcrübələri ilə bağlı etik prinsipləri haqqında Helsinki bəyannaməsi qəbul edilmişdir [4].

ÜST universal təşkilatlarla qarşılıqlı fəaliyyəti səhiyyənin müxtəlif sahələrində, o cümlədən reproduktiv sağlamlıq üzrə həyata keçirir. ÜST reproduktiv sağlamlıqla bağlı universal qurumlarla münasibətlərinə dair xüsusi qətnamə qəbul etmişdir. Assambleyanın "WHA 48.10" saylı qətnaməsi ÜST-ün reproduktiv sağlamlıq üzrə rolunu təsdiq edir və BMT-nin digər ixtisaslaşmış qurumları ilə koordinasiyanın zəruriliyini vurğulayır. Bundan əlavə həmin qətnamədə ÜST-ün bu sahədə olan normalarının implementasiyası da nəzərdə tutulmuşdur. O, Üzv Dövlətləri reproduktiv sağlamlıq proqramlarını daha

da inkişaf etdirməyə və gücləndirməyə təşviq edir. Budan başqa, qəbul edilmiş prinsiplər əsasında reproduktiv sağlamlıq ehtiyaclarını qiymətləndirməyə, tibb işçilərinin potensialını gücləndirməyə və hamı üçün sağlamlıq strategiyasının bir hissəsi kimi onların proqramlarını dəyərləndirməyə çağırır. Ümumiyyətlə səhiyyə sahəsində milli hüquqi implementasiyanın daha effektiv nəticəsi universal xarakterli orqanlar olan İcraiyyə Şurasının və Ümumdünya Səhiyyə Assambleyalarının gələcək sessiyalarında təqdim olunacaq proqramlı yanaşma və etik təcrübələri təşviq etməkdən asılıdır. Yuxarıda qeyd olunan Qətnamə dünyanın bütün bölgələrində milli hüquqi səviyyətə yerinə yetirilən sənəddir. Məsələn səhiyyə sahəsində mühüm qurumlardan olan Pan Amerikan Səhiyyə Təşkilatı tərəfindən təqdim edilmiş təkliflər Katiblik tərəfindən dəstəklənmişdir İcraiyyə Komitəsinə təqdim olunan Əhali və Reproduktiv Sağlamlığa dair sənəddə (CEl16/13) Ailə Sağlamlığı və Əhali Proqramının təfərrüatları verilmişdir [20].

Bununla yanaşı ÜST universal təşkilatlarla qarşılıqlı əməkdaşlıqda əlilliklə bağlı 2006-cı il Əlillərin Hüquqları haqqında Konvensiya, qlobal tütünə nəzarət üzrə ÜST-ün Tütünlə Mübarizə üzrə Çərçivə Konvensiyası üzrə öhdəliklərin icrası ilə bağlı fəaliyyətlər həyata keçirir.

Səhiyyə sahəsində həmçinin silahlara nəzarət və müharibə zamanı sağlamlıq və yaşamaq hüququnun qorunması məsələləri üzrə bir sıra beynəlxalq konvensiyaların tələbləri ilə bağlı əməkdaşlıq da aktualdır. Bu müqavilələrdə, o cümlədən Nüvə Silahlarının Yayılmaması haqqında 1968-cı il Müqaviləsində, 1972-ci il Bioloji Silahlar Konvensiyasında, 1993-cü il Kimyəvi Silahlar Konvensiyasında bir sıra implementasiya mexanizmləri müəyyən edilmişdir.

Ətraf mühitin sağlamlığı, ozon qatının mühafizəsi, iqlim dəyişikliyi, səhralaşma ilə mübarizə, miqrantların sağlamlıq hüquqları, beynəlxalq narkotik nəzarəti, iş sağlamlığı və təhlükəsizliyi ilə bağlı məsələlər də hazırda universal beynəlxalq qurumların əməkdaşlıq sferasına aid məsələlərdir.

ÜST-ün Ümumdünya Səhiyyə Assambleyasının "WHA 49.12" saylı Qətnaməsi hamı üçün iş sağlamlığı üzrə qlobal strategiyanı təsdiq edir. Bu qətnamənin milli hüquqi implementasiya ilə bağlı özəlliyi odur ki, qeyd olunan sənəd dövlətləri qlobal strategiya əsasında hamı üçün əməyin mühafizəsi üzrə milli proqramlar hazırlamağa çağırır. Eyni zamanda bu sənəd, səhiyyə sahəsində BMT sistemi təşkilatlarını öz fəaliyyətlərini gücləndirməyə dəvət edir, ÜST-lə əməkdaşlıq edən mərkəzlərin işini təşviq etməklə, iş yerlərində müvafiq sağlamlıq xidmətinə diqqət yetirilməsini [21] tələb edir.

ÜST-ün universal təşkilatlarla əməkdaşlıq sahələrindən biri də saxta dərmanlarla mübarizə məsələsidir. İnsanların sağlamlıq hüquqları, onların təhlükəsizlik məsələləri və digər ənənəvi olaraq müəyyən edilmiş hüquqi sahələr arasındakı əlaqə saxta dərmanların müasir qlobal təhlükəsinə nümunədir. Bu gün qeyri-standart, qüsurlu və ya saxta dərmanlar da daxil olmaqla, saxta dərman vasitələrinin beynəlxalq alveri kimi qlobal problemlər beynəlxalq hüququn predmetinə çevrilib. Qeyri-standart və saxtalaşdırılmış dərmanlar xəstələri öldürür, lakin əsl tibbin keyfiyyətinin qorunması və saxtalaşdırılmış dərmanların kriminallaşdırılması kimi iki problemdə irəliləyiş əqli mülkiyyət hüquqları

ilə bağlı mübahisələr və şərtlərlə bağlı qarışıqlıq səbəbindən dayandırılıb. Professor Ə.Attaran və həmkarları problemlərin aradan qaldırılması üçün qlobal müqavilə təklif edirlər. Onlar bununla bağlı beynəlxalq ictimaiyyətin narahatlığının artması səbəbindən qlobal sağlamlıq hüququ, beynəlxalq gömrük hüququ, beynəlxalq cinayət hüququ və beynəlxalq ticarət hüququ arasında qarşılıqlı əlaqənin olması vurğulayır və bu sahədə beynəlxalq hüquqi sənədin qəbulunu [10] əsaslandırırlar. Alimlərin qeyd olunan fikrinə qoşularaq, vurğulamaq istərdik ki, beynəlxalq sağlamlıq hüququ, gömrük hüququ, cinayət hüququ və ticarət hüququ üzrə belə bir sənədin qəbulu və müvafiq sahədə fəaliyyət göstərən universal qurumlararası daimi əməkdaşlığın inkişafı daha səmərəli millli hüquqi implementasiya üçün əsas ola bilər.

Son dövrlər sağlamlıq hüququ ilə beynəlxalq hüququn sürətlə inkişaf edən biotexnologiya sahəsində də qarşlıqlı əlaqə mühüm əhəmiyyəti ilə seçilir. Biotexnologiya qlobal sağlamlıq, insan hüquqları, əqli mülkiyyət, ticarət tənzimlənməsi və ətraf mühit hüququ və s. sahələrlə sıx şəkildə əlaqəlidir. Məsələn, biotexnologiyada irəliləyişlər beynəlxalq ekologiya hüququnun inkişafına təkan vermişdir. Belə ki, bu gün dünyada əsas ekoloji problemlərədn biri də geni dəyişdirilmiş orqanizmlərin (GMO) yaradılması və onların insan sağlamlığına və ətraf mühitə qəsdən yaratdığı potensial təhdidlərdir. Bu sahədə aktual olan beynəlxalq sənədlərə Bioloji Müxtəliflik haqqında Konvensiya və onun 2010-cu il tarixli Kartagena Biotəhlükəsizliyi Protokolu və Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasıdır. ÜTT-nin GMO-ların idxalı və istifadəsi ilə bağlı tənzimləyici qərarlar qəbul edərkən sağlamlıq, ətraf mühit və qida təhlükəsizliyi mülahizələrini nəzərə alır, GMO-ların sağlamlıq hüququna təsiri bağlı milli hüquqi qaydaları müəyyən edir [14].

ÜST istehlakçıların sağlamlığının qorunması istiqamətində Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə faydalı əməkdaşlıq edir. Bu məqsədlə hər iki qurumun birgə əməkdaşlığı nəticəsində Codex Alimentarius Komissiyası yaradılmış, FAO Konfransının 11-ci Sessiyası və Ümumdünya Səhiyyə Assambleyasının 16-cı sessiyası çərçivəsində 1961-ci ildə onun Statutu qəbul edilmişdir. Bundan başqa Komissiyanın sağlamlıq və qida təhlükəsizliyi ilə bağlı Prosedur Qaydaları və Ümumi Prinsipləri də qüvvədədir. Codex Alimentarius Komissiyasının Statutunun 5-ci maddəsinə görə FAO və ÜST Birgə Qida Standartları Proqramının implementasiyası məqsədilə: a) istehlakçıların sağlamlığının qorunması və qida ticarətində ədalətli təcrübənin təmin edilməsi; b) beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları tərəfindən görülən bütün qida standartları işlərinin əlaqələndirilməsinin təşviq edilməsi; c) prioritetlərin müəyyən edilməsi və müvafiq təşkilatlar vasitəsilə və onların köməyi ilə standart layihələrinin hazırlanmasına başlamaq və onlara rəhbərlik etmək; d) beynəlxalq standartlarla birlikdə regional və ya universal standartları da Codex Alimentarius-da dərc edilməsi; e) inkişaflar işığında müvafiq olaraq dərc edilmiş standartlara düzəlişlər etmək [13]. Göründüyü kimi, Komissiya strateji planlaşdırma prosesinə ("standartların idarə edilməsi") əsaslanan qərarlar qəbul etməklə vahid yanaşmanın səmərəli implementasiyasına xidmət edən beynəlxalq hüquqi implementasiya aləti kimi çıxış edir.

ÜST-ün milli hüquqi implementasiya üzrə əməkdaşlıq sahələrindən biri də İİV/QİÇS-

ə mübarizədir. Beynəlxalq QİÇS Cəmiyyəti – Sağlamlıq və İnsan Hüquqları üzrə Lancet Komissiyası rəsmi olaraq 2021-ci ildə The Lancetdə "İnsan hüquqları və COVID-19 peyvəndlərinə ədalətli çıxış: Beynəlxalq QİÇS Cəmiyyəti – Sağlamlıq və İnsan Hüquqları üzrə Lancet Komissiyası" kimi fəaliyyətə başlamışdır. Komissiya sağlamlığa və insan hüquqlarına təsir edən əsas problemlər üzrə innovativ yanaşmalar ortaya qoyur. Milli hüquqi implementasiya baxımından qurum sağlamlıq və insan hüquqları çərçivəsini müəyyən edir. Sağlam icmalara nail olmaq, sağlamlıq və insan hüquqları çərçivəsində milli səhiyyə sistemlərinin profilaktika və qayğıya universal çıxışı təmin etmək üçün ən uyğun olan sahələri müəyyən edir [17]. İİV/QİÇS-ə cavab olaraq insan hüquqlarının tam şəkildə həyata keçirilməsi Davamlı İnkişaf üzrə 2030 Gündəliyində nəzərdə tutulmuşdur. Həmin sənədə əsasən 2030-cu ilə qədər bu epidemiyaya son qoymaq çox vacibdir. QİÇS-ə qarşı mübarizə təkcə sağlamlıqla bağlı olmayıb, eyni zamanda gender bərabərliyi, sülh, ədalət və inklüziv institutlar və məqsədlər üçün tərəfdaşlıq kimi bir çox Dayanıqlı İnkişaf Məqsədlərinin inkişafından asılı olacaq [16].

Milli hüquqi implementasiyanın daha uğurlu nümunələrindən biri vərəmlə mübarizə üzrə ÜST-ün beynəlxalq əməkdaşlıq fəaliyyətidir. Belə ki, bu qurum digər universal və regional əməkdaşlıq çərçivələrində 2000-2020-ci illər arasında vərəmin diaqnostikası və müalicəsi vasitəsilə qlobal miqyasda Vərəmlə Mübarizə Tərəfdaşlığı vasitəsilə təxminən 66 milyon insanın həyatını xilas etmişdir [11].

ÜST-ün universal təşkilatlarla birgə vərəmlə mübarizə ilə bağlı Azərbaycanla əməkdaşlıq modeli daha uğurlu model hesab edilə bilər. Fikrimizcə, bu model tamamilə vərəmlə mübarizə üzrə uğurlu milli hüquqi implementasiya modeli sayıla bilər. ÜST bir çox böyük layihələrdə Azərbaycanı dəstəkləyir. Belə ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb baş idarəsi 2014-cü ildən həbsxanalarda vərəmin profilaktikası və nəzarəti üzrə ÜST ilə Əməkdaşlıq Mərkəzi statusunu əldə edib. Bu mərkəz dünyada növünə görə yeganə mərkəz sayılır. Mərkəz müasir infeksiya profilaktikası və nəzarət tədbirləri, sürətli diaqnostik xidmətlərin tətbiqi ilə vərəmə nəzarətə öncüllük edir. ÜST əməkdaşlıq mərkəzləri təşkilatın proqramlarını dəstəkləmək məqsədilə baş direktorun təyin etdiyi etibarlı qurumlardır [1]. ÜST-ün təhlillərinə görə, hər il dünyada vərəmdən 1 milyon 700 min insan vəfat edir, həbsxanalarda isə vərəmin yayılma riski 100 dəfə daha yüksəkdir. Vərəmə qarşı ÜST tərəfindən tövsiyə edilən strategiyalar bu xəstəliyi aşkar və müalicə etməyə, yoluxmanın azaldılmasına xidmət edir. Hazırda son strategiya dünyanın 180-dən artıq ölkəsində uğurla tətbiq edilir. ÜST-ün digər beynəlxalq qurumlarla, o cümlədən "Sərhədsiz həkimlər" Beynəlxalq Tibbi Humanitar Təşkilatın, Azadlıqdan Məhrumetmə Yerlərində Vərəm və Ağciyər Xəstəliklərinə qarşı Beynəlxalq Birliyin və ÜST Avropa Regional Ofisinin vərəmlə qlobal mübarizənin gücləndirilməsi, müsbət təcrübələrin öyrənilməsi və tətbiqi ilə bağlı əməkdaşlığı mühüm nailiyyətlər əldə etməyə imkan vermişdir. Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə uzun illər səmərəli əməkdaşlıq edilərək məhkumlar arasında vərəmə qarşı mübarizədə müsbət nəticələrə nail olunmuşdur. Vərəmin dəqiq diaqnozunu ən qısa vaxtda müəyyən etməyə imkan verən yeni ekspress-test dünyada ilk dəfə olaraq

penitensiar müəssisələrdə məhz Azərbaycanda tətbiq edilib. 1995-ci illə müqayisədə penitensiar müəssisələrdə vərəmdən ölüm 136 dəfəyədək azalıb. Ölkəmizdə ÜST-ün tövsiyə etdiyi vərəmin uğurlu müalicəsi üzrə hədəf göstəriciləri aşaraq dərmanlara həssas vərəmli məhkumların müalicəsi üzrə 95 faiz, müalicəyə çətin tabe olan dərmanlara davamlı formalı vərəmə düçar olmuş xəstələrin müalicəsi üzrə isə 92 faiz müsbət nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir [6]. Səmərəli beynəlxalq əməkdaşlığın və uğurlu milli hüquqi implementasiya modelinin nəticəsidir ki, Azərbaycanın vərəmə nəzarət təcrübəsi ÜST, BQXK və s. beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilərək müsbət təcrübəmiz dünyada örnək olub, illik Səhiyyə Mükafatına layiq görülüb. Daha bir milli implementasiya aləti kimi milli təlim mərkəzlərinin yaradılmasıdır. Azərbaycan təcrübəsinin öyrənilməsi məqsədilə ÜST-ün beynəlxalq status verdiyi Bakı Təlim Mərkəzi yaradılıb. Mərkəzdə Avropa və digər qitələrdən 20 dövlətdən tibb xidmətləri ilə yanaşı, hətta Səhiyyə nazirliklərinin nümayəndələri müsbət təcrübəmizdən bəhrələnib və artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellər tətbiq olunur. Göründüyü kimi, vərəmlə mübarizə üzrə ÜST ilə Əməkdaşlıq Mərkəzi və Təlim Mərkəzi modeli ən yaxşı və səmərəli milli hüquqi implementasita modeli sayıla bilər.

Sağlamlıq hüququ həm də iştirakçı dövlətlər tərəfindən yuxarıda göstərilən öhdəliklərin yerinə yetirilməsi nəzərə alınmaqla, insanın rifahı üçün sosial, iqtisadi və tibbi standartların implementasiyası kimi də şərh edilə bilər. BQXK mövqeyi ondan ibarətdir ki, bu öhdəliklər təlimatları təmin etmək və "insan hüquqları ilə bağlı ətraflı standartları müəyyən etmək" məqsədi daşıyan "yumşaq hüquq" qaydaları ilə genişləndirilə bilər.

Qlobal sağlamlıq, iş qəzaları, habelə əməyin mühafizəsi də ÜST-ün universal səviyyəli qurumlarla birgə dünyanın müxtəlif regionların həyata keçirdiyi məsələlərdəndir. Məsələn, statistik rəqəmlərə görə Amerika qitəsində hər dəqiqə iş başında 36 qəzanın baş verdiyi və hər il 5 milyon iş qəzasının əlilliyə səbəb olduğu təxmin edilir. Buna görə də, Pan Amerkan Səhiyyə Təşkilatı 1994-cü ildən qlobal strategiya hazırlamışdır.

1995-ci ildə Beynəlxalq Əmək Təşkilatı və ÜST Komitəsinin XII Sessiyası işçilərin sağlamlığı ilə bağlı siyasətlərin formalaşdırılması, məlumatların toplanması sistemlərinin işlənib hazırlanması və buna yerli səhiyyə sistemlərinin cəlb edilməsi kimi mühüm addımlar atılmışdır. ÜST-nin əməyin mühafizəsi üzrə əməkdaşlıq mərkəzləri şəbəkəsinin səmərli fəaliyyəti də milli hüquqi implementasiyaya öz töhvəsini verir.

Qlobal sağlamlıqla bağlı fövqəladə hallara nəzarət üzrə ÜST digər beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Uşaq Fondu və BMT Humanitar Məsələlərin Koordinasiyası Ofisi ilə də əməkdaşlıq edir. Qeyd edək ki, qlobal sağlamlıqla bağlı fövqəladə hallar üçün hərtərəfli və məcburi fəaliyyət planı mövcud deyildir. ÜST və digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış alətlər bu cür fövqəladə hallarla mübarizədə təsirli olmuşdur. Buna səbəb isə üzv dövlətlərin əməkdaşlığı və könüllü implementasiya tədbirləri görməsi ilə bağlıdır. Eyni zamanda, qeyri-dövlət aktorlarının qlobal sağlamlıq üzrə fövqəladə hallarda bütün tədbirlərin vaxtında və hərtərəfli şəkildə həyata keçirilməsini təmin etmələri [12] milli hüquqi implementasiyanı şərtləndirən əsas elementdir.

ÜST-ün COVİD 19 pandemiyası ilə mübarizədə digər beynəlxaq qurumlarla qarşılıqlı

fəaliyyəti prosesində milli implementasiya mexanizmləri daha işlək xarakterdə olmuşdur. Ədəbiyyatlarda hətta bu dönəmdə "COVİD hüququ" termininindən də istifadə olunmağa başlamışdır. İlk dəfə 2020-ci ildə rusiyalı alimlər E.E.Qulyaeva və E.N.Trikoz tərəfindən milli hüquqi səviyyədə "COVİD hüququ" [15] ifadəsi işlədilib. Əslində pandemiya dönəmində ÜST və dövlətlərin milli hüquqi praktikasında qəbul olunan hüquq normaları o qədər üstünlük təşkil etmişdir ki, çoxsaylı normativ hüquqi bazanın varlığı "COVİD hüququ" terminini labüd edirdi.

ÜST və Virusların Beynəlxalq Taksonomiyası Komitəsi COVID-19 xəstəliyini Xəstəliklərin Beynəlxalq Təsnifatına [28] daxil edib. Bu dövrdə ÜST həm digər beynəlxalq qurumlara münasibətdə, həm də milli dövlətlərə münasibətdə hazırlıq tədbirləri və onları xəstəliyə cavab verməyə çağırmaq səlahiyyətinə malik əsas və aparıcı beynəlxalq qurum idi. 11 mart 2020-ci ildə ÜST bəşər tarixində ilk dəfə qlobal iqtisadiyyat və ticarətə mənfi təsirindən qaça bilmədiyi üçün koronovurusa görə pandemiya elan etdi [9, s.104]. ÜST-ün bu qərarı bütün dünya ölkələri və bütün beynəlxalq qurumlar üçün implementasiyası dərhal yerinə yetirlən qərar oldu. ÜST-ə üzv ölkələrin əksəriyyəti koronavirusla mübarizə üçün qeyri-adi həm institutsional, həm də qanunvericilik tədbirləri tətbiq eməklə, səhiyyə üzrə beynəlxalq hüququn primatını qəbul etmiş oldular.

Qlobal epidemik xəstəliklərlə mübarizə aparmaq üçün ÜST tərəfindən yaradılmış ikinci alət Qlobal Epidemik Xəstəliklər Xəbərdarlığı və Cavab Şəbəkəsidir (GOARN). Bu təşkilat 110 beynəlxalq qurum və şəbəkə arasında texniki əməkdaşlıq nəticəsində formlaşmışdır. Şəbəkənin məqsədi beynəlxalq əhəmiyyət kəsb edən epidemiyaların sürətli müəyyən edilməsi, təsdiqi və cavab tədbirlərinin həyata keçirilməsidir. GOARN beynəlxalq ictimaiyyəti hər hansı epidemiya təhlükəsi barədə xəbərdar etmək məqsədilə müvafiq təcrübə və bacarıqlara malik olan şəxsləri birləşdirən əməliyyat çərçivəsi yaradır. Çevik və əhatəli alət olaraq, qlobal sağlamlıq üzrə fövqəladə hallara cavab tədbirlərinin koordinasiyasını asanlaşdırır. GOARN əslində ÜST-ün milli hüquqi implementasiyanın daha da asanlaşdırmaq məqsədinə xidmət edən koordinasiya səlahiyyətlərini tamamlayır. Bu qurum Ümumdünya Səhiyyə Assambleyasının "epidemiya sahəsində ÜST və bütün potensial texniki tərəfdaşlar arasında əməkdaşlığa" dəstək verən Qlobal Sağlamlıq Təhlükəsizliyi qətnaməsinə uyğun olaraq həyata keçirilib. Əsas missiyası isə müvafiq dövlət sektorları, hökumətlərarası təşkilatlar, qeyri-hökumət təşkilatları və özəl sektor da daxil olmaqla xəbərdarlıq və cavab tədbirlərinin görülməsidir. Bu qurum milli hüquqi səviyyədə epidemiyalar və yoluxucu xəstəliklərdən yaranan təhlükələrə müdaxilə proqramlarının inkişafı üçün texniki dəstək göstərir. Qətnamə epidemiyanın qarşısının alınması və nəzarət məsələlərində ÜST-nin Üzv Dövlətlərə yardımını gücləndirməyi tələb edir. [12]

Beləliklə, bu paraqraf üzrə aşağıdakı nəticələri qeyd edə bilərik. Birincisi, ÜST beynəlxalq səhiyyə hüququnun sürətli inkişafı epidemik xəstəliklərlə mübarizə, qlobal sağlamlıq, insan hüquqları, biotexnologiya, ticarət tənzimlənməsi, əməyin mühafizəsi, ətraf mühit və s. sahələrdə müvafiq universal mexanizmlərlə sıx əlaqə və asılıqlıqda fəaliyyət göstərir. İkincisi, təhlillərimiz göstərir ki, müxtəlif beynəlxalq universal qurumlarla birgə əməkdaşlıqda UST qlobal xəstəliklərə

qarşı mübarizədə daha səmərəli nəticələrə nail olur. Bunun ən bariz nümunəsi kimi ÜST, BQXK və s. beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirulən Azərbaycanın vərəmə nəzarət təcrübəsidir. Fikrimizcə, vərəmlə mübarizə üzrə ÜST ilə Əməkdaşlıq Mərkəzi və Təlim Mərkəzi modeli ən yaxşı və səmərəli milli hüquqi implementasita modeli sayıla bilər.

### ƏDƏBİYYAT


1. Azərbaycan vərəmlə mübarizə ilə bağlı qanunvericiliyi ÜST-nin tövsiyələrinə əsasən yenidən nəzərdən keçirəcək 24 mart 2019 / https://azerbaijan.un.org/az/95755-az%C9%99rbaycan-v%C9%99r%C9%99ml%C9%99-m%C3%BCbariz%C9%99-il%C9%99-ba%C4%9Fl%C4%B1-qanunvericiliyi-%C3%BCst-nin-t%C3%B6vsiy%C9%99l%C9%99rin%C9%99-%C9%99sas%C9%99n-yenid%C9%99n
2. Əliyeva A., Hüseynova F., Əzizov E. Beynəlxalq Hərbi Tibb Komitəsi hökumətlərarası təşkilat kimi: hüquqi status və funksiyaları // Nəqliyyat hüququ, elmi nəzərəi təcrübi jurnal, 2023, N 1.
3. Məcidli S.T. Ermənistanın hərbi təcavüzü və Azərbaycanın əks hücum əməliyyatları (Beynəlxalq hüquqi məsələlər). – Bakı: Elm və təhsil nəşriyyatı, 2021. - 308 s.
4. Məmmədov V. Tibb hüququ: yaranması problemləri və inkişaf perspektivləri // https://www.injuria.az/news/tibb-huququ-yaranmasi-problemleri-ve-inkisaf-perspektivleri
5. Mustafayeva A. İ. Bioetika və insan hüquqlari: nəzəri və təcrübi problemlər, Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferati, Bakı-2014
6. ÜST və Ədliyyə Nazirliyi vərəmlə mübarizəyə dair birgə qlobal vebinar keçirib / https://justice.gov.az/news/1814
7. Воронцов А.Л., Воронцова Е.В. Международно-правовое взаимодействие государств в области охраны здоровья, Lex Russica, № 1 (134) январь 2018, s.75
8. Хасан М. Роль международного права в развитии всемирного здравоохранения // Lex Russica. 2008. T. LXVII. № 3.
9. Ястребова А.Ю., Гуляева Е.Е. Право на здоровье в системе международно-правовой защиты прав человека на универсальном и региональном уровне. – Московский журнал международного права. 2021, № 2. с. 99-121.
10. Attaran A., Barry D., Basheer S., Bate R., Benton D. How to achieve international action on falsified and substandard medicines. Br. Med. J. 2012;345:7381l.
11. Canada and the World Health Organization /https://www.international.gc.ca/world-monde/international_relations-relations_internationales/multilateral-multilateraux/who-fao.aspx?lang=eng
12. Chiara Giorgetti, International Health Emergencies in Failed and Failing States, 44 Geo. J. Int'l L. 1347 (2013) / https://core.ac.uk/download/pdf/232765556.pdf
13. FAO and WHO. 2019. Codex Alimentarius Commission – Procedural Manual twenty-seventh edition. Rome. Pp. 4, 254 pp.
14. Global Health Law: International Law and Public Health Policy, https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7150305/
15. Gulyaeva E.E., Trikoz E.N. Yuridicheskie aspekty politiki protivodeistviya koronavirusnoi infektsii (COVID-19) v RF [Legal aspects of the policy of countering coronavirus infection (COVID-19) in the Russian Federation]. – Elektronnoe setevoe izdanie “Mezhdunarodnyi pravovoi kur'er”. 2020. No. 4. URL: http://inter-legal.ru/yuridicheskie-aspekty-politiki-protivodejstviya-koronavirusnoj-infektsiicovid-19-v-rf
16. HIV/AIDS and the right to health / https://www.ohchr.org/en/special-procedures/sr-health/hivaids-and-right-health
17. IAS–Lancet Commission on Health and Human Rights / https://www.iasociety.org/ias-programme/ias-lancet-commission-health-and-human-rights
18. Libya: Health-Care under Attack / https://www.refworld.org/publisher,OHCHR,,,5b559c944,0.html

19. OHCHR and the right to health, https://www.ohchr.org/en/health
20. Resolutions and other actions of the forty-ninth World Health Assembly of interest to the regional committee / https://iris.paho.org/bitstream/handle/10665.2/7102/23110.pdf?sequence=1&isAllowed=y
21. Resolutions and other actions of the forty-eighth world health assembly of interest to paho executive committee / https://iris.paho.org/bitstream/handle/10665.2/20614/116_26.pdf?sequence=1
22. Resolution adopted by the General Assembly on 15 March 2006, A/RES/60/251, https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N05/502/66/PDF/N0550266.pdf?OpenElement
23. Statutes of the International Committee of Military Medicine (ICMM), https://peraturan.bpk.go.id/Download/44005/Keppres%20Nomor%2036%20Tahun%202014%20-%20Lampiran.pdf
24. The right to mental health, https://www.ohchr.org/en/special-procedures/sr-health/right-mental-health
25. The Rome Statute of the International Criminal Court, article 8 e) (ii). https://www.icccpi.int/nr/rdonlyres/ea9aeff7-5752-4f84-be94-0a655eb30e16/0/rome_statute_english.pdf
26. Tobin J. The Right to Health in International Law.-Oxford: Oxford University Press. 2012.-416 p. DOI:10.1093/eurpub/cks138
27. Welcome to the Human Rights Council, https://www.ohchr.org/en/hr-bodies/hrc/about-council
28. World Health Organization: Naming the coronavirus disease (COVID-19) and the virus that causes it. URL: https://www.who.int/emergencies/diseases/novel-coronavirus-2019/technical-guidance/naming-the-coronavirus-disease-(covid-2019)-andthe-virus-that-causes-it (daxil olma tarixi: 07.02.2023)

## Interaction of the World Health Organization with other universal organizations in the field of national legal implementation of international law in the field of healthcare

**Huseynova Fatima Etibar gizi,**
**Doctor of Philosophy in Law, Associate Professor of the Department of Private International Law and European Law Baku State University**
e-mail: lawyer.fatima85@gmail.com

The article examines the interaction of the World Health Organization as a universal control mechanism with other universal organizations in the national legal implementation of international law in the field of health. It analyzes the specifics of interaction in various fields of healthcare. The relationship with organizations belonging to the UN system is specifically analyzed. At the same time, the article examines interaction with organizations outside the UN system, including international non-governmental organizations. It is noted that the World Health Organization, in cooperation with various international organizations, is achieving more effective results in the fight against diseases.

**Key words:** World Health Organization, healthcare, norms of international law, national legal implementation, universal organizations, interaction.

**Взаимодействие Всемирная организация здравоохранения с другими универсальными организациями в сфере национально-правовой имплементации норм международного права в сфере здравоохранения**

**Гусейнова Фатима Этибар кызы,**
**доктор философии по праву, доцент кафедры международного частного права и европейского права Бакинского государственного университета**
э-почта: lawyer.fatima85@gmail.com

В статье рассматривается взаимодействие Всемирной организации здравоохранения как универсального механизма контроля с другими универсальными организациями в национально-правовой имплементации норм международного права в области здравоохранения. Здесь анализируются особенности взаимодействия в различных сферах здравоохранения. Специально анализируется связь с организациями, входящими в систему ООН. В то же время в статье рассматривается взаимодействие с организациями, не входящими в систему ООН, в том числе с международными неправительственными организациями. Отмечается, что Всемирная организация здравоохранения в сотрудничестве с различными международными организациями добивается более эффективных результатов в борьбе с болезнями.

**Ключевые слова:** Всемирная организация здравоохранения, здравоохранения, нормы международного права, национально-правовая имплементация, универсальные организации, взаимодействие.

**Uluslararası tıbbi ve hukuki normların iç hukuk sistemine uygulanması bağlamında Dünya Sağlık Örgütü'nün diğer evrensel kurumlarla ilişkileri**

**Huseynova Fatima Etibar gizi,**
**Bakü Devlet Üniversitesi Hukuk Fakültesi "Uluslararası Özel Hukuk ve Avrupa Hukuku Anabilim Dalı Doçenti, Hukuk Felsefesi Doktoru.**
e-posta: avukat.fatima85@gmail.com

Makalede, sağlık alanında uluslararası hukuk normlarının ulusal hukuki uygulamasında bir evrensel kontrol mekanizması olarak Dünya Sağlık Örgütü'nün diğer evrensel kuruluşlarla etkileşiminden bahsedilmektedir. Burada sağlık hizmetinin çeşitli alanlarındaki etkileşimin özellikleri analiz edilmektedir. Özellikle BM sistemine dahil kuruluşlarla ilişkiler analiz edilmektedir. Makale aynı zamanda BM sisteminin parçası olmayan uluslararası sivil toplum kuruluşlarıyla etkileşimi de incelemektedir. Dünya Sağlık Örgütü'nün çeşitli uluslararası kuruluşlarla iş birliği yaparak hastalıklarla mücadelede daha etkili sonuçlar elde ettiği kaydedildi.

**Anahtar Kelimeler:** Dünya Sağlık Örgütü, sağlık hizmeti, uluslararası hukuk normları, ulusal hukuki uygulama, evrensel kuruluşlar, karşı önlemler.

# BEYNƏLXALQ HUMANİTAR HÜQUQDA SİLAHLI MÜNAQİŞƏLƏRİN NÖVLƏRİ

**Məmmədov Nəsir Natiq oğlu,**
**hüquq üzrə fəlsəfə doktoru,**
**BDU-nun doktorantı.**
e-mail: nasirmammadov@gmail.com

*Bu məqalədə beynəlxalq humanitar hüquqda silahlı münaqişələrin növləri araşdırılmışdır. Müəllif göstərir ki, beynəlxalq humanitar hüquqda silahlı münaqişələrin, bir qayda olaraq iki qrupa bölüməsi (beynəlxalq silahlı münaqişələr; qeyri-beynəlxalq silahlı münaqişələr) hərbi faktorlardan daha çox tarixi-siyasi faktorlarla bağlı olmuşdur. Məqalədə silahlı münaqişələrin təsnifatının dəqiq aparılması və silahlı münaqişə növlərindən hər birinin xarakterinin, fərqləndirici cəhətlərinin aşkara çıxarılmasının yalnız doktrinal deyil, həm də praktiki aspektdə müstəsna əhəmiyyətə malik olması əsaslandırılır. Həmçinin müəllif qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı meydana çıxan çətinliklərə diqqət çəkir.*

**Açar sözlər:** beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq, silahlı münaqişə, silahlı münaqişənin növləri, beynəlxalq silahlı münaqişələr, qeyri-beynəlxalq silahlı münaqişələr, ölkədaxili iğtişaşlar, beynəlxalq terrorçuluq.

Qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr öz mənşəyinə görə siyasi, iqtisadi, etnik, dini zəmində və ya bunların məcmusu kontekstində baş verməsindən asılı olmayaraq, çox zaman göstərilən əlamətlərdən hər hansı biri üzrə təşkilatlanmış qrupların həm hökumətə, həm də bir-birinə qarşı silahlı zorakılıq tətbiq etdiyi ölkələrdə baş verir. Belə vəziyyətdə əsas maraq və təzyiq mərkəzlərini aşkara çıxarmaq (xüsusən də, əgər qanuni hökumət həmin əlamətlərə görə parçalanıbsa) və deməli, münaqişənin həllinə dair dair yanaşmaları tapmaq o qədər də asan olmur. Bundan başqa, münaqişəyə müxtəlif ictimai qüvvələr və qruplar cəlb olunduqda, bəzən döyüşən və döyüşməyənlər, hökumətə məxsus silahlı qüvvələr və üsyançılar arasında fərqləndirmə aparmaq çətin olur [15, s. 50]. Belə münaqişələr zamanı mülki əhali arasında qurbanlar daha çox olur.

Bəzən, münaqişə daxili münaqişə kimi başlayır, ölkə daxilində müəyyən silahlı qruplaşma öz hökumətinə qarşı mübarizə aparır. Lakin sonra digər bir dövlət həmin silahlı qruplaşmaya birbaşa və ya dolayı yolla dəstək veirir. Yaxud daxili silahlı münaqişəyə çoxmillətli sülhməramlı kontingent müdaxilə edir. Göstərilən hallarda daxili silahlı münaqişə beynəlxalq silahlı münaqişəyə çevrilir.

Keçmiş Yuqoslaviya üzrə beynəlxalq tribunal 1999-cu ildə qəbul etdiyi qərarda (İT-94-1-A, § 84) göstərir ki, dövləti ərazisində başlamış daxili silahlı münaqişə aşağıdakı hallarda inkişaf edərək beynəlxalq silahlı münaqişəyə çevrilə bilər:

1) münaqişəyə digər dövlətin qoşun birlikləri müdaxilə edərsə;

2) daxili silahlı münaqişənin bir sıra iştrakçıları həmin dövlətin adından çıxış edərsə.

Daxili silahlı münaqişəyə xarici müdaxilə zamanı kifayət qədər mürəkkəb vəziyyət yaranır. Çünki bu zaman iki antoqonist iki məqam kontekstində dilemma mövcud olur. Həmin məqamlar isə aşağıdakılardır: a) beynəlxalq tənizmetmə vasitəsilə humanitar təsir; b) beynəlxalq hüquq normaları ilə təsbit edilmiş dövlət suverenliyinə hörmət prinsipi. Fikrimizcə, göstərilən mürəkkəb vəziyyətdən çıxış yolu hər iki məqamı nəzərə alan balanslı yanaşma ola bilər.

Müəlliflərdən T.V.Kuvırçenkova yuxarıda qeyd olunan məqamlara əsaslanaraq qeyd edir ki, müasir şəraitdə daxili silahlı münaqişələrin (qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrin) anlayışına dair baxışların yenidən nəzərdən keçirilməsi zərurətə çevrilmişdir. Hazırkı dövrdə silahlı münaqişələr daxili münaqişə kimi başlayır, sonradan isə dövlətin hüdudlarından kənara çıxaraq beynəlmiləlləşir. Beynəlxalq hüququn əsas prinsiplərindən biri dövlətin daxili işlərinə qarışmamaq olsa da, bu yalnız nəzəri xarakter daşıyır. Əgər son illər bir sıra dövlətlərdə baş verən daxili ziddiyyətlərlə bağlı situasiyaları nəzərdən keçirsək görərik ki, qeyribeynəlxalq xarakterli silahlı münaqişələr dövlətin hüdudlarından kənara çıxaraq beynəlxalq silahlı münaqişəyə çevrilmişdir [4, s. 240-246]. Məsələn, İraq və Liviyadakı silahlı münaqişləri buna misal olaraq göstərmək olar.

Ədəbiyyatda beynəlxalq münasibətlər praktikasının təhlili əsasında göstərilir ki, beynəlxalq silahlı münaqişələrə həm döyüşən tərəflərdən birinin maraqları naminə daxili silahlı münaqişəyə üçüncü dövlətin müdaxiləsini, həm də sülhün dəstəklənməsi üzrə BMT silahlı qüvvələrinin iştirakını aid etmək lazımdır. Əgər silahlı qüvvələrin tətbiqi barədə BMT Təhlükəsizlik Şurasının qərarı nadir hallarda qəbul olunursa, döyüşən tərəflərdən birinin üçüncü dövlət tərəfindən dəstəklənməsi bir çox daxili silahlı münaqişələr üçün xarakterik haldır. Bəzi müəlliflər isə fərqli mövqedən çıxış edərək göstərirlər ki, belə silahlı münaqişələri öz xüsusiyyətləri olan qeyri-beynəlxalq silahlı münaqişə kimi xaraktrizə etmək lazımdır. Həmin müəlliflərin fikrincə, silahlı münaqişələr hüququnda qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrin ayrıca növü kimi beynəlmiləlləşmiş silahlı münaqişələri fərqləndirmək lazımdır. Bu cür münaqişələr son onilliklərdə beynəlxalq münasibətlər sisteminin tez-tez rast gəlinən siyasi-hüquqi təzahürünə çevrilmişdir. Onun fərqləndirici xüsusiyyətinə aydın surətdə ifadə olunan iki aspektin qarşılıqlı əlaqədə vəhdət halında mövcud olmasıdır [12, s. 22] – dövlətdaxili aspekt və beynəlxalq aspekt.

Mütəşəkkil silahlı qruplaşmalar arasında transsərhəd xarakterli toqquşmalar baş verdiyi halda formal hüquqi baxımdan silahlı münaqişənin beynəlxalq və ya qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə aid edilməsi kifayət qədər qəlizləşir və faktiki hallardan asılı olur.

Eyni zamanda, bir tərəfdən dövlət və ya dövlətlərin koalisiyası, digər tərəfdən isə transsərhəd və ya dövlətlə sabit bağlılığı olmayan, terrorçuluq məqsədləri güdən birliklər arasında qarşıdurmanın da təsnif edilməsi mürəkkəb görünür. ABŞ-ın məhkəmə doktrinasında bəhs edilən kateqoriya münaqişələrin qeyri-beynəlxalq xarakterli münaqişələrə aid edilməsi təklif olunur. Çünki hesab

olunur ki, mahiyyət etibarilə burada dövlətlər və qeyri-dövlət subyektləri qarşı-qarşıya gəlir. İsrailin məhkəmə doktrinası isə dövlət və terrorçuluq məqsədləri güdən qeyri-dövlət subyektləri arasında qarşıdurmanın silahlı münaqişələrin ayrıca kateqoriyası kimi fərqləndirilməsini istisna etməsə də, belə münaqişələrin daha çox beynəlxalq münaqişə kimi xarakterizə olunmasına üstünlük verir [18]. Bəzən, mövcud qeyri-beynəlxalq xarakterli silahlı münaqişəyə sonradan başqa dövlət və dövlətlər daxil olur. Bu zaman onu xarici müdaxiləli silahlı münaqişə kimi xarakterizə edirlər.

Hazırda terrorçuluğun, xüsusən də, beynəlxalq terrorçuluğun geniş yayılması narahatlıq doğurur. Ölkədaxili iğtişaş və gərginlik dövründə törədilən terror aktları dövlətdaxili qanunvericiliyə uyğun təsnif edilir və beynəlxalq humanitar hüquq normalarının tətbiqinə səbəb olmur, ən azından, tam həcmdə. Beynəlxalq terrorçuluq başqa məsələdir. Beynəlxalq terrorçuluqla müharibənin silahlı münaqişələrə aid edilməsi, habelə beynəlxalq terror təşkilatlarının üzvlərinə silahlı münaqişə iştirakçısı statusunun şamil olunması cəhdləri ciddi təhlil tələb edir. Əsaslı sual yaranır: beynəlxalq terrorçuluq silahlı münaqişələrin klassik növlərinin əlamətləri və müvafiq normaları ilə əhatə olunurmu, yoxsa onun inkişafı ilə bəşəriyyət silahlı münaqişələrin yeni növünün fərqləndirilməsi və onun müstəqil normativ tənzimlənməsi zərurəti ilə qarşılaşacaq? 1977-ci ildə “Müharibə qurbanlarının müdafiəsi haqqında” 1949-cu il Cenevrə Konvensiyasına II Əlavə Protokol belə qəbul olunmuşdu. Məlum olduğu kimi, həmin protokol qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə həsr olunub. Beynəlxalq terror təşkilatlarının silahlı münaqişə tərəfi kimi nəzərdən keçirilməsi onun üzvlərinə müəyyən statusun verilmısini tələb edir. Lakin, ilk növbədə, hansı münaqişədən, yəni beynəlxalq yaxud qeyri-beynəlxalq silahlı münaqişədən söhbət getdiyi aydınlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, beynəlxalq terrorçuluğun geniş yayılması ilə bağlı “assimmetrik müharibə” termini daha çox işlədilməyə başlamışdır. Termin özü kifayət qədər yenidir. Lakin partizan müharibələri ilə bağlı vəziyyət fərqlidir. Bir sıra müəlliflər hesab edir ki, assimmetrik hərbi əməliyyatların aparılması silahlı münaqişələrin klassik anlayışını və növlərini sual altına alır. Assimmetrik hərbi əməliyyatlar “öz üstünlüyünü artırmaq, rəqibin zəif tərəflərindən istifadə etmək, təşəbbüsü ələ almaq və daha çox hərəkət sərbəstliyinə malik olmaq üçün rəqibdən fərqli hərəkət etmək, təşkilatlanmaq və düşünmək” [6, s. 138; 20, s. 95-125; 19; 16] qabiliyyətidir.

Silahlı münaqişə 1949-cu il Cenevrə Konvensiyasının razılığa gəlmiş Yüksək Tərəfləri arasında baş verdiyi halda beynəlxalq münaqişə kimi xarakterizə olunur. Belə tərəflər kimi, təbii ki, dövlətlər çıxış edir. I Əlavə Protokolun iştirakçı dövlətləri milli azadlıq hərəkatlarının bəlli tiplərinin beynəlxalq silahlı münaqişədə tərəf kimi tanınması barədə razılığa gəlsələr də, konflikt dövründə onlar beynəlxalq hüquqa əsasən suveren dövlət kimi tanınmırlar. Tərəflərini nə dövlətlər, nə də milli azadlıq hərəkatları təşkil etməyən silahlı qarşıdurmalar beynəlxalq silahlı münaqişə kimi nəzərdən keçirilə bilməz. Onlar ya qeyri-beynəlxalq silahlı münaqişə, ya da digər zoralıq halları kimi xarakterizə oluna bilər.

Yeni, beynəlxalq hüquqi təsnifatda öz təsbitini tapmamış silahlı münaqişə növlərindən biri kimi informasiya müharibələri çıxış edir. Bəzən informasiya müharibəsinin real nəticəsi kifayət qədər əhəmiyyətli ola, ciddi dağıntılara və tələfata səbəb ola bilər. Belə münaqişə "prosessor və klaviatura ilə silahlanan və başqa kontinentdə yerləşən mülki şəxslərin statusunun və hərəkətlərinə nəzarətin müəyyən edilməsi" [16] problemini meydana çıxarır.

Müasir şəraitdə ölkədaxili iğtişaşların və ölkədaxili gərginliyin qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrdən fərqləndirilməsi, habelə göstərilən hallarda beynəlxalq humanitar hüquq normalarının tətbiqi ciddi çətinliklərlə müşayiət olunur.

Qiyamlar, iğtişaşlar və ayrı-ayrı zorakılıq aktları silahlı münaqişələrə aid edilmir. Çünki onlar daxili gərginlik və ya daxili qarışıqlıq hallarının nəticəsidir. Həmin hallar isə beynəlxalq humanitar hüququn tətbiq sahəsinə daxil deyildir. "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasına (1949-cu il) II Əlavə Protokolun (1977) Kommentarisində [3] daxili iğtişaş və gərginlik hallarına əvvəlcədən razılaşdırılmamış plan üzrə nümayişlər, təsadüfi zorakılıq aktları, fəaliyyətinə və ya baxışlarına görə insanların kütləvi həbsi kimi şərh verilir.

Beynəlxalq humanitar hüquq normalarında aydın şəkildə göstərilir ki, həmin normaları nə daxili qarşıdurmalar, nə də daxili gərginlik hallarında tətbiq etmək olmaz. Lakin "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasının (1949-cu il) əsas prinsipləri hüquqi prosedur modeli kimi istifadə oluna və ya hansısa konkret vəziyyətlərdə tətbiq edilmək zəruri olan normaların işlənib hazırlanması üçün əsas kimi çıxış edə bilər. Belə hallarda humanitar hüququn pozitiv normaları deyil, ilk növbədə, beynəlxalq ictimaiyyət tərəfindən müəyyən edilmiş oxşar mexanizmlər nəzərə alınır [10, s. 36-37]. Bu isə hüququn analogiya üzrə tətbiqi imkanına əsaslanır.

Beləliklə, bu məqalədə qeyd edilən bütün fikirləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Beynəlxalq humanitar hüquqda silahlı münaqişələr, bir qayda olaraq iki qrupa bölünür: a) beynəlxalq silahlı münaqişələr; b) qeyri-beynəlxalq silahlı münaqişələrə bölünür. Bu təsnifatın formalaşması hərbi faktorlardan daha çox tarixi-siyasi faktorlarla bağlı olmuşdur.

2. Hazırkı reallıqlar fonunda beynəlxalq və qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr arasında fərqlərin getdikcə azalması və daha çox şərti xarakter daşıması tendensiyası müşahidə olunur. Bu tendensiyanın inkişafına silahlı münaqişəyə xaricdən müdaxilə faktoru xüsusilə fəal təsir göstərir.

Daxili silahlı münaqişəyə xarici müdaxilə zamanı kifayət qədər mürəkkəb vəziyyət yaranır. Çünki bu zaman iki antoqonist iki məqam kontekstində dilemma mövcud olur. Həmin məqamlar isə aşağıdakılardır: a) beynəlxalq tənizmetmə vasitəsilə humanitar təsir; b) beynəlxalq hüquq normaları ilə təsbit edilmiş dövlət suverenliyinə hörmət prinsipi. Fikrimizcə, göstərilən mürəkkəb vəziyyətdən çıxış yolu hər iki məqamı nəzərə alan balanslı yanaşma ola bilər.

3. Silahlı münaqişənin xarakteri və növü ilə həmin silahlı münaqişə zamanı tətbiq

edilməli olan beynəlxalq humanitar hüquq normalarının düzgün seçilməsi və səmərəli tətbiqi arasında bağlılıq vardır. Bu baxımdan silahlı münaqişələrin təsnifatının dəqiq aparılması və silahlı münaqişə növlərindən hər birinin xarakterinin, fərqləndirici cəhətlərinin aşkara çıxarılması yalnız doktrinal deyil, həm də praktiki aspektdə müstəsna əhəmiyyətə malikdir.

4. Qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı aşağıdakı istiqmətlərdə bir sıra çətinliklər, problemlər meydana çıxır:

a) münaqişənin həllinə dair optiamal yanaşmaların tapılması;
b) münaqişəyə ictimai qüvvələr cəlb olunduqda hökumətə məxsus silahlı qüvvələrlə üsyançılar arasında fərqləndirmə aparılması;
c) daxili silahlı münaqişəyə digər dövlətin müdaxilə etməsi ilə onun xarakterinin dəyişməsi;
ç) silahlə münaqişənin mütəşəkkil silahlı qruplaşmalar arasında transsərhəd xarakterli toqquşmalar şəklində baş verməsi;
d) beynəlxalq terrorçuluqla mübarizənin silahlı münaqişə kimi xarakterizə olunması;
e) assimmetrik hərbi əməliyyatların silahlı münaqişələrin klassik anlayışını və növlərini sual altına alması;
ə) informasiya müharibələrinin silahlı münaqişə növü kimi xarakterizə olunması və s.

5. Müasir şəraitdə ölkədaxili iğtişaşların və ölkədaxili gərginliyin qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrdən fərqləndirilməsi, habelə göstərilən hallarda beynəlxalq humanitar hüquq normalarının tətbiqi ciddi çətinliklərlə müşayiət olunur.

**Ədəbiyyat**


1. Большая советская энциклопедия. - Москва: Советская Энциклопедия, 1973. - 608 с.
2. Иванов, Е.А. Логика. Учебник. 2-е издание, переработанноеи дополненное / Е.А.Иванов. - Москва: Издательство БЕК, 2002.–368 с.
3. Комментарий к Дополнительному протоколу к Женевским конвенциям от 12 августа 1949 года, касающемуся защиты жертв вооруженных конфликтов немеждународного характера (Протокол II): [Электронный ресурс] / URL: https://www.icrc.org/ru/document/kommentariy-k-dopolnitelnomu-protokolu-k-zhenevskim-konvenciyam-ot-12-avgusta-1949-goda
4. Кувырченкова, Т.В. К понятию вооруженных конфликтов: проблемы определения // Вестник ТвГУ. Серия «Право», 2014. № 4, - с. 240-246.
5. Кувырченкова, Т.В. Защита прав человека в условиях внутренних вооруженных конфликтов: монография / Т.В.Кувырченкова. - Тверь: Твер ГУ, 2007. - 88 с.
6. Ладыненко, А.П. Виды вооруженных конфликтов и применимое к ним право // Альманах міжнародного права, 2009. Вип. 1, - с. 136-150.
7. Леншин, С.И. Правовой режим вооружённых конфликтов и международное гуманитарное право: Монография. Серия «Право в Вооруженных Силах — консультант» / С.И.Леншин. – Москва: За права военнослужащих, 2009. - 240 с.
8. Литовченко, В.И. Классификация и систематизация терминов // Вестник Сибирского государственного аэрокосмического университета имени академика М.Ф.Решетнева, Сибирский аэрокосмический журнал, 2006. № 3 (10), - с. 156-159.
9. Мельцер, Н. Международное гуманитарное право. Общий курс / Н.Мельцер, Э.Кустер.- Москва: МККК, 2017. - 419 с.
10. Репецький, В.М. Міжнародне гуманітарне право: підручник / В.М.Репецький, В.М.Лисик. – Киев: Знання, 2007. - 467 с.
11. Сагер, М. Контрольные механизмы в международном гуманитарном праве // Со-

ветский журнал международного права, 2014. № 3-4, - с. 26-33.
12. Смирнов, М.Г. Вооруженный конфликт немеждународного характера: международно-правовой аспект / М.Г.Смирнов. - Москва: Норма, 2014. - 208 с.
13. Суперанская, А.В. Общая терминология. Вопросы теории / А.В.Суперанская, Н.В.Подольская, Н.В.Васильева. - Москва: Наука, 1989. - 254 с.
14. Толочко, О.Н. Особенности международно-правового регулирования внутренних вооруженных конфликтов // Український часопис міжнародного права, 2006. № 2, - с. 45-52.
15. Тузмухамедов, Б.Р. Международно-правовая классификация вооруженных конфликтов: дефиниции и реальность // Пути к миру и безопасности, 2018. № 1 (54), - с. 44-53.
16. Уоткин, К.У. Комбатанты, «непривилегированные воюющие» и конфликты XXI века: материал для Неформальной встречи экспертов на высшем уровне, посвященной теме «Подтверждение и развитие международного гуманитарного права», – Кембридж, 2003: [Электронный ресурс] / URL: http://www.sk-news.ru/mgp/doc/doc_07_05.doc
17. Commentary on the First Geneva Convention: Convention (I) for the Amelioration of the Condition of the Wounded and Sick in Armed Forces in the Field, 2nd ed., ICRC/ - Cambridge: Cambridge University Press, 2016, - 1294 p.
18. "Confronting the dangers of terrorism constitutes a part of the international law dealing with armed conflicts of international character". The Public Committee against Torture in Israel v. The Government of Israel, 11 December 2005, Case HCJ 769/02, para 21: [Electronic resource] / URL: https://supreme.court.gov.il/sites/en/Pages/fullsearch.aspx.
19. Metz, S., Johnson, D.V. Asymmetry and U.S. Military Strategy: Definition, Background, and Strategic Concepts / Strategic Studies Institute Report, US Army War College, 2001. – 30 p.
20. Pfanner, T. Asymmetrical warfare from the perspective of humanitarian law and humanitarian action / Toni Pfanner // International Review of the Red Cross, 2005. № 857, pp. 95-125.

## ВИДЫ ВООРУЖЕННЫХ КОНФЛИКТОВ В МЕЖДУНАРОДНОМ ГУМАНИТАРНОМ ПРАВЕ

**Мамедов Насир Натиг оглы,**
**доктор философии по праву, докторант БГУ.**

В данной статье рассматриваются виды вооруженных конфликтов в международном гуманитарном праве. Автор показывает, что, как правило, разделение вооруженных конфликтов на две группы (международные вооруженные конфликты; немеждународные вооруженные конфликты) в международном гуманитарном праве было больше связано с историческими и политическими факторами, чем с военными факторами. В статье обосновано, что точная классификация вооруженных конфликтов, раскрытие характера и отличительных особенностей каждого из видов вооруженных конфликтов имеют исключительное значение не только в доктринальном, но и в практическом аспекте. Автор также обращает внимание на трудности, возникающие во время вооруженных конфликтов немеждународного характера.

**Ключевые слова:** международное право, международное гуманитарное право, вооруженный конфликт, виды вооруженных конфликтов, международные вооруженные конфликты, немеждународные вооруженные конфликты, внутренние беспорядки, международный терроризм.

## TYPES OF ARMED CONFLICTS IN INTERNATIONAL HUMANITARIAN LAW

**Mammadov Nasir Natig oglu,**
**doctor of philosophy in law, doctoral student of BSU.**

This article examines the types of armed conflicts in international humanitarian law. The author shows that, as a rule, the division of armed conflicts into two groups (international armed conflicts; non-international armed conflicts) in international humanitarian law was more related to historical and political factors than military factors. In the article, it is justified that the accurate classification of armed conflicts and the revealing of the character and distinguishing aspects of each of the types of armed conflicts are of exceptional importance not only in the doctrinal but also in the practical aspect. The author also draws attention to the difficulties that arise during armed conflicts of a non-international nature.

**Key words:** international law, international humanitarian law, armed conflict, types of armed conflict, international armed conflicts, non-international armed conflicts, domestic unrest, international terrorism.

## ULUSLARARASI İNSANCI HUKUKTA SİLAHLI ÇATIŞMA TÜRLERİ

**Memmedov Nasır Natig oğlu,**
**hukuk felsefesi doktoru, BSU doktora öğrencisi.**

Bu makale uluslararası insancıl hukukta silahlı çatışma türlerini incelemektedir. Yazar, uluslararası insancıl hukukta silahlı çatışmaların iki gruba ayrılmasının (uluslararası silahlı çatışmalar; uluslararası olmayan silahlı çatışmalar) kural olarak askeri faktörlerden ziyade tarihi ve siyasi faktörlerle ilgili olduğunu göstermektedir. Makalede, silahlı çatışmaların doğru bir şekilde sınıflandırılmasının ve her bir silahlı çatışma türünün karakterinin ve ayırt edici yönlerinin ortaya konulmasının, sadece doktrinsel değil, pratik açıdan da olağanüstü önem taşıdığı savunulmaktadır. Yazar ayrıca uluslararası nitelikte olmayan silahlı çatışmalar sırasında ortaya çıkan zorluklara da dikkat çekiyor.

**Anahtar kelimeler:** uluslararası hukuk, uluslararası insani hukuk, silahlı çatışma, silahlı çatışma türleri, uluslararası silahlı çatışmalar, uluslararası olmayan silahlı çatışmalar, iç karışıklıklar, uluslararası terörizm.

# Miqrasiya sahəsində beynəlxalq hüququn prinsip və normalarının formalaşması və miqrasiya proseslərinin hüquqi tənzimlənmə məsələləri

**Natəvan Zeynalova-Sulatnova,**
**Bakı Dövlət Universitetinin doktorantı.**
e-mail: zeynalova.natevan@mail.ru

*Məqalədə miqrasiya sahəsində beynəlxalq hüququn prinsip və normalarının formalaşmasından bəhs olunur. Eyni zamanda, məqalədə formalaşmış normativ baza əsasında miqrasiya proseslərinin hüquqi tənzimlənməsi məsələləri təhlil edilir. Bu təhlil istiqamətində miqrasiya sahəsində hüquqi tənzimetmənin tarixi inkişaf xüsusiyyətləri araşdırılır. Bu kontekstdə beynəlxalq müqavilə əsaslı hüquqi tənzimetmənin xüsusiyyətləri müəyyən edilir. Həmçinin bu sahədə hüquqi əhəmiyyət kəsb edən beynəlxalq sənədlər təhlil edilir.*

**Açar sözlər:** miqrasiya, beynəlxalq hüquq, prinsip və normalar, miqrasiya prosesləri, hüquqi tənzimetmə.

Müasir dövrdə beynəlxalq hüququn prinsip və normaları dövlətlərarası əməkdaşlığın bütün sferalarına sirayət etməkdədir. Yeni dövrün tələbləri kontekstində bütün dünyada qloballaşma və inteqrasiya prosesləri intensivləşir və bu proseslər innovativ hüquq qaydalarını zəruri edir. Qlobal məkanda iqtisadi, sosial, siyasi, hərbi və s. kommunikasiyalar əhali axınını və ya insanların tarnsərhəd hərəkətlərini də təbii proses kimi zəruri etmişdir. Hüquq elmləri doktoru N.N.Zinçenkonun da qeyd etdiyi kimi, müasir beynəlxalq münasibətlər sosial məkanın və sosial tərəqqinin dərk edilməsi üçün yeni imkanlar açan qlobal transmilli inteqrasiya prosesləri ilə xarakterizə olunur. Yer kürəsinin ümumi əhalisi artdıqca miqrasiya axınlarının həcmi artır, yeni kəmiyyət və keyfiyyət xüsusiyyətləri əldə edir [6, s.3]. Müxtəlif sahələrdə transmilli əlaqələrin dərinləşməsi, siyasi kataklizmlərin, müharibələrin, ticarət və kapital dövriyyəsinin artması təbii olaraq miqrasiya proseslərini daha da aktuallaşdırmışdır. Bu isə miqrasiyanın beynəlxalq hüquqi tənzimetmə məsələlərini publik tələbat olaraq ortaya çıxarır. Ona görə də, bu elmi araşdırmanın ilk hissəsində biz, beynəlxalq miqrasiya hüququnun koseptual problemlərini, miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsiplərinin formalaşmasını və tarixi inkişafını, miqrasiya proseslərinin hüquqi tənzimlənmə məsələlərini təhlil edəcəyik.

Hindistanlı alim Dr. Ritumbra Manuvie yazır ki, miqrasiya ilə bağlı beynəlxalq siyasət və beynəlxalq sərhədlər getdikcə qapalı olur; siyasi təbliğatlar səbəbindən miqrantlara qarşı stereotiplər qlobal miqyasda artmış, bu gün dünya nüvə müharibəsinə, aclığa və iqlim fəlakətinə qərq olmaqdan bir neçə dəqiqə uzaqdadır [20, s.8]. Miqrasiya kimi qlobal sosial və iqtisadi transformasiyalarla bağlı qlobal miqyasdakı dəyişiklikləri, yaranan tendensiyaları və dəyişən demoqrafik informasiyaları anlamaq bizə yaşadığımız dəyişən dünyanı dərk etməyə kömək edir. Son statistik məlumatlara görə, 2020-ci ildə dünyada təxminən 281 milyon beynəlxalq miqrant olub ki, bu da dünya əhalisinin 3,6 faizinə bərabər hesab edilir. 2020-ci ildə bu rəqəm 281 mil-

yon [28] olubsa, 2017-ci ildəki məlumata görə, miqrantların sayı 258 milyon [29], 1990-cı ildə isə 128 milyon nəfər təşkil etmişdir. Son illər miqrasiya axınlarının intensivləşməsi, o cümlədən də coğrafi xəritəsinin genişlənməsi ölkələrin demoqrafik və iqtisadi vəziyyətinə öz müsbət təsirini göstərməklə yanaşı, bu, proses iştirakçılarının sosial adaptasiyası, yerli əhali ilə münasibətlərin formalaşması sahəsində bir sıra problemlərə səbəb olur. Beynəlxalq Miqrasiya Təşkilatının 2023-cü il hesabatına əsasən, bu gün ümumi miqrantların sayı rekord saya – 290 milyona çatmışdır [2]. Bu rəqəmlərin müqayisəli təhlilindən də göründüyü kimi, siyasi, iqtisadi, hərbi, iqlim və s. səbəblərdən asılı olmayaraq, getdikcə qlobal miqyasda miqrasiya prosesləri genişlənir. Artıq miqrasiya münasibətləri beynəlxalq hüququn tənzimetmə sahəsinə aid edilməklə, qlobal xarakter almışdır.

Hüquq elmləri doktoru, prof. İ. A. Umova-Konyuxova qeyd edir ki, miqrasiya hüququ keçən əsrin ikinci yarısından etibarən xüsusi diqqət obyektinə çevrilmişdir. Müharibədən sonrakı və müstəmləkəçilikdən sonrakı dövr bir çox amillərə görə miqrasiyanın sürətlə artmasına səbəb olmuşdur. 21-ci əsrin əvvəllərində miqrasiya axını daha da güclənmişdir [9, s. 8]. Alimin bu fikirlərinə şərik olaraq qeyd edə bilərik ki, müharibələr miqrasiyanı sürətləndirən ən mühüm səbəblərdən biri hesab edilir. Bu səbəbdən də təkcə XX əsr müharibələrindən sonra beynəlxalq hüquq, xüsusiən də miqrasiya, qaçqınlar və siyasi sığınacaq məsələlərinin beynəlxalq hüquqi tənzimlənməsi ilə bağlı müqavilə normaları daha geniş şəkildə inkişaf etməyə başladı.

Bu gün ölkələr arasında miqrasiya münasibətlərinin hüquqi tənzimlənməsi həm elmi, həm də praktiki problemlərdən biri kimi çıxış edir. Miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsiplərinin formalaşması ilə bağlı elmi təfəkkür sahiblərinin də mövqeləri bu mənada müasir reallıqların təzahürü kimi çıxış edir.Corctaun Universitetinin professoru S.Martinin fikrincə, qüvvədə olan beynəlxalq hüquq aşağıdakılarla bağlı normativ-hüquqi bazaya faydalı töhfələr verir: 1) insanların öz sərhədləri boyunca hərəkətini idarə etmək üçün ayrı-ayrı dövlətlərin səlahiyyətləri və öhdəlikləri; 2) beynəlxalq miqrantların hüquq və vəzifələri; 3) insanların beynəlxalq hərəkətlərinin idarə edilməsində dövlətlərin əməkdaşlığı [25].

Göründüyü kimi, insanların sərbəst hərəkət azadlığı miqrasiya proseslərinin tənzimetməsində ən mühüm amil kimi çıxış edir. Burada beynəlxalq hüququn vəzifəsi məhz bu azadlığın çərçivələrini müəyyən etməkdən və prosesi idarə etməkdən ibarətdir.

Miqrasiyanın hüquqi tənzimlənməsi ilk növbədə miqrasiya proseslərinin idarə edilməsində dövlətlərin konkret mövqeyi və siyasi iradəsi ilə bağlıdır. Digər tərəfdən, ötən əsrin ortalarından başlayaraq insan hüquqlarının konkret kateqoriyalarına aid normaların formalaşması və inkişafı miqrantların da hüquq və azadlıqları ilə bağlı məsələlərin aktuallaşmasına səbəb olmuşdur. Bu, təkcə dövlətlər tərəfindən xaricdə öz vətəndaşlarını qorumaq və resipiyent dövlətlərin öz ölkələrində bərabərlik, ədalətlilik və ayrı-seçkiliyə yol verməmək prinsipləri əsasında bütün vətəndaşlara bərabər şərait yaratması üçün əmək miqrasiyası problemi deyil, həm də iqtisadi, sosial və ölkələr arasında təhlükəsizlik məsələləri [11] kimi çıxış edir. Bu mənada siyasi elmlər üzrə fəlsəfə doktoru E.M.Nəsibov haqlı olaraq hesab edir ki, miqrasiya bir proses olaraq, müasir anlamda qlobal-

laşmanın, yəni total olaraq proseslərin xüsusiləşməsinin və universallaşmasının tərkibidir [4, s. 42]. Müasir dövrdə beynəlxalq hüquq miqrasiya siyasətlərinin işlənib hazırlanması ilə bağlı suverenlik və insan hüquqları arasındakı əlaqəni, habelə Braziliya Sao Paulo Universitetinin professoru R.Reisin də qeyd etdiyi kimi, dövlətin beynəlxalq miqrasiyada rolunu, beynəlxalq insan hüquqları qanunvericiliyinin inkişafının miqrasiya məsələsinə təsirini və nəhayət beynəlxalq miqrasiyanın dövlətin əhalisi və ərazisi üzərində nəzarət [21] məsələlərini tədqiq edir. Bununla bağlı professor V. Çetail qeyd edir ki, beynəlxalq miqrasiya hüququ həm hərfi, həm də məcazi mənada dekonstruktivist arxitektura kimi təsvir edilə və konseptuallaşdırıla bilər. Onun fikrincə, beynəlxalq miqrasiya hüququnun təməl daşları alimlər tərəfindən qonaqpərvərlik və suverenlik arasındakı dialektika vasitəsilə qoyulmuş, onun ümumi dizaynı isə dövlətlər tərəfindən olduqca qeyri-sabit bir şəkildə formalaşmışdır [10, s.18-23]. İnsanlar yer üzündə məskunlaşdıqca miqrasiya insan fəaliyyətinin ayrılmaz hissəsi olmuşdur. Miqrasiya həm fərdlər və ailələr, həm də tayfalar üçün qida, sığınacaq və təhlükəsizliyə olan fiziki ehtiyaca, macəra üçün psixoloji ehtiyaca ənənəvi reaksiya hesab edilir. Miqrasiya bəşər tarixinin bütün dövrlərini əhatə edir.Prof. İ.İ. Lukaşuk yazır ki, miqrantların, xaricilərin hüquqi vəziyyətinin inkişafı bəşər sivilizasiyasının yaranması ilə bağlıdır. Onun fikrincə, Qədim dünyada və orta əsrlərdə miqrantlar hüquqsuz idilər, lakin XIX əsrdən etibarən beynəlxalq iqtisadi əlaqələrin inkişafı ilə bağlı olaraq onların hüquqi vəziyyəti hiss olunacaq dərəcədə dəyişməyə başlamışdır [7, s. 27]. Bu fikirlərlə razılaşaraq qeyd etmək lazımdır ki, miqrasiya hüququ ilə bağlı normaların formalaşması da məhz beynəlxalq iqtisadi və ticarət münasibətlərinin inkişafı və genişlənməsi ilə bilavasitə bağlı məsələdir.

Miqrasiya proseslərinin beynəlxalq müqavilə əsasında hüquqi tənzimlənməsi ilə bağlı məsələlər daha qadim tarixə malikdir. Miqrasiyanın tarixi aspektlərinin təhlilinin aktuallığını qeyd edən hüquq elmləri doktoru, professor Əmir Əliyev beynəlxalq münasibətlər sistemində mühüm əhəmiyyəti olan razılaşma – Misir fironu ilə Het hökmdarı arasında bağlanan müqaviləni miqrasiyaya dair müddəaların nəzərdə tutulduğu ilk müqavilələrdən biri hesab edir [1, s. 332]. Alimin bu fikirlərinə qatılaraq, hesab edirik ki, miqrasiyanın hüquqi tənzimlənməsi ilə ilkin hüquqi müddəalar məhz Qədim Şərqdə formalaşmış, daha sonra bu normalar digər regionlarda miqrasiya proseslərinin hüquqi tənzimetməsinə təsir etməyə başlamışdır.

Əlbəttə, istisna edilmir ki, miqrasiya prosesləri ilkin olaraq dövlətdaxili hüquqi müstəvidə özünün tənzimetməsinə nail olmuşdur. Bu mənada Qədim Yunanıstanda və Romada miqrasiya hüququnun ilkin rüşeymlərini görmək mümkündür.

Prof. N.İ. İlinskiy yazır ki, e.ə. VI əsrdə Afina dövlətində əhəmiyyətli fərmanların dərc olunması (sonralar Solon Konstitusiyasının əsasını təşkil etmişdir) bütün “siyasi sürgünlərin” hüquqlarını bərpa edən amnistiya aktı ilə müşayiət olunmuşdur [5, s. 127]. Bu amnistiya aktı miqrantların hüquqları baxımından əhəmiyyətli hüquqi hadisə olmuşdur. Çünki, daha sonra Yunanıstanda Solon qanunları əsasında əcnəbilərə vətəndaşlıq verilmişdir. Yəni, beynəlxalq hüquqda naturalizasiya ilə bağlı ilkin normalar məhz bu zaman formalaşmağa başladı. O dövrün digər dövlətləri ilə müqayisədə Afina dövləti miqrasiya hüququnun müəyyən aspektlərini tən-

zimləməkdə kifayət qədər irəli getmiş və ilk olaraq miqarasiyanın dövlətxali hüquqi müstəvidə tənzimetməsini həyata keçirmişdir.

Miqrasiya proseslərinin tənzimlənməsi məsələsi mülki hüququn vətəni olan Qədim Romada da inkişaf etmişdir. Məlum olduğu kimi, Roma dövlətinin ərazisində ilkin əhalinin tərkibinə daxil olmayan insanlar (patrisilər) yaşayırdılar. Bu yadellilər Romaya gələn plebeylər adlandırılırdılar. Romada miqrantlar hesab edilən plebeylərin hüquqi rejimi müəyyən edilməyə başladı. Əvvəllər plebeylər Roma xalqına mənsub hesab edilmirdilər, icma torpaqlarına çıxışı yox idi və siyasi hüquqlardan məhrum idilər. Bununla belə, onların hüquqi statusu zamanla inkişaf etməyə başladı. E.ə. 445-ci ildə qanunla plebeylərə patrisi qadınlarla evlənməyə icazə verilmiş, e.ə. 4-cü əsrdə bir sıra qanunlar plebeylərə respublikanın bütün vəzifələrinə çıxış imkanı verdi. Beləliklə, plebeylərin hüquqları tədricən patrisilərin hüquqları ilə bərabərləşdirildi [8, s. 67]. Göründüyü kimi, miqrasiya hüququ ilə bağlı normaların inkişafı və formalaşması tədrici inkişaf prosesi keçmiş, bu hüquq ölkədaxili səviyyədən beynəlxalq hüquqi mərhələyə tədricən keçmişdir.

Mahiyyət etibarilə "beynəlxalq miqrasiya" fenomeni hökumətlərin müəyyən edilmiş coğrafi sərhədlərdə məskunlaşmış əhali üzərində səlahiyyətə malik olması deməkdir. Bu, daha çox orta əsrlərin beynəlxalq hüquq tarixində özünün büruzə vermişdir. 1648-ci il tarixli Vestfaliya müqaviləsi orta əsr beynəlxalq münasibətlər sistemində yeni geosiyasi mənzərənin formalaşmasında kritik dönüş nöqtəsi olmuşdur. Sonrakı iki əsr ərzində fərdlər dövlətin sərhədlərini keçərkən mühüm azadlıqdan istifadə etdilər. Bu, qədim mədəniyyətlərdən miras qalmış və kosmopolitizm vasitəsilə ifadə olunan yad insanlara qonaqpərvərlik münasibətini əks etdirirdi. Zaman-zaman ticarət və başqa məqsədlər üçün insanların sərhədləri aşmasına liberal münasibət bəslənilmişdir. Əvvəllər miqrasiyanın hüquqi tənzimlənməsi praktiki səbəblərə və miqrasiya edən insanların say azlığına görə bir o qədər də aktual olmamışdır. Kembric Universitetinin alimləri qeyd edirlər ki, bu laissez-faire yanaşmasında bəzi nəzərəçarpacaq istisnalar var idi, lakin beynəlxalq miqrasiyanı tənzimləmək üçün hüququn tətbiq olunduğu hallar az idi [19]. Göründüyü kimi, miqrasiya sahəsində hüquq normalarının formalaşmasına təsir edən amillər məhz miqrasiyanın kütləvi xarakteri və ona beynəlxalq praktikada yaranan sosial tələbatdır.

Qeyd olunduğu kimi, miqrasiyanın beynəlxalq hüquq normaları ilə tənzimlənməsi orta əasrlərə aid edilir. XVI-XVIII əsrlərdə insanların sərhədləri aşması beynəlxalq hüquqçular arasında geniş müzakirə predmeti olmuşdur. Məhşur ispan hüquqşünası və filosofu Fransisko Viktoriya (1480-1546) miqrasiyanı millətlər hüququnun ayrılmaz tərkib hissəsi kimi konseptuallaşdıran ilk alim hesab edilir. Onun "Beynəlxalq hüquq və müharibə" əsəri [12] dövlətlərarası münasibətlərdə müxtəlif hüquqi konsepsiyalara, o cümlədən miqrantların hüquq və vəzifələri ilə bağlı tendensiyalara aydınlıq gətirmişdir. Onun ius communicationis nəzəriyyəsi xüsusilə bu normaların yaranmasını şərtləndirən konseptual bazis hesab edilə bilər. Həmin konsepsiyaya görə, insanların təbii ünsiyyətcilliyinə əsaslanan beynəlxalq hüququn məcburi norması kimi insanların sərbəst hərəkəti təsbit edilməyə başlanmışdır [10]. Əslində belə bir kommunikasiya hüququ dünya yaranandan mövcud olmuşdur.

ABŞ-ınKaton İnstitutunun imiqrasiya siyasəti üzrə analitiki A. Nouraste F. Viktoriyanı

təhlil edərkən yazır ki, o, insanların sərbəst hərəkətinin ünsiyyət hüququ vasitəsilə beynəlxalq hüququn əsas xüsusiyyəti olduğunu iddia etdi, yəni insanların bir-biri ilə kommunikasiya hüququ onların ünsiyyət üçün hərəkət etmək hüququna malik olmasını nəzərdə tutur. F.Viktoriya, bundan istifadə edərək ispanların Amerikaya üz tutduqda onların qitəni istila etmək və ya işğal etmək hüququ olmadığını iddia edirdi. Bununla belə, o, ispanların "barbarlara zərər vermədikləri müddətcə həmin ölkələrdə səyahət etmək və yaşamaq hüququna malik olduğunu" da iddia etməyə davam etdi [24]. Bununla da beynəlxalq hüquqda ilk dəfə olaraq, insanların miqrasiya və ya səyahət etmək hüququ elmi əsaslarla formalaşmış və daha sonrakı dövrlərdə inkişaf etmişdir.

Beynəlxalq hüquq elmində əlbəttə, müxtəlif konsepsiya və nəzəriyyələr həmişə mühüm rol oynamışdır. Həmçinin, miqrasiyanın hüquqi tənzimi ilə bağlı 19-cu əsrdə beynəlxalq hüquq sahəsində görkəmli alimlərin əsərləri çox vaxt beynəlxalq hüququn mənbələri hesab edilmişdir. Lakin tarixən beynəlxalq hüquq doktrinaları həmişə millətçilikdən əziyyət çəkmiş və yalnız son zamanlar beynəlxalq hüquq nəzəriyyəsinin beynəlmiləlləşməsi prosesi güclənmişdir.

Qeyd edilənləri əsaslandırmaq üçün Amsterdam Vrije Universiteitinin professoru Tomas Spijkerboer yazır ki, 18-ci əsrdə Emer de Vattel miqrasiya hüququnun təbii hüquq olduğunu müdafiə etmişdir. Lakin, onun fikrincə, miqrasiyanın əhaliyə zərər verib-verməyəcəyi qərarının miqrantı qəbul edən dövlətin ixtiyarındadır. Miqrasiya hüququ beynəlxalq müqavilələrdə normativləşmişdir. Baxmayaraq ki, miqrant hüquqları beynəlxalq adət hüququndan qaynaqlanır, lakin miqrasiya münasibətlərinin tənzimlənməsi eyni zamanda müqavilə hüququna da söykənir [16]. Bu isə əlbəttə, onu deməyə əsas verir ki, miqrasiyanın beynəlxalq hüquqi tənzimetməsinin ilkin normativ əsasını beynəlxalq adətlər, sonrakı hüquqi əsasını isə beynəlxalq müqavilələr təşkil etmişdir.

İkitərəfli müqavilələr bu kontekstdə miqrasiya hüququnun ilkin və mühüm sənədləri sayılır. 1868-ci il tarixində ABŞ və Çin arasında imzalanmış Burlinqeym Müqaviləsində miqrasiya hüququ "insanın evini və sədaqətini dəyişmək üçün fundamental və ayrılmaz hüququ, həmçinin maraq, ticarət və ya daimi sakinlər kimi vətəndaşların bir ölkədən digərinə sərbəst miqrasiya və emiqrasiyasının qarşılıqlı üstünlüyü" [26]kimi təsbit olunmuşdur.

Bəşəriyyət tarixində həmişə böyük rol oynayan miqrasiya prosesi müasir beynəlxalq münasibətlər sistemində bu gün özünü daha qabarıq nümayiş etdirən problemlərdən birinə çevrilmişdir. Qanuni və qanunsuz, beynəlxalq və ölkədaxili, könüllü və məcburi, daimi və müvəqqəti, qaçqın və sığınacaq axtaranlar, ailə birliyi və "beyin axını" kriteriyaları ilə təsnifatlaşdırılan miqrasiyanın coğrafiyası və həcmi genişlənmişdir. Miqrasiyanın yeni tipləri – yüksək təsnifatlı kadrların miqrasiyası və çox vaxt qanunsuz miqrasiyaya əsas verən ixtisassız şəxslərin miqrasiyası formalaşmışdır. Məcburi miqrasiya tendensiyası artmış, miqrasiya dünyada sosial dəyişikliklərin bir faktoru kimi diqqət çəkməyə başlamışdır. Əlbəttə, miqrasiya demoqrafik proseslərin formalaşmasında mühüm rol oynayır və əhalinin etnik-mədəni tərkibini yaradır. Reallıq budur ki, bu gün beynəlxalq münasibətlər sistemində miqrasiya geosiyasəti artıq yeni formalaşan bir istiqamət statusu qazanmışdır [3]. Bu mənada beynəlxalq münasibətlər sistemində miqrasiya geosiyasəti mövcudursa, həmin

prosesləri tənzim edən beynəlxalq hüquq normalarının da formalaşması obyektiv zərurətdən irəli gəlir.

Miqrasiya getdikcə daha çox qlobal yanaşma və əlaqələndirilmiş cavab tədbirləri tələb edən problem kimi qəbul edilməyə başladı. Dövlətlər təkcə ikitərəfli səviyyədə deyil, həm də regional və son zamanlar isə universal miqrasiya məsələlərini müzakirə edirlər [15]. Ona görə də, miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsipləri, miqrasiya proseslərinin hüquqi tənzimlənmə məsələləri də təbii olaraq həm regional, həm də qlobal əsasda formalaşır.

Miqrasiya zamanı köç edən hər bir şəxs özü ilə təbii hüququnu sərhədlərdən-sərhədlərə, dövlətlərdən-dövlətlərə aparır. Miqrasiya proseslərinin tənzim olunmasında başlıca məqsəd miqrantın hüququnun insan hüquqlarının tərkibi kimi təmin olunmasını həyata keçirməkdən ibarətdir. Miqrasiya bir proses kimi insanların təbii hüquqlarına xidmət edən pozitiv hüquqların meydana gəlməsini özündə əks etdirir. Bu proses həm də insanın digər fəaliyyətlərinin, o cümlədən əmək fəaliyyətinin tərkib hissəsidir. Bu baxımdan da dövlətlər miqrantın əmək hüquqlarını təmin etməklə onların təbii hüquqlarını təmin etmiş olurlar. Miqrantın təhsil, səhiyyə xidmətlərindən istifadə etmək hüquqları, yaşamaq və yaşayış yeri ilə təmin olunmaq hüquqları, sərbəst fəaliyyət göstərmək, ictimai fəaliyyət göstərmək, ailə hüququna sahib olmaq kimi hüquqlarının təmin olunmasında həm mənşə dövləti (miqrantın vətəndaşı olduğu dövlət), həm tranzit ölkə (miqrantın getməsi nəzərdə tutulan ölkəyə getmək üçün ərazilərindən istifadə edilən digər ölkələr), həm də miqrant qəbul edən ölkələr öhdəlik götürürlər və məsuliyyət daşıyırlar [4, s. 86]. Göründüyü kimi, müasir formalaşma dönəmində miqrasiyanın beynəlxalq hüquqi tənzimetmə sferasına olduqca çoxsaylı hüquqlar və öhdəliklər aid edilir. Bu isə miqrasiya hüququnun müasir beynəlxalq hüquqda vacib rolunu, önəmli yerini və əhəmiyyətini zəruri edən ən mühüm amil hesab edilir.

Miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsiplərinin formalaşması və miqrasiya proseslərinin hüquqi tənzimlənmə məsələləri XIX əsrdə formalaşsa da, XX əsrdə beynəlxalq konvension əsasda inkişaf etməyə başladı. Bu mənada beynəlxalq miqrasiya hüququnun inkişafında, o cümlədən miqrantların vətiyyətinin universal qaydada hüquqi tənzimlənməsində mühüm rol BMT-yə məxsusdur.

Beynəlxalq hüquqda ilk dəfə miqrantların hüquqları ilə bağlı universal hüquqi müddəalar BMT-nin 1948-ci il tarixli İnsan hüquqları haqqında Universal Bəyannamədə təsbit olunmuşdur. Həmin sənədin 13-cü maddəsində deyilir: “Hər kəsin hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşamaq hüququ vardır”. Həmin maddənin ikinci bəndində isə yazılır “hər kəsin istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ vardır” [27]. Göründüyü kimi, öz ölkəsindən kənarda yaşamaq və qalmaq hüquqları bu sənədlə təsbir etilmiş fundamental hüquqlardan biri hesab edilmişdir.

Daha sonra BMT çərçivəsində miqrasiya hüququna təkan verən digər sənədlər də qəbul edilməyə başladı. Belə ki, 1951-ci il Qaçqınlar Konvensiyası və onun 1967-ci il Protokolu miqrasiya hüququnun da əsasını təşkil edən fundamental hüquqi sənədlərdəndir. Bu sənəddə “qaçqın” termini müəyyənləşdirilir, onların hüquqları və müdafiəsi üçün beynəlxalq rəftar standartları əks olunur. Sənəd həmçinin onların ləyaqətli və müstəqil

həyat sürə bilməsi üçün məcburi köçkün olduqda mənzil, iş və təhsil hüququnu əks etdirir. O, həmçinin qaçqının ev sahibliyi edən ölkələrlə bağlı öhdəliklərini müəyyənləşdirir və qaçqın statusuna uyğun gəlməyən müharibə cinayətkarları kimi insanların müəyyən kateqoriyalarını müəyyənləşdirir [23]. Qeyd etdiyimiz kimi, 1951-ci il Konvensiyası miqrasiya hüququnun mənbəyini təşkil edir. Baxmayaraq ki, bu sənəd bilavasitə qaçqınların hüquqi statusu ilə bağlı məsələləri özündə ehtiva edir, lakin bu konvensiyada təsbit olunmuş hüquq normaları miqrasiya hüququnun sonrakı inkişafı üçün mühüm əhəmiyyət kəsb etmişdir.

Türk əslilli Amerikalı professor Seyla Benhabib dəyişən qlobal vəziyyət fonunda münaqişəli məsələləri həll etmək üçün 1951-ci il Qaçqınlar Konvensiyasının mötəbər təfsiri ilə məşğul olan vahid qurumun olmadığını qeyd edərək, Hathaway və Fosterin parçalanma və regionallaşma riskinin artması barədə xəbərdarlığı və normativ xarakter daşıyan "prinsipial müqavilə şərhi" barədə təklifini müsbət hesab edir. Onların fikrincə, "geniş şəkildə qəbul edilmiş beynəlxalq insan hüququnun inkarı riski davamlı olduğu müddətcə, o mənada ki, praktiki məsələ olaraq, bu, davamlı və ya sistemlidir… əsaslı şəkildə demək olar ki, "insan hüquqlarının pozulması riski mövcuddur". Konvensiya öhdəliklərini yerinə yetirə biləcək növ təqiblərə məruz qalır [22].

Daha sonra miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsiplərinin formalaşması regional əsasda - Afrika Birliyi Təşkilatı (indiki Afrika İttifaqı) şərçivəsində qəbul edilən növbəti bir sənəddə təsbit edildi. 1969-cu ildə qəbul edilmiş və 1974-cü ildə qüvvəyə minmiş Afrika Qaçqın Problemlərinin Xüsusi Aspektlərini tənzimləyən Konvensiya, daha sonra 1984-cü ildə Qaçqınlar haqqında Kartaxena Bəyannaməsi Mərkəzi Amerika, Meksika və Panamada miqrasiya ilə bağlı regional standartları müəyyən edir.

Miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsiplərinin formalaşması və miqrasiya proseslərinin hüquqi tənzimlənməsi ilə bağlı olaraq 2016-cı ildə BMT Baş Assambleyası çərçivəsində Qaçqınlar və Miqrantlar üçün Nyu-York Bəyannaməsi qəbul edilmişdir. Həmin sənədə əsasən dövlətlərin miqrasiya sahəsində öhdəliklərinə aiddir:

1) Miqrasiya statusundan asılı olmayaraq və hər zaman bütün miqrantların təhlükəsizliyini, ləyaqətini və insan hüquqlarını və əsas azadlıqlarını qorumaq;

2) Çoxlu sayda qaçqın və miqrantı xilas edən, qəbul edən və onlara ev sahibliyi edən ölkələri dəstəkləmək;

3) Miqrantları humanitar və inkişaf yardımı çərçivəsində və planlaşdırmada onların ehtiyaclarını və imkanlarını, eləcə də qəbul edən icmaların ehtiyaclarını qarşılamaq;

4) Bütün miqrantlara qarşı ksenofobiya, irqçilik və ayrı-seçkiliklə mübarizə;

5) Həssas vəziyyətdə olan miqrantların rəftarına dair dövlət tərəfindən idarə olunan proses vasitəsilə məcburi olmayan prinsiplər və könüllü təlimatlar hazırlamaq;

6) Beynəlxalq Miqrasiya Təşkilatının BMT ailəsinə daxil edilməsi və Təhlükəsiz, Nizamlı və Daimi Miqrasiya üzrə Qlobal Sazişin hazırlanması da daxil olmaqla miqrasiyanın qlobal idarəçiliyini gücləndirmək [18].

Miqrasiya sahəsində beynəlxalq hüququn norma və prinsiplərinin formalaşması və miqrasiya proseslərinin hüquqi tənzimlənməsi ilə bağlı BMT sistemində növbəti mühüm sənəd 10 dekabr 2018-ci il tarixində Mərakeşdə keçirilən Hökumətlərarası Konfransda

BMT Üzv Dövlətlərin əksəriyyəti tərəfindən qəbul edilmiş Miqrasiya üzrə Qlobal Sazişdir (Təhlükəsiz, Nizamlı və Daimi Miqrasiya üzrə Qlobal Saziş (A/RES/73/195)). Qlobal Saziş BMT-nin himayəsi altında hazırlanmış, beynəlxalq miqrasiyanın bütün meyarlarını vahid və əhatəli şəkildə əhatə edən ilk hökumətlərarası danışıqlar yolu ilə əldə edilmiş sazişdir. Bu, dövlətlərin ərazisinə kimin daxil olub-olmadığını müəyyən etmək üçün dövlətlərin suveren hüququna hörmət edən və miqrasiya üzrə beynəlxalq əməkdaşlığa sadiqliyini nümayiş etdirən qeyri-məcburi sənəddir. O, miqrasiyanın idarəçiliyini təkmilləşdirmək, bugünkü miqrasiya ilə bağlı problemləri həll etmək, miqrantların və miqrasiyanın davamlı inkişafa töhfəsini gücləndirmək üçün əhəmiyyətli imkanlar təqdim edir. Qlobal Saziş 2030-cu ilə qədər Dayanıqlı İnkişaf Gündəliyinin 10.7-ci hədəfinə uyğun şəkildə tərtib edilmişdir ki, bu zaman Üzv Dövlətlər təhlükəsiz, nizamlı və müntəzəm miqrasiyanı asanlaşdırmaq üçün beynəlxalq əməkdaşlıq öhdəliyi götürmüşlər. Qlobal Saziş aşağıdakılar üçün nəzərdə tutulmuşdur: beynəlxalq miqrasiyanın idarə olunması üzrə beynəlxalq əməkdaşlığı dəstəkləmək; dövlətlər üçün beynəlxalq miqrasiya ilə bağlı ən aktual problemləri həll etmək üçün siyasət variantlarını seçə biləcəkləri hərtərəfli seçimlər menyusunu təqdim etmək; və dövlətlərə öz miqrasiya reallıqlarına və imkanlarına əsaslanaraq həyata keçirmək üçün məkan və çeviklik vermək [14]. Qlobal Saziş bütün ölçüləri üzrə beynəlxalq miqrasiyaya ümumi yanaşma haqqında BMT-nin ilk qlobal sazişi hesab edilir. Bu sənəd dövlət suverenliyi, məsuliyyətin bölüşdürülməsi, ayrı-seçkiliyə yol verilməməsi və insan hüquqları dəyərlərinə əsaslanır və miqrasiyanın ümumi faydalarını optimallaşdırmaq üçün əməkdaşlıq yanaşmasına ehtiyac olduğunu qəbul edir, eyni zamanda miqrasiya ölkələrində fərdlər və icmalar üçün mənşə, tranzit, təyinat, risk və çətinlikləri həll edir [17]. Hazırda miqrantların hüquqlarını praktikada ölçmək çətin olsa da, miqrasiya ilə bağlı məsələlər, o cümlədn miqrasiya kontekstində dövlətin beynəlxalq hüquqi öhdəliklərə uyğunluğunun ölçülməsi üzrə Qlobal Sazişin qəbul edilməsi daha yaxşı vasitələrə səbəb ola bilər. Bundan əlavə, milli və yerli səviyyələrdə miqrasiya idarəçiliyini qiymətləndirən siyasət aləti olan Miqrasiya İdarəetmə Göstəriciləri (MGI) ölçdüyü altı miqrasiya idarəçiliyindən biri kimi miqrantların hüquqlarını ehtiva edir. MGI, məsələn, ölkələrdə və şəhərlərdə miqrantların səhiyyə, təhsil və sosial təminat kimi əsas sosial xidmətlərə çıxış baxımından vətəndaşlarla eyni statusa malik olma dərəcəsinə baxır [16]. Göründüyü kimi, Qlobal Saziş miqrasiyanın birbaşa beynəlxalq hüquqi tənzimlənməsi ilə bağlı ilk universal müqavilə hesab edilməklə, miqrasiya ilə bağlı geniş əhatə dairəsinə malik bir sənəd hesab edilir.

Lakin onu da qeyd etmək lazımdır ki, xüsusən də ailə və iqtisadi səbəblərə görə miqrasiya ilə bağlı olaraq beynəlxalq hüquq və normalardakı boşluqlar hələ də qalmaqdadır. Dövlətlər tərəfindən beynəlxalq miqrasiyanın səmərəli idarə olunması problemin aradan qaldırılması üçün ilk növbədə miqrasiyanın beynəlxalq hüquqi tənzimlənçəsi üzrə ümumməcburi hüquqi normaları zəruridir. Digər tərəfdən isə praktik miqrasiya siyasətinin həyata keçirilməsi ilə hüquq siyasətinin inteqrasiyası bu fəaliyyətə daha səmərəli nəticələr verə bilər.

Ümumiyyətlə, miqrasiya sahəsində dövlət daxilində və ölkələr arasında qəbul edilən hüquqi tənzimləmə sənədlərini baza olaraq iki istiqamətə ayırmaq mümkündür: ümumi

beynəlxalq sənədlərdə (BMT nizamnaməsi və digər təşkilatların ümumi sənədləri, konkret olaraq miqrasiyaya aid olmayan konvensiyalar, onların protokolları, bəyannamələr, ikitərəfli dövlət razılaşmaları) əksini tapan hüquq normaları, yerli qanunvericilikdə – konstitusiyada, ayrı-ayrı qanunvericilik sənədlərində – əksini tapan hüquq normaları. Burada miqrantların hüquqları ümuminsan hüquqlarının tərkibi kimi xarakterizə olunur [4, s.93]. Biz araşdırmamızın digər hissələrində qeyd edilən sənədləri təfərrüatı ilə nəzərdən keçirəcəyik.

Bu gün dünyada beynəlxalq hüquqşünaslar bütün miqrantların hüquqlarının müdafiəsi məsələsi də aktual məsələlərdəndir. Kornell Hüquq Məktəbinin professoru Y.Kisel 2008-ci ildə Kornell Universitetində başlayan layihəni davam etdirərək 2019-cu ilin iyul ayında Beynəlxalq Miqrantların Hüquqları haqqında Bill təşəbbüsünü irəli sürdü. Bu sənəd həm insan hüquqları sahəsində araşdırma və təbliğatı dəstəkləyən qlobal əməkdaşlıq sənədi, həm də hər hansı səbəbdən sərhədləri keçən insanlar üçün əsas insan hüquqlarına dair məcburi olmayan bəyannaməsidir. Qeyd edilən layihə miqrantların müdafiəsini genişləndirmək üçün yeni yanaşma tətbiq edir. Y.Kisel və onun həmkarı T.A.Aleinikoff etiraf edirlər ki, mövcud müqavilə hüququ artıq hüquqların müdafiəsinin əsas səviyyəsini təmin edir, lakin çox vaxt dövlətlər tərəfindən etirazla qarşılanır və praktikada nəzərə alınmır. Beləliklə, Bill milli dövlətlər, beynəlxalq və regional təşkilatlar üçün qeyri-rəsmi olaraq qəbul edilmək üçün hazırlanmış hərtərəfli "yumşaq hüquq" aləti kimi hazırlanmışdır. Billin əsas prinsiplərinə aşağıdakılar daxildir: 1) hər bir miqrantın hər yerdə qanun qarşısında şəxsiyyət kimi tanınmaq hüququ var; 2) hər bir miqrantın effektiv müdafiə hüququ var; 3) hər bir miqrantın azadlıq və şəxsi toxunulmazlıq hüququ var.

Hüquqlar haqqında Bill mövcud qanun və praktikada hər bir müddəa üçün mənbələri müəyyən edən hüquqi şərhlərlə müşayiət olunur. Bill hüquqi cəhətdən məcburi bir sənəd deyil, baxmayaraq ki, onun yenidən qeyd etdiyi bir çox insan hüquqları geniş ratifikasiya olunmuş müqavilələrdən götürülüb. O, ictimaiyyətin diqqətini miqrantların beynəlxalq sferadakı hüquqlarına yönəltmək məqsədi daşıyır [13].

Müasir dünyada miqrasiya məsələləri dövlət idarəçiliyinin sosial, iqtisadi, siyasi, mədəni və digər müstəsna əhəmiyyətə malik sahələrə öz təsirini göstərməkdədir. Miqrasiya prosesləri həm ayrı-ayrı ölkələri, həm də qitələri əhatə edir və bütün innovasiya proseslərində əhəmiyyətli rol oynamaqla müxtəlif əhali qruplarının hüquq və azadlıqlarının qorunması prinsiplərini özündə ehtiva edir.Bu gün dünyada cərəyan edən miqrasiya proseslərinin müxtəlif səbəbləri vardır. Silahlı münaqişələr, müharibələr, siyasi və iqtisadi böhranlar, ərzaq və içməli su çatışmazlığı, dərman preparatları ilə təminatın qənaətbəxş səviyyədə olmaması, keyfiyyətsiz tibbi və sosial xidmətlərin göstərilməsi, nəticədə yoluxucu xəstəliklərin yayılması da məcburi yerdəyişmənin əsas səbəbləri kimi qəbul edilə bilər. Didərginlik vəziyyətində əhalinin ən həssas qrupları, xüsusən də uşaqlar, həmçinin qadınlar, ahıllar və əlilliyi olan şəxslər daha çətin həyat şəraitində yaşamağa məcbur qalırlar. Bu kimi problemləri həll etmək üçün təkcə dövlətlər deyil, beynəlxalq və regional təşkilatlarda hər bir cəmiyyət birgə fəaliyyət göstərməlidir. Bununla bağlı geniş miqyasda humanizm və obyektiv yanaşmanın tətbiqi olduqca zəruridir [2].

Beləliklə, nəticə olaraq qeydə bilərik ki, birincisi, son dövrlər siyasi, iqtisadi, hərbi, iqlim və s. səbəblərdən asılı olmayaraq, getdikcə qlobal miqyasda miqrasiya prosesləri genişlənir. Artıq beynəlxalq sistemdə mövcud olan miqrasiya münasibətləri beynəlxalq hüququn tənzimetmə sahəsinə aid edilməklə, qlobal xarakter almışdır. İkincisi, müharibələr miqrasiyanı sürətləndirən ən mühüm səbəblərdən biri hesab edilir. Bu səbəbdən də XX əsr müharibələrindən sonra beynəlxalq hüquq, xüsusən də miqrasiya, qaçqınlar və siyasi sığınacaq məsələlərinin beynəlxalq hüquqi tənzimlənməsi ilə bağlı müqavilə normaları daha geniş şəkildə inkişaf etməyə başladı. Üçüncüsü, insanların sərbəst hərəkət azadlığı miqrasiya proseslərinin tənzimetməsində ən mühüm amil kimi çıxış edir. Burada beynəlxalq hüququn vəzifəsi məhz bu azadlığın çərçivələrini müəyyən etməkdən və prosesi idarə etməkdən ibarətdir. Dördüncüsü, miqrasiya prosesləri ilkin olaraq dövlətdaxili hüquqi müstəvidə özünün tənzimetməsinə nail olmuş, Qədim Yunanıstanda və Romada miqrasiya hüququnun ilkin rüşeymləri formalaşmağa başlamışdır. Beçincisi, miqrasiya sahəsində hüquq normalarının formalaşmasına təsir edən amillər miqrasiyanın kütləvi xarakter alması və bu prosesə beynəlxalq praktikada yaranan sosial tələbatla bağlıdır.

## ƏDƏBİYYAT SIYAHISI


1. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2007. - 488 s.
2. Əliyeva S. Miqrasiya və insan hüquqları: Qlobal trendlər və milli çağırışlar // https://respublika-news.az/news/miqrasiya-ve-insan-huquqlari-qlobal-trendler-ve-milli-cagirislar
3. Nəbiyev F. Qloballaşan dünyada miqrasiya, https://www.migration.gov.az/az/press_detail/787
4. Nəsibov E.M. Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. – Bakı:Elmvə Təhsilnəşriyyatı, 2014.- 240 s.
5. Ильинский, Н. И. История государства и права зарубежных стран: курс лекций. М.: Изд-во деловой и учеб. лит., 2010.- 327с.
6. Зинченко Н.Н. Миграционное право в международно-правовой доктрине и практике: становление и перспективы развития: автореф. дис. д-ра юр. наук. - М., 2012. - 48 с.
7. Лукашук И.И. Международное право. Особенная часть: учебник. – М.: Волтерс Клувер, 2010. - 544 с.
8. Пархомова, Ю. А. Зарождение и формирование институтов миграционного права на примере соотношения понятий "беженец", "мигрант" и "иностранец" // Журнал международного права и международных отношений, 2007, № 3. https://evolutio.info/ru/journal-menu/2007-3/2007-3-parhomova
9. Умнова-Конюхова И.А. Миграционное право как отрасль современного права: особенности становления и развития// Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература: ИАЖ. Сер. 4: Государство и право. – 2023. – № 2. – с. 7-20.DOI: 10.31249/iajpravo/2023.02.01
10. Chetail, Vincent, The Architecture of International Migration Law: A Deconstructivist Design of Complexity and Contradiction (April 12, 2017). // American Journal of International Law (unbound), 2017, Vol. 111, pp. 18-23.
11. Concept and theoretical aspects of international migration law, RELIGACIÓN. Revista de Ciencias Sociales y Humanidades, vol. 4, núm. 15, Esp., 2019, p. 285-289.
12. Franciscus a Victoria (1480-1546). International Law and War, Contributed by Coleman Phillipson, Journal of the Society of Comparative Legislation Vol. 15, No. 2 (1915), pp. 175-197 https://www.jstor.org/stable/752491
13. How International Law Can Protect Migrants // https://migrations.cornell.edu/how-international-law-can-protect-migrants

14. Global Compact for Safe, Orderly and Regular Migration (GCM), https://www.ohchr.org/en/migration/global-compact-safe-orderly-and-regular-migration-gcm
15. Glossary on Migration, https://publications.iom.int/system/files/pdf/iml_1_en.pdf
16. Migrant rights // https://www.migrationdataportal.org/themes/migrant-rights
17. Migration History: International Law, https://libguides.rice.edu/c.php?g=1059498&p=7714838
18. New York Declaration for Refugees and Migrants, https://www.unhcr.org/what-we-do/protect-human-rights/asylum-and-migration/new-york-declaration-refugees-and-migrants
19. Opeskin B, Perruchoud R, Redpath-Cross J. Conceptualising international migration law. In: Opeskin B, Perruchoud R, Redpath-Cross J, eds. Foundations of International Migration Law. Cambridge: Cambridge University Press; 2012:1-16. doi:10.1017/CBO9781139084598.002
20. Ritumbra Manuvie, Climate Migration Governance and the Discourse of Citizenship in India, T.M.C. ASSER PRESS, The Hague, The Netherlands, 2023, p 8.
21. Rossana Rocha Reis, Sovereignty, human rights, and international migrations, http://socialsciences.scielo.org/pdf/s_rbcsoc/v2nse/scs_a05.pdf
22. Seyla Benhabib, The End of the 1951 Refugee Convention? Dilemmas of Sovereignty, Territoriality, and Human Rights, Jus Cogens. 2020; 2(1): 75-100. Published online 2020 Jul 28. doi: 10.1007/s42439-020-00022-1
23. The 1951 Refugee Convention, https://www.unhcr.org/about-unhcr/who-we-are/1951-refugee-convention
24. The Law of Nations, Sovereign Power Over Immigration, and Asylum, https://www.alexnowrasteh.com/p/the-law-of-nations-sovereign-power
25. The legal and normative framework of international migration, https://www.iom.int/sites/g/files/tmzbdl486/files/jahia/webdav/site/myjahiasite/shared/shared/mainsite/policy_and_research/gcim/tp/TP9.pdf
26. Thomas Spijkerboer, International Migration Law and Coloniality, https://verfassungsblog.de/international-migration-law-and-coloniality/
27. Universal Declaration of Human Rights, https://www.un.org/sites/un2.un.org/files/2021/03/udhr.pdf
28. World Migration Report 2022, https://worldmigrationreport.iom.int/wmr-2022-interactive/
29. https://www.un.org/ru/sections/issues-depth/migration, 2019

**Formation of principles and norms of international law in the field of migration and issues of legal regulation of migration processes**

**Natavan Zeynalova-Sulatnova,**
**PhD student of Baku State University.**
e-mail: zeynalova.natevan@mail.ru

The article deals with the formation of principles and norms of international law in the field of migration. At the same time, the article analyzes the issues of legal regulation of migration processes on the basis of the established regulatory framework. In this direction, the features of the historical development of legal regulation in the field of migration are studied. In this context, the features of international contractual

and legal regulation are determined. International documents of legal importance in this field are also analyzed.

**Key words:** migration, international law, principles and norms, migration processes, legal regulation.

## Формирование принципов и норм международного права в области миграции и вопросы правового регулирования миграционных процессов

**Натаван Зейналова-Сулатнова,**
**докторант Бакинского государственного университета.**
e-mail: zeynalova.natevan@mail.ru

В статье речь идет о формировании принципов и норм международного права в сфере миграции. В то же время в статье анализируются вопросы правового регулирования миграционных процессов на основе сформированной нормативной базы. В этом направлении исследуются особенности исторического развития правового регулирования в сфере миграции. В этом контексте определяются особенности международного договорно-правового регулирования. Также анализируются международные документы, имеющие юридическое значение в этой области.

**Ключевые слова:** миграция, международное право, принципы и нормы, миграционные процессы, правовое регулирование.

## Göç alanında uluslararası hukukun ilke ve normlarının oluşumu ve göç süreçlerinin yasal düzenlenmesi konuları

**Natavan Zeynalova-Sulatnova,**
**Bakü Devlet Üniversitesi doktora öğrencisi.**
e-posta: zeynalova.natevan@mail.ru

Makalede göç alanında uluslararası hukukun ilke ve normlarının oluşumu ele alınmaktadır. Makale aynı zamanda yerleşik normatif temele dayalı olarak göç süreçlerinin yasal düzenlenmesi konularını analiz etmektedir. Bu analiz doğrultusunda göç alanındaki yasal düzenlemelerin tarihsel gelişim özellikleri araştırılmaktadır. Bu kapsamda uluslararası anlaşmalara dayalı hukuki düzenlemenin özellikleri belirlenmekte ve bu alanda hukuki öneme sahip uluslararası belgeler analiz edilmektedir.

**Anahtar Kelimeler:** göç, uluslararası hukuk, ilke ve normlar, göç süreçleri, yasal düzenleme.

# Gender bərabərliyi və davamlı inkişaf konsepsiyasının bəzi hüquqi aspektləri

**Qibləliyeva Aytac Elburus qızı,**
**BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının doktorantı.**

*Məqalədə qeyd olunur ki, gender bərabərliyi insan hüquqlarının qorunması, qanunun aliliyinə hörmət, dünyada qadınların iqtisadi inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində ən əsas prioritetdir. Gender cəmiyyətin sosial təbəqələşməsii üsullarından biridir. Bu üsullar irq, milliyyət, sinif, yaş kimi sosial demoqrafik faktorlara uyğun olaraq sosial iyerarxiya sistemini təşkil edir. Qeyd olunur ki, insan potensialının inkişafı davamlı inkişaf prosesinin ayrılmaz tərkib hissəsidir. Bu səbəbdən hər hansı bir cəmiyyətdə insan inkişafının iqtisadi, sosial, ekoloji, mədəni, hüquqi, texnoloji, mənəvi-psixoloji, sağlamlıq, təhsil, intelektual, gender və s. durumu davamlı inkişafın əsas göstəriciləri hesab olunur.*

*Məqalədə qeyd olunur ki cəmiyyətdə mövcud olan başqa inkişaf konsepsiyalarından fərqli olaraq davamlı inkişaf hər bir insanın əsas zəruri tələbatlarının ödənilməsini tələb edir və hamıya yaxşı həyat şəraiti qurmaq tələbatını təmin etmək imkanı yaradır.*

**Açar sözlər:** insan hüquqları, gender bərabərliyi, davamlı inkişaf, ayrı-seçkiliyin qarşısının alınması, insan potensialının inkişafı və s.

İnsan hüquqları ilə əlaqəli olan gender bərabərliyi cəmiyyətin bütün sahələrində, eləcə də şəxsi həyatda kişi və qadına bərabər imkanların və iştirak hüququnun verilməsidir. Bu o demək deyil ki, hər iki cins eynidir, bu, daha çox "hər ikisi eyni hüquqa və ləyaqətə malikdir" deməkdir. Bütün insan hüquqları kimi, gender bərabərliyinə görə də mübarizə aparmaq, onu müdafiə etmək lazımdır. Gender bərabərliyi insan hüquqlarının qorunması, qanunun aliliyinə hörmət, dünyada qadınların iqtisadi inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində ən əsas prioritetdir. Gender cəmiyyətin sosial təbəqələşməsi üsullarından biridir. Bu üsullar irq, milliyyət, sinif, yaş kimi sosial demoqrafik faktorlara uyğun olaraq sosial iyerarxiya sistemini təşkil edir.

Biriəşmiş Millətlər Təşkilatının Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli 2200-cu A (XXI) nömrəli Qətnaməsi ilə qəbul edilmiş, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq paktın 26-cı maddəsində deyilir ki, bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı ayrı-seçkiliyin bütün növləri qanunla qadağan olunmalıdır və qanun istənilən əlamətə: irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verməlidir.

Gender bərabərliyi Birləşmiş Millətlər Təşkilatının 1948-ci ildən etibarən İnsan Hüquqları Bəyannaməsində göstərilən əsas hüquqlardandır və dayanıqlı inkişaf və artıma

nail olmaq üçün ilkin şərtlərdən biridir. Bundan əlavə, BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədlərinın 5-ci maddəsində məhz "Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək"dən bəhs olunur. Belə ki, həmin maddənin 5.c bəndində "Gender bərabərliyinin təşviq olunması və bütün qadınların və qızların səlahiyyətlərinin bütün səviyyələrdə artırılması üzrə əsaslı siyasətlər və effektiv hüquqi normalar qəbul etmək və onları möhkəmləndirmək" əks olunub.

Azərbaycan Respublikası Konstitusiyasının 2009-cu il referendumu ilə "Bərabərlik hüququ" adlanan 25-ci maddəsinə IV və V hissələrə edilmiş əlavədə qeyd edilmişdir ki, heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

Azərbaycan Respublikasında insan hüquqlarının tərkib hissəsi olan gender bərabərliyinin, eləcə də qadın və uşaq hüquqlarının təmin olunmasının fundamental hüquqi əsasları yaradılmışdır. Bu istiqamətdə atılan addımlar sırasında "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" və "Uşaq hüquqları haqqında" BMT konvensiyalarının ratifikasiyası, normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə zəruri qanunvericilik aktlarının, o cümlədən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunların qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda qadın və uşaq hüquqları sahəsində dövlət siyasətinin formalaşması və zəruri institusional islahatların həyata keçirilməsi də xüsusi qeyd edilməlidir. Ölkəmizdə gender bərabərliyinin təmin olunması sahəsində mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, qanunvericiliyin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş prinsip və normalara uyğunlaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.

Qadınların xüsusi hüquqi müdafiə zərurəti obyektiv xarakter daşımaqla, ilk növbədə qadın orqanizminin fizioloji xüsusiyyətlərindən asılıdırsa, digər tərəfdən qadınlar kişilərə münasibətdə daha az müdafiə edilən olmuşlar. Qadın hüquqları sferasında beynəlxalq standartların formalaşdırılması və həmin standartlara əməl edilməsi üzrə beynəlxalq hüquqi nəzarət mexanizmlərinin yaradılması, qadınların bilavasitə va birbaşa olaraq beynəlxalq məhkəmə, inzibati nəzarət orqanlarına müraciat hüququ, müvafiq hüquqlarla əlaqədar maddi və prosessual xarakterli beynəlxalq normaların dövlətdaxili hüquqa implementasiyası, qadın hüquqları üzrə beynəlxalq və milli səviyyədə hökumat va qeyri-hökumat təşkilatlarının təsis edilmasi kimi mühüm məsələlər daim beynəlxalq hüququn müsbət təsirinə məruz qalmış və hazırda da qalmaqdadır. Bütövlükda, müasir beynalxalq hüquqda qadın hüquqlarının müdafiasi üçün,ilk növbədə barabərhüquqluluq və ayrıçekiliyə yol verməmək prinsipləri fərqləndirilir (3, s.135).

Son bir neçə onillik ərzində Azərbaycanda gender bərabərliyinin təşviqi istiqamətində əhəmiyyətli işlər görülüb. Kişi və qadınlar arasında hüquq bərabərliyi ölkə Konstitusi-

yasında birmənalı şəkildə təsbit olunub. Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təşviqi üzrə Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya da daxil olmaqla bir sıra beynəlxalq sazişləri ratifikasiya edib, gender bərabərliyinin təşviqi və məişət zorakılığı ilə mübarizə üzrə qanunlar qəbul edilib. Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyi siyasətini həyata keçirən mərkəzi icra orqanı yaradılıb. Eyni zamanda, müvafiq müddəalar sonradan qəbul olunmuş və təkmilləşdirilmiş bir sıra normativ hüquqi aktlarda da əks olunub. Bu gün istər özəl sektor, istərsə də dövlət orqanlarında gender bərabərliyinin təmin edilməsi istiqamətində çox vacib tədbirlər həyata keçirilir. Xüsusilə, 2006-cı ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun bu sahədə ən vacib nailiyyət kimi qiymətləndirildiyini qeyd etmək lazımdır. Qanun qəbul edildikdən sonra dövlət idarəçiliyində gender bərabərliyinə daha da çox diqqət artırılmış, eyni zamanda ailə siyasətinin və sosial-iqtisadi inkişafın təmin edilməsində dövlət orqanlarının fəaliyyətinin keyfiyyət əhəmiyyətinin artmasına təsir etmişdir.

Hüquq bərabərliyinə aid bir sıra qanunvericilik normalarının mövcud olmasına baxmayaraq, qadınların iqtisadi resurslara çıxışı və şəxsi, ictimai və siyasi həyatda qərar qəbuletmə prosesində hərtərəfli iştirak imkanları kişilərlə müqayisədə daha məhduddur. Azərbaycan Respublikasında gender siyasətini həyata keçirmək üçün 2006-cı ildə Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsi fəaliyyətə başlamışdır. Komitənin əsas vəzifələrindən biri də məhz gender sahəsində mövcud diskriminasiya formalarının aradan qaldırılması üzrə tədbirlər görməkdir Azərbaycan Respublikası Qadınların Siyasi Hüquqları və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə (CEDAW) BMT Konvensiyalarına müvafiq olaraq 1992-ci və 1995-ci illərdə qoşulmuşdur (sonuncu Konvensiyanın Protokoluna isə 2000-ci ildə).

Qeyd edilən Konvensiyalara qoşulduqdan sonra Azərbaycan gender sahəsində milli qanunvericilikdə bir sıra irərliləyişlər əldə etmişdir. 2000-ci ildə Nazirlər Kabineti tərəfindən "2000-2005-ci illər üçün Qadın məsələləri üzrə Milli Fəaliyyət Planı" qəbul edilmişdir. 2006-cı ildə isə Azərbaycan Respublikasının "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunu qəbul edilmişdir. Bu Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla kişi və qadınlara siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar (məsələn əməyin ödənilməsində bərabərlik, təhsil hüququnun həyata keçirilməsində bərabərlik və s.) təsbit edir. Bu qanunda ilk dəfə olaraq gender və genderə aid bir çox anlayışların (məsələn seksual qısnama) açıqlaması verilmişdir.

Nəzərə almaq lazımdır ki, qadınlara edilən bəzi güzəşt və imtiyazlar, eləcə də yaradılan fərqli şərait və ya davranış bu qanunla ayrı-seçkilik hesab edilmir.

Eyni zamanda Azərbaycan hökuməti BMT və onun ixtisaslaşmış qurumları (BMT-nin İnkişaf Proqramı (UNDP), BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi (UNFPA), BMT- nin Qadınlar üçün İnkişaf Fondu (UNİFEM), BMT-nin Ərzaq və Kənd təsərrüfatı üzrə Təşkilatı (FAO), Beynəlxalq Əməkdaşlıq üzrə Alman Cəmiyyəti (GİZ), Avropa İttifaqı (EU) və s. beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək hədəflərin həyata keçirilməsinə çalışır.

Mədəniyyət və gender normaları ucbatından Azərbaycanda qadınlar mülkiyyətçi

qismində qəbul edilmirlər. Ailə və cəmiyyət tərəfindən qadınların mülkiyyətçi və vərəsə kimi qəbul edilməməsinin bir sıra səbəbləri gender stereotiplərinə əsaslanır. Gender əsaslı bu stereotiplər ailəyə qızların deyil, oğlanların gəlir gətirən olması gözləntisindən, habelə qızların ailə qurduqda başqa bir ailəyə köçməsi düşüncəsindən qaynaqlanır. Bu səbəbdən də valideynlər ailəyə məxsus əmlakın oğlanlarına ötürülməsinə üstünlük verirlər ki, əksər hallarda da buna asanlıqla nail olurlar. Mülkiyyətin de-yure və de-fakto oğlanlara ötürülməsi və torpaqların əksər hallarda kişilərin əlində cəmlənməsi xüsusilə əhalinin gəlirlərinin az olduğu rayon və kənd yerlərində qadınların iqtisadi imkanlarını məhdudlaşdırır.

Gender bərabərliyinin təmin edilməsi sahəsində perspektivlər, hüquqi müstəvidə əldə olunan nailiyyətlər, beynəlxalq əməkdaşlıq, mövcud problemlər və maneələr, əsas dörd istiqaməti əhatə edir ki,bunlar da gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri; gender bərabərliyinin təmin edilməsində dövlətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üzrə həyata keçirilən tədbirlər; Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi; gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlərdir.

Qanunun 5-ci maddəsi gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender siyasəti üzrə fəaliyyətləri nəzərdə tutan sənədlərin qəbulunu və qender mədəniyyətinin təbliğini nəzərdə tutur.

Qanunda gender bərabərliyinin təmin edilməsinə yönələn hüquqi bazanın formalaşdırılması nəzərdə tutulsa da qanunyaratma praktikasında yalnız birbaşa ayrı-seçkiliyin qarşısının alınmasına yönələn müddəalar daxil edilməklə kifayətlənilir. Azərbaycan Respublikası qanunvericiliyində qadınlara münasibətdə hər hansı birbaşa ayrı-seçkiliyə gətirə biləcək müddəalar yoxdur və qadınlara üstün hüquqların verilməsi pozitiv tədbir hesab edilir. Bununla belə qanunvericiliyin, hər hansı ictimai siyasətin tətbiqinin nəticəsi qadınlara münasibətdə dolayı ayrı-seçkilik hallarına gətirə bilir. Məhz bu baxımdan hüquqi baza yaradılarkən yalnız birbaşa ayrı-seçkiliyi aradan qaldıran müddəalar daxil edilməklə kifayətlənmək düzgün deyildir.

Gender siyasətinin əsas hüquqi bazasını isə – Azərbaycan Respublikasının Konstitusiyası, BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyası, (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu, məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu və bir sıra normativ xarakterli aktlar təşkil edir.

Qanunun 5.02. maddəsinə uyğun olaraq beynəlxalq təşkilatların dəstəyi ilə qanunvericiliyin gender ekspertizası aparılmış, normativ hüquqi bazanın təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması üçün müvafiq işlər görülmüşdür. Hər iki cins üçün de-yure bərabərliyin, de-fakto təmin edilməsi üçün bir sıra mexanizmlər yaradılmışdır.

Qanunun 5.0.4-cü maddəsinin tələblərinə uyğun olaraq gender mədəniyyətinin təbliği, gender stereotiplərinin aradan qaldırılması, gender rollarının izahı istiqamətində əhalinin müxtəlif təbəqələri arasında geniş maarifləndirmə işləri həyata keçirilmişdir.

Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələrin yerinə yetirilməsi (Maddə 6) sahəsində həyata keçirilən tədbirlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu ilk növbədə Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması,

kişilər ilə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsini nəzərdə tutur.

Bütün demokratik cəmiyyətlərdə olduğu kimi Azərbaycanda da dövlət cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin yolverilməzliyini təmin etmək üçün tədbirlər görür. Bu əməlin törədilməsi AR Cinayət Məcəlləsinin 154-cü maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutur.

“Gender bərabərliyinin təminatları haqqında” Qanunun 17-ci maddəsinə görə zərər çəkmiş şəxsə məruz qaldığı ayrı-seçkiliyə (seksual qısnama) görə işə götürən şəxs tərəfindən zərərin ödənilməsi müəyyən edilmişdir.

Gender bərabərliyi mədəniyyətinin təbliği aktual problemdir. Qanunda bununla bağlı dövlət siyasətinin həyata keçirilməsi nəzərdə tutulur. Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsi, bir sıra beynəlxalq qurumlar və vətəndaş cəmiyyəti təsisatlarının həyata keçirdiyi layihələrin bir hissəsi gender mədəniyyətinin təbliğı, gender bərabərliyinin qarşısını alan streotiplərin və adətlərin aradan qaldırılmasına yönəlmişdir. Bununla belə, Qanunda bu siyasətin əsas istiqamətləri ümumi şəkildə verilir.

Bu bir həqiqətdir ki, cəmiyyətdə, xüsusən də, ailə həyatında ayrı-seçkiliyin təzahürlərindən biri də gender əsaslı zorakılıq kimi özünü göstərir və əsasən cəzasız qalır.

Azərbaycan Respublikasında kişi və qadınların hüquq bərabərliyi ölkənin 1995-ci ildə qəbul olunmuş əsas qanunu olan Konstitusiya tərəfindən təmin edilir. Konstitusiyanın 25-ci maddəsi kişi və qadınların bərabər hüquq və azadlıqlarını təsbit edir və insan və vətəndaşların hüquq və azadlıqlarının cinsi mənsubiyyətə görə məhdudlaşdırılmasını qadağan edır. Kişi və qadın ara- sında hüquq və azadlıqlar bərabərliyi və cinsi mənsubiyyətə görə ayri seçkiliyin qadağan olunması Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Cinayət Məcəlləsində və digər qanuni aktlarda öz əksini tapır. 2006-ci ildə qəbul olunmuş “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların yaradılması və gender bərabərliyinin təmin edilməsi idi.

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)” və eləcə də “İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)” təsdiq edilmişdir. Azərbaycan 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” qanun qəbul etməklə və bu qanuna uyğun digər müvafiq qanunlara edilən dəyişikliklərlə məişət zorakılığının qarşısının alınması və qurbanların müdafiə olunması üçün hüquqi əsasın yaranmasına gətirib çıxarmışdır. Lakin Azərbaycan hələ də Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” İstanbul Konvensiyasına qoşulmamışdır. İstanbul Konvensiyası dünyada qadını hər növ zorakılıqdan qoruyan və eləcə də ona qarşı zorakılığın, eləcə də məişət zorakılığının məhkəmə qaydasında araşdırılması və aradan qaldırılmasına məcburi öhdəlik yaradan ilk müfəssəl hüquqi sənəddir.Qadın hqquqlarının insan haqlarının bir parçası olması 1995-ci ildə keçirilmiş Qadın məsələləri üzrə Pekin Konvensiyasında xü-

susilə vurğulanmış və ondan sonrakı dövrdə də qəbul olunmuş bir sıra beynəlxalq sənədlərdə əksini tapmışdır. Sirr deyil ki, gender bərabərliyi və qadınların hüquq və imkanlarının artırılması bütün dünyada dayanıqlı inkişafa nail olunmasının ilkin və ümdə şərtlərindəndir.Gender bərabərliyinin ayrıca məqsəd kimi Dayanıqlı İnkişaf Məqsədləri sırasında göstərilməsi hələ də bu sahədə dünyada görüləcək işlərin çox olduğunu göstərir.

Dövlətin vəzifələri sirasına kişilər və qadınlara bərabər imkanlar üçün bərabər şərait və təminatların yaradılması da daxildir ki, bu da ilk növbədə gender analizinin aparılması və əldə olunan göstəricilərə uyğun olaraq vəsaitlərinin ayrılmasından asılıdır. Gender bərabərliyinin təmin edilməsində dövlətin əsas vəzifələrindən biri də dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin üstünlüyünə yol verilməməsidir. Gender bərabərliyinin sahələr üzrə təmsil olunması üzrə qanunun 7-16 maddələrində nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi kişi və qadınların əmək, təhsil, iqtisadi və sosial münasibətlərdə, eləcə də ictimai və siyasi, o cümlədən həmkarlar ittifaqlarına üzvlüyündə bərabər imkanların yaradılmasını nəzərdə tutur. Bu tədbirlərin səmərəliliyini artırmaq üçün ilk növbədə: Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi; Beynəlxalq öhdəliklərin həyata keçirilməsi sahəsində fəaliyyətlərin gücləndirilməsi; Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında” Azərbaycan Respublikası Qanunun qəbul edilməsi; Ayrı-seçkilyi əks etdirən iş elanlarına görə qanunvericilikdə sanksiyaların müəyyən edilməsi;Gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi; Qadınların məşğulluq sahəsində rəqabət qabiliyyətliliyinin artırılması, onların iqtisadi asılılığının azaldılması məqsədi ilə qadın sahibkarlığının stimullaşdırılması üzrə qanunvericilikdə mümkün mexanizmlərin işlənilməsi Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi; Beynəlxalq öhdəliklərin həyata keçirilməsi lazımdır.

XX əsrin sonlarında meydana gəlmiş davamlı inkişaf konsepsiyası qısa zaman ərzində nəinki çoxsaylı tərəfdaşlar toplamış, həmçinin tətbiqi istiqamətdə də xeyli uğurlar qazanmışdır. Formal baxımdan öz əhatəsinə görə iqtisadi, ekoloji və sosial sahələrdən ibarət olan bu konsepsiyanın əsas məqsədi inkişafın dəstəklənməsi, onun davamlı olmasını təmin etməkdən ibarətdir. İnsan amilini ön plana çəkən bu konsepsiyanın mahiyyətini aşkarlamaq və onun sosial problemlərin həllində rolunu göstərmək üçün ilk növbədə “insan inkişafı” anlayışının məzmununa aydınlıq gətirmək zəruridir.

Sivilizasiyanın indiki mərhələsində artıq birmənalı şəkildə qəbul olunur ki, ölkələrin inkişafını onun yeraltı və yerüstü sərvətlərinin həcmi deyil, vətəndaşlarının intellektual potensialı, “insan qızılı” muəyyənləşdirir. İntellektual potensialın reallaşması, insanların hərtərəfli inkişafı və rifahı xeyli dərəcədə cəmiyyətin səviyyəsindən də asılıdır. Tomos Ceffersonun yazdığı kimi «əgər millət fikirləşirsə ki, sivilizasiyanın hansı bir mərhələsində həm cahil, həm də azad olmaq mümkündür, onda o heç vaxt olmamış və ola bilməyəcək bir şeyi istəyir (5, s.35).

Bəşər cəmiyyətinin inkişaf tarixinin, siyasi rejimlərin mahiyyətinin, inkişaf etmiş dövlətlərin təcrübəsinin təhlili göstərir ki, təhsil, onun səviyyəsi, dəyər yönümləri və prinsipləri adətən mənsub olduğu cəmiyyətə uyğun olur. Davamlı inkişaf konsepsiyasında təhsilin məqsədi kimi dərin biliklərə malik olan, analitik təfəkkürlü, öyrənməyə meylli müs-

təqil vətəndaşların formalaşması irəli sürülür. İnsanlar şəxsi azadlığa anadangəlmə meylli ola bilərlər, ancaq axı onlar azadlığı həm özləri, həm də öz uşaqları üçün mümkün edən və möhkəmləndirən sosial və siyasi vasitələr haqqında bilgi ilə birilkdə doğulmurlar. Onlar həyatda qazanılmalı, mənimsənilməli, öyrənilməlidir. Təlqinetmə prinsiplərindən imtina edilməli, təlim metodlarının isə siyasi dəyərlərə münasibətdə neytrallığı təmin olunmalıdır. Lakin bu çox çətin məsələdir. Çünki hər bir təhsil müəyyən dəyər yükü daşıyır. ABŞ-ın Vanderbilt Universitetin professoru İ.Finn problemə dair öz fikirini belə ifadə etmişdir: Azad cəmiyyətlərdə və demokratik idarəetmədə dövlət xalqa xidmət edir və vətəndaşların bu rejimi yaratmaq, müdafiə etmək və təkmilləşdirmək imkanı əsasən onların keçdiyi təhsil sisteminin keyfiyyəti və effektivliyinə əsaslanır. Tam əminliklə demək olar ki, demokratiya şəraitində təhsil azadlığın özünə uzun müddət ərzində çiçəklənmək imkanı verir [5, 197].

Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi BMT-nin təbiəti mühafizə fəaliyyəti ilə əlaqədar olmuşdur. Komissiyanın əsas vəzifəsi ətraf mühit və inkişaf üzrə uzunmüddətli strateji proqram hazırlamaqdan ibarət idi. Bu strategiya 2000-ci ilə qədər və sonrakı dövr üçün müxtəlif dünya ölkələrinin davamlı inkişafını nəzərdə tuturdu. 1984-cü ildən başlayaraq dünya alimlərinin ətraf mühit və inkişaf üzrə təkliflərini toplayan xanım Q.X. Brundtland 1987-ci ildə 23 ölkənin eks-pertlərinin köməyi ilə hazırlanmış “Bizim ümumi gələcəyimiz” adlı əsas məruzəni BMT Baş Assambleyasına təqdim etmişdir. [7, s.24].

Bu konsepsiyanın əsas məğzi: “Gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsi”ndən ibarətdir.

1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Ətraf mühit və inkişaf üzrə BMT konfransı “XXI əsrin Gündəliyi”, “Rio Bəyannaməsi” və digər sənədləri əhatə edən müasir cəmiyyətin Davamlı İnkişaf Konsepsiyasını qəbul etdi.

Ümumiyyətlə, Davamlı İnkişaf konsepsiyasının əsas məntiqi mahiyyətində planetin təbii ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanılması, indiki və gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılması şərtilə insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün dünyada sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişa fı nəzərdə tutulur.

Qeyd edək ki, insan potensialının inkişafı davamlı inkişaf prosesinin ayrılmaz tərkib hissəsidir. Bu səbəbdən hər hansı bir cəmiyyətdə insan inkişafının iqtisadi, sosial, ekoloji, mədəni, hüquqi, texnoloji, mənəvi-psixoloji, sağlamlıq, təhsil, intelektual, gender və s. durumu davamlı inkişafın əsas göstəriciləri hesab olunur.

Cəmiyyətdə mövcud olan başqa inkişaf konsepsiyalarından fərqli olaraq davamlı inkişaf hər bir insanın əsas zəruri tələbatlarının ödənilməsini tələb edir və hamıya yaxşı həyat şəraiti qurmaq tələbatını təmin etmək imkanı yaradır.

Ümumiyyətlə davamlı inkişafa keçilməsi Yer kürəsindəki həyatı şərtləndirən təbii sistemləri (atmosfer, torpaq, su resursları, canlı aləm və s.) təhlükə altında qoymamalıdır [8, s.50-53].

Davamlı inkişaf anlayışı dedikdə hər şeydən əvvəl davamlı insan potensialına əsaslanan inkişaf nəzərdə tutulur. Bu konsepsiyanın müxtəlif inkişaf konsepsiyalarından fərqlənməsi onun gələcək nəsillərin maraq-

larına cavab verən və uzun müddət öz davamlılığını saxlayan bir inkişaf olması ilə şərtlənir.

Davamlı inkişaf fəlsəfəsinin qlobal xüsusiyyəti planetin ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanılması, gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılması şərtilə indiki insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün dünyada sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutur. Bu konsepsiyanın əsas mahiyyəti ondan ibarətdir ki, indiki nəsillərin inkişafı gələcək nəsillərin mənafelərinə qarşı çıxmasın.

Davamlı inkişaf konsepsiyası uzunmüddətli perspektivdə Azərbaycan Respublikasının insan resurslarının inkişaf etdirilməsindən asılıdır. Əmək məhsuldarlığının artması üçün yüksək ixtisaslı işçi qüvvəsinə ehtiyac vardır. Bacarıqlı və yüksək ixtisaslı işçi qüvvəsinin hazırlanması üçün isə təhsil sahəsinə maliyyə qoyuluşlarını davam etdirmək tələb olunur. Qeyd edək ki, Azərbaycan Respublikasında bütün digər sahələrdə olduğu kimi təhsil sahəsində də ümumbəşəri və milli dəyərlər nəzərə olınmaqla demokratik cəmiyyət quruculuğunun ahənginə uyğun əhəmiyyətli işlər görülür və görülməkdədir. Müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərlik edən Heydər Əliyev ölkəmizin davamlı inkişafa keçməsi istiqamətində xeyli işlər görmüşdür. Lakin həmin dövrdə ölkəmiz davamlı inkişafa mane olan bir çox amillərlə üzləşmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün Cənubi Qafqaz regionunda davamlı inkişafı pozan ciddi amil olduğunu vurğulayan Heydər Əliyev Minilliyin Forumundakı çıxışında Beynəlxalq təşkilatları bu problemin həll edilməsində öz səylərini birləşdirməyə çağırmışdır. “Bu təcavüz Cənubi Qafqazda vəziyyətin sabitliyini pozan başlıca amil olmuşdur… Ermənistan-Azərbaycan münaqişəsini həll etmədən və digər münaqişələri aradan qaldırmadan, xaricdən təzyiq amillərinə, o cümlədən xarici hərbi qüvvələrin olmasına son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir” [11, s.16-17].

Davamlı insan inkişafı konsepsiyasının getdikcə formalaşması real həyatın tələbatına və cəmiyyətdə istehsal və istehlakın dinamikasına uyğun olaraq inkişafın dərəcəsini qiymətləndirmək üçün sosial-fəlsəfi baxımdan yeni yanaşmalar meydana çıxarmışdır. BMT-nin nəzəriyyədən paraktikaya gətirdiyi “Davamlı inkişaf” problemi heç vaxt XX və XXI əsrlərdə olduğu qədər qlobal mahiyyət daşımayaraq hətta nəzəriyyə olaraq elmi-fəlsəfi cəhətdən dərin konseptuallıq ehtiva etməmişdir;

Həyəcan təbilinin nəticəsi olaraq dünyada ən yüksək səviyyədə həm instisional, həm də praktiki anlamda qəbul olundu ki, planetin və insanın təhlüksəsizliyi məsələsi qədər dünyada ikinci bir qlobal problemi hal-hazırda təsəvvür etmək mümkün deyildir. Nəticədə, hər kəs ən ümumi şəkildə olsa da anlamağa başladı ki, təbiətə qarşı dayanan müasir insanın taleyi heç də “davamlı inkişaf” kontekstində qənaətbəxş deyildir. Bir məsələni də qeyd etmək vacibdir: təhlükənin miqyası bəlli olsa da, ancaq müasir günümüzün reallıqları göstərir ki, bu konsepsiyanın ortaya qoyduğu bəşəri aktuallığa hər kəs və ya hər bir dövlət əməl etmək fikrində də deyildir. Bütün bunlar göstərir ki, davamlı inkişaf konsepsiyasından söhbət gedərkən, hətta siyasi, ideoloji, milli, etnik və s. xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. “BMT Baş Assambleyasının 2015-ci il 25-27 sentyabr tarixində keçirilən 70-ci sessiyasında və həmin

vaxtda təşkil edilmiş Dünya Sammitində mühüm qərarlar qəbul edilmişdir. BMT Baş Assambleyasının tövsiyyəsi əsasında Dünya Sammiti 2015-2030-cu illər üzrə 17 məqsəd irəli sürmüş və 193 ölkə davamlı inkişafla bağlı irəli sürülən bu məqsədləri həyata keçirmək üçün öhdəlik götürmüşlər" [4, s.264].

Lakin, bütün bunlara baxmayaraq, qeyd etməliyik ki, BMT-nin, o cümlədən, müxtəlif beynəlxalq təşkilatların ciddi səylərinə baxmayaraq dünyada qarşıya qoyulmuş strateji hədəflərə ən yüksək səviyyədə çatmaq hələ ki, mümkün görünmür. Problem ondadır ki, qarşıya qoyulmuş hədəflər hər bir cəmiyyətin müxtəlif inkişaf səviyyəsindən – iqtisadi, texniki, təhsil elm, sosial aspektlər və o çümlədən, mənəvihumanitar, milli məsələlər və s. ən əsası dünyagörüşlərindən, həyat normalarından asılı olduğundan bu hədəflərə çatmaq elə də asan məsələ deyildir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası: [Elektron mənbə]: Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası. Keçid: http://e-qanun.az/framework/897
2. Cəfərov, İ.M. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi / İ.M.Cəfərov. - Bakı: Hüquq ədəbiyyatı, 2001, 488 s.
3. Əliyev, Əmir. İnsan hüquqları. – Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2019. - 352 s.
4. Hüseynov, S. Davamlı insan inkişafının strateji istiqamətləri. – Bakı: Adiloğlu nəşriyyatı, 2003. – 264 s.
5. Finn Ç., Hengel M., Çenovet E. Demokratiya nədir? – Bakı: Elnur-P, 1995. – 61 s.
6. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanun, 150 IIIQ, maddə 1, http://www.meclis.gov.az/?/az/legislation/view/867
7. Бабурин, С.Н., Урсул, А.Д. Политика устойчивого развития и государственно пр авовой процесс М.: Магистр: ИНФРА-М, 2010, 557 с.
8. Марфин Н.Н. Устойчивое развитие человечества: учебник. М.: МГУ. 2007, с.596.
9. Устойчивое развитие: Новые вызовы: Учебник для вызов (Под общ.ред. В.И.Данилова-Данильяна, Н.А.Пискуловой). М.: Изд-во «Аспект Пресс», 2015, 336 с.
10. http://www.e-qanun.az/framework/12424
11. https://az.wikipedia.org wikipediya

## НЕКОТОРЫЕ ПРАВОВЫЕ АСПЕКТЫ КОНЦЕПЦИИ ГЕНДЕРНОГО РАВЕНСТВА И УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Киблалиева Айтач Эльбурус кызы,**
**докторант кафедры ЮНЕСКО Прав человека и информационного права БГУ.**

В статье указано, что гендерное равенство является важнейшим приоритетом в направлении защиты прав человека, соблюдения законности, экономического развития женщин в мире и повышения конкурентоспособности. Гендер является одним из методов социальной стратификации общества. Эти методы формируют систему социальной иерархии в соответствии с социально-демографическими факторами, такими как раса, национальность, класс и возраст. Отмечается, что развитие человеческого потенциала является неотъемлемой частью процесса устойчивого развития. По этой причине экономическое, социальное, экологическое, культурное, правовое, технологическое, морально-психологическое, медицинское, образовательное, интеллектуальное, гендерное и т. д. развитие человека в любом обществе. считаются основными индикаторами устойчивого развития.

В статье упоминается, что, в отличие от других концепций развития в обществе,

устойчивое развитие требует удовлетворения основных потребностей каждого человека и дает возможность удовлетворить потребность в хороших условиях жизни для всех.

**Ключевые слова:** права человека, гендерное равенство, принцип недискриминации, устойчивое развитие, предотвращение дискриминации, развитие человеческого потенциала и др.

## SOME LEGAL ASPECTS OF THE CONCEPT OF GENDER EQUALITY AND SUSTAINABLE DEVELOPMENT

**Qiblaliyeva Aytac Elburus gizi,**
**doctoral student of the UNESCO Department of Human Rights and information law of BSU.**

The article states that gender equality is the most important priority in the direction of protection of human rights, respect for the rule of law, economic development of women in the world and increasing competitiveness. Gender is one of the methods of social stratification of society. These methods form a system of social hierarchy according to social demographic factors such as race, nationality, class, and age. It is noted that the development of human potential is an integral part of the sustainable development process. For this reason, the economic, social, environmental, cultural, legal, technological, moral-psychological, health, education, intellectual, gender, etc. of human development in any society. are considered the main indicators of sustainable development. The article mentions that, unlike other development concepts in society, sustainable development requires the satisfaction of the basic needs of every person and provides an opportunity to meet the need for good living conditions for all.

**Key words:** human rights, gender equality, principle of non-discrimination, sustainable development, prevention of discrimination, development of human potential, etc.

## CINSIYET EŞITLIĞI VE SÜRDÜRÜLEBILIR KALKINMA KAVRAMININ BAZI HUKUKI YÖNLERI

**Kıbleliyeva Aytaç Elburus gizi,**
**BSU UNESCO İnsan Hakları ve Bilgi Hukuku Bölümü doktora öğrencisi.**

Makalede, insan haklarının korunması, hukukun üstünlüğüne saygı, dünyada kadınların ekonomik kalkınması ve rekabet gücünün artırılması yönünde toplumsal cinsiyet eşitliğinin en önemli öncelik olduğu belirtiliyor. Cinsiyet, toplumun sosyal tabakalaşma yöntemlerinden biridir. Bu yöntemler ırk, milliyet, sınıf ve yaş gibi sosyal demografik faktörlere göre bir sosyal hiyerarşi sistemi oluşturur. İnsan potansiyelinin geliştirilmesinin sürdürülebilir kalkınma sürecinin ayrılmaz bir parçası olduğu belirtilmektedir. Bu nedenle herhangi bir toplumda insanın gelişiminin ekonomik, sosyal, çevresel, kültürel, hukuki, teknolojik, ahlaki-psikolojik, sağlık, eğitim, entelektüel, cinsiyet vb. sürdürülebilir kalkınmanın temel göstergeleri olarak kabul edilmektedir. Makalede, toplumdaki diğer kalkınma kavramlarından farklı olarak sürdürülebilir kalkınmanın, her insanın temel ihtiyaçlarının karşılanmasını gerektirdiği ve herkes için iyi yaşam koşulları ihtiyacının karşılanmasına fırsat sağladığı belirtiliyor.

**Anahtar Kelimeler:** insan hakları, cinsiyet eşitliği, sürdürülebilir kalkınma, ayrımcılığın önlenmesi, insan potansiyelinin geliştirilmesi vb.

# Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mədəniyyətlərarası əməkdaşlığın hüquqi tənzimlənməsi

**Sima A. Süleymanlı,**
**hüquq üzrə fəlsəfə doktoru,**
**BDU-nun doktorantı.**
e-poçt: s.suleymanli@hotmail.com

*Məqalədə mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mədəniyyətlərarası əməkdaşlığın hüquqi tənzimlənməsindən bəhs olunur. Bu istiqamətdə əməkdaşlığın həyata keçirilməsinin hüquqi əsasları araşdırılır. Burada qeyri-dövlət sektoruna aid olan peşəkar beynəlxalq təşkilatların tövsiyə xarakterli aktlarının əhəmiyyəti analiz edilir. Xüsusilə, Beynəlxalq Muzeylər Şurası çərçivəsində qəbul olunan tövsiyə xarakterli aktlar təhlil edilir. Bütövlükdə tövsiyə xarakterli aktlarla beynəlxalq müqavilə və milli qanunvericilik normalarının müqayisəli təhlili aparılır. Qeyd olunur ki, tövsiyə xarakterli aktlar mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinin qarşısının alınmasında əhəmiyyətli rol oynamaqla beynəlxalq müqavilə və milli qanunvericilik normalarını tamamlayır.*

**Açar sözlər:** mədəni irs obyektləri, qanunsuz dövriyyə, mədəniyyətlərarası əməkdaşlıq, "mülayim hüquq" aktları, etika məcəlləsi.

Beynəlxalq mədəni əməkdaşlığın tərkib hissəsi olaraq mədəniyyətlərarası əməkdaşlıq, mədəniyyət sahəsində fəaliyyətin subyektləri (fiziki və hüquqi şəxslər, dövlət orqanları, mədəniyyət müəssisələri, dini təsisatlar, qeyri-hökumət təşkilatları) arasındakı əlaqəni ehtiva edir. Əslində bu əməkdaşlıq mədəniyyətlərin bərabərliyi və həmrəylik prinsiplərinə əsaslanmaqla mədəni irsin qorunması sahəsində kollektiv məsuliyyətin yaradılması zərurətinə xidmət edir. Əlbəttə, bu əməkdaşlıqla bağlı bəzi məqamları nəzərə almaq lazımdır.

Əvvəla, bu əlaqə mədəniyyətlərarası əlaqədir. Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 20 oktyabr 2005-ci il Konvensiyasına (bundan sonra – 2005-ci il UNESCO Konvensiyası, hansı ki, AR 26 noyabr 2009-cu il tarixli (№ 918-IIIQ) Qanunla bu Konvensiyaya tərəfdar olub) əsasən, mədəniyyətlərarası əlaqə, müəxtəlif mədəniyyətlərin mövcudluğunu və onların qarşılıqlı təsirini, həmçinin dialoq və qarşılıqlı hörmət əsasında ümumi mədəni özünüifadənin yaranması imkanını ehtiva edir. Bu kontekstdə mədəniyyətlərarası dialoq mədəniyyətlərarası əməkdaşlığın bir forması olaraq çıxış edir. Başqa sözlə mədəniyyətlərarası əməkdaşlıq müxtəlif cəmiyyətlərə aid mədəniyyət fəaliyyətinin subyektləri arasında yaranmaqla beynəlxalq xarakter daşıyır.

İkincisi, mədəniyyətlərarası əməkdaşlıq, həm dövlət orqanlarının, həm də qeyri-dövlət (özəl) sektoruna aid subyektlər arasındakı əlaqəni ehtiva edir. Bu anlamda mədəniyyətlərarası əməkdaşlığı vətəndaş cəmiyyətinə aid olan subyektlər arasında olan əlaqə ilə məhdudlaşdırmaq olmaz. Belə ki, mədəniyyətlərarası əməkdaşlıqda iştirak edən mədəniyyət müəssisələri (muzeylər, arxivlər, ki-

tabxanalar və s.) həm dövlətə, həm də özəl sektora aid ola bilər. Bu baxımdan, mədəniyyətlərarası əməkdaşlıq, dövlət orqanları və ya dövlətə mənsub olan mədəniyyət müəssisələri ilə özəl sekrora aid olan subyektlər arasında, yaxud sırf özəl sektora aid subyeklər arasında yarana bilər. Sonuncuların sırasında qeyri-hökumət təşkilatları xüsusi əhəmiyyət kəsb edir. AR-də belə təşkilatlara 1995-ci ildə yaradılan Azərbaycan Mədəniy¬yəti¬nin Dostları Fondunu, 2002-ci ildə təsis edilən Heydər Əliyev Fondunu, Azərbaycan Xalçaçılar Birliyini, Musiqi Dünyası İctimai Birliyini və s. göstərmək olar. Beynəlxalq qeyri-hökumət təşkilatlarına nümunə qismində Beynəlxalq muzeylər şurasını (İCOM), Abidələrin və tarixi yerlərin mühafizəsi üzrə Beynəlxalq Şuranı (İCOMOS), Mədəni dəyərlərin qorunması və bərpası üzrə beynəlxalq tədqiqat mərkəzini (Roma mərkəzi) və s. göstərmək olar. UNESCO yanında "A" kateqoriyalı məşvərətçi statusuna malik olan bu təşkilatlar öz səlahiyyətləri çərçivəsində mədəni irsin qorunmasında, o cümlədən qanunsuz dövriyyəyə qarşı əməkdaşlıqda əhəmiyyətli fəaliyyət göstərirlər.

Nəzərə almaq lazımdır ki, "mədəni irsin qorunmasının təmin edilməsinin yalnız bu istiqamətdə məsuliyyətin dövlət, vətəndaş və cəmiyyət arasında ədalətli bölünməsi yolu ilə ola bilər" [6]. Beynəlxalq mədəni əməkdaşlığın prinsiləri Bəyannaməsinin V maddəsində qeyd olunduğu ki, mədəni əməkdaşlıq bütün xalqların və ölkələrin həm hüququ, həm də vəzifəsidir, ona görə də onlar bilik və təcrübələrini bir-biri ilə bölüşməlidir. Qanunsuz dövriyyə qarşı əməkdaşlığa vətəndaş cəmiyyətinin cəlb edilməsi BMT-nin oranlarının qəbul etdikləri aktlarda da nəzərdə tutulur. Məsələn, Mədəni sərvətlərin mənşə dövlətinə qayatarılması və ya restitusiyası haqqında BMT BM-nin 13dekabr 2018-ci il tarixli 73/130 saylı Qətnaməsini, İnsan hüquqları Şurasının 2018-ci ildə qəbul etdiyi Mədəni hüquqlar və mədəni irsin müdafiəsi adlı 37/17 saylı Qətnaməsini nümunə göstərmək olar. Cəmiyyət və dövlətin səylərinin birləşdirilməsini mədəni irs qarşı cinayətkarlıqla mübarizə üzrə milli maraqlar da tələb edir. Bunun üçün vətəndaş cəmiyyətinin (özəl sektorun) mədəni irs obyektlərinin qanunsuz dövriyyə ilə mübarizəyə cəlb edilməsi olduqca vacibdir. Əslində bütövlükdə mədəni irsin qorunması üçün bunun zəruri olması, həm beynəlxalq, həm də milli aktlarda vurğulanır. Belə ki, 2005-ci il UNESCO Konvensiyasında vətəndaş cəmiyyətinin fundamental rola malik olması və Konvensiyanın məqsədlərinə nail olunması istiqamətində dövlətlərin vətəndaş cəmiyyətinin iştirakını həvəsləndirməli olmaları qeyd olunur (m.11). Bu kontekstdə AR-in Mədəniyyət Konsepsiyasında mədəniyyətin müvəffəqiyyətli idarə olunmasının təmin edilməsində qeyri-hökumət təşkilatlarının və özəl sektorun bu işə cəlb olunması və onlarla qarşılıqlı əməkdaşlığın yaradılması əsas vəzifələrdən biri olaraq müəyyən edilir. Buna uyğun olaraq qeyd olunan vəzifə Mədəniyyət haqqında Qanunda təsbit olunub (m.5.1.7). Beynəlxalq əməkdaşlıq vasitəsi ilə özəl və publik subyektlərin tərəfdaşlığının zəruriliyi Beynəlxalq Hüquq Assosiasiyasının (İLA) 4-8 iyun 2006-cı ildə Kanadanın Toronto şəhərində keçrilən 72-ci Konfransında qəbul edilən Mədəni sərvətlərin verilməsi və qarşılıqlı müdafiəsi üzrə əməkdaşlığın Prinsiplərində (bundan sonra – Əmədaşlıq Prinsipləri) [13]

də qeyd edilir. Əmədaşlıq Prinsiplərində təsbit olunan könüllü əməkdaşlıq sistemi üçün minimal standartlar [7], həm özəl sektora aid subyektlər, həm də bu subyektlərlə publik subyektlər (dövlətə aid mədəniyyət müəssisələri və dövlət orqanları) arasındakı əməkdaşlıqda istifadə edilir.

Üçüncüsü, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinin qarşısının alınması kontekstində əməkdaşlıq subyekti qismində əsasən muzeylər, arxivlər və kitabxanalar, dini təsisatlar (məscidlər, kilsələr, sinaqoqlar), maraqlı şəxslər (kolleksiyaçılar, antikvarlar, antikvariat ticarətçiləri) və onların birlikləri çıxış edir. Bu baxımdan qeyd olunan subyektlərin beynəlxalq əməkdaşlığı mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə daha çox əhəmiyyət kəsb edir. Çünki, qanunsuz dövriyyə ilə mübarizədə bu subyektlərin necə davranması əhəmiyyətlidir. Məhz onların qanunauyğun davranışı ilə mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinin qarşısını almaq olar. Təsadüfi deyildir ki, təcrübədə UNESCO tərəfindən və ya antikvariat ticarətçilərinin peşəkar təşkilatları tərəfindən qəbul edilən aktlarda (davranış məcəlləsi və ya etik məcəllə, prinsiplər, tövsiyələr) təsbit olunan davranış qaydaları məhz qeyd olunan subyektlər üçün nəzərdə tutulur. Digər tərəfdən, 1970-ci il UNESCO Konvensiyası maraqlı şəxslərin (kolleksiyaçılar, antikvarlar) üçün davranış qaydalarının müəyyən edilməsinin üzv dövlətlərin üzərinə qoysa da (m. 5(e)), həmin qaydaların uyğun olmalı olduğu etik prinsipləri özü təsbit edir. Eləcə də 1970-ci il UNESCO Konvensiyasının 7-ci maddəsi, qanunsuz dövriyyənin qarşısının alınması öhdəliyini dövlətlər üçün müəyyən etsə də, başqa dövlətdən qanunsuz çıxarılmış mədəni irs obyektlərinin əldə edilməsini və ya kolleksiyasında olan mədəni irs obyektlərinin siyahıya alınmasını muzeylər və digər analoji idarələr, yaxud dini və ya dünyəvi tarixi abidələr və ya buna bənzər digər idarələr yerinə yetirir.

Mövcud normativ bazanın təhlili belə bir ilkin nəticəyə gəlməyə əsas verir ki, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizədə mədəniyyət subyektlərinin fəaliyyəti kompleks xarakterli hüquq normaları sistemi vasitəsi ilə tənzimlənir. Əlbəttə, bu sistemdə beynəlxalq müqavilə normaları ilkinlik təşkil edir. İstər 1970-ci il UNESCO Konvensiyasının, istərsə də 1995-ci il UNİDRUA Konvensiyasının müddəaları bu fəaliyyətin konkret tənzimlənməsini üzv dövlətlərin qanunvericiliyinə həvalə edir. Buna uyğun olaraq AR-də mədəniyyət təsisatlarının qanunsuz dövriyyə ilə mübarizədə fəaliyyəti Mədəniyyət haqqında Qanunla və onun göstərişlərinə müvafiq olaraq Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalarla yanaşı, xüsusi normatv aktlarla (məsələn, Kitabxana işi haqqında 1998-ci il Qanunu, Milli arxiv fondu haqqında 1999-cu il Qanunu, Muzeylər haqqında 2000-ci il Qanunu) tənzimlənir. Preambulasında muzeylərin, kitabxanaların və arxivlərin öz kolleksiyalarının hamılıqla qəbul edilmiş əxlaqi prinsiplər əsasında yaradılmasının təsbit olunduğu 1970-ci il UNESCO Konvensiyası, dövlətlərin müəyyən etdiyi qaydaların əsaslanmalı olduğu bu prinsipləri "etik prinsiplər" olaraq müəyyən edir. Amma təcrübə göstərir ki, beynəlxalq müqavilələrlə və milli qanunvericilikdə təsbit olunan bu etik prinsiplər, eyni zamanda "mülayim hüquq" normaları formasında da müəyyən olunur. Göründüyü kimi, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq müqavilə və milli

qanunvericiliklə, yanaşı, "mülayim hüquq" normaları da əhəmiyyətli rol oynayır. Bu normaların təsbit olunduğu aktlar ("mülayim hüquq" aktları): davranış məcəllələri və ya etik məcəllələr, rəhbər prinsiplər, beynəlxalq təşkilatların tövsiyələri (məsələn, UNESCO), beynəlxalq qeyri-hökumət təşkilatları (məsələn, İCOM) və antikvariat ticarətçilərinin peşəkar təşkilatları (məsələn, İncəsənət əsərləri ticarətçilərinin Beynəlxalq Konfederasiyası – CİNOA) tərəfindən qəbul edilə bilər. Bu növ aktların milli səviyyədə qəbul edilməsi də istisna edilmir. Məsələn, 1986-cı ildə Almaniyada və İngiltərədə belə məcəllələr qəbul edilmişdir. Bu məcəllələr, bir tərəfdən, təcrübədə istifadə edilirsə, məsələn, "Kristis" və "Sotbis" kimi auksion evlərinin fəaliyyətində 1986-cı il Məcəlləsindən istifadə olunur, digər tərəfdən, başqa dövlətlərdə, əlbəttə, mədəni irs obyektlərinin idxalçısı olan ölkələrdə (məsələn, Fransa, İsveçrə və s.) belə aktların qəbul edilməsi üçün nümunə qismində istifadə edilir.

Nəzərə almaq lazımdır ki, qeyd olunan aktlar "mülayim hüquq" sisteminin [5, s. 130-131] yalnız bir hissəsini təşkil edir. Məlum olduğu kimi bu sistemə dövlətlərarası beynəlxalq təşkilatların (məsələn, UNESCO) qəbul etdiyi tövsiyə xarakterli aktlar (tövsiyələr, qətnamələr, davranış məcəllələri və s.) də daxildir. Yeri gəlmişkən, 1999-cu ildə UNESCO-nun Mədəni sərvətlərin mənşə dövlətinə qaytarılması və ya qanunsuz mənimsənilmə halında onların restitusiyasına yardım üzrə Hökumətlərarası Komitəsi tərəfindən Mədəni sərvətlər ticarətçiləri üçün Beynəlxalq peşəkar etika məcəlləsi [8] qəbul edilmişdir. 8 maddədən ibarət olan bu Məcəllə qanunsuz dövriyyə ilə mübarizədə beynəlxalq qeyri-hökumət təşkilatlarının (ilk növbədə, İCOM-in) Hökumətlərarası Komitə ilə əməkdaşlığında əhəmiyyətli rol oynayır. Bundan başqa, qanunsuz dövriyyə ilə mübarizədə özəl sektora aid subyektlərin beynəlxalq əməkdaşlığının tənzimlənməsində UNESCO çərçivəsində qəbul edilən qətnamə və tövsiyələr (məsələn, Mədəni sərvətlərin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəlmiş tədbirlər haq¬qında 1964-cü il Tövsiyəsi, Mədəni sərvətlərin beynəlxalq dövriyyəsi haqqında 1976-cı il Tövsiyəsi, Daşınar mədəni sərvətlər haqqında 1978-ci il Tövsiyəsi, Mədəni sərvətlərin mənşə ölkəsinə qaytarılması və restitusiyası haqqında 2001-ci il Qətnaməsi (56/97)) mühüm rola malikdir. Qeyd etdiyimiz aktlar da daxil olmaqla "yumşaq hüquq" sisteminə aid olan aktlar birlikdə geniş mənada "mülayim hüquq" aktları sistemini yaradır. Bu kontekstdə beynəlxalq qeyri-hökumət təşkilatları, o cümlədən peşəkar təşkilatlar çərçivəsində qəbul edilən aktlarını (davranış və ya etika məcəllələri, rəhbər prinsiplər, tövsiyələr) dar mənada "mülayim hüquq" aktları hesab etmək olar.

Xarakter baxımından, bu aktlarda təsbit olunan qaydalar "mülayim hüquq" sisteminə daxil olan digər normalardan fərqlənmirlər. Çünki, bu normaların hər biri "hüquqi təbiəti baxımından, məcburi qüvvəyə malik deyillər" [10]. Amma bu, o demək deyildir ki, onların hər hansı hüquqi əhəmiyyəti yoxdur [7]. Həmin aktlar "beynəlxalq antikvariat bazarının təmizlənməsinə əsaslı təsir edir" [2, s. 373]. Ona görə ki, onların qəbul edilməsi məqsədi, mədəni irs obyektlərinin beynəlxalq ticarətinə nəzarəti həyata keçirməkdir. Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə

mübarizənin səmərəliliyi bu nəzarətin olmasından birbaşa asılıdır. Bu kontekstdə hesab edirik ki, peşəkar beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən "yumşaq hüquq" aktları daha əhəmiyyətli rol oynaya bilər. Məsələn, İKOMOS tərəfindən 1996-cı ildə qəbul edilən Sualtı mədəni irsin qorunması və idarə edilməsi haqqında Beynəlxalq Nizamnaməsini, İCOM-un 1986-cı ildə qəbul etdiyi və 2004-cü ildə yenidən baxılmış Muzey etikası Məcəlləsini [12] qeyd etmək olar. Sonuncu Məcəllə hazırda dünyanın 38 dilinə tərcümə edilmişdir. Məcəllədə muzeylər üçün peşəkar minimal standartlar müəyyən olunur. Bu Məcəllə nümunəsində peşəkar beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən "mülayim hüquq" aktlarının əhəmiyyətini aşağıdakılarla izah etmək olar. Əvvəla, bu aktlarda təsbit olunan qaydaların tətbiq zərurəti mədəni irs obyektləri ticarətçilərinin peşəkar birlik və təşkilatlarda üzv olaraq iştirak etməsi ilə izah edilə bilər. Bu halda həmin ticarətçilər həmin birliklərin müəyyən etdiyi davranış qaydalarını müəyyən mənada özləri üçün məcburi göstəriş kimi qəbul edir. İkincisi, mədəni irs obyektlərinin ticarəti üzrə münasibətlərin qeyri-dövlət tənzimlənməsinin əsası kimi çıxış edə biləcək bu qaydalar daha mütəhərrik tətbiq olunma xüsusiyyətinə malikdirlər. Üçüncüsü, bu qaydalar daha konkret məzmuna malikdir. Həmin qaydalara əsasən, antikvariat ticarətçiləri, o cümlədən auksion evləri, satılan predmet üzərində satıcının lazımi mülkiyyət hüququna malik olmaması və həmin predmetin mənşə dövlətinin qanunvericiliyi pozulmaqla gətirilməsi barədə ağlabatan əsaslara malik olduqları halda, bu predmetləri idxal və ixrac etməmək, o cümlədən onlar üzərində mülkiyyət hüququnu başqasına verməmək öhdəliyi daşıyırlar [3, s.175]. Qeyd olunan müsbət xüsusiyyətlər, bu qaydalarla beynəlxalq müqavilə və ya milli qanunvericilik normaları arasında hər hansı ziddiyyətin yarana bilməsini əsaslandıra bilməz. Hesab edirik ki, daha çox etik prinsiplərdən ibarət olan bu qaydalarla beynəlxalq müqavilə və ya milli qanunvericilik normaları arasında ziddiyyətin yarana bilməsini fikirləşmək belə düzgün olmazdı. Çünki, belə bir ziddiyyətin olmasını müəyyən etmək üçün həmin normaların müqayisəsini aparmaq lazımdır. Hüquqi qüvvə baxımından eyni səviyyədə olmayan normaların müqayisəsini aparmaq isə qeyri-məntiqi olardı. Amma, sonuncu qeyd etdiklərimiz "mülayim hüquq" aktlarında beynəlxalq müqavilə və milli qanunvericilik normalarından fərqli müddəaların təsbit olunmasını istisna etmir. Məsələn, Muzey etikası Məcəlləsi beynəlxalq müqavilələrdən fərqli olaraq, mədəni irs obyektinin qaytarılmasını, vicdanlı sahibə müvafiq kompensasiyanın ödənilməsi ilə şərtləndirmir. Digər ətərfdən, dar mənada "yumşaq hüquq" aktlarında fərqli məzmunlu müddəaların təsbit edilməsi, peşəkar maraqlardan irəli gələ bilər. Məsələn, dünyanın 18 böyük və ya universal muzeyinin 2002-ci ilin dekabrında keçirilən forumunda qəbul edilən Universal muzeylərin əhəmiyyəti haqqında Bəyannamədə təsbit olunan prinsipial müddəaya görə, onilliklər və ya yüz il əvvəl həmin dövrün qaydalarına uyğun olaraq müzeylər tərəfindən əldə edilən mədəni irs obyektlərinə müasir normalar tətbiq edilə bilməz [4, s.115]. Göründüyü kimi, bu cür müddəa dünyanın bir çox ərazilərindən əldə edilən mədəni irs obyektlərinin saxlanıldığı (məsələn, Azərbaycan xalqına məxsus Təbriz xalçası Parisin Luvr muzeyində saxlanılır) universal muzeylərin

(məsələn, Ermitaj, Luvr, Metropoliten və s.) maraqlarına uyğun gəlir. Əslində, bu cür müddəanın olması, qanunsuz çıxarılmış mədəni irs obyektlərinin mənşə dövlətinə qaytarılması ilə bağlı həm beynəlxalq müqavilələrin (məsələn, 1970-ci il UNESCO Konvensiyası) müddəalarına, həm də AR qanunvericiliyinin "qanunsuz çıxarılmış mədəni irs obyektləri ...çıxarıldığı vaxtdan və şəraitdən asılı olmayaraq, AR-ə qaytarılmalıdır" (Mədəniyyət haqqında Qanun, m. 52.3) müddəasına birbaşa ziddir. Əlbəttə, belə hallarda hüquq normalarının, ilk növbədə beynəlxalq hüquq normalarının tətbiq edilməsinə üstünlük verilməlidir. Bu halda nəzərə alınmalıdır ki: 1) işğal nəticəsində əldə edilən mədəni irs obyektləri qaytarılmalıdır. Bu müddətdən asılı olmayaraq, bağlanmış sülh müqaviləsi (AR və Ermənistan arasında bağlanacaq sülh müqaviləsində də belə bir müddəa nəzərdə tutulmalıdır) vasitəsi ilə baş verə bilər. Çünki işğal rejimi yaranan mülkiyyət hüququnu etibarsız edir. 2) mədəni irs obyektlərinin qaytarılması məhkəmə qərarı əsasında da həyata keçirilə bilər. Yox, əgər muzeylər "dünya mədəniyyətinə xidmət edir, vətəndaşların fərdi maraqlarını deyil, hər xalqın incəsənət şedevrlərini təblig edir" [4, s.115] tezisinə əsaslanarsa, o halda mədəni irsin mənşəyi düzgün göstərilməli, həmin obyekt başqa xalqın mədəni irsi olaraq təbliğ edilməməlidir. Muzeylərin təcrübəsində belə hallara rast gəlinir. Məsələn, Ermənistan muzeylərində saxlanan Azərbaycan xalqına məxsus Qarabağ xalçaları erməni, Luvrda saxlanan Təbriz xalçası isə İran mədəni irsi olaraq təblig edilir.

Əlbəttə, qeyd olunan xüsusiyyətlərlə "mülayim hüquq" aktları (davranış və ya etik məcəllələr, rəhbər prinsiplər, tövsiyələr) yalnız "tamamlayıcı" qismində çıxış edə bilər. Çünki, beynəlxalq müqavilələr, konkret halda 1970-ci il UNESCO Konvensiyası və 1995-ci il UNİDRUA Konvensiyası mədəni irs obyektlərinin beynəlxalq ticarətini birbaşa tənzimləmir, yalnız qanunsuz dövriyyənin qarşısının alınması istiqamətində tələblər (etik prinsiplər) müəyyən edir ki, "mülayim hüquq" aktlarının müddəaları həmin tələbləri konkretləşdirməklə, onları tamamlayır. Hərçənd, hüquq ədəbiyyatında bu aktların milli qanunvericilik normalarını tamamladığı qeyd olunur [11, s.168]. Bəzən, qeyd olunan "mülayim hüquq" normalarının qəbul edilməsi bu və ya digər mövcud beynəlxalq müqavilənin realizəsi məqsədi daşıya bilər. Məsələn, Amerika muzey direktorları assosiasiyası (AAMD) tərəfindən 2004-cü ildə qəbul edilən və 2013-cü ildə yenidən baxılmış Arxeoloji materialların və qədim incəsənət obyektlərinin əldə edilməsi üzrə xüsusi Rəhbər Prinsiplər [9] 1954-cü il Haaqa Konvensiyasının implementasiyasına yardım etmək məqsədi daşıyır [4, s.116]. Qeyd olunan aktların müddəalarına görə, mədəni irs obyektlərini ticarət edən satıcı qismin¬də satıcı etdiyi zaman alıcıya mülkiyyət hüququ ilə bağlı təminat verməyə borcludur. Ticarətçi birbaşa satıcı qismində çıxış etməyə də bilər. Bu halda o, bir qayda olaraq vasitəçi olur. Təcrübə göstərir ki, böyük auksion evləri bir qayda olaraq bu qisimdə, yəni agent kimi çıxış edirlər. Belə hallarda ticarətçi alıcının mədəni sərvətlərə mülkiyyət hüququna təminat vermir, amma satıcının adını və ünvanını verməyə borcludur [1, s.131]. Eyni zamanda, etik məcəllələrin tələblərinə görə, mədəni irs obyektlərinin ticarətçiləri, bu obyektlərin oğurlanması, qanunsuz özgənin-

kiləşdirilməsi, qanunsuz qazıntı nəticəsində əldə olunması və ya qanunsuz yolla çıxarılması barədə kifayət qədər əsasa malik olduğu halda həmin obyektləri idxal və ya ixrac etmir, yaxud həmin onlar üzərində mülkiyyət hüququnu başqasına vermirlər. Kifayət qədər əsasın olması onu ifadə edir ki, ticarətçi obyektlə bağlı hər hansı ticarət münasibətinə girərkən, həmin mədəni irs obyektinin mənşəyini araşdırmalıdır. Məsələn, muzeylər hər hansı mədəni irs obyektini əldə etməmişdən əvvəl həmin obyektin mənşəyi ilə bağlı tədqiqat aparmaqla onun dövriyyəyə qanuni və ya qanunsuz yolla daxil edilməsini müəyyən etməlidir (Muzey etikası Məcəlləsi, b. 2.3.). Əslində, İCOM üzvü olan muzeylər tərəfindən bu Məcəllənin normalarına riayət edilməsi, müvafiq beynəlxalq müqavilədə iştirak etməyən dövlətlərdə belə, qeyd olunan müqavilədə təsbit olunan prinsiplərin de facto icra edilməsini təmin edir [7]. Bu baxımdan, Muzey etikası Məcəlləsinin 2.3-cü bəndində nəzərdə tutulan tələb 1995-ci il UNİDRUA Konvensiyasının “sahibin lazımi diqqət göstərməsi” tələbi ilə uyğunluq təşkil edir. Belə ki, Konvensiyanın 4-cü maddəsinin 4-cü bəndinə müvafiq olaraq sahibin lazımi diqqət göstərdiyini müəyyənləşdirmək üçün tərəflərin ad-sanını, ödənilmiş məbləği, sahibin oğurlanmış mədəni irs obyektinin hansısa açıq reyestrində soraqlaşma aparmasını, habelə onun ağlabatan şəkildə ala biləcəyi digər müvafiq informasiyanı və sənədləri, eləcə də açıq idarələrdə soraqlaşma aparmasını, yaxud ağıllı şəxsin həmin şəraitdə görə biləcəyi digər tədbirlər daxil olmaqla, əldə edilmənin bütün şəraitini nəzərə almaq zəruridir [1, s.130]. Qeyd olunan tədbirləri görmədən mədəni irs obyektini əldə etmək və ya nümayiş etdirmək həmin obyektlərin qeyri-qanuni dövriyyəsinə göz yummaq kimi qiymətləndirilə bilər (Muzey etikası Məcəlləsi, b. 2.3.). Bu kontekstdə muzeylər işğal edilmiş ərazilərdən çıxarılmış mədəni irs obyektlərini əldə etməkdən çəkinməlidir (Muzey etikası Məcəlləsi, b. 6.4.).

Beləliklə, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə mədəniyyətlərarası əməkdaşlıq, müəxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsi kontekstində dövlətə aid olmasından asılı olmayaraq, mədəniyyət fəaliyyəti subyektlərinin qarşılıqlı əməkdaşlığını ehtiva edir. Bu əməkdaşlıq, ilk növbədə, vətəndaş cəmiyyətinə aid təsisatların qarşılıqlı fəaliyyətini əhatə edir. Eyni zamanda, özəl sektorla dövlətə məxsus (publik) təsisatlar arasındakı fəaliyyəti də ehtiva edir. Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə mədəniyyətlərarası əməkdaşlıq beynəlxalq müqavilə və milli qanunvericiliklə yanaşı, “mülayim hüquq” normaları, xüsusilə peşəkar beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən dar mənada “mülayim hüquq” aktları ilə müəyyən edilən normalarla tənzimlənir. Sonuncu normalar mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinin qarşısının alınmasında əhəmiyyətli rol oynamaqla beynəlxalq müqavilə və milli qanunvericilik normalarını tamamlayır.

**Mənbələrin siyahısı**

1. Süleymanlı S.A. Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi. – Bakı: Azərbaycan nəşriyyatı, 2018. – (296 s
2. Богуславский М.М. Культурные ценности в международном обороте: правовые аспекты. – М: Норма: ИНФРА-М, 2015. - 416 с.

3. Богуславский М.М. Судьба культурных ценностей. – М.: Юристь, 2006. - 206 с.
4. Видинеев Д.И. Прогрессивное развитие института международно-правовой защиты культурных ценностей: / дисс. на соис. уч. степ. кан.юр. наук. / - М, 2017. - 233 с.
5. Лукашук И.И. Нормы международного права в международной нормативной системе. – М.: Спарк, 1997. - 321 с.
6. Мартыненко И.Э. Участие институтов гражданского общества в сохранении культурного наследия // отрасли-права.рф/article/17090
7. Alper Taşdelen. The returrn of cultural artefacts: Hand and soft law approaches| Springer International Publishing Switzerland 2016, p.157 // http://ndl.ethernet.edu.et/bitstream/123456789/14117/1/71.pdf.pdf
8. International Code of Ethics for Dealers in Cultural Property // URL.: https://unesdoc.unesco.org/ark:/48223/pf0000121320
9. Introduction to the Revisions to the 2008 Guidelines on the Acquisition of Archaeological Material and Ancient Art. Adopted by AAMD Membership. January 29, 2013. URL: https://www.aamd.org/sites/default/files/document/AAMD%20Guidelines%202013.pdf (daxil olma: 28.01.24)
10. Graf Vitzthum W Begriff, Geschichte und Rechtsquellen des Völkerrechts. In: Graf Vitzthum W, Proelß A (eds) Völkerrecht, 6th edn. Berlin, De Gruyter, 2013. - pp 1–59
11. Stamatoudi IA Cultural property law and restitution: a commentary to international conventions and European Union law. Edward Elgar, Cheltenham, 2011. - 416 p.
12. https://icom.museum/wp-content/uploads/2018/07/ICOM-code-En-web.pdf (25.01.24)
13. https://www.cambridge.org/core/journals/international-journal-of-cultural-property/ article/abs/principles-for-cooperation-in-the-mutual-protection-and-transfer-of-cultural-materialadopted-at-the-72nd-conference-of-the-international-law-association-held-in-toronto-canada-48-june-2006/D6E502AEA7B86D5931D1D53B1C71A16B

## Legal regulation of intercultural cooperation in countering illegal trafficking of cultural heritage objects

**Sima A. Suleimanli,**
**PhD on Law.**
(s.suleymanli@hotmail.com)

The article deals with the legal regulation of intercultural cooperation in the fight against illegal trafficking of cultural heritage objects. In this direction, the legal basis for the implementation of cooperation is being investigated. Here, the significance of acts of a recommendatory nature of professional international organizations related to the non-governmental sector is analyzed. In particular, the acts of a recommendatory nature adopted within the framework of the International Council of Museums are analyzed. In general, a comparative analysis of the norms of an international treaty and national legislation with acts of a recommendatory nature is carried out. It is noted that acts of a recommendatory nature complement the norms of an international treaty and national legislation, playing a significant role in preventing illegal trafficking in cultural heritage objects.

**Key words:** cultural heritage sites, illegal trafficking, intercultural cooperation, acts of “soft law", code of ethics.

## Правовое регулирование межкультурного сотрудничества в противодействии незаконному обороту объектов культурного наследия

**Сима А. Сулейманлы,**
**доктор философии по праву, докторант БГУ.**
(s.suleymanli@hotmail.com)

В статье речь идет о правовом регулировании межкультурного сотрудничества в борьбе с незаконным оборотом объектов культурного наследия. В этом направлении исследуются правовые основы осуществления сотрудничества. Здесь анализируется значение актов рекомендательного характера профессиональных международных организаций, относящихся к негосударственному сектору. В частности, анализируются акты рекомендательного характера, принятые в рамках Международного совета музеев. В целом проводится сравнительный анализ норм международного договора и национального законодательства с актами рекомендательного характера. Отмечается, что акты рекомендательного характера дополняют нормы международного договора и национального законодательства, играя значительную роль в предупреждении незаконного оборота объектов культурного наследия.
**Ключевые слова:** объекты культурного наследия, незаконный оборот, межкультурное сотрудничество, акты “мягкого права”, кодекс этики.

## Kültürel miras nesnelerinin yasa dışı dolaşımına karşı kültürlerarası işbirliğinin yasal düzenlenmesi

**Sima A. Süleymanlı,**
**Hukuk Felsefesi Doktoru, BSU'nun doktora öğrencisi.**
(s.suleymanli@hotmail.com)

Makalede kültürel miras nesnelerinin yasadışı dolaşımına karşı kültürlerarası işbirliğinin yasal düzenlemesi ele alınmaktadır. Bu yöndeki işbirliğinin hukuki dayanağı araştırılıyor. Burada devlet dışı sektöre ait uluslararası profesyonel kuruluşların tavsiye niteliğindeki düzenlemelerinin önemi analiz edilmektedir. Özellikle Uluslararası Müzeler Konseyi çerçevesinde kabul edilen tavsiye kararları incelenmektedir. Bir bütün olarak, uluslararası anlaşmaların ve ulusal mevzuat normlarının tavsiye niteliğindeki düzenlemelerle karşılaştırmalı bir analizi yapılmaktadır. Tavsiye kararlarının, kültürel miras eserlerinin yasa dışı dolaşımının önlenmesinde önemli bir rol oynadığı ve uluslararası anlaşma ve ulusal mevzuat normlarını tamamladığı kaydedildi.
**Anahtar kelimeler:** kültürel miras nesneleri, yasa dışı ticaret, kültürlerarası işbirliği, " hafif hukuk" kanunları, etik kuralları.

# Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyi sahəsində mövcud problemlər və onların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər

**Hüseynzadə Elvin Cahangir oğlu,**
**DİN Baş DYP İdarəsi Təşkilati-inspektor Şöbəsinin rəisi, polis polkovniki;**
**Tağıyev Rövşən Əli oğlu,**
**DİN Baş DYP İdarəsi Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla Əlaqə Şöbəsinin rəisi, polis polkovnik-leytenantı.**
e-mail: huseynzada1983@gmail.com;
tagiyev-rovsen@inbox.ru

*Məqalədə Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində mövcud olan problemlər və onların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər barədə müvafiq məlumatlar təqdim edilir.*

*Qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tələb və tapşırıqlarına əsasən son illər ölkəmizdə avtomobil yollarının və aidiyyəti infrastrukturun müasirləşdirilməsi, o cümlədən yeni yolların, tunellərin, yol ötürücülərinin, körpülərin, yeraltı və yerüstü keçidlərin, avtomobil dayanacaqlarının tikilməsi istiqamətində mühüm layihələr reallaşdırılmış və müvafiq tədbirlər bu gün də uьurla davam etdirilir.*

**Açar sözlər:** avtomobil yolları, hərəkət intensivliyi, nəqliyyat vasitəsi, yol-nəqliyyat hadisəsi, nəqliyyat təhlükəsizliyi, idarəetmə.

Qloballaşma dövründə insanların həyat fəaliyyətində mühüm rol oynayan amillərdən biri də nəqliyyat vasitələri sayılır. Belə ki, nəqliyyat vasitəsi olmadan uzaq məsafələrə səfər etmək, eləcə də sərnişinlərin yerdəyişməsi, yük və baqaj daşınması mümkün deyildir. Başqa sözlə, bütün insanlar öz həyat fəaliyyəti ilə bağlı tələbatlarının ödənilməsində nəqliyyat vasitələrindən faydalanırlar. Lakin bu zaman təhlükəsizlik qaydalarına əməl olunması ən vacib şərtdir.

Bu kontekstdə qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyevin tələb və tapşırıqlarına əsasən son illər ölkəmizdə avtomobil yollarının və ona aid infrastrukturun müasirləşdirilməsi, o cümlədən yeni yolların, tunellərin, yol ötürücülərinin, körpülərin, yeraltı və yerüstü keçidlərin, avtomobil dayanacaqlarının tikilməsi istiqamətində mühüm layihələr reallaşdırılmış və müvafiq tədbirlər bu gün də uğurla davam etdirilir.

Görülən işlər çərçivəsində paytaxt Bakı şəhərində nəqliyyat sıxlığının aradan qaldırılmasına da xüsusi diqqət yetirilərək bu məqsədlə respublikanın digər şəhər və rayonlarından Bakı şəhərinə gələn nəqliyyat vasitələrinin parklanması üçün paytaxtın şimal və cənub istiqamətlərinin giriş hissələrində zəruri şəraiti olan (o cümlədən həkim otaqları, gözləmə otaqları, kafelər və s.) və mühafizə edilən 1100 yerlik ödənişsiz duracaqlar inşa olunmuşdur. Bu məsələ ilə əlaqədar, qeyd olunmalıdır ki, iri tonnajlı yük avtomobilinin saat 21.00-dək paytaxta gəlməsinin qarşısı alınır (qış aylarında saat 7.30-dan 20.00-dək).

Bütün bunlar, həmçinin əlaqədar qurumlarla birgə aparılan işlər yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına öz müsbət təsirini göstərmiş və son 5 ildə qəzaların ardıcıl surətdə azalmasına nail olunmuşdur.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı»nın aidiyyəti müddəalarının icrası ilə bağlı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi (DİN BDYPİ) tərəfindən avtomobil yollarında müvafiq müayinələr aparılmışdır. Müayinələr zamanı respublikanın iri şəhər və rayonlarının avtomobil yollarında ciddi nəqliyyat sıxlığına səbəb olan hallar müəyyən edilməsə də, paytaxtın bəzi avtomobil yollarında nəqliyyat sıxlığı mövcuddur.

Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, nəqliyyat sıxlığının yaranmasının müəyyən obyektiv və subyektiv səbəbləri vardır.

Ilk növbədə, qeyd etməliyik ki, hazırda Bakı şəhərində 660 minə (658.527) yaxın nəqliyyat vasitəsi daimi qeydiyyatdadır. Hər gün Abşeron, Sumqayıt, eləcə də respublikanın digər şəhər və rayonlarından paytaxta 250-300 min və bəzən, daha çox nəqliyyat vasitəsinin daxil olması baxımından, sutka ərzində Bakı şəhərinin avtomobil yollarında 1 milyona yaxın nəqliyyat vasitəsi hərəkətdə olur. Paytaxtda avtomobillərin və əhalinin sayının ilbəil artması da nəzərə alınarsa, bir sıra əlavə tədbirlərin görülməsinə ehtyac duyulur.

Nəqliyyatın sıxlığına mənfi təsir edən amillərdən biri də, yeraltı və yerüstü piyada keçidlərinin yetərincə olmaması, mövcud olan əksər keçidlərin isə avtomobil yolları ilə eynisəviyyəli (yolun hərəkət hissəsində yerləşməsi) olmasıdır ki, bu da nəqliyyatın orta hərəkət sürətinin aşağı düşməsinə və bir çox hallarda nəqliyyatın dayanmasına səbəb olur. Analoji hallar respublika əhəmiyyətli avtomobil yollarının bəzi hissələrində də mövcuddur.

Müxtəlif səbəblərdən ümumşəhər əhəmiyyətli yolların uzun illər bağlı qalması da ciddi problemlərdən biridir. Məsələn, yeni metro stansiyasının inşası səbəbindən paytaxtın Xətai rayonu, Xudu Məmmədov və Məhəmməd Hadi küçələrinin kəsişməsinin bağlı qalması ona alternativ olan küçələrin həddən artıq yüklənməsinə gətirib çıxarmışdır. Bundan başqa, ümumşəhər əhəmiyyətli daha 3 avtomobil yolu da uzun illərdir ki, bağlıdır.

Nəqliyyatın hərəkətinə maneə yaradan hallardan biri də hərəkət intensivliyinin yüksək olduğu bəzi yolların buraxılış qabiliyyətinin yetərincə olmamasıdır. Bunun üçün belə yolların genişləndirilməsinə, eləcə də alternativ yollar kimi nəzərdə tutulan bəzi yol sahələrinin digər yollara çıxışının təmin edilməsinə zərurət vardır. Yüksək nəqliyyat axınlarının kəsişdiyi bəzi yol ayrıclarında isə nəqliyyatın fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə həmin ərazilərdə yeni yol ötürücülərinin inşasına ciddi ehtiyac duyulur.

Paytaxtda nəqliyyat sıxlığının daha bir ciddi səbəbi taksi minik avtomobili ilə sərnişindaşıma fəaliyyətininin hələ də təkmilləşdirilməməsidir. Hazırda paytaxtda təxminən 25 mindən çox avtomobil sahibi taksi fəaliyyəti ilə məşğul olur. Onların əksəriyyəti avtobus dayanacaqlarında, metro stansiyalarının çıxışlarında, yolların hərəkət hissəsində, yolayrıclarında, məktəblərin və ictimai iaşə obyektlərinin qarşısında dayanır və bir çoxu şəhərin mərkəzi yollarında sərnişin ax-

tarmaq məqsədilə hərəkətdə olur. Həmin avtomobillərin böyük bir hissəsi isə sərnişindaşıma sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə, ümumiyyətlə, cavab vermir (xüsusi tanınma nişanlarının və taksometrlərin olmaması, texniki cəhətdən nasaz və "Avro" standartlara cavab verməməsi və s.).

Paytaxtda nəqliyyatın sıxlığının yaranmasının səbəblərindən biri də sürücülər tərəfindən dayanma, durma və parklanma qaydalarının kütləvi şəkildə pozulmasıdır ki, belə sürücülərə qarşı görülən tədbirlər yetərincə deyildir.

Narahatlıq doğuran hallardan biri də,əksər avtoparklarda mərkəzləşdirilmiş dispetçer xidmətinin olmaması səbəbindən marşrutlarda avtobusların hərəkəti üçün vaxt intervalının düzgün müəyyən edilməməsidir. Buna misal olaraq, hər gün nəqliyyat sıxlığının müşahidə edildiyi Qara Qarayev prospektini (8-ci km qəsəbəsi) göstərmək olar.Həmin ərazidə bir çox avtobusun nizamsız hərəkəti nəticəsində uzunmüddətli tıxaclar yaranır. Eyni zamanda, toy şənliklərinin daha çox keçirildiyi bu ərazidə ətraf küçələrin buraxılış qabiliyyətinin və şadlıq saraylarının duracaq yerlərinin az olması səbəbindən avtomobillərin küçəboyu park edilməsi yolları tamamilə keçilməz vəziyyətə salır.

Sözsüz ki, belə halların qarşısının alınması üçün yol-patrul xidmətinin əməkdaşları tərəfindən, mütəmadi olaraq, tənzimləmə işləri aparılır. Lakin yan-yana olan belə obyektlərin sayının çoxluğu və mərasimlərin eyni vaxtda başlaması nəqliyyat vasitələrinin qısa zaman ərzində kütləvi şəkildə bir yerə cəmləşməsi ilə nəticələndiyi üçün ciddi problemlər yaranır. Mövcud vəziyyətdə, həmin ərazidə çoxmərtəbəli avtomobil duracaqlarının inşa edilməsi məqsədəuyğun olardı.

Bəzi hallarda avtobus dayanacaqlarının yolayrıclarına yaxın məsafədə yerləşməsi, eləcə də yol sahələrində avtobus dayanacaqlarının yolun hərəkət hissəsində yerləşməsi səbəbindən avtobusların sərnişinlərin düşürdülməsi və mindirilməsi üçün belə dayanacaqlarda, xüsusən də, ensiz küçələrdə dayanması böyük nəqliyyat sıxlığının yaranmasına gətirib çıxarır. Bunun üçün bəzi yol sahələrində avtobuslar üçün xüsusi "cib"lərin yaradılması, eləcə də yolayrıclarına yaxın avtobus dayanacaqlarının həmin ərazidən bir qədər kənara çəkilməsi məqsədəmüvafiq olardı.

Həmçinin, ümumi istifadədə olan nəqliyyat vasitələrinin təhlükəsiz, rahat və fasiləsiz hərəkətini təmin etmək məqsədilə Bakı şəhərində, eləcə də respublikanın digər iri şəhərlərinin bir sıra küçə və prospektlərində belə nəqliyyat vasitələri üçün xüsusi hərəkət zolaqlarının yaradılmasına zərurət vardır.

Araşdırmalar onu da göstərir ki, müvafiq istehsalat bazasına malik olmayan bəzi şəxslər mülkiyyətlərində və ya istifadələrində olan mikroavtobuslarla heç bir müqavilə, "Fərqlənmə nişanı" olmadan, sərnişinlərin daşınmasına dair təhlükəsizlik qaydalarına əməl etmədən, habelə nəqliyyat vasitələrinin reysqabağı texniki vəziyyətinin yoxlanılmasını və sürücülərin reysqabağı tibbi müayinəsinin aparılmasını həyata keçirmədən, iş və istirahət rejiminə əməl etmədən şifahi sövdələşmələr əsasında şəhərlərarası və rayonlararası sərnişindaşıma fəaliyyəti ilə məşğul olurlar.

Anoloji hallar yükdaşıma fəaliyyətində də mövcuddur. Belə ki, bəzi şəxslər respublikanın kənd və qəsəbələrindən, xüsusən də, Bakı şəhərindən tikinti materiallarını, o cümlədən mişar daşını, taxta-şalban, qum, çınqıl və s. yükləməklə uzun məsafə qət edərək şəhərlərarası (şəhərdaxili) və rayonlararası

(rayondaxili) yük daşımalarını həyata keçirirlər. Bu kimi halların qarşısının alınması məqsədilə yüklərin dəmiryolu nəqliyyatından istifadə edilməklə həyata keçirilməsi, həmçinin paytaxtdan respublikanın digər şəhər və rayonlarına daşınan tikinti materiallarına alternativ olan digər materialların istehsalı üçün regionlarda müvafiq istehsalat sahələrinin yaradılması məqsədəmüvafiq görünür.

Bundan əlavə, bu gün Sumqayıt şəhərindən və Abşeron rayonundan Bakı şəhərinə daxil olan nəqliyyat vasitələrinin sayının çoxluğu həmin yol sahəsində, xüsusilə, pik saatlarında böyük avtomobil tıxacının yaranmasına gətirib çıxardığından yeni alternativ yolun inşasına və ya həmin yolun bir hissəsinin genişləndirilməsinə ehtiyac duyulur. Qeyd olunmalıdır ki, paytaxtın şimal hissəsindən nəqliyyatın girişi və çıxışı üçün cəmi bir hərəkət istiqaməti vardır. Bu da, həmin ərazidə nəqliyyatın sərbəst hərəkəti üçün kifayət etmir.

Paytaxtın və respublikanın digər şəhər və rayonlarının bir sıra küçə-yol şəbəkəsində nəqliyyat vasitələrinin izafi yürüşlərinin azaldılması və hərəkətin optimallaşdırılması məqsədilə birtərəfli və ikitərəfli hərəkətin təşkil edilməsinə də ehtiyac vardır. Həmçinin, hərəkət sıxlığı yüksək olan yol sahələrinin (yolların) yükünün azaldılması məqsədilə bəzi şəhər və rayonlarının ərazisindən keçən respublika əhəmiyyətli avtomobil yollarının gələcək layihələrdə mərhələli şəkildə həmin şəhər və rayonların mərkəzi hissələrindən kənara yönəldilməsi zəruridir.

Digər tərəfdən, fərdi yaşayış evlərinin və müxtəlif obyektlərin yolların hərəkət hissəsinə yaxın ərazilərdə tikilməsi gələcəkdə həmin yolların genişləndirilməsi zamanı bir sıra çətinliklərə gətirib çıxarır. Bu baxımdan, həmin tikililərə icazələr verilərəkən yolun qorunma (mühafizə) zolağından 50-70 metr kənarda inşa edilməsi ciddi nəzarətdə saxlanılmalıdır.

Həmçinin,avtomagistralların eyni səviyyəli yollarla kəsişməsi yolverilməz olduğu halda, hazırda bəzi yol sahələrinin kənarlarında yerləşən bir sıra, o cümlədən yanacaq doldurma məntəqələrindən, iaşə obyektlərindən, nəqliyyat vasitələrinin təmiri emalatxanalarından və digər yerlərdən əsas yola birbaşa çıxışlar, eləcə də geriyə dönmə yerləri mövcuddur ki, bu da, yol-nəqliyyat hadisələrinin baş vermə riskini artırır. Bunun üçün belə ərazilərdə sürət-keçid zolaqlarının yaradılmasına və müxtəlif yol ötürücülərinin inşası mütləqdir.

Bununla bərabər, yaşayış komplekslərinin, ticarət obyektlərinin və s. tikintisi zamanı, bəzən, parklanma yerləri sürücülərin sayına uyğun təşkil edilmir.Bu səbəbdən sürücülər nəqliyyat vasitələrini küçə və prospektlərdə park etməli olurlar ki, bu da, həmin ərazilərdə nəqliyyat sıxılığının yaranması ilə nəticələnir. Belə tikinti işləri aparılan zaman yol infrakstrukturu mütləq qaydada əhalinin təlabatına uyğun olaraq təşkil edilməlidir. Həmçinin, bir sıra hallarda yeni yol sahələrinin tikintisi zamanı kommunikasiya işləri tam həyata keçirilmədiyindən sonradan həmin yol sahələrində təmir işlərinin aparılmasına zərurət yaranır ki, bu da, öz növbəsində, müvafiq ərazilərdə nəqliyyatın hərəkətinin məhdudlaşdırılmasına səbəb olur.

Eyni zamanda, kənd təsərrüfatı, texnoloci təyinatlı nəqliyyat vasitələrinin hərəkəti üçün avtomagistrallara paralel, habelə eyni istiqamətdə bir hərəkət zolağı olan yolların müvafiq sahələrində astagedən nəqliyyat vasitələrini ötüb keçmək üçün qısaməsafəli əlavə hərəkət zolaqlarının olmaması səbəbindən həmin yol sahələrində böyük nəqliyyat sıx-

lığının yaranmasına, eləcə də ağır yol-nəqliyyat hadisələrinin baş verməsinə gətirib çıxarır.

Aparılan müayinələr nəticəsində o da müəyyən edilmişdir ki, paytaxtın, eləcə də respublikanın digər şəhər və rayonlarının mövcud avtomobil yollarında reversiv hərəkət təşkil etmək mümkünsüzdür.

Belə bir məqamı da qeyd etməliyik ki, uşaqların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün, eləcə də gələcək illərdə onların bu sahədə təhlükəsizliyi baxımından Bakı şəhərində, eləcə də respublikanın digər şəhər və rayonlarında uşaq avtoşəhərciklərinin, avtomeydançalarının və digər əyləncə-təlim məkanlarının mərhələli şəkildə yaradılması zəruridir. Həmçinin, belə məkanların yaradılması gələcəkdə tikiləcək tədris müəssisələrinin inşası zamanı nəzərə alınması daha məqsədəuyğun olardı.

Hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə, respublika əhəmiyyətli avtomobil yollarında və avtomagistrallarda avtomobil yollarının örüş-otlaq sahələrindən və heyvandarlıq təsərrüfatlarının geniş yayıldığı ərazilərdən keçən hissələrində təhlükəsizlik qaydalarına uyğun mal-qara keçidlərinin sayının artırılmasına zərurət vardır.

Eyni zamanda, velosipeddən istifadə etmənin insanların sağlamlığına və ətraf mühitin mühafizəsinə müsbət təsir göstərməsinin əhəmiyyəti nəzərə alınaraq, avtomobil yollarında və küçə-yol şəbəkəsində velosiped zolaqarının və duracaqlarının yaradılmasına ehtiyac duyulur.

Bundan başqa, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda yol-nəqliyyat hadisələrinin səbəblərinin, şəraitinin və nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlərin də həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Statistik təhlil göstərir ki, yol-nəqliyyat hadisələrinin əksəriyyəti sutkanın gecə saatlarında, işıqlanmayan yol sahələrində, həmçinin sürücülərin sükan arxasında yuxulamaları səbəbindən baş vermişdir. Digər tərəfdən, avtomobil yollarında müxtəlif səviyyəli piyada keçidlərinin olmasına baxmayaraq, piyadaların çox hissəsi yolun hərəkət hissəsinin müəyyən olunmayan yerlərindən keçirlər ki, belə hallar da sonda ağır yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur. Bu baxımdan, respublika əhəmiyyətli bəzi avtomobil yollarında piyadaların müəyyən olunmayan yerlərdən keçmələrinin qarşısının alınması məqsədilə dəmir məhəccərlərin quraşdırlmasına əhəmiyyətli dərəcədə ehtiyac vardır.

Göstərilən səbəblərdən baş verən yol qəzalarının qarşısının alınması üçün respublika əhəmiyyətli avtomobil yollarında, eləcə də digər yollarda titrətməni hiss etdirən səsverici zolaqların çəkilməsi, işıqlandırmanın təmin edilməsi, işıqəksetdirən elementlərin və piyadaların müəyyən olunmayan yerlərdən keçmələrinin qarşısının alınması üçün dəmir məhəccərlərin quraşdırlması məqsəmüvafiq olardı.

Belə bir halı da qeyd etməliyik ki, sürücülük fəaliyyəti üçün ən vacib amillərdən biri də sürücü peşəsini seçmiş şəxsin fiziki cəhətdən sağlamlığıdır. Lakin, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 35-ci maddəsinə əsasən, şəxsdən sağlamlıq haqqında tibbi arayış yalnız ilk dəfə sürücülük vəsiqəsi alanda və bir də 60 yaşına çatdıqdan sonra tələb olunur (42 ildən sonra). Nəzərə alınmalıdır ki, sürücü həmin müddət ərzində bir çox, o cümlədən psixi pozuntu, narkomanlıq, sərxoşluq kimi digər

ağır xəstəliklərə məruz qala bilər. Belə hallar da onun nəqliyyat vasitəsini idarə etmək qabiliyyətini itirməsi nəticəsində ağır yol-nəqliyyat hadisəsi törətməsinə səbəb olur.

Təhlil göstərir ki, təkcə son bir ildə və cari ilin ötən dövründə nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən və digər psixotrop maddələrdən istifadə etməklə sərxoş vəziyyətdə idarə edilməsi səbəbindən törədilmiş yol-nəqliyyat hadisəsində insanlar həlak olmuş və xəsarət almışdır.Göstərilənlər baxımından, eləcə də belə şəxslərin nəqliyyat vasitələrini idarə etmələrinin qarşısının vaxtında alınması məqsədilə, sürücülük vəsiqəsini dəyişdirən sürücülərdən bütün hallarda sağlamlıq haqqında tibbi arayışın tələb olunmasının qanunvericilikdə təsbit olunması məqsədəuyğun olardı.

Bununla yanaşı, Dövlət Proqramında davamlı monitorinqlər aparmaqla qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, yaşayış məntəqələrinin küçə-yol şəbəkəsində eynisəviyyəli piyada keçidlərinin sayının artırılması nəzərdə tutulmuşdur. Bununla əlaqədar qeyd olunmalıdır ki, bu növ piyada keçidlərinin mövcudluğu avtomobil yollarında nəqliyyatın rahat və sərbəst hərəkətinə maneə törətməklə yanaşı, ağır yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur. Bu baxımdan, belə piyada keçidlərinin bir çoxunun yeraltı və yerüstü piyada keçidləri ilə əvəzlənməsi daha məqsədəuyğun olardı.

Həmçinin, adıçəkilən Proqramda Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkilinin mühüm tərkib hissəsi kimi, nəqliyyat vasitələrinin dayanma, durma və parklanma qaydalarının təkmilləşdirilməsi və dayanma, durma və parklanmanın mümkünlüyü baxımından küçə-yol şəbəkəsinin təhlil edilməsi, nəqliyyat vasitələrinin parklanma yerlərinin sayının və mövcud parklanma yerlərindən istifadənin optimallaşdırılması təsbit edilmişdir. Göstərilən məsələyə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Parklanma yerlərinin təşkili Qaydaları" təsdiq edildikdən sonra məqsədyönlü şəkildə baxılır.

Habelə Dövlət Proqramında yol hərəkəti iştirakçıları kimi uşaqların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə yol hərəkətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi əks olunmuşdur. Qeyd edilən məsələ hazırlanmış "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının yeni Qanun layihəsində nəzərə alınmışdır.

Bütövlükdə, göstərilən problemlərin aradan qaldırılması üçün aşağıdakı vacib tədbirlərin həyata keçirilməsinə zərurət vardır:

– Bakı şəhərinə şimal hissədən (Sumqayıtdan və Abşerondan) daxil olan və çıxan nəqliyyat vasitələrinin sayının daha çox olması və bu yol sahəsində, xüsusilə, pik saatlarında böyük avtomobil tıxacının yaranması, eləcə də fövqəladə vəziyyət halları nəzərə alınmaqla, həmin ərazidə alternativ yol şəbəkəsinin inşası, yaxud genişləndirmə işlərinin aparılması;

– "Biləcəri dairəsi" adlanan ərazidə nəqliyyat ləngimələrinin aradan qaldırılması məqsədilə həmin dairdən Bakı-Sumqayıt şosesinə ikinci yol çıxışının təmin edilməsi;

– nəqliyyat sıxlığının aradan qaldırılması məqsədilə bəzi yol sahələrində yeni yol ötürücülərinin inşa edilməsi;

– təmir və yenidənqurma işləri ilə əlaqədar uzun müddət bağlı qalan küçə və prospektlərdə müvafiq işlərin mümkün dərəcədə qısa müddət ərzində yekunlaşdırılması;

– yollarda təmir-tikinti işlərinin, əsasən, təhsil müəssisələrinin tətil və uzunmuddətli istirahət günlərində aparılması;

– respublika əhəmiyyətli avtomobil yollarında qarşı-qarşıya hərəkət edən avtonəqliyyat vasitələri sürücülərinin nəqliyyat vasitələrinin uzaq işıqlarının təsirindən qorunması məqsədilə hərəkət hissələrini ayıran dəmir sədlərin arasında xüsusi materiallardan hazırlanmış lövhəciklərin quraşdırılması;

– Qaradağ rayonu "Lökbatan dairəsi" ətrafında qanunsuz sərnişindaşımanın qarşısının alınması məqsədilə, mövcud dayanacağın ləğv edilməsi və həmin ərazidə dəmir məhəccərlərin quraşdırılması, həmçinin Lökbatan şosesindən Ələt-Astara yoluna çıxışın təhlükəsiz və sərbəst qaydada təşkil edilməsi məqsədilə yolun təhlükəsizlik adacığı vasitəsilə ayrılması və adacığın perimetriboyu dəmir məhəccərlərin quraşdırılması;

– respublikanın bəzi şəhər və rayonlarının dağlıq ərazilərində yerləşən kənd və qəsəbələri birləşdirən avtomobil yollarında hərəkət təhlükəsizliyinin təmin edilməsi üçün beton istinad və digər qoruyucu çəpərlərinin quraşdırılması;

– hərəkət iştirakçılarının təhlükəsizliyinin təmini və nəqliyyat vasitələrinin orta hərəkət sürətinin artırılması məqsədilə zəruri yeraltı və yerüstü piyada keçidlərinin inşası;

– piyadaların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin və nəqliyyat ləngimələrinin qarşısının alınması üçün yol kənarlarında dəmir məhəccərlərin quraşdırılması, qaranlıq yol sahələrinin isə süni işıqlandırılmasının təmin olunması;

– avtomobil yollarında sürücülərinin yuxulamasının qarşısının alınması məqsədilə bir sıra yol sahələrində titrətməni hiss etdirən səsverici zolaqların çəkilməsi;

– hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə müəyyən avtomobil yollarında işıqəksetdirən elementlərin quraşdırılması;

– respublika əhəmiyyətli avtomobil yollarında və avtomagistrallarda avtomobil yollarının örüş-otlaq sahələrindən və heyvandarlıq təsərrüfatlarının geniş yayıldığı ərazilərdən keçən hissələrində təhlükəsizlik qaydalarına uyğun mal-qara keçidlərinin sayının optimallaşdırılması;

– uşaqların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün uşaq avtoşəhərciklərinin, avtomeydançalarının və digər əyləncə-təlim məkanlarının yaradılması;

– bir sıra küçə-yol şəbəkəsində nəqliyyat vasitələrinin izafi yürüşlərinin azaldılması və hərəkətin optimallaşdırılması məqsədilə paytaxtın və respublikanın digər şəhər və rayonlarının bəzi avtomobil yollarında birtərəfli və ikitərəfli hərəkətin təşkil edilməsi;

– bəzi küçə və prospektlərin genişləndirilməsi ilə bağlı müvafiq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi;

– paytaxtın avtomobil yollarında yol ayrıclarına yaxın ərazilərdə yerləşən avtobus dayanacaqlarının həmin ərazilərdən kənara köçürülməsi, eləcə də avtobuslar üçün yollarda xüsusi "cib"lərin yaradılması;

– nəqliyyatın sıxlığı müşahidə edilən əsas küçə və prospektlərin yükünün azaldılması məqsədilə alternativ yollar kimi nəzərdə tutulan yol sahələrinin digər yollarla çıxışının təmin edilməsi;

– müəyyən avtomobil yollarında velosiped zolaqarının yaradılması;

– hərəkət sıxlığı yüksək olan yol sahələrinin (yolların) yükünün azaldılması məqsədilə nəqliyyat axınlarının bəzi şəhər və rayonların mərkəzi hissələrindən kənarlara yönləndilməsi;

– paytaxtın avtomobil yolarında zolaqlar üzrə hərəkət istiqamətlərini müəyyənləşdirən, istiqamət göstəricilərini bildirən yol nişanlarının yolların hərəkət hissəsinin üstündə quraşdırılması üçün «tağşəkilli» dəmir dirəkli konstruksiyaların qurulması, habelə Bakı şəhərinə, eləcə də respublikanın digər şəhər və rayonlarında yol nişanı çatışmazlığının aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi;

– avtomobil yollarının qorunma (mühafizə) zolaqlarında şəhərsalma, eləcə də tikinti norma və qaydaları pozulmaqla inşa edilmiş hasarların, obyektlərin, qurğuların və digər tikililərin qanunvericiliklə müəyyən edilmiş qaydada sökülərək yolların genişləndirilməsi;

– şəhər ətrafında kənd və qəsəbələrin tikintiləri layihələndirilərkən orada yol infrastrukturunun mövcud tələbata uyğun qurulması;

– yeni yol sahələrinin inşası və təmiri zamanı bütün kommunikasiya-quraşdırma işlərinin tam həyata keçirilməsi;

– avtomagistrallara digər yollardan, eləcə də yol kənarı yerləşən obyektlərdən birbaşa çıxışının qarşısının alınması məqsədilə həmin ərarazilərdə yol ötürücülərinin və sürət-keçid zolaqlarının yaradılması;

– kənd təsərrüfatı, texnoloci təyinatlı nəqliyyat vasitələrinin hərəkəti üçün avtomagistrallara paralel, həmçinin eyni istiqamətdə bir hərəkət zolağı olan yolların müvafiq sahələrində astagedən nəqliyyat vasitələrini ötüb keçmək üçün qısaməsafəli əlavə hərəkət zolaqlarının yaradılması;

– Bakı şəhəri üzrə məktəblərdə, ali təhsil müəssisələrində dərslərin və çoxsaylı işçi kollektivi olan təşkilatlarda işin başlama saatlarının pilləli şəkildə təşkil edilməsi (sürüşkən qrafik, bu təcrübə 2015-ci ildə paytaxtda keçirilən “I Avropa Oyunların”da öz effektivliyini təsdiqləmişdir);

– paytaxtda fəaliyyət göstərən orta məktəblərin ətrafında nəqliyyat sıxlığının aradan qaldırılması məqsədilə şagirdlərin avtobuslarla daşınmasının təmin edilməsi;

– nəqliyyat vasitələri üçün geniş parklanma yerlərinin şəhərətrafı ərazilərdə də yaradılması;

– avtobus marşrutlarının hərəkəti üçün vaxt intervalının düzgün müəyyən edilməsi məqsədilə bütün avtoparklarda mərkəzləşdirilmiş dispetçer xidmətinin yaradılması;

– Bakı şəhərində, eləcə də respublikanın digər iri şəhərlərinin bir sıra küçə və prospektlərində ümumi istifadədə olan nəqliyyat vasitələri üçün xüsusi hərəkət zolaqlarının yaradılması;

– Bakı şəhərində Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən hərəkət intensivliyi yüksək olan və daim sıxlıq müşahidə edilən küçə və prospektlərdə mütəmadi olaraq “yaşıl dalğa” rejimi pirinsipinin həyata keçirilməsi;

– nəqliyyatın fasiləsiz hərəkəti üçün istifadədə olan yolların müvafiq yol qurğuları ilə təchiz edilməsi;

– avtomobil yollarında nişanlanma xətlərinin çəkilməsində davamlılığı uzunmüddətli olan boyalardan istifadə edilməsi;

– paytaxtda yerləşən iaşə və ticarət obyektlərinin, şadlıq saraylarının, ali təhsil müəssisələrinin (məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Texniki Universitet və s.) ətrafında nəqliyyat sıxlığının aradan qaldırılması məqsədilə onların həyətlərində nəqliyyat vasitələri üçün çoxmərtəbəli parklanma yerlərinin inşası;

– bir sıra təşkilatların, ali və orta-ixtisas təhsili müəssisələrinin müəyyən qisminin

(məsələn, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və s.) paytaxtdan kənara köçürülməsi;

– avtomobil yollarının və digər yol qurğularının yararsız hala düşməsinin qarşısının alınması, eləcə də yol-nəqliyyat hadisələrinin baş vermə riskinin aşağı salınması məqsədilə uzun məsafələrə daşınması nəzərdə tutulan yüklərin dəmiryolu nəqliyyatından istifadə edilməklə həyata keçirilməsi, həmçinin paytaxtdan respublikanın digər şəhər və rayonlarına daşınan tikinti materiallarına, o cümlədən mişar daşına və digərlərinə alternativ olan tikinti materiallarının istehsalı üçün regionlarda müvafiq istehsalat müəssisələrin yaradılması;

– sərnişin və yük daşıma, eləcə də taksi xidməti fəaliyyətinin inkişaf etmiş dövlətlərin müasir təcrübəsinə uyğun qurulması;

– paytaxtın mərkəzi hissələrində fəaliyyət göstərən avtotəmir emalatxanalarının, yaşayış məntəqələri üçün təhlükəli olan bəzi yanacaq doldurma məntəqələrinin ətraf ərazilərə köçürülməsi;

– paytaxt ərazisində alternativ sərnişindaşıma nəqliyyat növlərinin yaradılması (relsli nəqliyyat vasitələri, o cümlədən yerüstü metro xətlərinin, eləcə də enli yollarda metrobus marşrutları üçün xüsusi zolaqların ayrılması və s.);

– narkomanlığa, sərxoşluğa və digər ağır xəstəliklərə məruz qalan şəxslərin nəqliyyat vasitələrini idarə etmələrinin qarşısının vaxtında alınması məqsədilə, qanunvericiliklə müəyyən edilmiş qaydada sürücülük vəsiqəsini dəyişdirən şəxslərdən bütün hallarda sağlamlıq haqqında tibbi arayışın tələb olunmasının qanunvericilikdə təsbit olunması;

– ölkədə nəqliyyat parkının yenilənməsi məqsədilə digər dövlətlərdə olduğu kimi, köhnəlmiş (istismara yarasız) nəqliyyat vasitələrinin istismarının qadağan olunması və utilizasiyasının aparılması istiqamətində qanunvericilik aktlarında nəzərdə tutulmuş tədbirlərlə bağlı hazırlıq işlərinə start verilməsi və s.

Yuxarıda sadalanan problemlərin nəzərdən keçirilərək aidiyyəti tədbirlərin görülməsi məsələsinə baxılması üçün Azərbaycan Respublikası Daxili Işlər Nazirliyi tərəfindən Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmış, bu istiqamətdə bir sıra əhəmiyyətli işlər görülmüş və hal-hazırda müvafiq tədbirlərin həyata keçirilməsi davam edir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "PG" nəşriyyatı, 2014, 52 s.
2. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı, 1998-2023.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir – B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, 848 s.
4. Allahverdiyeva S.Ə. Nəqliyyatın coğrafiyası. Dərs vəsaiti. Bakı, "AVROPA" nəşriyyatı, 2019, 284 s.
5. Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, "UniPrint" nəşriyyatı, 2011, 676 s.
6. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, "QHT nəşriyyatı" MMC, 2013, 614 s.
7. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul:E.M.Əfəndiyev. Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, 49 s.
8. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2017, 180 s.
9. Elektron informasiya mənbələri (URL – Uniform Resourse Locator)

9.1. https://president.az/az/articles/view/ 31386

9.2. https://www.dyp.gov.az/index.php?/az/ content/205

9.3. www.e-qanun.az

**Существующие проблемы в сфере безопасности дорожного движения в Азербайджанской Республике и меры, принимаемые для их устранения**

**Гусейнзаде Эльвин Джахангир оглу,**
**начальник отдела ГУГДП МВД Азербайджанской Республики,**
**полковник полиции;**

**Тагиев Ровшан Али оглы,**
**начальник отдела ГУГДП МВД Азербайджанской Республики,**
**подполковник полиции.**
э-почты: huseynzada1983@gmail.com; tagiyev-rovsen@inbox.ru

В статье представлена актуальная информация о существующих проблемах в сфере обеспечения безопасности дорожного движения в Азербайджанской Республике и мерах, реализуемых в направлении их устранения.

Отмечается, что в соответствии с требованиями и поручениями Президента Азербайджанской Республики господина Ильхама Алиева в последние годы в нашей стране реализованы важные проекты в направлении модернизации автомобильных дорог и сопутствующей инфраструктуры, в том числе строительство новых дорог, тоннелей, эстакады, мостов, подземных переходов и путепроводов, автостоянок – эти меры успешно применяются и сегодня.

**Ключевые слова:** автомобилӗные дороги, интенсивность движения, транспортное средство, дорожно-транспортное происшествие, безопасность движения, управление.

**Existing problems in the field of road traffic safety in the Republic of Azerbaijan and the measures implemented in the direction of their elimination**

**Huseynzade Elvin Cahangir oglu,**
**head of the Department of the Main State Traffic Safety Inspectorate**
**of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan, police colonel;**

**Taghiyev Rovshan Ali oglu,**
**head of the Department of the Main State Traffic Safety Inspectorate**
**of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan,**
**police lieutenant colonel.**
E-mail address: huseynzada1983@gmail.com; tagiyev-rovsen@inbox.ru

The article provides relevant information about the existing problems in the field of ensuring road traffic safety in the Republic of Azerbaijan and the measures implemented in the direction of their elimination.

It is noted that in recent years, mainly in accordance with the requirements and instructions of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, important projects have been implemented in the direction of modernization of highways and related infrastructure in our country, including the construction of new roads, tunnels, overpasses, bridges, underground and parking lots. The events are successfully dominated even today.

**Key words:** highways, traffic intensity, vehicle, traffic accident, traffic safety, management.

## Azerbaycan Cumhuriyeti'nde karayolu trafik güvenliği alanında mevcut sorunlar ve bunların giderilmesi yönünde uygulanan tedbirler

**Hüseyinzade Elvin Cihangir oğlu,**
**İçişleri Bakanlığı Ana Devlet Trafik Polisi Teşkilatı Teşkilat-müfettiş Dairesi Başkanı, polis albayı;**

**Taghiyev Rovshan Ali oğlu,**
**İçişleri Bakanlığı Ana Devlet Trafik Polisi Teşkilatı Trafik Güvenliğini Geliştirme ve Kamu Kurumlarıyla İlişkiler Dairesi Başkanı, Polis Yarbay.**
e-posta: huseynzada1983@gmail.com; tagiyev-rovsen@inbox.ru

Makalede Azerbaycan Cumhuriyeti'nde karayolu trafik güvenliğinin sağlanması alanında mevcut sorunlar ve bunların giderilmesi yönünde uygulanan tedbirler hakkında bilgiler sunulmaktadır.

Son yıllarda özellikle Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı Sayın İlham Aliyev'in talep ve talimatları doğrultusunda ülkemizde otoyolların ve ilgili altyapının modernizasyonu yönünde önemli projelerin hayata geçirildiği kayd ediliyor; o cumlyadyan yeni yol, tünel, üst geçit, köprü, yer altı ve üst geçit, otopark inşaatları dahil önemli projeler hayata geçirilmiş ve ilgili tedbirler günümüzde başarıyla sürdürülmektedir.

**Anahtar Kelimeler:** karayolları, trafik yoğunluğu, taşıt, trafik kazası, trafik güvenliği, yönetim.

# РЕЦЕНЗИЯ

## на манускрипт доктора юридических наук Фархутдинова Инсура Забировича: «Эволюция международного права от Вестфаля до Версаля (1648 – 1919 г.г.). Мифы и реалии»

Рукопись И.З. Фархутдинова «Эволюция международного права от Вестфаля до Версаля (1648–1919 г.г.). Мифы и реалии», как завершенное комплексное монографическое исследование, раскрывает этапы формирования международных отношений и международного права в позднее Средневековье и раннее Новое время.

Автор данной рецензии считает себя учеником советской школы международного права – в свое время окончил аспирантуру Свердловского юридического института (ныне УрГЮА), там же защитил кандидатскую диссертацию по международному праву. Учился у известных юристов-международников, например, Остапенко Д.Д., Игнатенко Г.В. и др. Докторскую защитил в Баку, преподавал в РУДН, длительное время в Московском финансовом институте на кафедре проф., д.ю.н. Лисовского В.И. После возвращения в Баку ежегодно посещал Москву, участвуя в международных конференциях. В 1970-71 г.г. работал в секторе «Международного морского права» под руководством Кейлина А.Д., Лазарева М.И., был активистом Советской ассоциации международного права, возглавляемой Тункиным Г.И. Имел счастливую возможность сотрудничать со всеми ведущими юристами-международниками страны того времени.

Я пишу об этом только потому, что я всегда был сведущ и остаюсь таковым касательно современной российской школы международного права. На ее фоне Инсур Фархутдинов всегда выделяется как ученый своей гражданской авторской позицией, трудолюбием, завидной плодовитостью. Уверен, он своими научными трудами доказал свой высокий научный авторитет. Впрочем, любознательный читатель может сам убедиться в этом, читая нижние строки.

Известный российский ученый Инсур Забирович Фархутдинов, выпускник Дипломатической академии МИД России, ведущий научный сотрудник Института государства и права Российской Академии наук (сектор международно-правовых исследований), является автором одиннадцати книг и около 200 научных трудов по различным проблемам международного права.

В авторитетном московском издательстве “Инфра- М” в 2021году была опубликована монография Фархутдинова И.З. “Американская доктрина о превентивном ударе от Монро до Трампа: международно-правовые аспекты. ”Инфра-М”, 2021 (420 с.).

Фурор, причем как бы потаенный, на российских читателей произвела его монография, вышедшая несколько лет назад в британском издательстве Кэмбридж (Инсур Фархутдинов. Тайное и очевидное в американской дипломатии: от Монро до Трампа, 530 с. - Insur Farkhutdinov. The Mysterious and Obvious in American Diplomacy: From Monroe to Trump, Cambridge Scholars Publishing, 2020. [1]

Она также вызвала широкий резонанс и ближнем зарубежье, например, в Азербайджане, где живет и трудится автор данной рецензии. Внимание к этой беспрецедентной книге, я уверен, было оказано и в дальнем зарубежье.

В нашем Азербайджане Инсура Забировича любят и уважают за его несомненные научные заслуги.

Высокий научный уровень Фархутдинова И.З., главного научного сотрудника Института государства и права РАН, объясняется,

думаю, и тем, что он учился у выдающихся российских ученых. Например, кандидатская диссертация защищена в Институте государства и права Российской Академии наук под руководством профессора Богатырева А.Г. Там же в 2006 г. защищена докторская диссертация, научным консультантом выступил профессор И.И. Лукашук.

В свете вышеизложенного не является чем-то необычным новый научный бестселлер, пока в виде рукописи, Инсура Забировича «Эволюция международного права от Вестфаля до Версаля (1648-1919 г.г.), которая принята в печать уважаемым издательством “Инфра - М”.

Переходим непосредственно к рецензированию. Очень важно то, что отдельные аспекты данной книги изложены в рамках авторской концепции по доктрине о Вестфальской мирной системе в ранее опубликованных работах. [2]

Зарождение Вестфальского порядка, по мнению автора, связано с начальным этапом формированием международного права. Следует заметить, что в современном мире международное право есть одно из самых противоречивых, ведь доктринальные взгляды в одних странах сильно расходятся с международно-правовыми догмами в других. Это обусловлено не только политическими, но и историческими процессами.

Как указывает автор, работы Гуго Гроция и Вестфальский мир способствовали созданию классического международного права и его распространению в глобальном измерении. [3] Но этот процесс был весьма противоречив и длился около полтора века.

Впоследствии мировые порядки сменяли друг друга. Вестфальский порядок сменил Венский мировой порядок, оба этих порядка автор этих строк: Объединяет в Версальско-Венскую систему. А затем пришедшая на ее смену Версальско-Вашингтонская система международных отношений была сменена Ялтинско-Потсдамской мировой системой. Все они определяли параметры соответствующих международных систем, каждая из которых характеризовалась своей уникальной внутренней логикой, соответствующим балансом сил и набором главных акторов. Общим для них являлось то, что возникли они как результат мирного обустройства международных отношений после разрушительных широкомасштабных войн – двух европейских (Тридцатилетняя война, Наполеоновские войны) и двух мировых (Первая мировая война, Вторая мировая война).

Как уже отмечалось выше, Инсура Фархутдинова, автора данной книги знаю давно. Ему всегда присуща научная смелость. И новая книга не является исключением, например, он остро поднимает вопрос о так называемом Вестфальском мифе.

Заложил ли Вестфальский мир основы современного международного права как совокупности суверенных, независимых и равноправных национальных государств, сегодня подвергается сомнению?

Большинство современных отечественных исследователей безапелляционно считают, что Вестфальский трактат 1648 г. положил начало Вестфальской системе международных отношений, якобы устоявшей вплоть до XXI в.

Фархутдинов И.З. не соглашается с традиционной достаточно распространенной точкой зрения, которая продолжает настаивать, что Вестфальский мир был вопреки здравому смыслу соглашением европейских государств уважать принципы суверенитета, территориальной целостности и невмешательства. Еще раз хотелось бы спросить у апологетов, на каких страницах двух Вестфальских соглашений (Мюнстер и Оснабрюк) эти три принципа, на которых зиждется международное право, написаны.

Автор ссылается на слова классика советской науки Г.И.Тункина "Международное право, так же, как и национальное право, будучи тесно связанным с политикой, не является частью политики". Международное право способно служить инструментом не всякой политики. Перед соответствующей ему политикой международное право открывает дополнительные возможности, а с

другой стороны, ограничивает возможности противоречащей ему политики. Политика - искусство возможного и уже в силу этого не может не считаться с возможностями международного права. [4]

Рассмотрен вопрос об Утрехтском мирном договоре, который расширил и адаптировал условия Вестфальского мира на расширяющееся европейское сообщество. Теперь ни одна из великих держав не могла остаться в стороне от крупных международных конфликтов. Взаимозависимость мира постепенно увеличивалась. Именно в это время начинает формироваться европоцентристская модель мира, когда европейская политика оказывала определяющее воздействие на развитие других регионов мира.

В начале XIX в. Вестфальской модели пришел Венский порядок, которые составляют единую Вестфальско-Венскую систему международных отношений, которая условно занимает период с 1648 г. до Венского конгресса 1815 г.

В XIX веке был сформулирован ряд принципов, отражающих соответствующий этап развития международного права и повлиявших на его дальнейшее развитие. Именно тогда началось интенсивное формирования ряда отраслей международного права, что сопровождалось выработкой ряда отраслевых принципов в контексте названных общих принципов международного права. Так, Венский конгресс утвердил принцип легитимизма в международных отношениях, что способствовало созданию устойчивого международного порядка, основанного на четких правилах и принципах взаимоотношения государств.

Во многом распад Вестфальско-Венской международной системы произошёл из-за упущений, которые были допущены в ходе их формирования. Так, Вестфальская система рухнула, потому что не могла препятствовать появлению всё новых и новых войн в Европе, которые вообще-то должны были сдерживать агрессоров, но на деле лишь провоцировали новые конфликты.

Таким образом, в течение последних десятилетий путем мифологизации Вестфаля продолжаются попытки увековечить вестфальский пафос и его святой дух в теории международных отношений и мировой политики. Такой поверхностный подход не способствует, а мешает углубленному изучению теорию международных отношений - считает автор рецензируемой рукописи.

Таким образом, анализ, проведенный в рецензируемой работе, основывается на большом количестве источников доктринального и нормативного характера. Выводы, содержащиеся в работе, обладают достоверностью и обоснованностью. Она выполнена на высоком профессиональном уровне.

Книга И.З. Фархутдинова «Эволюция международного права от Вестфаля до Версаля (1648-1919 г.г.). Мифы и реалии», несомненно вызовет большой интерес не только в российской читательской аудитории, но и в Азербайджане, а также в других государствах ближнего зарубежья.

**Октай Ф. Эфендиев,**
**доктор юридических наук,**
**профессор**

### Литуратура:

1. «Тайное и очевидное в Американской дипломатии»: Как моя книга издавалась в Кэмбридже. Интервью Фархутдинова И.З.//Евразийская адвокатура. №3(52),2021.
2. Фархутдинов И.З. «Битва книг». «Доктрина двух сфер».Возникновение концепции свободного мореплавания – основного катализатора формирования международного права//Евразийский юридический журнал.№11, 2023. Фархутдинов И.З. Доктрина о вестфальской мирной системе: мифы и реалии // Евразийский юридический журнал. 2019, № 6 (133). С. 21–31.
3. Баскин Ю.Я., Фельдман Д.И. История международного права, 1990.
4. Тункин Г.И. Право и сила в международной системе. М., 1983, с.106.

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ
## Q Ə R A R

### "Dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin araşdırılmasının təşkili və qeydiyyatı Qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin araşdırıl- masının təşkili və qeydiyyatı Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 25 dekabr 2023-cü il
№ 476

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 dekabr tarixli 476 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

### Dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin araşdırılmasının təşkili və qeydiyyatı
### QAYDALARI

#### 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin (bundan sonra – hadisə) araşdırılmasının təşkili və qeydiyyatı qaydalarını müəyyən edir.

**1.2.** Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.2.1.** ağır qəza – mənzildə və ya dəmiryol stansiyasında qatarların hərəkəti və ya manevr işləri, təchizat, həmçinin digər yerdəyişmələr zamanı dəmiryol hərəkət tərkibinin digər dəmiryol hərəkət tərkibi, nəqliyyat vasitəsi ilə toqquşması, dəmiryol hərəkət tərkibinin relsdən çıxması nəticəsində öz vəzifə borclarını yerinə yetirən dəmiryol nəqliyyatının işçisi və ya sərnişini olan bir və ya daha çox insanın ölməsi və ya beş və

daha çox insanın ağır bədən xəsarəti alması və ya on nəfər və daha çox insanın fiziki zərər çəkməsi və ya dəmiryol hərəkət tərkibinin inventardan silinmə həcmində zədələnməsi ilə nəticələnən hadisə;

**1.2.2.** qəza – mənzildə və ya dəmiryol stansiyasında qatarların hərəkəti və ya manevr işləri, təchizat, həmçinin digər yerdəyişmələr zamanı dəmiryol hərəkət tərkibinin digər dəmiryol hərəkət tərkibi, nəqliyyat vasitəsi ilə toqquşması, dəmiryol hərəkət tərkibinin relsdən çıxması nəticəsində öz vəzifə borclarını yerinə yetirən dəmiryol nəqliyyatının işçisi və ya sərnişini olan beşdən az insanın ağır bədən xəsarəti alması və ya on nəfərdən az insanın fiziki zərər çəkməsi və ya dəmiryol hərəkət tərkibinin əsaslı təmir həcmində zədələnməsi ilə nəticələnən hadisə;

**1.2.3.** dəmiryol hərəkət tərkibinin əsaslı təmiri – dəmiryol hərəkət tərkibinin əsas baza hissəsinin dəyişdirilməsi və ya onun bərpası;

**1.2.4.** dəmiryol hərəkət tərkibinin inventardan silinməsi – dəmiryol hərəkət tərkibinin istismar müddətinə görə və ya zədələnməsi nəticəsində texniki vəziyyəti yararsız hala düşdükdə onun bərpası səmərəsiz olduqda istismardan çıxarılması;

**1.2.5.** avtoqoşucuların öz-özünə açılması – qoşulu dəmiryol hərəkət tərkiblərinin qoşulmasının pozulması;

**1.2.6.** dəmiryol hərəkət tərkibinin detallarının yolun üzərinə düşməsi – hərəkət tərkibinin hərəkəti zamanı onun sonrakı hərəkətin mümkünsüzlüyünə səbəb olan, detalının (detallarının) yola (rels izinin içərisinə və ya yolun kənarına) düşməsi;

**1.2.7.** dəmiryol hərəkət tərkibinin qatarın qəbul, göndərmə marşrutuna və ya mənzilə icazəsiz hərəkəti – stansiyalarda dəmiryol hərəkət tərkibinin hüdud dirəkciyinin (işıqforun, "Stansiyanın sərhədi", "Dalan yolunun sərhədi" nişanının) arxasına, qatarın qəbul, göndərmə marşrutuna və ya mənzilə, həmçinin mənzildən və ya qeyri-ümumi istifadəli dəmir yolundan stansiyaya öz-özünə getməsi;

**1.2.8.** dəmiryol hərəkət tərkibinin relsdən çıxması – hərəkət edən dəmiryol hərəkət tərkibinin heç olmasa bir təkərinin rels başlığından çıxması;

**1.2.9.** dəmiryol nəqliyyatı infrastruktur qurğularının subasması, yanğını, konstruksiyalarının bütövlüyünün pozulması – insanların həyat və sağlamlığına, dövlətin və cəmiyyətin maraqlarına maddi ziyan vuran su səviyyəsinin qalxması nəticəsində infrastrukturun su basması, nəzarətdən çıxan yanğınlar və ya infrastrukturun konstruksiyalarının dağılması nəticəsində mənzildə yolların birində qatarların hərəkətində 1 saat və daha çox müddətli fasilənin yaranması;

**1.2.10.** dəmiryol nəqliyyatı infrastrukturu – ümumi və qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatında daşıma proseslərinin bütün mərhələlərinin yerinə yetirilməsini təmin edən xidməti obyektləri özündə birləşdirən texnoloji kompleks;

**1.2.11.** təhlükəli yükün dağılması (axması) – təhlükəli yüklərin daşınması (nəqli) zamanı vaqonun və ya konteynerin və qablaşdırmanın zədələnməsi, vaqonun lüklərinin kip bağlanmaması, vaqon-sisternin çəninin və onun armaturunun defekti (zədələnməsi), vaqon-sisternin boşaltma cihazının defekti (zədələnməsi) səbəbindən təhlükəli yükün dağılması (axması) nəticəsində insanların həyat və sağlamlığına və ya fiziki və hüquqi şəxslərin əmlakına və ya ətraf mühitə zərər vurulması ilə nəticələnən hadisə;

**1.2.12.** qatarın hazır olmayan marşrutla qəbulu – stansiyanın dəmiryol hərəkət tərkibindən boş yoluna (yol sahəsinə), həmçinin elektrik dartılı qatarın elektrikləşdirilməyən yola və ya yol keçidinə, başqa növ cərəyanlı və ya kontakt naqilindən gərginliyi açılmış yola aparan hazır olmayan və ya düzgün hazırlanmayan (yoldəyişənlər, mühafizə və qoruyucu qurğular hərəkət marşrutu üzrə qoyulmadıqda) marşrutla giriş (marşrut) işıqforunun icazəverici göstəricisi, dəvətedici siqnalı ilə və ya "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları"na uyğun qatarın stansiyaya hərəkəti üçün maşinist tərəfindən alınmış icazəverici ilə gələn qatarın lokomotivinin heç olmasa bir hissəsi ilə həmin işıqforu keçməsi;

**1.2.13.** qatarın hazır olmayan marşrutla göndərilməsi – dəmiryol hərəkət tərkibinin boş mənzilə (blok-sahəyə), həmçinin elektrik dartılı qatarın elektrikləşdirilməyən yola və ya yol keçidinə, başqa növ cərəyanlı və ya kontakt naqilindən gərginliyi açılmış yola aparan hazır olmayan və ya düzgün hazırlanmayan (yoldəyişənlər, mühafizə və qoruyucu qurğular hərəkət marşrutu üzrə qoyulmadıqda) marşrutla "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları"na uyğun qatarın maşinistinə yola düşməsi üçün verilmiş icazəverici, əlavə göstəriş və ya göndərmə siqnalı ilə hərəkəti (və ya dayanmadan hərəkəti) nəticəsində göndərilən qatarın lokomotivinin bir hissəsi ilə həmin yolun çıxış işıqforunu, işıqfor olmadıqda isə hüdud dirəkciyini keçməsi;

**1.2.14.** qatarın tutulu mənzilə (blok-sahəyə) göndərilməsi – qarşıda yerləşən mənzilin (blok-sahənin) qatar və ya hərəkət tərkibi ilə tutulu halında çıxış işıqforunun icazəverici göstəricisi, dəvətedici siqnalı və ya "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları"na uyğun qatarın maşinistinə yola düşməsi üçün verilmiş icazəverici, lazım gəldikdə əlavə göstəriş və ya göndərmə siqnalı ilə hərəkəti (və ya dayanmadan hərəkəti) nəticəsində göndərilən qatarın lokomotivinin heç olmasa bir hissəsi ilə həmin yolun çıxış işıqforunu (işıqfor olmadıqda isə hüdud dirəkciyini) keçməsi;

**1.2.15.** qatarın tutulu yola qəbulu – hərəkət tərkibi və ya qatarla tutulu yola hazırlanmış marşrutla giriş (marşrut) işıqforunun icazəverici göstəricisi, dəvətedici siqnalı ilə və ya "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları"na uyğun qatarın stansiyaya hərəkəti üçün maşinist tərəfindən alınmış icazəverici ilə gələn qatarın lokomotivinin heç olmasa bir hissəsi ilə həmin işıqforu keçməsi;

**1.2.16.** texniki rəy – hadisənin baş verməsi şəraiti, səbəbləri, nəticələri, həmçinin təsnifatı barədə məlumatları əks etdirən sənəd;

**1.2.17.** yolda hərəkət zamanı buksun qızması səbəbindən mənzillərdə və ya aralıq dəmiryol stansiyalarında vaqonun qatarından açılması – zəmanət sahəsinin sonuncu stansiyaları və texniki müayinə məntəqələri olan stansiyalar istisna olmaqla, buksun qızması səbəbindən bütün stansiyalarda vaqonun qatardan açılması;

**1.2.18.** yolda sərnişin və ya şəhərətrafı qatardan vaqonun açılması – göndərmə və təyinat stansiyaları istisna olmaqla, nasazlıq səbəbindən sonrakı hərəkətə maneə yarandıqda bütün stansiyalarda vaqonun qatardan açılması;

**1.2.19.** yoldəyişənin kəsilməsi – manevr işi, təchizat və ya digər yerdəyişmələr zamanı dəmiryol hərəkət tərkibinin sığal istiqamətdə, həmçinin əks-sığal istiqamətdə hərəkəti zamanı təkərin darağının rama relsinə sıxılmış tiyəni aralaması;

**1.2.20.** yüklərin, baqajın və yaxud yük-baqajın yüklənməsinin texniki şərtlərinin pozulması səbəbindən aralıq dəmiryol stansiyalarında vaqonların qatardan açılması – kommersiya baxışının keçirilməsi nəzərdə tutulmuş, o cümlədən texniki vasitələri olan stansiyalar istisna olmaqla, yükün və ya onun bir hissəsinin yolun üzərinə düşməsinə, həmçinin onun yükləmə qabaritindən kənara çıxmasına gətirib çıxara bilən yükləmənin texniki şərtlərinin pozulması səbəbindən bütün stansiyalarda vaqonun qatardan açılması;

**1.2.21.** defektoskop vaqon – dəmir yolunda qoyulmuş relslərin bütövlüyünə sürətli nəzarət, onlarda xarici və gizli defektləri aşkarlamaq üçün nəzərdə tutulmuş dəmiryol hərəkət tərkibi;

**1.2.22.** buks – vaqonun kuzovundan ağırlığı ox boynuna ötürən hissə;

**1.2.23.** onurğa tiri – vaqonun kuzasından yükün ağırlığını qəbul edib, hərəkət hissəsinə ötürən vaqonun əsas hissəsi;

**1.2.24.** arabacığın yan tiri – arabacığın təkər cütlərini birləşdirən tir;

**1.2.25.** yayüstü (ressorüstü) – vaqonun kuzovunun arabacığa oturduğu hissə;

**1.2.26.** təkər cütü oxu – iki təkərin sərt şəkildə pərçimləndiyi ox;

**1.2.27.** təkərin ox boynu – buksun təkər oxuna oturduğu hissə;

**1.2.28.** vaqon sistern – maye yüklərin, o cümlədən neft və neft məhsulları, kimyəvi maye maddələrin (turşular, qələvilər və s.), mayeləşdirilmiş qaz (propan-butan, oksigen və s.), qida məhsullarının (su, süd, şərab, bitki yağı və s.) daşınması üçün dəmiryol hərəkət tərkibi;

**1.2.29.** manevr işi – stansiyaların sərhədləri daxilində (ayrı-ayrı hallarda isə mənzilə çıxmaqla) dəmiryol hərəkət tərkiblərinin qatardankənar yerdəyişmə əməliyyatı;

**1.2.30.** aralıq dəmiryol stansiyası – qatarların buraxılması, kəsişməsi və ötməsi, həmçinin yüklərin yüklənməsi və boşaldılması üçün dəmiryol şəbəkəsinin yol inkişafına malik bölmə məntəqəsi;

**1.2.31.** sonluq kran – dəmiryol hərəkət tərkibinin tormoz magistral hava borusunun sonunda quraşdırılmış kran;

**1.2.32**. hüdud dirəkciyi – dəmir yolunda yoldəyişən qurğu ilə birləşən (və ya ayrılan) qonşu yolların oxları arasındakı məsafənin ortasında şaquli quraşdırılan, həmin yolların sərhədlərini müəyyən edən dirəkcik.

**1.3.** Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**1.4.** Azərbaycan Respublikasına məxsus dəmiryol hərəkət tərkibi ilə ölkə ərazisindən kənarda baş vermiş hadisənin araşdırılması MDB və Baltikyanı ölkələrin Dəmiryol Nəqliyyatı Şurasının 2020-ci il 27 noyabr tarixli 73 nömrəli iclas protokolu ilə təsdiq edilmiş "Qatarların hərəkəti və manevr işində təhlükəsizliyin pozulması üzrə xidməti araşdırma zamanı dəmiryol administrasiyalarının birgə fəaliyyəti qaydası barədə Təlimat"a müvafiq aparılır.

**1.5.** Hadisənin araşdırılması və qeydiyyata alınması ilə əlaqədar işçilərin qarşılıqlı fəaliyyətinə dair vəzifə təlimatı infrastruktur sahibi və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibi tərəfindən müəyyən edilir.

## 2. Hadisələrin araşdırılması

**2.1.** Aşağıdakı hadisələr barədə mövcud əlaqə vasitələrindən, o cümlədən telefondan, teleqrafdan istifadə etməklə dəmiryol nəqliyyatının aidiyyəti işçilərinə, ərazi üzrə dəmiryol nəqliyyatında polis orqanlarına, yerli

icra hakimiyyəti orqanlarına, əlaqəli dəmiryol hərəkət tərkibinin sahiblərinə, o cümlədən daşıyıcıya, həmçinin hadisənin xarakteri, onların səbəb olduğu nəticələrə uyğun digər aidiyyəti qurumlara dərhal məlumat verilir:

**2.1.1.** qəza;

**2.1.2.** ağır qəza;

**2.1.3.** təhlükəli yükün dağılması (axması).

**2.2.** Ərazisində baş vermiş aşağıdakı hadisələr barədə dəmiryol nəqliyyatının struktur bölmələri tərəfindən dəmiryol nəqliyyatının aidiyyəti məsul işçilərinə, əlaqəli olan dəmiryol hərəkət tərkibinin sahiblərinə, həmçinin daşıyıcıya (bu Qaydaların 2.2.4-cü və 2.2.5-ci yarımbəndlərində nəzərdə tutulmuş hallarda, əlavə olaraq aidiyyəti hüquq mühafizə orqanına) mövcud əlaqə vasitələrindən, o cümlədən telefondan, teleqrafdan və elektron əlaqə vasitələrindən istifadə etməklə dərhal məlumat verilir:

**2.2.1.** dəmir yollarında vaqonun və ya konteynerin istismarı zamanı yükün alışması;

**2.2.2.** bu Qaydaların 2.1.1-2.1.3-cü yarımbəndlərində nəzərdə tutulmuş nəticələr olmadan, mənzildə və dəmiryol stansiyasında qatarların hərəkəti və ya manevr işləri, təchizat, həmçinin digər yerdəyişmələr zamanı dəmiryol hərəkət tərkibinin digər dəmiryol hərəkət tərkibi, nəqliyyat vasitəsi ilə toqquşması, dəmiryol hərəkət tərkibinin relsdən çıxması;

**2.2.3.** dəmiryol nəqliyyatı infrastruktur qurğularının subasması, yanğını, konstruksiyalarının bütövlüyünün pozulması;

**2.2.4.** bu Qaydaların 2.1.1-2.1.3-cü yarımbəndlərində nəzərdə tutulmuş nəticələr olmadan, nəqliyyat vasitəsinin dəmir yollarına icazəsiz hərəkəti ilə əlaqədar baş vermiş hadisə və ya təyin olunmuş dəmiryol keçidlərindən kənar yerlərdə dəmiryol hərəkət tərkibinin nəqliyyat vasitəsi ilə toqquşması;

**2.2.5.** bu Qaydaların 2.1.1-2.1.3-cü yarımbəndlərində nəzərdə tutulmuş nəticələr olmadan, dəmiryol keçidlərində dəmiryol hərəkət tərkibinin nəqliyyat vasitəsi ilə toqquşması;

**2.2.6.** yüklərin daşınması (nəqli) zamanı vaqonun və ya konteynerin və qablaşdırmanın zədələnməsi, vaqonun lüklərinin kip bağlanmaması, vaqon-sisternin çəninin və onun armaturunun defekti (zədələnməsi), vaqon-sisternin boşaltma cihazının defekti (zədələnməsi) səbəbindən yükün dağılması (axması);

**2.2.7.** qatarın hazır olmayan marşrutla qəbulu və ya göndərilməsi;

**2.2.8.** dəmiryol hərəkət tərkibinin altında yoldəyişənin çevrilməsi;

**2.2.9.** yolda hərəkət zamanı sərnişin və ya şəhərətrafı qatarın tərkibindən vaqonun açılması;

**2.2.10.** dəmiryol hərəkət tərkibinin texniki nasazlığına görə göndərmə dəmiryol stansiyasından sərnişin qatarının göndərilməsinin ləğv edilməsi və ya aralıq dəmiryol stansiyalarında sərnişinlərin qatardan düşürülməsi;

**2.2.11.** yolda hərəkət zamanı sərnişin qatarında lokomotivin nasazlığına görə qatarın mənzildə və ya aralıq dəmiryol stansiyasında məcburi dayanması və köməkçi lokomotivin köməyi ilə qatarın sonrakı hərəkətini davam etməsi;

**2.2.12.** dəmiryol hərəkət tərkibləri arasında sonluq kranın bağlı halında qatarın göndərilməsi;

**2.2.13.** dəmiryol hərəkət tərkibinin altında relsin sınması;

**2.2.14.** qatarlarda avtoqoşucuların özözünə açılması;

**2.2.15.** yolda hərəkət zamanı mənzillərdə və ya aralıq dəmiryol stansiyalarında buksun qızması səbəbindən vaqonun yük qatarından açılması;

**2.2.16.** aralıq dəmiryol stansiyasında yükün, baqajın və ya yük-baqajın yükləmənin texniki şərtlərinin pozulması səbəbindən vaqonun qatardan açılması;

**2.2.17.** dəmiryol hərəkət tərkibinin avtoqoşucusunun qırılması;

**2.2.18.** dəmiryol hərəkət tərkibinin detallarının dəmir yolunun üzərinə düşməsi;

**2.2.19.** dəmiryol hərəkət tərkibinin mexanizmlərin, avadanlıqların və kənar əşyaların (obyektlərin) üzərinə çıxması (vurması);

**2.2.20.** dəmir yolu hərəkət tərkibinin qatarın qəbul, göndərmə marşrutuna və ya mənzilə icazəsiz hərəkəti;

**2.2.21.** dəmiryol hərəkət tərkibinin işıqforun qadağanedici siqnalını və ya hüdud dirəkciyini keçməsi;

**2.2.22.** qatarın tutulu yola qəbulu;

**2.2.23.** qatarın tutulu mənzilə göndərilməsi;

**2.2.24.** yolda hərəkət zamanı dəmiryol nəqliyyatının istismarına və hərəkətə təhlükə yaradan yükün dağılması (aşması);

**2.2.25.** dəmiryol hərəkət tərkibinin onurğa tirinin, arabacığın yan və ya yayüstü (ressorüstü) tirinin, təkər cütü oxunun, təkərin ox boynunun və ya təkərin sınması;

**2.2.26.** çöl işıqforunda qadağanedici siqnal əvəzinə yanlış icazəverici və ya qatarın aşağı sürətlə hərəkət tələb edən siqnal əvəzinə daha yüksək sürətə icazəverici siqnalın olması;

**2.2.27.** mənzillərdə və stansiyalarda işlərin icrası zamanı qatarların hərəkəti üçün təhlükəli yerlərin siqnallarla çəpərlənməməsi;

**2.2.28.** stansiyada dəmiryol hərəkət tərkibinin qadağanedici siqnalın keçilməsinə səbəb olan icazəverici siqnal göstəricisinin qadağanediciyə keçirilməsi (və ya keçməsi);

**2.2.29.** yoldəyişənin kəsilməsi;

**2.2.30.** yolun, kontakt şəbəkəsinin və digər qurğuların nasazlığı səbəbindən yolölçən və defektoskop vaqonun (və ya defektoskop arabacığın), diaqnostik kompleksin və digər vaqon-laboratoriyanın rəisinin qatar dispetçerinə sahədə hərəkətin dayandırılması və ya qatarların hərəkət sürətinin saatda 15 kilometrədək məhdudlaşdırılması barədə bildiriş verməsi;

**2.2.31.** dəmiryol hərəkət tərkibinin, yolun, siqnalizasiya, mərkəzləşmə, bloklama (SMB) və rabitə, kontakt şəbəkəsi, elektrik təchizatı qurğularının və digər texniki vasitələrin nasazlığından mənzilin yolunun birində və ya stansiyada qatarın qrafik üzrə nəzərdə tutulmuş vaxtdan 1 saat və daha çox müddətə gecikməsi (ləngidilmənin müddəti birinci qatarla müəyyən edilir).

**2.3.** Ərazisində bu Qaydaların 2.1.1-2.1.3-cü yarımbəndlərində nəzərdə tutulmuş hadisələr baş verdikdə qeyri-ümumi istifadəli dəmir yolunun sahibi bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş dövlət qurumları ilə yanaşı ümumi istifadəli dəmiryol nəqliyyatı infrastrukturunun sahibinə, bu Qaydaların 2.2.1-2.2.31-ci yarımbəndlərində nəzərdə tutulmuş hadislər baş verdikdə isə ümumi istifadəli dəmiryol nəqliyyatı infrastrukturunun sahibinə dərhal məlumat verir.

**2.4.** Bu Qaydaların 2.1.1-2.1.3-cü və 2.2.1-2.2.31-ci yarımbəndlərində nəzərdə tutulmuş hadisələr baş verdikdə infrastruktur sahibi tərəfindən əlaqəli olan dəmiryol hərəkət tərkibinin sahibləri (hadisənin baş verməsində səbəbkar olduqda), həmçinin daşıyıcı dəvət edilməklə, müvafiq komissiya (bundan sonra – komissiya) yaradılır. Bu Qaydaların 2.2.1-

2.2.31-ci yarımbəndlərində nəzərdə tutulmuş hadisələrin baş verdiyi hallarda komissiyanın tərkibinə ümumi istifadəli dəmiryol nəqliyyatının aidiyyəti qurumunun işçiləri də daxil edilir.

**2.5.** Baş verdiyi yerdə hadisənin xidməti araşdırılmasını və nəticələrinin aradan qaldırılmasını təşkil edən komissiya tərəfindən:

**2.5.1.** lokomotivin hərəkət parametrlərini qeydə alan kaset və ya yaddaş modulu, sürətölçən lent, qatarın natura vərəqəsi, qatarın tormozlarının təminatı barədə arayış, sürətin məhdudiyyəti barədə xəbərdarlıq, lokomotivin bort jurnalı, maşinistin marşrut vərəqəsi, defektoskop vasitələrinin lentləri və qeydiyyat faylları götürülür. Yanğın baş verdikdə, həmin sənədlərə yanğının xidməti araşdırma aktı və dispetçerin danışıqları reqlamenti əlavə edilir;

**2.5.2.** dəmir yolunun dağılmış yerinin və dəmiryol hərəkət tərkibinin yerləşməsi, onun relsdən çıxma izinin sxemi tərtib edilir, dəmiryol hərəkət tərkibinin relsdən çıxmasının başlanğıc və dayanma yeri sxemdə göstərilir (yolun kilometri və piketi göstərilməklə);

**2.5.3.** dəmiryol hərəkət tərkibinin və dəmiryol nəqliyyatı obyektlərinin zədələnmələrinin ümumi görünüşünün, aşkar edilmiş kənar əşyaların, dəmiryol hərəkət tərkibinin detallarının və qovşaqların duruş vəziyyətlərinin fotosu və videosu çəkilir;

**2.5.4.** dəmiryol hərəkət tərkibinin və dəmiryol nəqliyyatı obyektlərinin texniki vəziyyəti barədə sənədlər tərtib edilir;

**2.5.5.** hadisənin baş verməsi ilə əlaqəli olan şəxslərdən, həmçinin digər şahidlərdən yazılı (audio və video cihazlardan istifadə etməklə) izahatlar alınır;

**2.5.6.** hadisənin başvermə anına olan hava şəraiti qeyd edilir və müvafiq qurumdan meteoroloji arayış alınır;

**2.5.7.** hadisənin başvermə səbəbini müəyyən etmək üçün digər əşyalar və sənədlər götürülür;

**2.5.8.** hadisənin baş verdiyi yerdə dəmiryol nəqliyyatı obyektlərinə və hərəkət tərkibinə, onların detallarına və qovşaqlarına baxış keçirilir;

**2.5.9.** yükün dağılması (axması) nəticəsində insanlar və ətraf mühit üçün təhlükənin azaldılması tədbirləri müəyyən edilir;

**2.5.10.** hadisənin baş verməsi ilə əlaqədar olan dəmiryol hərəkət tərkibinin və dəmiryol nəqliyyatı obyektlərinin istismarına və təmirinə aid olan bütün məsələlər öyrənilir;

**2.5.11.** hadisənin başvermə səbəblərini araşdırmaq üçün müvafiq dövlət orqanlarından, həmçinin hüquqi və fiziki şəxslərdən hadisə ilə əlaqədar sənədlərin və materialların əldə edilməsi üçün sorğular göndərilir.

**2.6.** Hadisənin araşdırılmasının məqsədi:

**2.6.1.** gələcəkdə bu cür hadisələrin qarşısının alınması məqsədilə onun başvermə səbəbini aşkar etmək;

**2.6.2.** araşdırma aparılan hadisəyə aid dəmiryol nəqliyyatı infrastruktur obyektinin faktiki vəziyyətini və texniki normativ sənədlərin tələblərinə uyğunluğunu qiymətləndirmək;

**2.6.3.** dəmiryol nəqliyyatında hərəkətin təhlükəsizliyi ilə əlaqədar qaydaların, təlimatların və digər texniki normativ sənədlərin tələbləri yerinə yetirilməyən bəndləri qeyd etməklə, dəmiryol nəqliyyatı işçilərinin və vəzifəli şəxslərin hadisənin baş verməsinə və ya şərait yaradılmasına gətirib çıxaran fəaliyyətini qiymətləndirmək;

**2.6.4.** bu Qaydalara uyğun araşdırma sənədlərini rəsmiləşdirmək və aidiyyəti üzrə təqdim etməkdir.

**2.7.** Hadisənin baş verdiyi yerə gələn komissiya üzvləri tərəfindən araşdırma materiallarına aşağıdakılar daxil edilir:

**2.7.1.** sənədlərin siyahısı;

**2.7.2.** araşdırma aktı;

**2.7.3.** dəmiryol nəqliyyatı infrastrukturunun müvafiq qurumunun hadisənin başvermə səbəbi barədə texniki rəyi (normativ sənədlərin tələblərinin pozulduğu bəndlər göstərilməklə);

**2.7.4.** ilkin diaqnozla xəsarət alanların siyahısı;

**2.7.5.** dəmiryol hərəkət tərkibinin və dəmiryol nəqliyyatı obyektlərinin zədələnmə dərəcələri barədə arayışlar;

**2.7.6.** hadisənin foto və video çəkilişləri, audio yazılar, digər qeydiyyat materialları, dəmiryol hərəkət tərkibinin və dəmiryol nəqliyyatı infrastruktur obyektlərinin saxlanmasına dair normalardan kənaraçıxmalar və zədələnmələr göstərilməklə hadisə yerindən sxemlər;

**2.7.7.** hadisə zamanı lokomotivin hərəkət parametrlərinin qeydə alan kasetin və ya yaddaş modulunun, sürətölçən lentin şifrələnmə nəticələri (arayışda sürətölçən lentinin əslinin saxlanma yeri göstərilir);

**2.7.8.** hərəkətin təhlükəsizliyinin texniki vasitələrinin, o cümlədən buksun qısmasını avtomatik aşkaretmə cihazlarının, avtomatik lokomotiv siqnalizasiyasının vəziyyəti və işi barədə arayış;

**2.7.9.** araşdırılan hadisəyə aidiyyəti olan dəmiryol nəqliyyatı obyektlərinin vəziyyəti və işi barədə aktlar;

**2.7.10.** qatarların natura vərəqəsi;

**2.7.11.** aparılan sınaqların və hesablamaların nəticələri;

**2.7.12.** hadisəyə yol verilmiş hərəkət qrafikindən çıxarış və qatarların ləngimələri barədə arayış;

**2.7.13.** meteoroloji arayış;

**2.7.14.** hadisənin başvermə səbəbi ilə əlaqədar olan sənədlərin surəti (dispetçerin sərəncamlar jurnalı, texniki vasitələrə baxış jurnalı, stansiyanın texniki-sərəncam aktı, müfəttişin göstərişlər kitabı və s.);

**2.7.15.** hadisənin başvermə səbəbi dəmir yolunda nasazlıq əlaməti olduqda, yolun plan və profili, yolölçən və defektoskop vasitələri ilə yolun sonuncu dəfə yoxlanılması nəticələri barədə arayış (yolölçən vaqonun lentini əlavə etməklə);

**2.7.16.** hadisənin baş verməsində əlaqədar işçilərin iş və istirahət rejimləri barədə məlumatlar, işçilərin izahatları, onların "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları", digər texniki normativ sənədlər və vəzifə təlimatları üzrə biliklərinin yoxlanılması, həmçinin tibbi müayinədən keçmələri barədə arayış;

**2.7.17.** texniki vasitənin zədələnməsi nəticəsində yük itkisinin və ya yükün xarab olması nəticəsində zərər barədə ilkin arayış;

**2.7.18.** hadisə barədə dəmiryol nəqliyyatının aidiyyəti struktur bölmələrinə verilmiş teleqramın surəti;

**2.7.19.** hadisənin başvermə səbəbinin araşdırılması ilə əlaqədar dəmiryol nəqliyyatının aidiyyəti qurumlarında keçirilən operativ müşavirələrin protokolları, habelə hadisələrin təkrarən baş verməməsi üçün tədbirlər planı;

**2.7.20.** hadisənin başvermə səbəbləri ilə bağlı olan digər sənədlər.

**2.8.** Komissiyanın qəbul etdiyi qərar daşıma prosesinin təşkili və (və ya) həyata keçirilməsi ilə əlaqədar işləri (göstərilən xidmətləri), həmçinin dəmiryol hərəkət tərkibinin və dəmiryol nəqliyyatında istifadə olunan

texniki vasitələrin təmiri, dəmiryol nəqliyyatı obyektlərinin və yüklərin mühafizəsi ilə əlaqədar işləri (xidmətləri) yerinə yetirən bütün dəmiryol subyektləri tərəfindən qeyd-şərtsiz yerinə yetirilməlidir.

**2.9.** Hadisənin nəticələrinin aradan qaldırılması zamanı hərəkətin qısa müddətdə bərpa edilməsi məqsədilə işlərin texniki vasitələrlə aparılması zamanı infrastruktur sahibinin razılığı ilə hərəkət tərkibinin əlavə zədələnməsinə yol verildikdə, baş vermiş hadisənin təsnifatlaşdırılmasında hərəkət tərkibinin əlavə zədələnmə dərəcəsi nəzərə alınmır.

**2.10.** Bu Qaydaların 2.8-ci bəndində nəzərdə tutulmuş dəmiryol nəqliyyatı subyektləri hadisənin başvermə səbəblərinin müəyyən edilməsində əhəmiyyət kəsb edən dəmir yolunun üst quruluşu elementlərini, dəmiryol hərəkət tərkibi detallarını, digər əşyaları və sənədləri saxlamalıdırlar. Həmin sənədlərin, detalların və əşyaların tədqiqata və ya sınağa göndərilməsi və onların saxlama müddəti barədə qərar komissiya tərəfindən qəbul edilir.

**3. Hadisələrin araşdırılmasının nəticələrinin sənədləşdirilməsi**

**3.1.** Araşdırmanın nəticələrinə görə aşağıdakı müddətlərdən gec olmayaraq hadisənin səbəbləri və nəticələri barədə komissiyanın bütün üzvləri tərəfindən imzalanmış texniki rəy tərtib edilir:

**3.1.1.** bu Qaydaların 2.1.1-2.1.3-cü yarımbəndlərində nəzərdə tutulmuş hadisələrin baş verdiyi tarixdən 7 (yeddi) iş günü müddətində;

**3.1.2.** bu Qaydaların 2.2.1-2.2.31-ci yarımbəndlərində nəzərdə tutulmuş hadisələrin baş verdiyi tarixdən 3 (üç) iş günü müddətində.

**3.2.** Hadisənin araşdırılması zamanı uzunmüddətli tədqiqat, sınaq, xüsusi ekspertiza aparılmasına zərurət yarandıqda, komissiya tərəfindən araşdırma və texniki rəyin tərtib edilməsi müddəti artırılır. Komissiyanın qərarı və ya araşdırmada iştirak edən tərəflərdən birinin yazılı müraciəti araşdırma və texniki rəyin tərtib edilməsi müddətinin artırılması üçün əsas hesab edilir.

**3.3.** Hadisənin araşdırılması zamanı xidməti araşdırma materialları komissiya tərəfindən sənədləşdirilir.

**4. Qeydiyyat və hesabat**

**4.1.** Baş vermiş hadisələr infrastruktur sahibi və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibi tərəfindən qeydiyyata alınır.

**4.2.** İnfrastruktur sahibindən və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibindən asılı səbəblərə görə dəmiryol keçidlərində baş vermiş hadisələr ayrıca qeydiyyata alınır.

**4.3.** Hərəkətdə olan dəmiryol hərəkət tərkibi ilə icazəli, yaxud icazəsiz yerlərdə insanların həyat və sağlamlığına xəsarət yetirilməsi ilə əlaqədar hadisə həmin hadisənin baş verdiyi infrastruktur sahibinin və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibinin aidiyyəti qurumları üzrə qeydiyyata alınır.

**4.4.** İnfrastruktur sahibinin və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibinin aidiyyəti qurumları hər ay (növbəti hesabat ayının 15-dək) baş vermiş hadisələr barədə infrastruktur sahibinə və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibinə hesabat verirlər.

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R**

**“Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası”nın təsdiq edilməsi haqqında**

“İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun tətbiqi və “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 iyul tarixli 2253 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin 2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası” təsdiq edilsin *(əlavə olunur).*

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**3.** Bu Qərar 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 31 yanvar 2024-cü il
№ 62

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 62 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə

## Q A Y D A S I

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda “Tullantılar haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 14-3-cü maddəsinin üçüncü hissəsinə uyğun olaraq hazırlanmışdır və “Nəqliyyat vasitələrinin utilizasiyası fondu”nun (bundan sonra – Fond) vəsaitinin formalaşdırılması və istifadəsi ilə bağlı məsələləri tənzimləyir.

**1.2.** Fond məqsədli büdcə fondu olmaqla

dövlət büdcəsinin tərkibində yaradılır və onun vəsaitinin idarə olunması "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirilir.

**1.3.** Fondun vəsaitinin idarə olunması Qanunun 14-2-ci maddəsinin birinci hissəsinə uyğun olaraq "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – operator) tərəfindən həyata keçirilir.

### 2. Fondun vəsaitinin formalaşdırılma mənbələri

**2.1.** Fondun vəsaiti Qanunun 14-3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı müstəqil mədaxil mənbələri hesabına formalaşır:

**2.1.1.** utilizasiya haqqı;

**2.1.2.** kreditlər və qrantlar;

**2.1.3.** hüquqi və fiziki şəxslərin könüllü ianələri;

**2.1.4.** beynəlxalq təşkilatların və digər donorların ayırmaları;

**2.1.5.** qanunla qadağan olunmayan digər mənbələr.

**2.2.** Bu Qaydanın 2.1.1-ci yarımbəndində qeyd olunan utilizasiya haqlarının Fonda ödənilməsini fəaliyyət istiqamətlərinə uyğun olaraq gömrük orqanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamə"nin 1.1-ci bəndində göstərilən orqanlar təmin edirlər.

### 3. Fondun vəsaitinin istifadə qaydası

**3.1.** Fondun vəsaiti aşağıdakı istiqamətlər üzrə istifadə edilir:

**3.1.1.** yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri utilizasiyaya verilmə barədə təsdiqedici sənəd təhvil verilməklə satın alınan zaman tətbiq edilən güzəşt məbləğlərinin nəqliyyat vasitələrinin satıcılarına geri ödənilməsi;

**3.1.2.** utilizasiyaya verilmiş nəqliyyat vasitələri üçün birdəfəlik ödənişlərin ödənilməsi;

**3.1.3.** operatorun nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı funksiyalarının icrasının təşkili və təmin edilməsi üçün vəsaitin ödənilməsi.

**3.2.** Bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərində qeyd olunan istiqamət üzrə köçürmələr Qanunun 14-8-ci maddəsi ilə müəyyən edilən sənədlər əsasında və müddətlər nəzərə alınmaqla həyata keçirilir.

**3.3.** Fonda daxil olan aylıq vəsaitin 3 (üç) faiz həcmində hissəsi bu Qaydanın 3.1.3-cü yarımbəndi ilə müəyyən edilmiş istiqamət üzrə hər növbəti ayın 10-dək operatorun cari hesabına köçürülür.

**3.4.** Bu Qaydanın 3.3-cü bəndinə uyğun olaraq operatorun cari hesabına köçürülmüş vəsait onun gəlirlərinə aid edilməklə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi, operatorun göstərdiyi xidmətlərin elektronlaşdırılması və qanunla qadağan edilməyən digər istiqamətlərdə istifadə olunur.

**3.5.** Fond hesabında ilin sonuna qalan vəsait növbəti ilə keçirilərək bu Qaydanın 3.1-ci bəndində qeyd edilən istiqamətlər üzrə istifadə olunur.

### 4. Nəzarətin həyata keçirilməsi

**4.1.** Fondun vəsaitindən səmərəli istifadə olunmasına Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzarət edir.

**4.2.** Fondun vəsaitindən istifadə olunması haqqında illik hesabat operator tərəfindən növbəti ilin yanvar ayının 31-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

## MÜNDƏRİCAT

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ........................................ **3**

*Səttar Möhbaliyev.* Ümummilli inamın möhtəşəm təntənəsi ....................................... **7**

*İradə Əliyeva.* Hədəf daha güclü Azərbaycan yaratmaqdır ..........................................**14**

*Əvəz Ələkbərov, Elnur Sadıqov.* Qalib lider Azərbaycanı işıqlı gələcəyə aparır ..........**19**

*Kərim Şükürov.* Azərbaycan tarixində İlham Əliyev epoxası .......................................**22**

*Misir Mərdanov.* Çoxşaxəli siyasətin uğurları ..............................................................**41**

*Arif Şəkərəliyev.* Milli iqtisadi doktrinanın hədəfi ümumi tərəqqi və yüksək rifahdır . **48**

*Füzuli Qurbanov.* Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya .....................**53**

*Vəfa Quliyeva.* Ermənilərin türk-islam mədəni irsinə qarşı səlib yürüşü .....................**63**

*Ариф Гулиев.* 32-летняя Ходжалинская трагедия пока не расследована. Почему? Пусть справедливость восторжествует! .................................................. **70**

*Etibar Əliyev, Fatimə Hüseynova, Leyla Mirzəyeva.* Mediasiya prosesinin əsasları: hüquqi aspektlər ........................................................................................ **81**

*Fatimə Hüseynova.* Səhiyyə sahəsində beynəlxalq xarakterli "mülayim" hüquq normalarının Azərbaycan Respublikası qanunvericiliyinə təsirinin xüsusiyyətləri ....................................................................................... **92**

*Aygül Cahangirova.* İnsan hüquqlarına hamılıqla hörmət və riayət edilməsi probleminin bəzi aspektləri ........................................................................... **105**

*Tural Hacıbəyli.* Şəxsiyyətin azadlığının və ləyaqətinin ictimai təhlükəli qəsdlərdən beynəlxalq və milli-hüquqi müdafiəsi ....................................................................**112**

*Fatimə Hüseynova.* Beynəlxalq tibb-hüquq normalarının dövlətdaxili hüquq sisteminə implementasiyası kontekstində Ümumdünya Səhiyyə Təşkilatının digər universal qurumlarla münasibətləri ...................................................................**122**

*Nəsir Məmmədov.* Beynəlxalq humanitar hüquqda silahlı münaqişələrin növləri ....... **135**

*Natəvan Zeynalova.* Miqrasiya sahəsində beynəlxalq hüququn prinsip və normalarının formalaşması və miqrasiya proseslərinin hüquqi tənzimlənmə məsələləri ...................................................................................**142**

*Aytac Qibləliyeva.* Gender bərabərliyi və davamlı inkişaf konsepsiyasının bəzi hüquqi aspektləri .............................................................................................**154**

*Sima Süleymanlı.* Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mədəniyyətlərarası əməkdaşlığın hüquqi tənzimlənməsi ............................................ **164**

*Elvin Hüseynzadə, RövşənTağıyev.* Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyi sahəsində mövcud problemlər və onların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər ..................................................................... **173**

*Октай Эфендиев.* Рецензия на манускрипт доктора юридических наук Фархутдинова Инсура Забировича: «Эволюция международного права от Вестфаля до Версаля (1648 – 1919 г.г.). Мифы и реалии» ................................ **184**

**RƏSMİ SƏNƏDLƏR**

"Dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin araşdırılmasının təşkili və qeydiyyatı Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ............................................................................................ **187**

"Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ............................................................................................ **196**

* * *

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**

**Əlaqə telefonları:**
**+ 99450-210-24-42**
**+ 99455-210-24-42**

"Zərdabi-Nəşr" MMC.
Bakı şəhəri,
Nizami rayonu, Keşlə qəsəbəsi,
Nizami Abdullayev küçəsi, 12.

Ofset üsulu ilə çap edilmişdir.
Formatı 70×100 1/16.
Şərti çap vərəqi 12,5. Tirajı 300.